İkinci dəfə əlimi qaba uzatmağa məcbur oldum. Bu dəfə it bərk qəzəblənib üstümə atıldı. O, əllərimi, sifətimi cırıq-cırıq етdi. Üz-gözüm qana bulaşdı. Boynumdakı xaltanı o qədər möhkəm bağlamışdılar ki, hərəkət edəndə az qala nəfəsim kəsilирди. Çənəmə basılmış damğanın yeri elə ağrıyırdı ki, elə bil beynimə şiş soxurdular. Birdən-birə qət etdim ki, bütün bu əzablara, təhqirlərə dözməkdənsə, юзцмц elə buradaca boğuб öldürüm. İndi buna imkan da vardı. Yavaş-yavaş geri süründüm, boynumdakı zəncir tarım çəkildi. Zəncir tarım çəkildikdə nəfəs borum get-gedə daralırdı, güclə nəfəs alırdım. Hiss etdim ki, gözlərimə qaranlıq çökür. Bu anda gördüyüm yuxu yadıma düşdü. Deyirlər ki, yuxuların bəziləri çin olur. Ona görə də, özümü öldürmək fikirindən daşındım. Bilirdim ki, Tanrı özünü öldürənləri axirətdə bağışlamır. Bir də ki, həmin anda ölmək mənə çox çətin gəldi.

Beləся, iki gцn itlя баш-баша «mяnalы юмцr yolu» keчирdim...

Bip həftədən sonra бизi bu cəhənnəm дцшярэясиндян Шуша həbsxanasına apardılar. Sяn demə, daha əzablı günlərimiz hələ qabaqdaymış. Onlar bizi ayrı-ayrı kameralara yerləşdirdilər.

Acından başım hərlənirdi.Kamera yoldaşımı tanımadım.İlqarı başqa kameraya salmışdılar. Məhbəs yoldaşımdan: “Burda sizə yemək verиrlərmi?” – deyə soruşdum. O, gülərək başını buladı:

-- Qardaş, burda yemək əvəzinə başqa şey verirlər. Həmin “yemək”dən adam daha tez doyur.

Mən камера yoldaşımı дярщал анладым. Bu vaxt qapı açıldı. Hündürboylu, enlikürəкли iki nəfər saqqallı içəri girdi.

-- Ha, taza qonax hankınızdır?- soruşdular.

-- Mənəm! - tez dilləndim.

Elə bunu demişdim ki, onlar üstümə yeridilər. O ki var, məni əzişdirdilər. Mən taqətsiz halda yerdə sərili qalmışdım. Ağrıdan içim sanki od tutub yanırdı.

-- Qardaş, indi gördünmü onların verdikləri yeməyi? - деyə камера yoldaşım məni sürüyə-sürüyə yanına çəkdi.

-- Bu “yemək”lərdən çox görmüşəm, - deyə dilimi güclə sürüdüm...

Ertəsi gün səhər də bizə yeməyə heç nə vermədilər. Əksinə, ermənilər paltarlarımızı soyundurub bizi çılpaq vəziyyətdə həbs-xananın həyətinə çıxarтdılar. Axşamdan bəri yağan qar, hələ dayanmamışdı. Soyuqdan hamımız titrəйir, dişlərimiz bir-birinə dəyirdi. Onlar bizim hər birimizə bel verib qarı təmizləməyi əmr etdilər. Bizim yoldaşlardan biri - deyəsən, o, Sumqayıtdan idi – qarı təmizləməkdən imtina etdi. O dedi:

-- Nə olsun ki, biz əsirik. Ac-susuz, çılpaq vəziyyətdə, bu cür havada işləmək heç bir insani qanunlara sığmır. Siz bizimlə vəhşi kimi rəftar edirsiniz. Dünyanın heç yerində əsirlərlə bu cür rəftar etmirlər. Heç "nemes"lər də belə olmayıb. Axı, Ermənistan da Beynəlxalq İnsan Haqları Konvensiyasına imza atıb.

Bu sözləri axıradək dinləyən erməni zabiti oğlana yaxınlaşıb əlini tapancasının qoburuna apardı:

-- Deyasan, yaşamaxdan bezиmisan, ara. Na olar, sani daha rahat yera gondararıx, - tapancanı oğlanın gicgahına söykədi və həmin anda da tətiyi çəkdi...- İndi ket, o dunyada insan hakkını mudafıa et.

Biz ac-susuz, çılpaq halda həbsxananın həyətindəki qarı təmizləməyə məcbur olduq. Çünki əks təqdirdə bizləri də o oğlanın aqibəti gözləyirdi.

Həmin axşam bizə suyun içərisində nəsə verdilər. Kamera yoldaşım dedi ki, (o mənə adını deməsinə baxmayaraq, indi onun adını heç cцr xatırlaya bilmirəm, çünki ermənilər bizim damarlarımıza şprislə hansısa dərmanı vururdular ki, orada gördüklərimizi tamam unudaq. Açığını deyim ki, mən özüm çox şeyləri xatırlaya bilmirəm) bu heyvanlara verilən "jmıx" horrasıdır. Biz də həmin horranı acgözlüklə içdik. Ancaq iki gün çörək, su görməyən qarında onun nə durumu olacaqdı ki?! Həmin gecə öskürəkdən səhərə kimi yata bilmədim. Soyuq öz işini görmüşdü. Əsirlərin çoxu soyuqdəymədən sətəlcəm olmuşdular. Elə bu xəstəlikdən 40 nəfərə yaxın yoldaşımız dünyasını dəyişdi.

Ertəsi gün bizi yenə də ayaqyalın qalanın həyətində cərgəyə düzdülər. Şaxta adamı qılınc kimi kəsirdi. Tez-tez ayaqlarımızı növbə ilə qaldırıb yerə qoyurduq. «Bütün bu zülmlərə döz-məkdənsə, birdəfəlik ölüb, canını qurtarmaq daha yaxşıdır,» – deyя

beynimdя Щadrutda keçirdiyim fikir yenidяn canlandı. Bu vaxt iki erməni yaraqlısı əllərindəki dubinkanı oynada-oynada gəlib erməni zabitinin qabağında dayandı. Zabit heç nə demədən başını bircə dəfə aşağı-yuxarı tərpətdi. Bu işarədən sonra dubinkalı əsgərlər bizi döyməyə başladılar. Bağırtı, qışqırtı яршя dirяndi...

«Тяnbeh ямяliyyatы» qurtardıqdan sonra, бизя yeня hяyяtin qarını təmizləmək əmri verdilər. Uşaqlardan iki nəfəri ayaq üstə dayana bilməyib yerə yıxıldı. Biz onlara kömək edib ayağa qaldırmaq istədik, ancaq ermənilər qoymadılar. Saat yarıma kimi qalanın həyətində işlədik. Bu müddət ərzində yerdə hərəkətsiz halda, uzanыглы qalmış həмин iki йолдашымыз artıq donmuşdu.

Bir azdan dörd erməni yaraqlısı gəlib onları sürüyə-sürüyə harasa apardılar. Qarı təmizlədikdən sonra bizi yenidən cərgəyə düzdülər. Hamını öskürək tutmuşdu. Ermənilər əvvəlcə elə bildilər ki, biz qəsdən öskürürük. Ona görə də: «Kasın sasınızı!» – erməni zabiti üstümüzə qışqırdı.

Mən elə öskürürdüm ki, аз галырды ки, ödüm ağzımdan gəlsin.

--- Basdir, qaqqıldaşdınız, kasin sasinizi! – deyə erməni zabiti yenidən qışqırdı.

O, əllərini arxada daraqlayıb amiranə görkəm alaraq, gülümsəyib dedi:

-- İndi man sızı toyuq kimi danlamaya macbur edacayam. Siz qalanın hayatındaki siqaret kotuklarını, kıbrıt чoplarını ağzınızla bir-bir goturmalısınız, yani toyuq kimi danlamalısınız. Bundan sonra siza yemax, içmax veracayıx. Yoxsa, part, part... edacağam, - şəhadət barmağını tətiyə basırmış kimi açıb-yumdu.

Bəli, biz o şaxtalı gündə toyuq kimi dənləməyə məcbur olduq... Həmin günlər ölüm bizim üçün artıq adiləşmişdi.

Bir səhər bizi йеня də qalanın həyətinə çıxarтdılar. Ancaq həmin gün az döydülər. Sonra erməni zabiti gəlib hamıya bir vərəq kağızda yazılmış mətni oxudu:

-- Sabah «Qırmızı Xaç Komitəsinin» nümayəndələri bura gələcəklər. Sizinlə sorğu-sual aparacaqlar. «Sizinlə burda necə rəftar edirlər?» sualına hamınız müsbət cavab verməlisiniz. Əgər

sizlərdən kimsə onlara artıq-əskik söz deyərsə, onda həmin adamla biz ayrıca haqq-hesab çəkəcəyik! Eşitdiniz?!

Неч kəs dinib-danışmadı. Həmin axşam ilk dəfə olaraq бизя adam yeməyi verdilər.

Səhərisi gцn həqiqətən də «Qırmızı Xaч Komitəsinin” nцmayяndяlяri gяldilяr. Onlar bizi öz siyahılarına qeyd etdilər. Vəziyyəti ağır olanların təcili xəstəxanaya götürülməsini ermənilərə tapşırdılar. Biz deməsək də, onlar hər şeyi çox yaxşı görürdülər. Ermənilər iyrənc əməllərini nə qədər ört-basdır etməyə çalışırdılarsa, bir şey çıxmırdı. Yoxlama və sorğu-sual zamanı ermənilərin bizə qarşı etdikləri amansız rəftarın QXK–nın nümayəndələri özləri bir daha şahid oldular. Onlar özləri ilə gətirdikləri paltarları əsirlərə payladılar. QXK –nın nümayəndələri gedərkən bildirdilər ki, onlar bir həftədən sonra йеня gəlib bizə baş çəkəcəklər.

Qonaqlar gedən kimi ermənilər bizə verilən paltarları əlimizdən aldılar. Bu gəlişdən sonra onlar bizimlə daha amansız rəftar etməyə başladılar. Belə ki, bizi gündə bir dəfə döyürdülərsə, qonaqlar gəlib-gedəndən sonra gündə üç dəfə döyməyə başladılar.

Nümayəndələr gedəndən sonra iki gün bizi ac-susuz saxladılar. İki gündən sonra bizi yenidən qalanın həyətinə çıxartdılar. Bizə cərgə ilə düzülməyi əmr etdilər. Həyətin ortasında iki bayraq–biri bizim milli bayrağımız, digəri isə ermənilərin bayrağı, sancılmışdı.

Bayraqların yanında da böyük bir yemək qazanı qoyulmuşdu. İki gün ac qalmış adamın burnuna ləzzətli yemək iyi dəyəndə insan bihuş olmaq dərəcəsinə gəlir. Amma nədənsə, bu oyundan gözümüz heç su içmirdi. Bilirdik ki, ermənilər bizim üçün йеня дя növbəti «tamaşa» hazırlayıblar. Çünki onlardan yaxşı heç nə gözləmirdik.

Bir azdan erməni zabiti йenə də əllərini arxada tutmuş halda gəlib bayraqların yanında dayandı. Sonra başı ilə əsgərlərinə işarə etdi. Başa düşdük ki, indi bizi yenə də döyməyə başlayacaqlar. Ancaq deyəsən, bu dəfə səhv etmişdik. Əsgərlər hər birimizə gətirib əzilmiş bir aliminum qab verdilər. Sonra erməni zabiti dedi:

-- Biliram ki, siza iki gündür yemax vermirlar. Man bu gün hamınızı dadlı şorpaya qonax edacağam. Ancaq bir şartla. Hankınız ki, bizim

bayrağı öpdü, Азərбайъан bayrağına tupuracax, elə hamin adama бу yemax-içmaxdan veracağam. Ha... indi buyurun baxax.

Bir müddət heç kim yerindən tərpənmədi. Bütün əsirlər məyus halda dayanıb şorba dolu qazana baxırdılar. Biz çıxılmaz vəziyyətdə qalmışdıq. Bir tərəfdən acından ölmək təhlükəsi dayanmışdı, o biri tərəfdə isə bağışlanılmaz təhqir...

Bu vaxt Иlqar cərgədən çıxıb qürurla bayraqlara tərəf addımladı. Əlbəttə, mən inanırdım ki, o, yenə də nəsə qeyri-adi bir hərəkət edəcək. Fikrimdə yanılmamışdım. İlqar əvvəlcə, bayrağımızın önündə dayandı, dönüb bizə baxdı. Sonra o, bayrağımızın önündə aşağı əyilərək, onu öpüb gözlərinə çəkdi. İlqar yenidən ayağa галхды, erməni bayrağına yaxınlaşaraq, ona tüpürdü вя tez bayrağı ayaqları altında tapdalamağa başladı. Bunu görən ermənilər quduz itə döndülər. Onlar cəld İlqarın üstünə düşdülər, o ki var, döyməyə başladılar. İlqar taqətsiz halda yerə yıxıldı. Ermənilər onun harası gəldi təpikləyirdilər. Düşündük ki, ermənilər daha bu dəfə İlqarı öldürəcəklər. Döyməkdən yorulaн ермяни dığalarы bip anlığa əl saxladılar. Bu vaxt hələ də hirsi soyumayan bir erməni avtomat silahını ayağa çəkdi və yerdə hərəkətsiz uzanmış İlqarın gicgahına диряди. Bunu görən erməni zabiti əsgərin üstünə qışqırdı:

-- Dayan gorax, ara. Gülla heyıpdi bu turk itina. Onu aparın. Şon dığa!.

Başa düşdüm ki, İlqarı güllələsələr yaxşı olardı. Allah bilir, onu dünyada ancaq erməninin ağlına gələ bilən işgəncə verəcəklər.

İki erməni əsgəri hərəsi İlqarın bir qolundan yapışıb sürüyə-sürüyə harasa apardılар.

Biz hamımız insanıq. Həmin gün əsirlərin çoxu acından ölməmək üçün ermənilərin dediklərini etdi. Etiraf edim ki, mən özüm də erməni bayrağını öpməyə məcbur oldum və and içirəm ki, dodaqlarım uzun müddət sızıldadı. O gündən sonra İlqarı bir daha görmədim. Bəzilərinin dediyinə görə, ermənilər İlqarı güllələйиблər, başqaları isə deyirdilər ki, Иlqarı hardasa gizli bir yerdə saxlayırlar. Orada ona insan ağlına gəlməyən, heç faşistin də düşünüb tapa bilmədiyi işgəncələr vermişdilər. Vəzifəli şəxs olduğuna görə,

ермяниляр onu gülləmək fikrindən daşınmışdılar. Onlar İlqardan istifadə etməyə çalышsalar da, nəticədə bir şey alınmayıb.

Ertəsi gün Qırmızı Xaçın köməyi ilə məni bir nəfər yoldaşımla Xankəndindəki uşaq bağçasına gətirdilər. Orada bizim paltarlarımızı dəyişdirib təzəsini verdilər. Sonra bizi xəstəxanaya gətirdilər. Xəstəxanada müalicə olunmaqla yanaşı, Qırmızı Xaçın nəzarəti altında bizə gündə цч-дюрд dəfə yemək verirdilər. Qırmızı Xaç Xankəndindən gedən kimi ermənilər bizi xəsəxanadan çıxarıb, onların verdikləri paltarları da əlimzdən aldılar. Sonra bizi oradan ayaqyalın Şuşa meşəsinə, ağac qırmağa apardılar.

Gündüzlər işlədikdən sonra axşamlar bizi ac-susuz donuz fermasına salırdılar. Biz acından юлмямяк цчцн ağaclardakı qurumuş meyvələrlə və bəzi yeməli bitkilərlə qidalanırdıq. Ermənilərin imkanı olsaydı, onu da bizim əlimizdən alardılar.

Bir həftədən sonra bizi yenidən Şuşa həbsxanasına gətirdilər. Hər birimizi ayrı-ayrı kameralarda yerləşdirdilər. İki gün yeməyə bizə heч nə vermədilər. Axşamtərəfi bizi həbsxananın həyətinə çıxardılar və dubinka ilə möhkəmъя əzişdirdilər.Əsirlərin bəziləri ac olduğundan ayaq üstə dayana bilməyib yerə yıxıldılar. Onları sürüyə-sürüyə aparıb yenidən kameralara atdılar. Mən imkan tapıb İlqarı soruşdum. Dedilər ki, İlqarı güllələməyiblər, onu QXK -nin nümayəndələrindən haradasa, ayrıca бир yerdə gizlədirlər. Mikayıl onu qeyd etdi ki, İlqara dəhşətli işgəncələr verirlər. Hətta, ermənilər onun bədəninə шprislə kerosin yeridiblər. Biz nə qədər cəhd etsək də, İlqarın harada saxlaндığını öyrənə bilmədik.

Bir gün növbəti «dıюуцлмя ямяliyyatын»dan sonra Mikayıl mənə dedi ki, əgər bir də onları Şuşa meşəsinə ağac qırmağa aparsalar, nəyin bahasına olursa-olsun, oradan qaçacaq. Bu, onun qəti fikri idi.

İki gündən sonra bizi yenidən Шuşa meşəsinə apardılar. Mikayıl «qaчыш» planını yoldaşlarına da təklif etmişdi. On nəfər qaçmağa razılıq vermişdilər. Ancaq son anda hamı fikrini dəyişdi. Вязиййяти беля эюрян Микайыл:

- Elя isя mяn tək getməli olacağam. Siz чалышын ki, ermənilər mənim qaçmağımdan tez xəbər tutmasınlar.Mənə azca vaxt lazımdır ki, özümü bir yerə чатдырым. Ondan sonra ermənilərin

əcdadları da xortlasa, məni tuta bilmяуясяklяr, - deyя uşaqlarla vidalaşdı.

Mikayılın qaçışından ermənilər çox gec xəbər tutdular. Bizi cərgəyə düzüb o ki var, döydülər. Bu hadisədən sonra onlar bir dя bizi meşəyə, ağac qırmağa aparmadılar. Buna görя, bizi цч gцn йеня ac-susuz kameradan bayıra çıxarmadılar. Щямин цч эцндя 7 йолдашымыз аъындан вя сойугдан еля камерадаъа дцнйасыны дяйишдиляр.

Сящяриси, ермяниляр бизи машына миндириб бир ермяни гябиристанлыьына эятирдиляр. Ермяниляр дедиляр ки, бу эцн онларын байрамыдыр. Она эюря дя, бурада бир Азярбайъан ясэярини гурбан кясяъякляр.Онун ятиндян ися биз, щамымыз гурбан яти кими дадмалыйыг. Яълафлар дедикляри кими дя етдиляр. Ермяни фашистляри ъаван, ъцссяли бир азярбайъанлы ясэяриni ермяни гябирляринин биринин цстцндя кясдиляр. Сонра ермяни дыьалары од галайыб оьланын ятиндян шишляря кечириб кабаб чякдиляр. Бу вящшилийя артыг дюзмяк олмурду. Щяр биримиз бу анда Аллащдан юзцмцзя юлцм арзулайырдыг.

Ермяниляр оьланын ятиндян зорла аьзымызы ачыб йедиртмяк истяйирдиляр. Бязиляри буна етираз едяндя, онлар щямин адамлары йериндяъя эцллялядиляр...

Beylяqan rayonunun Dцnyamalılar kəndindən olan, əsir düşmüş Əli adlı idmanчы oğlan donuzlara baxırdı. Onlar ailəlikъя toya gedərkən ясir düşmüşdülər.

Bir axşam Əli kameranın qabağından keçərkən pıçıltı ilə dedim ki, mənə bir az donuzların yemяyindяn gətirsin, yoxsa acından юlяcяyяm.

Ertяsi gцn Əli kameraya чюряк ötürərkən, ermənilər bunu gördülər.Yazıq Əlini ölüncəyə qədər döydülər. Sonra onun ayağını yerə mıxladılar. Yaxşı ki, bir gündən sonra Qırmızı Xaçın nümayəndələri yenidən Şuşa həbsxanasına gəldilər. Biz Əlinin başına gələn işgəncəni onlara xəbər verdik. Ermənilər isə bizim verdiyimiz məlumatları hər vasitə ilə inkar etməyə çalışırdılar. Ancaq QXK–nin təkidi ilə Əlini axtarıb tapdılar. Qaniçənlər onu

yaralı halda su ilə dolu zirzəmidə saxlayırmışlar. Əlini təcili olaraq Xankəndinə - xəstəxanaya apardılar.

Сящяриси 15 яsiri, мян дя дахил олмагла kameralardan çıxarıb bir sahəyə gətirdilər. Hər tərəf düzənlik idi. Biz yəqin etdik ki, bura bizi gülləməyə gətiriblər.Çünki Mikaйылын qaçışı uğurlu olмушду. O hətta, postda dayanmış bir neçə erməninin də işini bitirərək, bu cəhənnəmdən birdəfəlik xilas ola bilmişdi.

Onların bizi buraya nə məqsədlə gətirdiklərinи hələ də anlaya bilmirdik. Deyəsən, onların bizi öldürmək fikirləri yox idi. Dığalardan biri ucadan bildirdi ki, gördüyümüz bu sahəni axşama kimi şumlamalıyıq. Bir azdan bir yük maşını yanımızda dayandı. Ermənilərdən biri əmr etdi ki, dörd nəfərimiz maşına çıxıb, ordakı kotanı yerə düşürək. Юкцзя qoşulan dədə-baba kotanыны görəndə, бизя hər şey aydın oldu. On dörd nəfərimizи kəndirlə bir-birimizя bağladılar. Bəli, bizi heyvan əvəzi kotana qoşdular və axşama kimi ac-susuz yer шумlatdırdılar...

Ермяни дыьалары iki gün bizя ейни zцlmц verdilər. Цчцнъц эцн ермяниляр бизи Аьдам йахынлыьындакы Qarağacı гябиристанлыьina эятирдиляр. Онлар бизя гябирляри, хцсусян дя мярмярдян олан баш дашларыны мяъбури сюкдцрцб, машынлара йыьдырдылар...

Yахшы ki, цч gцndən sonra Qırmızı Xaçın nümayəndələri yenidən Şuşaya gəldilər. Həmin günün axşamı bizi Xankəndinə, uşaq bağçasına, oradan da xəstəxanaya apardılar.

Bir müddət Qırmızı Xaçın nəzarəti altında orada müalicə olunduq. İlk dəfə bizə dedilər ki, bu yaxınlarda яsirlikdən azad olacağıq.Düzü, bu sözlərə əvvəlcə inanmağımız gəlmədi.Yəni bu cəhənnəm əzabından qurtula biləcəyikmi?! Yaxınlarımızı, qohum-əqrabalarımızı görmək bizə qismət olacaqmı?!!

1995 - ci il маyın 8 - də Qırmızı Xaç Komitəsinin кюmяyi ilя 2 иl 9 aydan sonra o, ъящянням язабындан azad olundum...

Ермяниляр ясирликдян эялян бцтцн сойдашларымызы йарымъан елямişdiляр. Мяним юзцмцн дя ъийярлярим vərəm idi,бюйряклярımdə çürümə gedirdi.Ясирликдя олдуьум вахтларда ермяниляр мяним дя дамарыма мцхтялиф ийняляр вурурдулар. Ийнядян сонра щшшуму итирирдим, бир-ики эцн

бейним кейляширди, баш верян щадисялярдян йаддашымда чох ъцзи щиссяси галырды. Бязян щансы райондан олдуьуму беля унудурдум. Ийнялярин тясириндян ермянилярин бизим ясирлярин башларына эятирдикляри мцсибятлярин чох щиссясини indi хатырлайа билмирям. Gör iynələrdən, işgəncələrdən nə günə qalmışdım ki, həyatımın mənası olan namazımı neçə rükət qıldığımı belə unudurdum. Ona görə də ürəyimdə bəlkə də, saysız rükətdə namaz qılırdım.

Həkimlər deyirlər ki, ермяни doktorları бизим ясирляр цзяриндя мцхтялиф ъцр тяъруцбяляр апарырдылар. Она эюря дя, азад олунан ясирляримиз 3-4 айдан артыг йашамырdılар...

*** *** ***

Bir ay sonra Qırmızı Xaçın köməyi ilə daha 67 яsirimiz azad olundu. Bunların arasında Иlqar da var idi. İlqarın sağ qalmasını və vandalların əsirliyindən qurtarmasını mən özüm üçün doğum günü elan etdim. O günü məni anlaşılmaz hisslər bürümüşdü. Allahıma min dəfə şükür etdim ki, nə yaxşı ki, o, salamatdır. Yaşayır. Vətən deyilən bu yurdumuzun İlqar kimi oğullarına görə, həmin gün on rükət namaz qıldım. Allaha yalvardım ki, Pərvərdigara mənim bundan sonrakı həyatımı İlqara ver. Amma murdar, iyrənc, faşist erməni-daşnakının bayrağını öpdüyüm üçün dodaqlarımı çürüt, aclıqdan qorxduğum üçün doldurduğum mədəmi cəhənnəm odunda əbədi yandır...

... Heç bilmirəm ki, İlqarın azadlıqda cəmi bir neçə həftə yaşadığını necə yazım?! Başın sağ olsun Vətən! Başın sağ olsun İlqarın ata-anası! Allaha inandığım kimi inanıram ki, azərbaycanlı anaları hər gün neçə-neçə İlqarlar doğacaq!..

**Bakı, 1998 - ci il.**

# Ölüm düşərgəsindən qaçış

(hekayə)

Mikayıl əslən Kəlbəcərdən idi. Ancaq Bərdədə ailə həyatı qurduğundan rayonun Qaradəmirçi kəndində traktorçu işləyirdi. Kəlbəcərin "qara xəbər"ini eşidəndə, o, qohum-əqrabasından xəbər tutmaq üçün oraya getməyi qərara aldı. Amma o, Kəlbəcərə çatmamış, yarıyolda ermənilər tərəfindən əsir götürüldü.

Ermənilər Mikayılı digər əsirlərlə birlikdə Şuşa həbsxanasına gətirdilər. Onun həyatının ən dəhşətli, amansız və işgəncə dolu günləri buradan başladı...

Hər kamerada 15-20 əsir vardı. Adamların sıxlığından nəfəs almaq olmurdu. Darısqallıqdan, nəmişlikdən, havasızlıqdan fiziki cəhətdən zəif olanlar səhərə yaşamaq ümidini itirmək məcburiyyətində qalırdılar. Mikayıl isə fiziki cəhətdən çox mökəm idi, 106 kiloqram çəkisi vardı. Bu çəki ona əzab və işgəncələrə dözmək üçün hələlik bəs edərdi. O, çalışırdı ki, ümidsizliyə qapılmasım, nə vaxtsa, bu cəhənnəm əzabından qurtulacağı barədə düşünürdü. Amma erməni vəhşilərinin onların başına gətirdikləri müsibətləri gördükcə, içindəki ümid qığılcımları günü-gündən sönməyə başlayırdı. Bir də çalışırdı ki, o, içindəki qorxu hissini çıxarıb atsın. Mikayıl qorxmurdu. Erməni dığaları ona digərləri tək işgəncə verərkən dirənirdi, o, əsir yoldaşları tək susub dayanmırdı. Dikbaşlığına görə, ermənilər ona daha çox əzab verirdilər. Onlar əsirləri həm mənəvi, həm də fiziki cəhətdən işgəncələrin müxtəlif iyrənc üsullarından istifadə etməklə, onları əzib şikəst etməyə, şərəf və qürurlarını alçatmağa çalışırdılar. Ermənilər hər gün döyüb, işlətdikləri, ağır işgəncələr verdikləri

əsirlərə gün ərzində yemək üçün iki dilim qara çörək və içmək üçün isə iki “kruşka” su verirdilər.

Bir gün hərbi əsirlərdən biri bu işgəncələrə dözə bilməyib ermənilərə etirazını bildirdi:

- Sizin heç Allahdan qorxunuz yoxdur bəyəm?! İnsana da bu qədər zülm edərlər? Nə olsun ki, biz əsirik. Müharibənin də öz qanunları var. Əsirlərlə bu qədər qəddarcasına rəftar etmək heç bir müharibə qanununa sığmır. Əgər Qırmızı Xaç Komitəsinin nümayəndələri buraya gələrsə, sizin bizə qarşı necə rəftar etdiyiniz barədə onlara şikayət edəcəyəm.

- Buna bir bax! Nə uzun dilin var sənin. Sənin uzun dilini kəsərik, bir daha danışa bilməzsən. Sən bizim əsirimizsən. Səninlə istədiyimiz kimi rəftar edə bilərik. Bəs əlinə silah götürüb bizə qarşı vuruşa bilirdin? - deyə erməni zabiti sağ əlindəki dubinkanı sol əlinin içinə vura-vura gənc oğlana yaxınlaşdı.

- Biz torpaqlarımızı sizin kimi xain və şərəfsizlərdən qorumaq üçün əlimizə silah götürmüşük. Biz heç bir zaman başqasının torpağına göz dikməmişik. Amma siz əsrlər boyu başqalarının torpağını min bir hiylə ilə əldə etməyə çalışmısınız, - deyə hərbi əsir yenə də dilini dinc saxlamadı.

- Qarabağ bizim ata-babalarımızın torpağıdır. Bunu birdəfəlik bilməlisiniz! Siz türklərə bu torpaqlarda yer yoxdur. Vaxtilə sizinkilər babalarımızı soyqırımına məruz qoyaraq, bu torpaqları əllərindən alıblar. Bundan sonra Qarabağı bir də heç kəsə verməyəcəyik! Bunu da bilməlisiniz ki, arxamızda güc dövlətləri dayanıb. Əgər axmaqlıq edib bizə qarşı yenidən hər hansı döyüşə başlasanız, onda qalan torpaqlarınız da əlinizdən gedəcək! - Erməni zabiti fəxrlə dilləndi.

- Bu qələbə müvəqqətidir. Biz yenə də torpaqlarımızı sizin kimi məkrli hiyləgərlərdən, işğalçılardan azad edəcəyik! Türk heç zaman yenilməyib və bundan sonra da yenilməyəcək. Siz də bunu birdəfəlik qulaqlarınızda sırğa yerinə asın! Gec-tez bu torpaqlardan izinizi siləcəyik! - əsir əsgər başını dik qaldıraraq, nifrət dolu baxışlarla onun qarşısında dayanmış erməni zabitinin düz gözlərinin içinə baxdı.

- Deyəsən, dilin get-gedə uzanır. Əgər mən sənin bu uzun dilini kəsməsəm, elə hey çərənləyəcəksən. Mənə bir kəlbətin və bir iti bıçaq gətirin! Cəld olun! - Erməni zabiti dəlicəsinə bağırdı.

Erməni əsgəri zabitin dediklərin gətirib ona verdi. Zabit dəlicəsinə bağırdı:

- Bu küçüyün əllərini tutun!

İki erməni dığası cəld əsir əsgərin qollarını qavırıb, arxasında tutdular. Bu zaman zabit sağ əlindəki kəlbətini əsirin ağzına salıb, onun dilini tutaraq bayıra çıxardı. Sonra o, əl atıb bıçağı götürdü və: “İndi danış görüm, necə danışacaqsan!” - deyib əsirin dilini bir anda kəsib yerə atdı.

Oğlan bayılaraq yerə yıxıldı. Zabit əsgərlərin üstünə qışqırdı:

- Götürün, bunu atın kameraya!

Aralığa ölüm sükutu çökdü. Hamı yerdə uzanmış, dili kəsilmiş əsgərə baxırdı. Kimsənin səsi çıxmırdı. Mikayıl bu dəhşətə dözə bilməyib, irəli yeriyərək yerdə bayılmış əsgərə kömək etmək istədi. Amma yanındakı yoldaşı onun qolundan tutub saxladı. Erməni əsgərləri bayılmış əsiri qol-qıç edib apardılar...

Ertəsi gün əsirlərdən biri taqəti olmadığı üçün işləməkdən boyun qaçırdı. Buna görə, ermənilər həmin əsiri iki gün ac-susuz itlə baş-başa zəncirlədilər. Onlar itlərinə yemək, su verdikləri halda, bu əsirə içmək üçün bir qurtum su belə vermirdilər. Onun adı Azər idi, Cəbrayıl rayonundan idi. O, susuzluğa dözə bilməyib, ermənilərdən su istədi. Erməni dığası da onu ələ salmaq üçün; “mən indi sənə su əvəzinə, sizin Badamlıdan gətirəcəyəm” - deyə gedib Badamlı şüşəsində qab-qacaq yuyulmuş yaxantı sudan gətirib Azərə verdi. Azər də möhkəm susadığından fərqinə varmadan, Badamlı şüşəsini birnəfəsə başına çəkdi. İçəndən sonra onun çirkab su olduğunu hiss etdi və dərhal da geri qaytardı. Ermənilər də buna baxıb gülüşdülər.

Gündüzlər əsirləri meşəyə ağac qırmağa aparırdılar. Meşəyə qədər məsafə 3-4 kilometr olardı. Hər gün bu məsafəni ac qarına, piyada, qaça-qaça qət etmək insandan dözüm və möhkəm iradə tələb edirdi. Ermənilər əllərində avtomat silah UAZ maşınlarla onları arxadan təqib edirdilər. Onlar taqətdən düşmüş, yerə yıxılan

əsirlərin üstündən maşınla keçib gedirdilər. Bu yolla on yeddi əsirimiz öldürüldü...

Mikayıl nəyin bahasına olursa-olsun qaçmağı planlaşdırmışdı. O, qaçış əməliyyatını ən yaxınlarına da söylədi, amma onlar buna razı olmadılar. Dedilər ki, buradan qaçmaq heç cür mümkün deyil. Amma Mikayılın qərarı qəti idi. “Tək də olsa, bu cəhənnəmdən qaçıb qurtulacağam!” deyə o, düşündü.

Bir gün Mikayılgili maşına yığıb bir erməni qəbiristanlığına gətirdilər. Ermənilər dedilər ki, bu gün onların bayramıdır. Ona görə də, burada bir Azərbaycan əsgərini qurban kəsəcəklər. Kəsilmiş qurbanlıq ətindən kabab çəkəcəklər və bütün əsirlərə yedirəcəklər. İnsanlıqdan uzaq olan qaniçənlər dedikləri kimi də etdilər. Cavan, cüssəli bir Azərbaycan əsgərini qəbirlərin birinin yanına gətirdilər. Daşnak zabiti gəlib gənc əsirin qarşısında dayandı və qımışaraq soruşdu:

- Bilirsən ki, həyatının son dəqiqələrini yaşayırsan. Bəlkə, bizlərdən bir istəyin var?

Əlləri arxasında bağlanmış cavan oğlan başını qaldırıb əvvəlcə səmanın ənginliklərini, sonra da məsum baxışlarla əsir soydaşlarını bir-bir seyr etdi. Və birdən üzünü saqqallı zabitə tərəf çevirdi. Bu dəmdə onun gözlərində nifrət qığılcımları parladı:

- Bəli, var. Ancaq bir az mənə yaxın gəlin - dedi.

Zabit əsirə yaxınlaşdı. Əsir qəzəbli baxışlarla ucadan dedi:

- Mən indi bir şeyə çox təəssüf edirəm ki, sizin kimi qatil və şərəfsizlərdən daha çox öldürə bilmədim. Amma bunu bilməlisiniz ki, hamınız bu torpaqlarda it kimi gəbərəcəksiniz! Leşiniz qarğa-quzğunlara yem olacaq! Siz dünyanın ən alçaq, yaltaq, hiyləgər, qaniçən və rəzil millətisiniz! Hamınız cəhhənnəm atəşində yanacaqsınız! Bu etdiklərinizə görə Allah -təala sizi əsla əfv etməyəcək!

Cavan oğlan sözünü tamamlayan kimi, qəfildən erməni zabitinin əvvəlcə üzünə tüpürdü, ardıyca da başı ilə onun sifətinə güclü bir kəllə zərbəsi vurdu.

- Ay burnum! - deyə saqqallı daşnak əlləri ilə üzünü tutub yerə oturdu.

Bunu görən erməni dığaları cavan oğlanın üstünə düşdülər, onu təpiklə, avtomatın qundağı ilə o ki var döydülər. Sonra huşsuz halda yerə uzanmış əsiri sürüyə-sürüyə gətirib bir qəbirin üstündə "uf" belə demədən, başını kəsdilər. Mikayıl bu mənzərəyə tab gətirməyib, yanında əlində avtomatlı dayanmış erməni dığasının sifətindən gözlənilmədən güclü bir yumruq zərbəsi ilişdirdi. Dığa zərbədən səntirləyib arxası üstə yerə yıxıldı. Bu dəfə də ermənilər Mikayılı bayılına qədər əzişdirdilər. Dığalardan biri avtomatını ayağa çəkib onu vurmaq istədi, amma yoldaşı onun qulağına nəsə dedi və o, fikrindən daşındı. Çünki ermənilər QXK-nin siyahısında olan əsirləri öldürməkdən çəkinirdilər.

Daha sonra qaniçənlər başı kəsilmiş cavan oğlanın ətini şişlərə taxıb, kabab bişirdilər və hər bir əsirin başına dayanmış silah gücünə onlara məcburən yedirdilər. Sanki əsirlər bir anda özlərini Afrika cəngəlliklərində yaşayan adamyeyən tayfalar arasında olduqlarını hiss etdilər. Bu film deyildi, həyatın gerçək üzü idi! Bu erməni vəhşiliyinin, erməni faşizminin iç üzü idi!!!

Axşam əsirləri yenidən həbsxanaya qaytardılar. Onlar əsirləri sıraya düzdülər. Erməni zabiti əsirlərin qarşısında var-gəl edərək dedi:

- Bilirəm, bu gün qarnınız toxdur. Amma tox qarın başa bəladır. İndi əsgərlərim sizi axşam idmanı ilə məşğul edəcəklər.

Zabit kinayə ilə gülərək, saqqallılara tərəf döndü və onlara əvvəlki işlərilə məşğul olmağı əmr etdi. Onlar yenə də əsirləri dubinka ilə döyməyə başladılar...

Həmin axşam əsirlərdən bir neçəsi səhərə sağ çıxmadı. Erməni daşnaklarının ən çox xoşladıqları və həzz aldıqları "döyərək öldürmə əməliyyatı" idi. Onlar çəkic və ya odun parçası ilə azərbaycanlı əsirlərin başlarına vura-vura öldürməkdən xüsusi zövq alırdılar. İnsanın bu qədər işgəncələrə dözməsinə Mikayıl heyrət edirdi. Gecələr dubinkanın dəydiyi yerlər, əzilmiş sümüklər sızım-sızım sızlayırdı. Taqəti tükənmiş bəzi əsirlər isə ağrıdan tez-tez bayılırdılar. Ermənilər hər axşam əsirlərə nəsə dərman verirdilər. Onlar həmin dərmanı qəbul edəndən sonra, başları keyləşir və gündüzlər onlara verilmiş işgəncələrin heç birisini xatırlamırdılar.

Bir gün QXK-nin nümayəndələri həbsxanaya gəldilər. Bir gün öncə isə ermənilər bütün əsirlərə tapşırdılar ki, onların rəftarından gələn nümayəndələrə şikayət etməsinlər. Amma sorğu-sual zamanı QXK-nin nümayəndələri hər şeyin şahidi oldular. Onlar əsirlər üçün pal-paltar gətirmişdilər. Gedərkən dedilər ki, bir həftədən sonra yenə gələcəklər.

Qonaqlar gedən kimi, saqqallılar əsirlərə verilmiş paltarları onların əllərindən aldılar və əsirlər şikayət etdikləri üçün onları gündə bir dəfə döyürdülərsə, qonaqların gedişindən sonra üç dəfə döyməyə başladılar. Nümayəndələr getdikdən sonra onlar əsirləri iki gün ac-susuz saxladılar.

Yanvar ayının şaxtalı bir günü idi. Daşnaklar əsirləri kameralardan çıxarıb həbsxananın həyətində cərgəyə düzdülər. Həyətin ortasında iki bayraq - biri Azərbaycan bayrağı, digəri isə Erməni bayrağı sancılmışdı. Bayraqların yanında böyük bir yemək qazanı qoyulmuşdu. Yeməyin iyi iki gün ac-susuz qalmış əsirləri dərhal vurdu. Onlar soyuqdan titrəyirdilər, buna baxmayaraq hamının könlündən bu yeməkdən dadmaq keçirdi. Amma əsirlər bilirdilər ki, ermənilər onlar üçün növbəti "tamaşa" hazırlayıblar. Bir azdan erməni zabiti əllərini arxasında daraqlamış halda gəlib bayraqların yanında dayandı və amiranə səslə dedi:

- Bilirəm, iki gündür sizə yemək-içmək vermirlər. Mən isə sizi bu gün dadlı, ləzzətli şorbaya qonaq edəcəyəm. Ancaq bir şərtim var. Sizlərdən hansınız bizim bayrağı öpüb, Azərbaycan bayrağına tüpürəcəksə, ona bax, bu dadlı şorbadan verəcəyəm. Şorbadan yemək istəyənlər buyursunlar, - deyə zabit gülərək əsgərlərə nəsə işarə etdi.

Zabitin işarəsindən sonra əsirlərə gətirib əzilmiş alüminium boşqabları verdilər. Bir müddət heç kəs yerindən tərpənmədi. Bütün əsirlər məyus halda dayanıb şorba dolu qazana həsrətlə baxırdılar. Onlar çıxılmaz durumda qalmışdılar. Bir tərəfdən acından ölmək təhlükəsi, digər tərəfdən isə bağışlanılmaz təhqir...

Bu zaman İlqar cərgədən çıxıb qürurla bayraqlara tərəf addımladı. O, əsir düşdüyü zaman Cəbrayıl şəhəri üzrə İcra hakimiyyətinin nümayəndəsi vəzifəsində işləyirdi. Ermənilər nə qədər cəhd göstərsələr də, onu özlərinə işləməyə məcbur edə

bilməmişdilər. İlqara görünməmiş işgəncələr verilməsinə baxmayaraq, daşnaklar onu sındırmağı bacarmamışdılar. Əsirlər arasında İlqarın böyük hörməti vardı...

Hamı heyrətlə dönüb İlqara baxırdı. Onlar bilirdilər ki, o bu dəfə də qeyri-adi hərəkətilə erməniləri heyrətə salacaq. Əsirlər fikirlərində yanılmamışdılar. İlqar əvvəlcə Azərbaycan bayrağının önündə dayandı, dönüb əsir yoldaşlarına baxdı. Sonra o, diz çöküb Azərbaycan bayrağını öpərək gözlərinə çəkdi. Və yenidən ayağa qalxdı, erməni bayrağına yaxınlaşaraq ona tüpürdü və tez bayrağı ayaqları altında tapdalamağa başladı. Bunu görən daşnaklar quduz itə döndülər. Onlar İlqarı bayılana qədər döydülər, sonra sürüyə-sürüyə harasa apardılar. Bu mənzərədən sonra əsirlər acından ölməmək üçün hər iki bayrağı öpmək məcburiyyətində qaldılar...

Düz on altı ay Mikayıl hər gün bu əzab və işgəncələrlə üzləşdi.

1994-cü il iyulun 14-də Mikayılı bir neçə əsirlə bərabər işləmək üçün Xocalıya gətirdilər. O, buradan hökmən qaçacağına qəti qərar verdi. Elə həmin günün axşamı o daha dörd əsir yoldaşı ilə birlikdə ermənilərin xəbəri olmadan, ölüm düşərgəsindən qaçmağa müvəffəq oldu. Onlar gecələr yol gedib, gündüzləri gizlənməyi qərara almışdılar. Qarşıda minalanmış sahələr və bir neçə erməni postu vardı. Mikayıl dedi ki, əgər yoldaşları onu dinləsələr, onlar burdan sağ-sağlam xilas ola bilərlər. Onlar bu gecə bacardıqca daha çox məsafə qət eləməlidilər. Çünki ermənilər onların qaçışından yalnız sabah xəbər tuta biləcəklər. Ona görə də, onlar sabaha kimi bir xeyli məsafə gedib, buradan uzaqlaşmalıdılar. Mikayıl yoldaşlarına bildirdi ki, ən əsası qarşımıza çıxan ilk postu keçməkdir. Bunun üçün onlar daha diqqətli olmalıdılar. Novruz isə dedi ki, onlar posta tərəf deyil, postdan şərq istiqamətə , meşəyə tərəf hərəkət etməlidilər. Mikayıl buna qəti etiraz etdi:

- Novruz, açıq sahələr minalanıb. Sən bunları bildiyin halda, niyə həmin sahəyə tərəf gedirsən? Mən əminəm ki, post istiqaməti açıqdır, ermənilər oranı minalamayıblar. Qalan üç istiqamətin üçü də minalanıb.

- Mikayıl, bunu hardan bilirsən ki, mən dediyim yer minalanıb? Deyirsən ki, biz düz ermənilərin üstünə gedək? Onlar silahlı, biz isə əliyalın. Bu necə olacaq? Deməli, belə çıxır ki, biz göz-görəti

ermənilərin qucağına, ölümə doğru gedək?! - Novruz Mikayılın fikrilə heç cür razılaşmaq istəmədi.

- Nəsə, təcili bir qərar verməliyik! - Aydın dilləndi.

Rahib isə əli ilə kiçik bir sahəni göstərib dedi:

- Bəlkə, bu sahəni keçib, meşəyə girək?

- Biz onsuz da meşəyə girəcəyik, ancaq postu keçəndən sonra. - Mikayıl fikrində israrlı idi.

- Axı, biz postu necə keçəcəyik, Mikayıl? - Novruz yenidən soruşdu.

- Biz pusquda dayanıb, ermənilərin yuxuya getməsini gözləməliyik. Sübh çağı onları hökmən ölüm yuxusu yaxalayacaq. O zaman biz də onların işini bitirərik. - Mikayıl bildirdi.

- Nə danışdığını bilirsən heç?! Biz silahsız onlarla necə bacaracayıq? - Novruz təəccübünü gizlədə bilmədi.

- Bəs sən nə düşünmüşdün? Burdan elə belə, qorxaq erməni kimi qaçıb gedək? Bəs onların bizim başımıza açdıqları müsibətləri nə tez unutdun, Novruz?! Xeyr, erməni dığalarının mənə etdikləri işgəncələrin, eləcə də ölmüş qardaşlarımızın intiqamını almadan qaçıb gedə bilmərəm. Bu fürsəti əsir düşüdüyüm gündən gözləyirəm. Mən intiqamımı hökmən alacağam. Buradan elə belə qaçıb getmək kişilikdən deyil. Əgər siz istəyirsinizsə, dediyiniz istiqamətdə qaçıb aradan çıxa bilərsiniz, - deyə Mikayıl yoldaşlarına qəti fikrini bildirdi.

Bu yerdə fikirlər haçalandığından, yollar da ayrıldı. Üç yoldaş meşəyə girmək üçün açıq sahəyə, Mikayıl isə düşmən postuna üz tutdu. O, əvvəlcə iti addımlarla, sonra isə sürünə-sürünə posta yaxınlaşdı. Postda dörd nəfər idi; ikisi sığınacaqda oturub söhbət edir, ikisi bayırda gəzişirdi. O, posta bir az da yaxınlaşıb gözlədi. On-on beş dəqiqə keçdi. Bayırdakı ermənilərdən biri yoldaşına nəsə deyib aralandı və düz Mikayılın gizləndiyi tərəfə gəldi. Mikayıl dərhal başa düşdü ki, erməni təbii tələbatını ödəmək istəyir. Bu Mikayıl üçün göydəndüşmə fürsət oldu. Erməni avtomatını yerə qoyan kimi, Mikayıl pələng cəldliyi ilə gizləndiyi yerdən sıçrayıb ermənini qamarladı. Bunu elə bir anda etdi ki, erməni heç cınqırını belə çıxara bilmədi. O, bir göz qırpımında qavırıb dığanın boynunu sındırdı. “Bu maşınla tapdaladığınız qardaşlarımın intiqamı” - deyə

astadan dilləndi. Sonra erməninin paltarını geyinib avtomat silahını götürdü, posta gəzişən erməninin yanına getdi. Pəzəvəng erməni yoldaşının gec gəldiyini görüb çağırdı:

- Akop!.. Akop!..

Akopdan səs çıxmadığından, gicgahından aldığı ölüm zərbəsindən daş kimi, o da yerə sərilib qaldı. Mikayıl onun döyüş bıçağını götürdü və bu an ermənilərin qəbir üstündə başını kəsdikləri cavan əsgəri xatırladı və bir andaca düşmənin başını bədənindən ayırdı. "Bu da qəbir üstündə başını kəsdiyiniz cavan əsgərimizin intiqamı!" - deyə gözlərində sanki qığılcım parladı.

İndi blindajdakı ermənilərin işini bitirmək onun üçün çətin deyildi. O, asta addımlarla sığınacağa tərəf getdi. Heç nədən xəbəri olmayan erməni dığaları şirin-şirin söhbət edirdilər. Mikayıl alıcı quş kimi qəfildən onların üstünə şığıdı. Onlar özlərini itirdilər və bir anda nə baş verdiyini anlaya bilmədilər. Mikayıl əlindəki bıçağı silahı götürmək istəyən erməninin boğazına çəkdi. O birisi yerindən qalxıb, silahı götürmək istədi. Amma Mikayıl ona da imkan verməyərək, bıçağı arxadan onun kürəyinə sapladı. "Bu da acından və soyuqdan ölmüş yoldaşlarımın intiqamı!" - deyə Mikayıl dərindən köks ötürdü. O, cəhənnəmlik olmuş erməni daşnaklarının ərzaqlarını götürüb meşəyə girdi. Artıq sübh çağı idi. Bu zaman güclü partlayış eşidildi. Mikayıl yoldaşlarının getdiyi istiqamətə baxdı. Onlar minaya düşmüşdülər. Bu partlayışı ermənilərin digər postu hökmən eşitmişdi. Bacardıqca burdan uzaqlaşıb meşənin dərinliklərinə girmək lazım idi. "Ax, Novruz! Axı, sənə dedim ki, oradan getmək qorxuludur. Dinləmədin məni!" - Mikayıl yoldaşları üçün çox heyfsiləndi, üzüldü və ayağı tutduqca qaçıb meşənin dərinliklərində görünməz oldu...

Mikayılın yoldaşları minaya düşmüşdü. Rahib həlak olmuşdu, Aydın isə qılçasının birini itirmişdi. Novruz da qorxaraq daha irəli gedə bilməyib, yerindəcə oturub qalmışdı. Tezliklə digər postdakı ermənilər partlayışın səsinə gəlib, Novruzla Aydını yenidən tutub aparmışdılar. Adları Qırmızı Xaç Komitəsinin siyahısında olduğu üçün onları öldürə bilməyiblər. Çünki düşərgədən qaçan əsirlərin cəzası ölüm idi.

Mikayıl isə 14 gün gecələr yol gedib, gündüzlər meşənin dərinliyində gizlənirdi. Bu müddət ərzində Mikayıl meşədəki meyvələrdən yeyib dolanırdı. Bir axşam Mikayıl yuxuda ikən gördü ki, evlərindədir. Həyətlərində yığıncaq var. Məlum oldu ki, oğlunun toyudur. Vağzalı çalınır, ancaq oğlu Tural mağara girmək istəmir. Əmiləri ona çox təkid edirlər ki, Tural mağara girsin. Amma Tural deyir:“Atam gəlməyincə, mən toy mağarına girməyəcəyəm!” Bu zaman Mikayıl yuxudan ayıldı və gülərək dedi: “Demək, mən bu ölüm düşərgəsindən xilas olacağam. Mənə bundan sonra daha ölüm yoxdur!”

On dörd gündən sonra Mikayıl Daşkəsən rayonuna gəlib çıxdı. Beləliklə, on altı ay cəhənnəm əzabı görən Mikayıl əsirlikdən xilas oldu. O, əsir düşərkən yüz altı kiloqram idi, indi isə 64 kiloqram qalmışdı. O cür cüssəli, boylu-buxunlu bədəndən əsər-əlamət qalmamışdı. Amma Mikayılın on altı aylıq işgəncələrlə dolu əsirlik həyatını, çəkdiyi cəhənnəm əzabını onun ermənilərdən aldığı intiqamı qismən də olsa, unutdururdu...

**20.11.2013**

# Qanlı məktub

(hekayə)

**M**ənimlə görüşə gəlmiş xanım çantasından bir neçə məktub çıxarıb masanın üstünə qoydu.

- Cəmil müəllim, mən sizin sevgi və talelərlə bağlı iki kitabınızı oxumuşam. Açığını deyim, hətta göz yaşlarımı saxlaya bilmirdim. Elə bil ki, mənim həyatımı qələmə almısınız.

- Sağ olun, xanım. Müəllif üçün oxucusundan bu cür sözlər eşitmək çox xoşdur. Amma çox şişirdirsiniz. Mən sadəcə, sıradan bir yazaram - dedim.

- Bağışlayın, özümü təqdim etmədim. Adım Sənubərdir. Məni sizin yanınıza gəlməyə məcbur edən vəfasız bir eşq macərasıdır. Qardaşım Zaur Qarabağda şəhid olub, qırxı təzəcə çıxıb.

- Allah cəmi şəhidlərimizi rəhmət eləsin!

- Məni Zaurun şəhid olması o qədər yandırmamışdı, nəinki onun vəfasız sevgilisi yandırdı.- Sənubər xanım göz yaşlarına hakim ola bilmədi.

- Qardaş itkisi çox ağırdır. Allah yenə səbr versin! Amma qardaşınıza Allah-Təala şərəfli ölüm qismət eləyib. Zaur kimi qardaşınız olduğu üçün hər yerdə və hər zaman onunla qürur duymalısınız. Siz də bilirsiniz ki, şəhidlərin yeri əbədi cənnətdir.

- Cəmil müəllim, baxın, bu qanlı məktub Zaurun sevgilisinə yazdığı, şəhid olduğu döyüşdən bir gün öncə, ancaq ünvanına yetişmədiyi məktubdur. Şəhid olduqdan sonra cibindən çıxıb. Digər məktublar isə Aytənin qardaşıma yazdığı məktublardır. Mənə ən çox təsir edən o idi ki, Aytən barı telefon açıb mənə başsağlığı

vermədi. O, ailəmizdə təkcə məni tanıyırdı. Qardaşım da onu sevdiyini yalnız mənə söyləmişdi. Bu azmış kimi, Aytən Zaurun heç qırxı çıxmamış, yeni sevgilisi ilə bizə gələrək, qardaşımın ona yazdığı məktubları verdi,  Zaura yazdıqlarını isə geri istədi. Mən bunu eşidəndə sanki başımdan bir qazan qaynar su töküldü. Özümü saxlaya bilməyib qızın üstünə qışqırdım:

- Səni dünyalar qədər sevən birisinin ölümünə acımadın, indi hansı üzlə bura gəlmisən, ay həyasız! İndi də gəlib məktublarını tələb edirsən? Sən bu məktublarda yazılanlara layiq birisi deyilsən, ay ləçər! Sənin sevgin də özün kimi saxta imiş. Bunu bil ki, sən heç bir zaman xoşbəxt ola bilməyəcəksən! Çünki səni təmiz və ülvi bir məhəbbətlə sevən bir eşqə xəyanət etdin. Xəyanəti isə heç kəs bağışlamır. Hətta, Allah da! Qardaşım sənə necə də inanmışdı. Çox təəssüf! Sən eşqi, məhəbbəti əyləncə sandın. Yazıqlar olsun sənə!

Onlar bir söz demədən çıxıb getdilər.

- Narahat olmayın, Sənubər xanım. Şəhiddən yazmaq həm böyük savab, həm də şərəfli işdir. Mən Zaur haqqında hökmən yazacağam.
- Cəmil müəllim, əgər nə vaxtsa qardaşımın döyüş yolu barədə nəsə yazmaq istəsəniz, onun Elxan adında silahdaşı var, ondan məlumat ala bilərsiniz. Mən Elxanın ünvanını və telefonunu sizə verəcəyəm. Əgər istəsəniz, onunla əlaqə saxlaya bilərsiniz. Elxan bizi heç unutmur, tez-tez bizə baş çəkir. Allah ondan razı olsun! Biz də Zaurun ətrini ondan alırıq, - deyə Sənubər xanım çantasından Elxanın telefon nömrəsini və ünvanını çıxarıb mənə verərkən gözləri yenidən doldu.

Mən Sənubər xanımı yola saldıqdan sonra, onun verdiyi əktubları bir-bir nəzərdən keçirdim.

Aytən Zaura yazdığı məktublardan birinin məzmunu belə idi*: "Salam, əzizim! Hal-hazırda intizar və maraq içində oxuduğun bu məktubu gecəyarısı yazıram. Hamı yatıb, mən isə səni düşündüyümdən yata bilmədim. Səni nə qədər sevdiyimi düşünə bilməzsən, Zaur. İndi səninlə ilk görüşümüzdəki "Sənsiz" mahnısını dinləyirəm. O zaman sən dedin ki, qoy bu mahnı bizim eşqimizin*

*əbədi simvolu olsun. Nə qədər çalışdımsa yata bilmədim, elə hey sən gəlib durdun gözlərimin önündə. Səninlə ayrılanda mənə dediyin: "Aytən, bu sevgi əbədi sevgidir. Bunu bilməyin vacibdir. Mən vəfasız, etibarsız insanlara və sevgiyə nifrət edirəm." sözləri məni daim səsləyir. Elə mən də eyni ilə sənin kimi düşünürəm, Zaur. Mən sənsiz yaşaya bilmərəm! İlk görüşdəki sözlərin mənim həyata və insanlara baxışımı dəyişdi. İndi tamamilə fərqli düşünürəm. Sənin dediyin kimi, "sevən insan hisslərlə deyil, həmişə məntiqlə düşünməlidir." Bu mənim sevgimin devizi olacaq həmişə. Səninçün çox darıxmışam. Sənin həsrətin içimi göynədir. Həsrətin bir bulud kimi məni qucaqlayıb. Sənsiz keçən hər gün, hər saat mənə illər kimi gəlir. Özümlə bacara bilmirəm. Bilmirəm, bu nə təlaş, nə sıxıntıdır içimdə. Hərdən səni qəlbimdən qeyb olmuş kimi hiss edirəm. Qorxuram ki, birdən fələk bizi ayırar. Sonra üzümü Allaha tutub yalvarıram ki, sənsizliyi mənə qismət etməsin! Mənsizliyi də Tanrı sənə göstərməsin! Amin! Hər axşam sənin ağuşunda xumarlanıb yuxuya getmək istərəm...*

***Sənsiz yaşaya bilməyən Aytənin."***

Aytənin Zaura yazdığı bütün məktublarında onu dəlicəsinə sevdiyini açıqca etiraf edirdi...

Sonra mən Zaurun Aytənə yazdığı, ancaq sevgilisinə yetişmədiyi qanlı məktubu açıb oxuyuram: *"Salam, Bəbəyim! Burada hava çox soyuqdur. İndi dağın zirvəsindəyəm. Bu məktubu da sevgimiz kimi uca olan zirvədən yazıram. Əllərim donub, amma səni düşündükcə, bədənimə bir istilik gəlir. İsti nəfəsindən ötrü elə darıxmışam ki...*

*Gülüm, yəqin indi yatmısan. Amma mən söz verdiyim kimi səni, ailəmi, vətənimi qoruyuram. Sabahkı həlledici döyüşə hazırlaşırıq. Sabahkı döyüşdən çox şey aslıdır. Mən əminəm ki, keçən dəfə olduğu kimi, bu dəfə də ermənilərin ağız-burnunu ovuşduracağıq. Döyüş əzmimiz də yüksəkdir. Bu bizim üçün çox mühüm bir döyüş olacaq.*

*Soyuq olmasına baxmayaraq, hava ayazdır. Göylərə baxıb, ulduzlara bənzədiyini, kövrək üzünü, utancaq baxışlarını xatırlayıram. Son dəfə səndən ayrılanda, gözlərimin içinə baxmadan, başını əyərək, utanaraq sakitcə "səni sevirəm" dediyin anı, məqamı düşünürəm. Əlinin soyuqluğunu duyanda, isitdiyim o əllərdən ötrü elə darıxmışam ki...*

*Son dəfə ayrılanda gözlərindən yaş axdığını görmüşdüm. Niyə ağladın ki? Ağlama... Səbr elə... Tezliklə erməni dığalarını torpaqlarımızdan iti qovan kimi qovub, yenidən sənə qayıdacağam, əzizim! Geri qayıdıb mənim üçün axıtdığın o, göz yaşlarını kirpiklərimlə siləcəyəm. Sənsiz həyatım qarın altında qalmış boynu bükük bənövşə kimidir.*

*Bu ayrılıq keçicidir, sonunda biz yenə də bir yerdə olacayıq. Əgər birdən... birdən qayıtmasam, məzarımın üstündə ağlama! Məzarımı qucaqla, amma ağlama!!! Mənim üçün üzülmə. Sən məni görməsən də, mən səni həmişə görəcəyəm. Çünki şəhidlər ölməzdilər! Əgər mən ölərəmsə, qoy Vətənimin başı sağ olsun!!! Öpürəm, əzizim. Tezliklə Bakıda görüşənədək!*

***İmza: Sənin Zaurun. 14.12.1993."***

Ertəsi gün Elxan bəyə telefon açdım. Sənubər xanım onu məlumatlandırdığı üçün görüşməyimizə problem yaranmadı.

Səhərisi Elxanla redaksiyada görüşdük. O, Zaur haqqında elə həvəslə danışırdı ki, sanki kitabdan hekayə və ya povest oxuyurdu. Elxan dostu və silahdaşı Zaur haqqında çox danışdı.

Məni əsas maraqlandıran leytenant Əliyev Zaur Novruz oğlunun yalnız Martuni istiqamətində gedən son döyüş əməliyyatı idi. Bu döyüş 15 dekabr 1993 -cü ildə olmuşdu. Elxan bu barədə müfəssəl danışdı: "Döyüşdən bir gün əvvəl biz uşaqlarla bir yerə toplaşıb, Zauru evlərinə yola salmaq istəyirdik. Dekabrın 27 -də bacısının toyu olacaqdı. Onlar ailədə iki bacı, bir qardaş idi. Zaur evin kişisi idi. Ailənin ağırlığı onun çiynindəydi. Çünki atası bir il öncə

avtomobil qəzasında həyatını itirmişdi. Bacısının toyunu da Zaur edəcəkdi. Nə qədər cəhd göstərsək də o, evə getmək istəmədi. Dedi ki, siz burada vuruşacaqsınız, mənsə toyda yeyib-içib şənlənəcəyəm?! Bunu kişiliyimə sığışdıra bilmərəm. Getməyinə gedəcəyəm, ancaq qoyun, bu döyüşdə də dığaların ağız-burnunu bir yaxşıca ovuşduraq, sonrasına baxarıq. Sabahkı döyüşdə ermənilərə elə bir dərs vermək lazımdır ki, bizə qarşı bir də hücuma keçməyi ağıllarından belə keçirməsinlər.

Dekabrın 15-də Martuni istiqamətində indiyə kimi görünməmiş döyüş oldu. Düzü, ermənilərin bu cür hücumunu gözləmirdik. Çünki onlar bu dəfə döyüş texnikaları ilə hücuma keçmişdilər. Biz isə avtomat, əl pulemyotu və qumbaraatanlarla silahlanmışdıq. Bizə köməyə döyüş texnikası gələcəyinə söz versələr də, gəlmədi. Düşmən sayca da bizdən çox idi. Qeyri bərabər döyüşdə uşaqlarımız əsl fədakarlıq, əsl qəhrəmanlıq göstərdilər. Həmin döyüşdə onların əksəriyyəti şəhid olsalar da, bircə addım da geri çəkilmədilər. Döyüş sursatımız get-gedə qurtarmaq üzrə idi. İtgilərimiz çox idi. Biz döyüş sursatı çatışmadığından həlak olmuş yoldaşlarımızın silahlarından da istifadə etməli olurduq. Kömək üçün ratsiya ilə arxaya xəbər versək də, ancaq hələ də kömək gəlmirdi. Bunu görən Zaur daha itgi verməmək üçün uşaqları toplayıb dedi ki, onların hamısı geri çəkilsinlər. O, döyüş meydanında tək qalacaq və onların təhlükəsiz yerə çəkilənə qədər erməniləri ləngidəcək. Amma uşaqların heç birisi buna razı olmadılar. Dedilər ki, ölsək də bir yerdə öləcəyik, ancaq geri çəkilməyəcəyik! Bu sözdən sonra cəsur leytenant uşaqları bir-bir bağrına basıb dedi: “Elə isə, haydı igidlər! Şəhid olmağa! Qoy Vətənimiz sağ olsun!” Bundan sonra hamımıza elə bil ki, güc gəldi, içimizdəki qorxu deyilən hiss qeyb oldu. Zaur çox sərrast atırdı, demək olar ki, gülləsi boşa çıxmırdı. Atdığı hər güllə ilə erməniləri cəhənnəmə vasil edirdi. Döyüşün şiddətli yerində sol cinahdan bizi mühasirəyə almaq üçün bir BMP göründü. Zaur dönüb qumbaraatan döyüşçü yoldaşımıza baxdı. O, arxası üstə uzanmışdı, qumbaraatan

isə sinəsinə düşmüşdü. Zaur cəld sürünərək ona yaxınlaşdı və əlini boynuna qoydu. Sonra mənə tərəf dönərək, başını buladı. O, qumbaraatanı götürüb BMP -ni nişan aldı. BMP -dən qara tüstü çıxdı və hərəkət etməyib yerində qaldı. Bu zaman özümdən asılı olmayaraq, "Afərin, Zaur!" - deyə qışqırdım. Elə bu zaman onu çoxdan bəri hədəfə almağa çalışan erməni snayperi alçaq və mənfur istəyinə çatdı. Düşmən snayperindən atılan güllə Zaurun sevgi, məhəbbət dolu qəlbini al-qana buladı.Həmin andaca Zaurun başı sinəsinə əyildi. Bunu görən kimi ona tərəf süründüm, gec idi. O, keçinmişdi. Həmişə yoldaşlarına: "Ölüm məndən qorxur, o mənə yaxın gələ bilməz!" deyən Zaur artıq əbədiyyətə qovuşmuşdu. Bu vaxt ikinci güllə atıldı. Sağ qolumda kəskin ağrı hiss etdim, sonra gözlərim qaraldı. Ondan sonra gözlərimi bir də əsir düşərgəsində açdım. Əgər adım Qırmızı Xaç Komitəsinin siyahısında olmasaydı, ermənilər məni güllələyəcəkdilər. Sonradan öyrəndim ki, həmin döyüşdə bütün silahdaşlarım şəhid olub."

Araya dərin bir sükut çökdü.Elxan dərindən köks ötürdü.Ona baxdım.Gözlərində yaş gilələri donub qalmışdı.

Həmin anda düşündüm ki, hələ də sona yetməyən Qarabağ savaşı gör bir nə qədər Zaur kimi igid və cəsur oğullarımızın təravətli gənclik çağlarına, həyatdan doymayan, ondan yetərincə kam almayan, neçə-neçə yerinə yetməyən arzulara, nakam sevgilərə, mənzil başına çatmayan neçə-neçə yolçunun həyatına son qoyub...

# Xeyirxah düşmən

(hekayə)

Nurəddin əsgərilikdən sonra Ukraynanın Krivoy-Roq şəhərində qalıb milis sistemində işə düzəldi. Həmin işdə o, kapitan rütbəsinə qədər yüksəldi. Qarabağ savaşı başlayanda, başqaları kimi, onu da Vətən sevgisi, torpaq namusu qəlbən narahat etməyə bilməzdi. Ona görə də o, xalqının belə bir ağır günündə düşmənlə savaşmaq, torpaqlarımızı erməni dığalarının tapdağından qorumaq üçün Vətənə qayıtdı. O vaxt polis işçilərini növbə ilə ayrı-ayrı döyüş bölgələrinə göndərirdilər. İndi kapitan Nurəddin də bir qrup polis yoldaşları ilə xəyanətkar düşmənlə üz-üzə dayanmışdılar...

Vaxtilə çörəyimizi yeyən, suyumuzu içən, xəyanətləri ucbatından bir çox ölkələrdən qovulmalarına baxmayaraq, xeyirxahlıq göstərib, qucaq açdığımız, yaşamaq üçün torpağımızdan pay verdiyimiz sayca kiçik, ancaq iddiası çox böyük olan bu millət indi başımıza bəla olub. Onlar bizimlə qonşu olandan bəri xalqımızın rahatlığı pozulub. Bu dığalar "ağaları"nın himayədarlığı sayəsində bizə heç bir millətin edə bilməyəcəyi xəyanəti etdilər. Xəyanəti isə heç kəs bağışlamır, hətta tarixin özü belə...

***

Nurəddin hələ Krivoy-Roqda işləyən zaman Qafqazdan olan neçə-neçə insanlara kömək əlini uzatmış, onlara himayədarlıq etmişdi. Onların arasında gürcü də vardı, erməni də. Buna görə də,

bu şəhərdə milis kapitanı Nurəddinin xətrini çox istəyirdilər. İşləri çətinə düşən hər bir qafqazlı ümid yeri bildikləri Nurəddinin yanına gəlib, məsləhət alır, onlara kömək etməyini xahiş edirdilər. Polis kapitanı isə işlədiyi müddətdə millətindən asılı olmayaraq, heç kimsəyə haqsızlıq etmədi, kimsəni nahaq yerə incitmədi. Ona görə də Nurəddin Krivoy-Roqu tərk edib Azərbaycana qayıdanda, onu yola salanlar arasında, hətta, göz yaşlarını saxlaya bilməyənlər də olmuşdu...

***

1992-ci ilin may ayında Nurəddin bir qrup polis həmkarları ilə birlikdə Şuşa yaxınlığındakı Böyük Kirs dağında növbə çəkirdilər. Neçə gün idi ki, aşağıdakı döyüş yoldaşlarından əlaqə kəsilmişdi. Onların ərzaqları tükənmişdi, içməyə bir qurtum su belə qalmamışdı. Onlar bu dağın başında sanki unudulmuşdular. Uşaqların bəzisi "Maksim" pulemyotunun suyunu içmək məcburiyyətində qalmışdı. Nurəddin döyüşçü dostlarının bu durumuna tab gətirə bilməyib, dağdan aşağı enməyə qərar verdi. O, yoldaşlarına üzünü tutub dedi:

- Uşaqlar, görünür bizə kömək gəlməyəcək. Biz burada ac-susuz oturub kimsəni gözləyəcək halımız yoxdur. Mən aşağı enib, hardan olursa-olsun sizlərə yemək və su gətirəcəyəm. Siz isə ayıq-sayıq olun. Düşmən kəşfiyyatı buraya hər an gələ bilər.

Nurəddin uşaqlarla sağollaşaraq, durduqları mövqedən aşağı enməyə başladı. O, təxminən uşaqlardan 450-500 metr aralanmışdı ki, düşmən pusqusuna düşdü. Hər tərəfdən Nurəddinin üstünə güllə yağışı yağmağa başladı. Ermənilər sanki onu gözləyirlərmiş. O, cəld iri bir daşın arxasına keçib, ermənilərlə tək döyüşə girdi. O, açılan atəşlərdən təxmini müəyyən etdi ki, onlar altı nəfərdilər. Kapitan sərrast atəşiylə dığaların ikisini susdura bildi. Amma avtomatın güllələri qurtarmaq üzrə idi. Düşmən yavaş-yavaş Nurəddini dövrəyə

almağa çalışırdı. Cəsur döyüşçü düşmənin bu hiyləsini anladı. Onlar Nurəddini əsir götürmək istəyirdilər. Nəhayət, avtomatın güllələri qurtardı. Nurəddin əl atıb qoburdan tapançasını çıxardı və yenidən atəş açmağa başladı. O, atdıqca güllələri sayırdı. "Bu da sonuncu güllə!" deyə Nurəddin döyüş yoldaşlarını, evdəkilərini - səkkiz yaşlı bircə oğlunu, həyat yoldaşını, atasını, anasını, bacısını, qardaşını bir-bir xəyalından keçirdi. O, ölümdən qorxmurdu, sadəcə yarımçıq qalmış, gələcəkdə bu Vətənə, bu millətə daha çox xeyir verə biləcək arzularını həyata keçirə bilməyəcəyi üçün heyfsilənirdi. O, son gülləsi qalmış tapançasını gicgahına dayadı, ancaq nə düşündüsə, fikrindən tez də vaz keçdi. "Aha, məndə hələ bir qumbara da var!" deyə cəsur döyüşçünün çöhrəsində təbəssüm cilvələndi. "Nə qədər düşmən öldürsəm, ruhum bir o qədər rahat olar. Bu sümsük dığalara təslim olmaqdansa..." deyə kapitan düşündü.

Düşmənlər də Nurəddinin gülləsinin bitdiyini bilirdilər. Ona görə də onlar gizləndikləri yerdən çıxaraq, əllərindəki avtomatları hazır vəziyyətdə Nurəddinə tərəf addımladılar. Nurəddin artıq nə edəcəyini götür-qoy etmişdi. Dığalardan üçü bir tərəfdən, yəni qarşı və sol tərəfdən, o birisi isə tək sağ tərəfdən ona yaxınlaşırdı. Kapitan qumbaranın kilini çıxarıb, sol əlində hazır saxladı. O, sağ tərəfdən ona qarşı tək gələn dığanı tapançasının sonuncu gülləsi ilə vurmaq, sonra da qumbaranı digər üç düşmənin üstünə atmağı planlaşdırmışdı. Amma o, istəyirdi ki, üç nəfər erməni ona daha da yaxınlaşsın. Elə də oldu. Nurəddin ilk öncə, sağ tərəfdən gələn erməni dığasını sonuncu güllə ilə alnından vurdu və sol əlindəki qumbaranı isə qalan üç ermənin üstünə atdı. Bu zaman həm güllə, həm də güclü partlayış səsi eşidildi. Ətrafı toz-duman bürüdü. Sonra araya ölüm sükutu çökdü. Hər kəs - həm düşmənlər, həm də cəsur kapitan yerdə sərilib qalmışdılar. Bu vaxt hardansa üç azərbaycanlı kəşfiyyatçısı peyda oldu. Onlar düşmənlərin ölüb-ölmədiyini yoxladıqdan sonra Nurəddinə yaxınlaşdılar. Nurəddin al-qan içində idi. Amma o, sağ idi.

Kəşfiyyatçılar tez Nurəddini götürüb, aşağı enməyə başladılar. Az keçməmiş onlar da düşmən pusqusuna düşdülər. Atışma başladı. Kəşfiyyatçılar yaralı Nurəddini böyük bir daşın arxasında gizlədib, özləri ermənilərlə qeyri-bərabər döyüşə atıldılar. Amma bu döyüşdə cəsur kəşfiyyatçılarımızın üçü də şəhid oldu, ağır yaralı Nurəddini isə ermənilər əsir götürdülər...

Həmin vaxt Nail Kazımov batalyonu ilə uşaqlara köməyə getməli idi. Amma o, gecəykən 120 nəfərlik batalyonunu uşaqlara kömək etməyə aparmaq əvəzinə, geriyə çəkdi. Bu, açıq-aşkar xəyanət idi. O yerdən ki, bizimkiləri o, müdafiə edəcəkdi, həmin istiqamətdən gözlənilmədən ermənilər hücum etdilər. Düzdür, sonradan xəyanətkar layiqli cəzasını aldı. Amma onun xəyanəti nəticəsində say-seçmə oğullarımız şəhid oldular. Elə alınmaz qala olan Şuşa da həmin vaxt düşmən tərəfindən işğal olundu...

***

Nurəddin gözlərini açanda, başının üstündə tanımadığı, yad dildə danışan adamları gördü. O, anladı ki, deyəsən onu əsir götürüblər. Bədənində şiddətli ağrılar vardı. Bu zaman bir nəfər başını ona tərəf yaxınlaşdırıb dedi:

- Nurik, mənəm, Edik Poqosyan! Tanıdınmı?!

Ağrıdan Nurəddinin başı hərlənirdi, gözləri tor görürdü. Onun kim olduğunu hardan tanıyacaqdı. O, güclə eşidiləcək səslə mızıldadı:

- Kimsəni tanımaq halım yoxdur. Deyin görüm, mən hardayam?

- Nurik, narahat olma. Yaxşı ki, mənə rast gəldin, yoxsa səni öldürəcəkdilər. Sən mənə indi hava, su kimi lazımsan. Düzdür, yaraların çox ağırdır. Həkimin dediyinə görə güllə boyun nahiyəndən girib, ağ ciyərini zədələyərək sağ qabırğanda ilişib qalıb. Bundan əlavə, bədənində də çoxlu sayda qumbara qəlpələri var. Amma həkimə yalvar-yaxar etmişəm ki, səni həməlik ölməyə qoymasın. Çünki sən mənə indi çox lazımsan. Oğlum Aşot

sizinkilərin əlindədir. Səni onunla dəyişəcəyik. Müalicəni isə öz xəstəxananızda alarsan. Burada səni onsuz da yaxşı əməliyyat etməyəcəklər. Həkim dedi ki, möcüzə nəticəsində sağ qalmısan. Səni xəstəxanadan alıb, buraya gətirdim. Xəstəxanada oğlumla dəyişmək üçün yaralı azərbaycanlı axtarırdım. Təsadüfən səni gördüm və komandirdən səni mənə verməyi xahiş etdim. Onlar oğlumun sizinkilərin əlində olduğunu bildikləri üçün səni mənə verdilər, yoxsa danışıqlarından məlum olurdu ki, danışmadığın təqdirdə səni öldürəcəkdilər. Oğlum Aşot da sizinkilərə könüllü əsir düşüb, o, sizlərə güllə atmayıb. O, əsir düşəndə deyib ki, "mən qardaşlarıma necə güllə ata bilərəm. Axı mən Bakıda doğulmuşam, orada böyüyüb boya-başa çatmışam, o torpağın çörəyini yeyib, suyunu içmişəm, orada çoxlu dostlarım qaldı. Hər yerdə mənə hörmətlə yanaşdılar. Bütün bunları unutmaq olarmı?!" Mən də oğlumun fikirlərilə tam razıyam. Biz sizinlə dinc və rahat yaşayıb, gözəl günlər keçirirdik. İnanın ki, həyatımızın ən gözəl və unudulmaz günlərini Bakıda keçirmişik. Allah mərdimazarın, xainlərin evlərini yıxıb xaraba qoysun! Necə ki, bizi isti yuvamızdan, ev-eşiyimizdən didərgin saldılar. Nurikcan, biz əvvəlcə Rusiyaya getdik. Orada 5-6 ay yaşadıqdan sonra Stepanakertdəki qohumum bizi buraya dəvət etdi. Amma Bakıdakı ermənilərə burada yaxşı baxmırlar, bizə yad adam kimi, ögey münasibət bəsləyirlər. Oğlum Aşotu da zorla əsgərliyə apardılar. Oğlumu səninlə dəyişdikdən sonra, buradan qaçıb gedəcəyik. İnan ki, burada qala bilmirik, sıxılırıq, sanki havamız çatmamış kimi boğuluruq. Burası bizlik deyil. İndi Bakı üçün burnumuzun ucu göynəyir...

- Mən səni heç xatırlamıram. - Nurəddin zarıdı.
- Mənəm də, bərbər Edik! Evimiz Razində idi. Yadındadırmı, sən Rusiyada milis işlədiyin vaxt bir blok siqaretlə məni həbs olunmaqdan qurtardın. Bir "karobka" nar əhvalatı! İndi xatırladınmı?
- Hə..ə..ə.. Demək, o..o.. sən...sən idin?!

- O vaxt sən məni həbsdən qurtardın, indi isə mən səni ölümdən qurtaracağam. Biz artıq sizinkilərlə danışıqlara başlamışıq. Üç gündən sonra səni oğlumla dəyişəcəyik. - Edik nəfəsini dərmədən bildirdi.

Nurəddinin fikri xəyallar aləminə qanad açdı...
O, Krivoy-Roqda milis işlədiyi zaman, bir gün onun tabeliyində çalışan serjant Vadim dedi ki, "yoldaş Mamedov, sizin "zemliyakı"nızı tutublar, rəisin otağındadır." Nurəddini maraq götürdü ki, görəsən tutulan şəxs kimdir. Ona görə də o, dərhal rəisin otağına getdi. Mayor Sergey Vasilyev Nurəddini görcək gülərək dedi:

- Mamedov, bu erməni sənin yerlindir, özü də Bakıdandır.
- Seryoja, bu nə edib? - Nurəddin ərkyana mayordan soruşdu.
- Nar satarkən yaxalanıb! - Mayor yenidən qımışdı.
- Nə etmək istəyirsən?
- Daha orasını sən bilərsən. Edik Poqosyan sənin yerlindir. Cəzasını da sən verməlisən! - Bu dəfə Sergey ucadan güldü.

Bundan sonra Nurəddin Edikə tərəf dönərək soruşdu:

- De görüm, nə etmisən? Hər şeyi mənə ətraflı danış, ancaq yalan olmasın.

Məlum oldu ki, Edik buraya əsgərilikdə olan oğlunun yanına gəlib. Gələrkən də yol xərcini çıxarmaq üçün özü ilə bir "karobka" nar da gətirib. O, narı küçədə ədədlə satarkən milis işçiləri tərəfindən tutularaq, şöbəyə gətirilib. Nurəddinin Edikə yazığı gəldi. Nə də olmasa, Edik onun yerlisi hesab olunurdu. Nurəddin ondan Bakının harasından olduğunu və harada işlədiyini soruşdu. Edik dedi ki, o, Razində yaşayır, elə orada da bərbər işləyir. Nurəddin sağ əlini ermənininin çiyninə qoyub dedi:

- Yaxşı, dur get, mayora bir blok siqaret al, gətir!
- Bu dəqiqə, yoldaş kapitan! - Edik oturduğu yerdən güllə kimi sıçrayıb, ayağa qalxdı.

Heç aradan beşcə dəqiqə keçməmiş, Edik əlində iki blok siqaret geri qayıtdı. Beləliklə, Nurəddin iki blok siqaretə erməni

Ediki ən azından iki il həbs olunma cəzasından qurtardı. Ermәni az qalırdı ki, Nurəddinin ayaqlarına düşsün. Nurəddin buna imkan vermədi...

***

Bu hadisədən yeddi ay ötmüşdü. Nurəddin işlə əlaqədar on günlük Bakıya ezamiyyətə gəlmişdi. O, məslək yoldaşı ilə görüşməli idi. Görüş vaxtına hələ vardı. Nurəddin bu zamandan istifadə edib, saçını qırxdırmaq üçün bərbərxanaya girdi. O, keçib müştəri gözləyən bərbərin boş stulunda əyləşdi. Bərbər mələfəni bir-iki dəfə çırpdıqdan sonra onu Nurəddinin boynuna bağladı. Usta güzgüdə diqqətlə müştərisinə baxıb, heyrət içində ucadan qışqırdı:

- Nurikcan, bu sizsiniz?! Aman Allah! Gözlərimə inana bilmirəm!
- Biz tanışıqmı? Məni hardan tanıyırsınız? Mən ki sizi xatırlamıram. - Nurəddin də təəccüblə bərbərə baxdı.
- Necə yəni xatırlamırsınız? Siz ki məni yeddi ay bundan öncə, Krivoy-Roqda həbs olunmaqdan qurtardınız! Məni nar satdığım üçün tutmaq istəyirdilər. - Bu dəfə bərbər Nurəddinin onu tanımadığını görüb, canfəşanlıqla dilləndi.
- A..a!.. indi xatırladım. Demək, siz həmin Edik Poqosyansınız?! - Kapitan bərbəri indi xatırladığını bildirdi.

Edik tez gedib telefonla harasa zəng etdi. Və gülə-gülə gəlib Nurəddinin saçlarını qırxmağa başladı:

- Nurikcan, heç bilirsiniz sizi nə qədər axtarmışam. Yaxşı ki, öz ayağınızla gəldiniz. Bu gün nahar yeməyinə bizə gedəcəyik, artıq evə zəng də etmişəm. Heç bir etiraz istəmirəm.
- Edik, bu gün olmaz, çünki bir azdan məslək yoldaşımla görüşüm olacaq. Bəlkə, sizə getməyi axşama saxlayaq? - Nurəddin naharda onlara getməyin imkansız olduğunu bildirdi.

- Yaxşı, siz deyən kimi olsun. Amma axşam mən özüm gəlib sizi dediyiniz yerdən alacağam, - deyə onlar razılığa gəldilər.

Axşam şam yeməyində Nurəddin erməni Edik Poqosyangildə idi. Onlar kapitanın şərəfinə gözəl bir süfrə açmışdılar. Evdəkilər - Edikin arvadı, qızı və oğlu Nurəddinlə elə davranırdılar ki, onlar sanki kapitanı çoxdan tanıyırdılar. Edik sözgəlişi vurğuladı ki, o, Nurəddin haqqında evdə çox danışıb. Ona görə də onu evdə hamı qiyabi də olsa tanıyırdı. Düzü, onların Nurəddinə qarşı bu cür qonaqpərvərliyi, canfəşanlıq göstərmələri, başına pərvanə tək fırlanmaları kapitanı çox utandırırdı. Sonda Edik Nurəddinə dedi:

- Nurikcan, sizdən bir ricam olacaq. Krivoy-Roqa nə vaxt qayıdacaqsınız?
- Hardasa, iki gündən sonra. Necə bəyəm? - Nurəddin soruşdu.
- Mənim orada bir dostum var, ona bir bağlama göndərəcəyəm. Deyirəm ki, əgər sizə zəhmət deyilsə, onu dostuma çatdıra bilərsinizmi? O, sizi qatar vağzalında qarşılayacaq. - Edik bildirdi.
- Nə zəhməti var, çatdıraram, narahat olmayın. - Nurəddin arxayınlıqla dilləndi.

İki gündən sonra Edik öz maşınında Nurəddini Bakı qatar vağzalına gətirdi. O, maşından səliqə ilə qablaşdırılmış əl çantasını götürüb və qoltuq cibindən çıxardığı bir məktubu Nurəddinə verdi. Edik hər ehtimala qarşı özünün ev telefonunu da kapitana verib dedi:

- Əmanətləri dostuma verəndən sonra, mənə zəng edə bilərsiniz.
- Yaxşı, siz narahat olmayın. Əmanətləri dostunuza hökmən çatdıracağam. Buna əmin ola bilərsiniz! - Nurəddin gülərək bildirdi.

Edik qardaşcasına qollarını Nurəddinin boynuna doladı...

Nurəddini Krivoy-Roqdakı qatar vağzalında kimsə qarşılamadı. Nurəddin Edikin dostunu çox gözlədi. Əlacsız qalan kapitan elə vağzaldan Edikin evinə zəng vurdu:

- Edik, məni burada kimsə qarşılamadı. Neçə müddətdir ki, burada gözləyirəm. Amma gələn yoxdur. Bəs mən bunları nə edim?!

- Nurikcan, kimsə gəlməyəcək! Onların hər ikisi sizin üçündür. Bilirdim ki, onları burada sizə versəydim, götürməyəcəkdiniz. Bunlar sizin mənə etdiklərinizin qarşısında nədir ki?! Di, salat qal! Verdiklərim halal xoşunuz olsun! - deyib Edik telefonun dəstəyini yerinə qoydu.

Nurəddin evə gəlib, əvvəlcə Edikin ona verdiyi məktubu açdı. Məktubun içində iki min manat pul vardı. Bağlamada isə üç ədəd hisə verilmiş və qurudulmuş balıq, iki ədəd Yerevan konyakı, evdə bütün ədviyyatları ilə xüsusi hazırlanmış üç "rulon" kolbasa, yarım kiloluq bankada qara kürü və evdə bişirilmiş iki kiloqrama yaxın paxlava var idi...

Üç gündən sonra ermənilər doğrudan da, ağır vəziyyətdə olan kapitan Nurəddin Məmmədovu Edik Poqosyanın oğlu Aşotla dəyişdilər.

Beləliklə, cəsur kapitan həkimlərimizin səyi nəticəsində ölümün pəncəsindən qurtuldu.

**20.12.2014**

# Erməni faşizmi

Tarix boyu Azərbaycan xalqı dəfələrlə erməni hiyləsinin, erməni təcavüzunun, erməni satqınlığının, erməni qəddarlığının, xüsusilə türk millətinə yönəlmiş nifrətinin şahidi olmuş və həmişə də bu nifrətin acısını dadmışdır.

Erməni naqisliyini, nankorluğunu, namərdliyini, əxlaqsızlığını tarix artıq sübut etmişdir.

Hələ eramızdan əvvəl Aralıq dənizi xalqları ermənilərin əxlaqsızlıqlarına görə onlara qarşı açıq müharibə elan edərək əksəriyyətini öldürmüş, vurub dənizə tökmüş, qalanlarını isə qovub Balkan ölkələrindən çıxarmışlar. Sağ qalanlar qaçıb Hindistan yarımadasında özlərinə sığınacaq tapmışlar. Az keçməmiş hindlilər də ermənilərin naqisliyini görüb onları Hindistan torpağından qovmuşlar. Bundan sonra ermənilər fars və ərəb ərazilərinə sığınırlar.

İllər ötdükcə ərəb və fars xalqları da ermənilərin pis əməllərinin acısını dadmalı olurlar. XIX əsrin əvvəllərində Rusiya-İran müharibəsində erməni satqınlığı özünü aydın şəkildə biruzə verdi. Bundan qəzəblənən Şərq xalqları erməniləri öz ərazilərindən qovdular. Hər yerdən əlləri üzülən ermənilər bu dəfə rusların ətəyindən yapışmalı olurlar. Ruslar erməniləri Şimali Qafqazda,

xüsusi ilə də Azərbaycanın Naxçıvan və Qarabağ bölgələrində yerləşdirdilər. Ermənilər torpaqlarımızda sığınacaq tapan gündən rahatlığımızı itirmiş, həmişə onlara istəklərinə uyğun güzəştlərə getmişik. Elə həmin acı güzəştlərin nəticəsi də bu gün xalqımız üçün böyük müsibətlərə səbəb olmuşdur.

Ermənilərin Qarabağ savaşında dinc əhalinin başına açdıqları ağılasığmaz vəhşiliklər II Dünya Müharibəsində faşistlərin əsrlər üzərində apardıqları qeyri- insani eksperimentlərindən də dözülməzdir. Ermənilərin bu savaşdakı vəhşilikləri bəşəriyyət üçün qorxulu olan erməni faşizmini bir daha sübut etdi. Unutqanlılıq bizi həmişə ağır faciələrlə üzləşdirmişdir. Hələ əsrin əvvəllərində də biz belə faciələrlə dəfələrlə üz-üzə gəlmişik.

Qarabağ savaşında erməni daşnakların azərbaycanlı əsirlərin başına gətirdikləri müsibətləri, insanlığa sığışmayan vəhşiliklərin şahidi olmuş adanların öz dillərindən eşitmək daha inandırıcı səslənər. Əsirlərin dediklərinə bircə kəlmə də olsun müəllif tərəfindən əlavələr edilməmişdir.

## Ermənilər əsir düşmüş əsgərlərimizə aman vermirdilər

**İsgəndərov Pənah Mənsim oğlu**, 1957-ci ildə Zərdab rayonunun Sileyli kəndində anadan olub. 1993-cü ilin əvvəllərində könüllü cəbhəyə gedib. Laçın, Ağdərə uğrunda gedən döyüşlərdə iştirak edib, göstərdiyi igidliyə görə P. İsgəndərova gizir rütbəsi verilib. “N” hərbi hissəsində rota komandiri olub.

O, 1993-cü il dekabrın 25-də Ağdam rayonundakı Mərzili-Yusifcanlıda, Martuni istiqamətində gedən döyüşlərdə yoldaşları ilə birgə xüsusi şücaət göstərib. Ermənilərin hər cəhətdən üstünlük təşkil etdikləri bu qeyri-bərabər döyüşdə igid soydaşlarımız bircə metr də olsun geri çəkilməyiblər. “Öləcəyik, ancaq geri çəkilməyəcəyik” deyən Vətən oğulları son nəfəslərinə kimi qəhrə-

mancasına vuruşaraq həlak olublar. Həmin vuruşda P. İsgəndərov dörd yerdən ağır yaralanmasına baxmayaraq döyüş meydanını tərk etməyib. Çoxlu qan itirən Pənah son anda huşunu itrib. O bir də gözlərini iki gündən sonra- dekabrın 27-də ermənilərin hərbi hospitalında açıb.

**Pənah İsgəndərovun dediklərindən:**

- Dördüncü güllə qarnımdan dəydi. Qan məni apardı. Bir əlimlə qarnımı tutmuşdum. Sağ əlimlə isə PK-la atəş açırdım. Hiss etdim ki, daha gücüm tükənir, gözlərimə qaranlıq çökür. Bir də gözlərimi açanda ağ xalatlı həkimləri gördüm. Nəfəsi şlanqla alırdım. Əlimi yuxarı qaldırıb onları salamladım. Gördüm ki, həkimlər əsəbiləşdilər və ermənicə söydülər. Mən başa düşdüm ki, bura ermənilərin hospitalıdır. Bundan sonra əlim ixtiyarsız yanıma düşdü. "Demək, məni əsir götürüblər", - deyə düşündüm.

Bilirdim ki, ermənilər əsir götürdükləri Azərbaycan əsgərini sağ buraxmırlar. Məni ona görə ayıldıblar ki, məndən nəsə öyrənsinlər. Sonra işimi bitirəcəklər. Ancaq Allah- Təala məni özü amansız ermənilərdən qoruyub saxladı.

Ertəsi gün xoşbəxtlikdən QXC-nin nümyəndəsi gəldi. Məni bu vəziyyətdə görüb təcili Xankəndinə - xəstəxanaya götürməyi təkid etdi. Həmin gün QXC-nin nəzarəti altında məni Xankəndinə gətirdilər. Xəstəxanada üzərimdə cərahiyyə əməliyyatı aparıldı. QXC-nin köməyi ilə tam sağalandan sonra məni kamendaturaya apardılar. On gün orada qaldım, necə əsir düşdüyümü soruşdular. Anladım ki, onlar mənim döyüşçü olduğumu bilmirlər. Ona görə də erməni zabitini inandırmağa çalışdım ki, mülki vətədaşam. Bakıda kommersiya işləri ilə məşğul oluram. Ağdama qohumlarımızın ev əşyalarını maşınla aparmağa gəlmişdim. Maşını vurub partlatdılar, iki nəfər qohumum öldü, məni isə qaçanda arxadan güllə ilə vurdular. Ermənilərdən biri tez soruşdu ki, vurulan sarı rəngli maşın idimi? Mən onun dediyini təsdiqlədim. "Səni biz əsir götürmüşük",

- deyə həmin erməni doğru danışdığımı təsdiqlədi. On gündən sonra məni yenidən Martuniyə gətirdilər. Orada ermənilər mənim döyüşçü olduğumu bilirdilər. “**Aha, biz səni axtarırdıq**”- deyə məni əsir götürən erməni əsgərləri dubinka ilə döyməyə başladılar. Onların fikiri məni döyə-döyə öldürmək idi, amma Qırmızı Xaç buna imkan vermədi. Vəziyyəti hər tərəfli anlayan QXC-nin nümayəndəsi Pyer məni oradan çıxarıb Xankəndindəki həbsxanaya gətirdi. Çünki Pyer başa düşdü ki, Martunidəki ermənilər mənim döyüşçü olduğumu bilirdilər və tezliklə məni öldürəcəkdilər. Həbsxanada olarkən kamera yoldaşlarımla çox danışmağı xoşlamırdım. Ona görə ki, ermənilər bizim söhbətlərimizə qulaq asırdılar.

**- Sizinlə bir kamerada olan yoldaşlarımızın adlarını deyə bilərsənmi?**

- Mən onlardan ancaq ikisinin adını deyə bilərəm. Onlardan birinin adı Həsən idi, Füzulidən. İkinci oğlan isə kəlbəcərli Mamedov Novruz idi.

**- Yemək, su necə? Verirdilərmi?**

- Yemək deyəndə ki, sutka ərzində bir qab qaynadılmış buğdanın suyu, bir də iki barmaq enində qara çörək verirdilər, bir kruşka da su. Sutka ərzində yediyim yemək bundan ibarət idi.

**- Sizi işlədirdilərmi?**

- Bəli, bizi Ağdama gətirib, evləri, qəbiristanlığın dəmir hasarlarını, təzə qəbirlərin baş daşlarını sökdürürdülər. Həmin daşların üzünü yonub öz ölənləri üçün baş daşı düzəldirdilər.Bir müddət keçəndən sonra məni həbsxanadan çıxarıb Xankəndindəki avtomobil məktəbində yerləşən erməni batalyonuna gətirdilər.

**- Ermənilərin “humanistliyi”nin heç şahidi olmadınızmı?**

- Hansı humanistliyi nəzərdə tutursunuz, onu deyə bilmərəm, mən həqiqətən də bir daha şahid oldum ki, ermənilər türk millətinin bağışlanmaz düşmənidir. Onu da deyim ki, mənim əzablı günlərim həmin batalyona gətiriləndən sonra başladı.

Hər gün bizi möhkəmcə əzizşdirirdilər.Sifətimizdən, başımızdan qan axdığını görən ermənilər “Bax, türkün qanını beləcə

axıdarlar”,- deyə sevinirdilər. Sonra onlar bizi qanlı-qanlı “ovçarka” itlərinin saxlandığı yerə atırdılar. Ermənilər bunu belə izah edirdilər ki, qoy onların itləri də türk qanını tanısınlar, harda türk gördülər, ona hücum etsinlər. “Bizim hətta, itlərimiz də türk qanına susamağı öyrənməlidir”,- deyə erməni dığaları qəhqəhə çəkib gülürdülər.

Ermənilərin qəddarlığını sadalamaqla qurtaran deyil, onların azərbaycanlı əsirlərinə qarşı etdikləri qeyri- insani hərəkətləri bütün dünya ictimaiyyətinə  çatdırılmalıdır.

Bəzən elə olurdu ki, əsirlər qabaqlarındakı buğda suyunu yedikləri zaman erməni əsgəri xoşuna gəlməyən, gözünə pis görünən əsiri qəfildən arxadan taxta və yaxud da odun parçası ilə başından vurub qanını yediyi qaba axıdırdı. Əgər ermənilər bir nəfəri başqa əsirlərə nisbətən hər gün daha çox döyürdülərsə, deməli, həmin adam artıq ölümə məhkum olunubdur. O, ölməliydi. Onlar hər həftə bir əsir öldürürdülər.

Ermənilərin bu “qanunu” Şuşa həbsxanasında da icra edilirdi. Bu, təkcə “döyərək öldürmə” üsuluna aid idi. Ermənilər bayramlarında isə mütləq türk başı kəsməliydilər. Onlar həmin bayramlarda əsir düşmüş azərbaycanlını öz övladlarının qəbri üstünə aparıb qəbr üstündə bu “mərasimi” yerinə yetirirdilər. Əsir düşmüş qadın və qızlarımızın başına açdıqları iyrənc hərəkətləri isə dilə gətirmək mümkün deyildir.

Açığını deyim ki, “Qırmızı Xaç” olmasaydı, ermənilər bircə nəfər də olsun, azərbaycanlı əsirini sağ  verməyəcəkdilər. Onlar QXC-dən bir az çəkinirdilər...

Beləliklə, 1996-cı il mayın 10-da 67 nəfər azərbaycanlı əsir, həmçinin mən QXC-nin köməyi ilə uzun sürən cəhənnəm əzabından xilas edildik. Elə şeylər var ki, onları demək mümkün deyil. Ancaq mən 1993-cü il dekabrın 15-də Martuni istiqamətində gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə bir nəfəri xüsusi geyd etmək istəyirəm. O, leytenant Əliyev Zaur Novruz oğlu idi. Ölümün gözünə dik baxan, qorxmaz, igid oğlanlardan biriydi. Zaur ailənin yeganə oğlu idi. İki bacısı var. Həmin il dekabrın 27-də bacısının

toyu, yanvarın 1-də isə öz toyu olmalıydı. Döyüşə getməmişdən əvvəl hamımız bir yerə toplaşıb Zauru evlərinə yola salmaq istədik. Ancaq Zaur bizim təklifimizə qəti etiraz etdi. Dedi ki, siz burada vuruşacaqsınız, mənsə toyda yeyib-içib şənlənəcəyəm? Bunu kişiliyimə heç cür sığışdıra bilmərəm. Qoyun bu döyüşdə erməni dığalarının ağız-burnunu əzişdirək, sonra da toy məsələsinə baxarıq. Bu döyüşdə Zaur misli görünməyən qəhrəmanlıq göstərdi. Ermənilər həm sayca, həm də döyüş texnikası cəhətdən bizdən xeyli üstün idilər. Şiddətli döyüş gedirdi. Sıralarımız getdikcə seyrəlirdi. Zaur bütün növ silahlardan atəş açırdı. Döyüş sursatımız qurtarmaq üzrə idi. Ermənilər isə getdikcə irəliləyirdilər. Zaur uşaqlara dedi ki, geri çəkilsinlər. Özü isə döyüş meydanında tək qalacaq və erməniləri ləngidəcək. Amma: "Ölsək də bir yerdə öləcəyik, ancaq geri çəkilməyəcəyik," - deyə hamısı bir ağızdan dilləndilər. Zaur təkbaşına çoxlu erməni öldürdü. Bundan əlavə, o, bizə yaxınlaşmaqda olan BMP -ni qumbaraatan silahla vurub yandırdı. Elə bu zaman onu çoxdan bəri hədəfə almağa çalışan erməni snayperi öz istəyinə çatdı. Bir andaca Zaurun başı çiyninə düşdü. Mən tez özümü yetirib onu qucaqladım. Həmişə yoldaşlarına: "ölüm məndən qorxur" - deyən Zaur artıq keçinmişdi. İkinci atəş mənim qolumu yaraladı.

Məncə, o, döyüşdə uşaqlarımızın hamısı qəhrəmancasına həlak oldu. Biz Zaur kimi Vətən oğullarını heç bir zaman unutmamalıyıq...

## Cəhənnəmdən qayıtmışlar

**Sarıyev Əli Zöhrab oğlu** 1952- ci ildə Beyləqan rayonu Dünyamalılar kəndində anadan olub. O, Yunan- Roma güləşi üzrə 5 dəfə Azərbaycan  çempionu, bir çox Ümumittifaq və Beynəlxalq turnirlərin qalibi və mükafatçısı, metodist müəllim, Azərbaycanın maarif əlaçısı, ali dərəcəli məşqçidir.

- 1993-cü il oktyabrın 31-də şəxsi "Jiquli" markalı maşınımda Ağdam rayonunda ermənilər tərəfindən əsir alındım. Mənimlə birgə atam-1925 - ci il təvəllüdlü Sarıyev Zöhrab Abdulkərim oğlu, anam- 1929- cu il təvəllüdlü Sarıyeva Sifeyrə Misir qızı, 1971- ci il təvəllüdlü Paşayeva Gülnarə Yaqub qızı da əsir düşdü.

Əsir düşmüş qadınları Xankəndində, kişiləri isə Şuşa həbsxanasına apardılar. Əsirlikdə olduğum 1 il 8 ay 8 gün müddətində ermənilərin azərbaycanlıların başlarına gətirdikləri min cür oyunların, qəddarlığın, vəhşiliyin şahidi oldum. Qəzetinizdə yazdığınız azərbaycanlı əsirlərin ermənilər tərəfindən hansı işgəncələrə, dözülməz müsibətlərə məruz qaldıqları barədə göstərilən faktlar hamısı doğrudur. Mən donuzlara baxırdım. Uşaqlara isə ac-susuz meşədə ağac qırdırırdılar. Axşamlar gətirib yenidən kameraya salırdılar.

Bir gün kamera yoldaşlarım mənə donuzlara verilən yeməkdən onlara da gətirməyi xahiş etdilər. Bundan əvvəl bir neçə dəfə donuzlara verilən yeməkdən gizlicə kamera yoldaşlarıma vermişdim. Ancaq növbəti dəfə ermənilər bunu gördülər. Onlar məni atamın gözləri qarşısında vəhşicəsinə döydülər. Sonra isə ayağımdan yerə mıxladılar. Atam mənə baxıb gözünün yaşını sel kimi axıdırdı. Mən isə dözürdüm. Bundan sonra məni yaralı vəziyyətdə yarıya kimi su ilə doldurulmuş zirzəmiyə saldılar. Ayağım şişməyə başlamışdı. Həmin vaxt Qırmızı Xaçın nümayəndələri olmasaydı, elə oradaca öləcəkdim. Ermənilər ağır yaralı əsirləri Qırmızı Xaçdan gizlədirdilər.Yoldaşlarım mənim barəmdə onlara məlumat verəndən sonra ermənilər məni zirzəmidən çıxartmalı oldular.

Ertəsi gün QXC-nin nümayəndələri bir neçə xəstə əsirlə birlikdə məni Xankəndindəki xəstəxanaya apardılar. Orada üzərimdə ağır cərrahiyyə əməliyyatı aparıldı...

1995-ci il iyulun 8-də QXC-nin köməyi ilə cəhənnəm əzabından azad oldum.

**Sarıyev Zöhrab Abdulkərim oğlu**, 1925- ci ildə Beyləqan rayonun Dünyamalılar kəndində anadan olub. 1993-cü il oktyarbın 31-də Ağdam rayonunda əsir düşüb.1994-cü il aprelin 8-də QXC-nin köməyi ilə əsirlikdən azad edilib.

- Əsir olduğum müddətdə ermənilər tərəfindən həyatımda görmədiyim vəhşiliklərin, amansızlıqların şahidi oldum. Əsirlərimizin başlarına gətirdikləri dözülməz işgəncələr barədə qəzetinizdə ətraflı yazmışdınız. Onu da qeyd edim ki, ermənilər əsirlərlə elə rəftar edirdilər ki, bunları dilə gətiriləsi deyil.Onlar bizim ölüləri də təhqir edirdilər. Bizi Azərbaycan qəbiristanlıqlarına aparıb oradakı yaxşı baş daşlarını sökdürüb maşınlara yığdırırdılar. Bunlarla ürəyi soyumayan ermənilər cavan rəhmətə getmiş soydaşlarımızın qəbirlərini sökdürməyə məcbur edir, meyitlərin qızıl dişlərini çıxardırdılar.

**Abutalıbov Mikayıl Musa oğlu**, 1955-ci il avqustun 16-da Kəlbəcər rayonunun Bozlu kəndində anadan olub. 1993-cü ilin aprel ayında Kəlbəcərin işğalı zamanı əsir düşüb.

- Mən 1970-ci ildən Bərdə rayonunun Qaradəmirçi kəndində traktorçu işləyirəm. Kəlbəcərin işğal olunması xəbərini eşidəndə qohumlarımdan xəbər tutmaq üçün oraya getdim. Onu da deyim ki, mən Kəlbəcərdə qalan 9 yaşlı oğlum, əmim Lətif, əmim yoldaşı Namazova Xəzangülü, xilas etməkdən ötrü bacanağım Məmmədov Novruz və yeznəm Mirzalıyev Kamalla birlikdə oraya getməyi qərara aldıq. Mən əvvəlcə onların getməsinə etiraz etdim. Ancaq... Kəlbəcər yolunda hamımız ermənilər tərəfindən əsir götürüldük. Biz erməni daşnakların əsirlərimizə verdikləri görünməmiş işgəncələrin, qəddarlıqların, iyrənc vəhşiliklərin, əxlaqsızlığın şahidi olduq...

Əsirlikdə olduğum müddətdə həytımda görmədiyim və ağlıma belə gətirə bilmədiyim hadisələrin şahidi oldum. Ermənilərin azərbaycanlı əsirlərin, xüsusilə əsir düşmüş döyüşçü əsgərlərin başlarına gətirdikləri amansızlıqları və qeyri-insani hərəkətləri öz gözlərimlə gördüm. Bəzən elə an olurdu ki, öz əzablarımı

unudurdum. Şuşa həbsxanasında olarkən bizi meşəyə ağac qırmağa aparırdılar. Səhərdən axşama kimi işləyirdik. Axşam həbsxanaya gətirəndə həyətdə bizi sıraya düzüb möhkəmcə döyürdülər, sonra da "indi axşam yaxşı yatarsız"- deyə kameralara salırdılar. Uşaqların çoxu səhərə çıxmır, elə kameradaca həyatla vidalaşmalı olurdular. Bir epizodu heç vaxt unuda bilmirəm. Bir gün bizi maşına yığıb bir erməni qəbiristanlığına gətirdilər. Ermənilər dedi ki, onların bu gün bayramıdır. Ona görə də burada bir Azərbaycan əsgərini qurban kəsəcəklər. Onun ətindən isə biz hamımız qurban əti kimi yeməliyik. Əclaflar dedikləri kimi də etdilər. Cavan, cüssəli bir əsgəri qəbirlərin birinin üstündə kəsdilər, bizi də ətini yeməyə məcbur etdilər. Bütün bunlara dözmək olmurdu. Qaçmaq üçün imkan axtarırdım.

Sonra məni bir neçə əsirlə bərabər işləmək üçün Xocalıya gətirdilər. Nəyin bahasına olursa-olsun buradan qaçmağı planlaşdırdım. 1994-cü il iyulun 14 -də Xocalıdan qaçdım. 14 gün gecələr yol gedib, gündüzlər gizlənirdim. Bu müddətdə yediyim quru meyvə və ot olub. On dörd gündən sonra mən Daşkəsən rayonuna gəlib çıxdım. Onu da deyim ki, əsir düşməmişdən əvvəl 106 kq çəkim var idi, evə qayıdanda isə 64 kq idim...

**Məmmədov Novruz Qurban oğlu:**

-...Bizi səhərdən axşamadək ac-susuz işlədirdilər.Hər gün döyürdülər.İşgəncələrə dözməyib 4 nəfər adam əsirlikdən qaçmağı qərara aldıq. Mikayıla bu cəhənnəm əzabından qaçıb xilas olmaq nəsib oldu.Biz isə minalanmış sahəyə düşdük. Yoldaşımın biri minaya toxunub öldü. Aydının isə qılçasının birini apardı. Mən isə daha irəli gedə bilmədim. Ermənilər bizi yenidən tutdular.Əgər adlarımız QXC-nin siyahısında olmasaydı, onlar bizi dərhal öldürəcəkdilər.

Mənə verilən işgəncələrdən sonra gündə bir neçə dəfə ölüb yenidən dirilirdim. Döyülməkdən axşamlar uzana bilmirdim, sümüklərimin ağrısından gözlərim yumulmurdu. Ağrılardan tez-tez bayılırdım. Bəzən isə onlar mənə elə dərmanlar verirdilər ki, başım

keyləşirdi. Bundan əlavə onlar damarlarımıza şprislə nəsə vururdular. Bundan sonra heç bir şey hiss etmirdik, heç bir şey xatırlamırdıq. Sonradan öyrəndik ki, ermənilər bu dərmanlarla hafizəmizi korlayıb, buradakı gördüklərimizi xatırlaya bilməyək və ya kiməsə söyləməyək.

# Siz kimsiniz, "general Əli bəy?"



**Tanışlıq:** *Qasımov Əlövsət Zöhrab oğlu, 1961 - ci ildə Ermənistanın Vedi rayonunun Yengicə kəndində anadan olub. 1988-ci ildə ermənilər tərəfindən öz doğma yurd- yuvalarından qovularaq Tərtər rayonunun Bəyimsarov kəndində məskunlaşıblar.*

***- Əli bəy, Sizin haqqınızda çox eşitmişəm. Müharibənin ilk günlərində, yəni 1988- ci ili nəzərdə tuturam, özünü müdafiə üçün kənd cavanlarından ibarət könüllü dəstələr yaradılmasına***

***başçılıq etmisiniz. Bildiyimizə görə, o vaxtlar Vahid mərkəzdən idarə olunmayan bəzi könüllü dəstələr kortəbii şəkildə, qeyri-ciddi, intizamsız formada fəaliyyət göstərirdilər. Sizin yaratdığınız dəstələrdə necə, nizam- intizam qaydalarına əməl edilirdimi?***

- Düz deyirsiniz, Camal müəllim, o vaxtlar kim gəldi özü üçün kiçik silahlı dəstələr yaradırdı. Bəzi dəstələrin məqsəd və niyyətləri heç də torpağı qorumaq, Vətəni müdafiə etmək deyildi. Nəsə, belə dəstələr artıq hamıya məlumdur. Onlardan heç danışmağa dəyməz, çünki o cür adamlar millətimizə ləkədir. Bizim könüllü dəstələr isə zərurətdən yaranmışdı. Belə ki, erməni yaraqlıları tez-tez kəndlərə hücum edir, mal-qaranı yığışdırıb aparır, adamları isə girov götürürdülər. O zaman kəndimizin müadfiəsi üçün 15 nəfər milis işçisi ayrılmışdı. Əlbəttə, yaxşı silahlanmış erməni yaraqlılarının qarşısında bu, çox cüzi bir qüvvə idi. Ona görə də mən Aydın Qasımovun məsləhəti ilə /Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin rəisi, general-mayor Aydın Qasımov nəzərdə tutulur-C.Z/ kənd cavanlarından 85 nəfər seçərək özünümüdafiə dəstəsi yaratdım. Bir müddət onlara silahı söküb-yığmağı öyrətdim. Hədəfə nişan alma qaydalarını öyrətdim. Sonralar bu dəstə erməni dığalarına qan uddurdu. Mən həmin uşaqlarla 1989-cu ildən 1993-cü ilin avqust ayına kimi ermənilərə qarşı necə lazımdır döyüşmüşəm. 1993-cü ilin avqust ayında Ağdərə bölgəsində Akop-Komari kəndi uğrunda gedən döyüşlərdə böyrəyimdən yaralandım. Məni Goranboyun hospitalına gətirdilər. Orada həkimlər böyrəyimin birini çıxartdılar və 45 gün müalicə olundum. Hospitalda müalicə olunduğum zamanda döyüşçü dostlarımdan xəbər tuturdum. Kimin şəhid olması, kimin yaralanması, kimin sağ qalması barədə məlumat əldə edirdim.

***- Əli bəy, necə oldu ki, Siz naməlum şəhidləri müəyyənləşdirdiniz, özü də 950 nəfər şəhidi?***

- Hospitalda müalicə olunduğum vaxt döyüş zonasında çoxlu meyit gətirdilər və onların hamısını naməlum əsgər adıyla Tərtər qəbiristanlığında basdırdılar. Mən bunun düzgün olmadığını özlüyümdə müəyyən etdim. Çünki sabahısı gün ölənlərin valideynləri öz övladlarını axtaracaqdılar. Ona görə də mən gizlicə gecələr həmin şəhidləri qəbirdən çıxarıb onların bir-bir əlamətlərini özümçün qeyd edirdim, şəklini çəkib ayrı yerdə cərgə ilə basdırırdım və qəbirlərinin üstünə də nişangah qoyurdum. Bu yolla onların naməlum adı altında dəfn etdikləri 87 şəhidin şəxsiyyətini müəyyənləşdirdim.

***- Bəs necə oldu ki, özünüzü "general Əli bəy" adlandırdınız?***

- Mən bu işimi davam etdirdim. Döyüş mövqeyində həlak olmuş şəhidlərimizi oradan çıxarıb yenə əlamətlərini və şəxsiyyətlərini müəyyən etdikdən sonra Tərtər qəbiristanlığında dəfn edirdim. Uşaqlardan birisi bunu bir dəfə görüb mənə: "Səndə əsl general ürəyi var", dedi. Bu sözdən sonra özümü "general Əli bəy" adlandırmağa başladım. Bəzən döyüş mövqeyində qalmış meyidləri götürmək lazım gəlirdi. Kimə müraciət edirdimsə, əhəmiyyət vermirdilər. Ona görə də RİH başçısına zəng edib əmr edirdim: "Danışan general Əli bəydir! Şəhidləri bükmək üçün təcili polietilen və maşın göndərin!" Əlbəttə, maşının hara göndərilməsinin dəqiq ünvanını deyirdim. Sağ olsunlar ki, general Əli bəyin əmrini dərhal yerinə yetirirdilər. Bu yolla Şəki, Ağsu, Yevlax, Mingəçevir, Qazax, Masallı, Lənkəran, Göyçay, Astara və digər rayon İHB-na zəng edib yaralıları və şəhidləri lazımi ünvanlarına çatdırılması üçün maşın göndərmələrini tələb edirdim. Beləliklə, 20 dəfədən çox rayon komissarlığına, Respublika Hərbi Komissarlığına, Müdafiə Nazirliyinə zəng edib onlardan şəhidləri bükmək üçün polietilen, tabut, maşın və ya vertolyot göndərmələrini tələb etmişəm. Bütün əmrlərim də yerinə yetirilirdi. Bu yolla mən hərbi hissəyə 39 ton benzin qənaət etdim. Bəzən elə olurdu ki, döyüş mövqeyindən

meyitləri götürmək mümkün olmurdu. O vaxt Naxçıvanda Heydər Əliyevlə görüşəndə mənə “gecə görən” binokl vermişdilər. Gecəykən meyitləri döyüş mövqeyindən çıxarılmasında bunun köməyi çox oldu.

- ***Bildiyimizə görə, ermənilər meyitlərlə də amansız rəftar edirdilər, onları eybəcər hala salmışdılar ki, əsgərlərimizdə vahimə yaratsınlar, onların döyüş əzmini hər vasitə ilə qırmağa çalışsınlar.***

- Tamamilə doğru deyirsiniz. Onlar meyitlərimizi eybəcər hala salırdılar; kimisinin qolunu, kimisinin qıçlarını, kimisinin başını kəsir, gözlərini çıxarırdılar, kimisinin dərisini soyurdular. Çox vaxt isə meyitlərin altına mina qoyurdular ki, götürəndə partlasın. Açığını deyim ki, ilk dəfə döyüşə girən əsgərlər meyitləri bu halda görəndə “Ay dədə, bizi də bu günə qoyacaqlar”,- deyə bəziləri döyüş mövqeyindən qaçmağa məcbur olurdular. Buna görə də təzə əsgərlər bu dəhşətli mənzərələri görməsinlər deyə meyitləri bacardıqca tez döyüş mövqeyindən götürməyə çalışırdım.Əlbəttə, bu , asan iş deyildi.

- ***Əli bəy, bu çətin işdə Sizə kimsə kömək edirdimi?***

- Bütün bu işləri mən tək görmüşəm. Bir adam deyə bilməz ki, 1992- ci ildən 1994- cü ilin mayın 14-nə qədər kimsə gedib hardansa bir meyit gətirib. Elə olub ki, meyidi mövqedən çıxartmaq üçün mənə on günlərlə vaxt lazım olub. Mən onlardan bir neçəsini misal göstərmək istəyirəm. Məlikov Namiq Papanində yaşayırdı. 4 həftədən sonra meyidini döyüş mövqeyindən çıxarda bildim. Musanın /Sumaqayıtdandır/ meyidini 4 həftədən sonra, Allah-verdinin /İmişlidəndir/ meyidini 25 gündən sonra, Yevlaxdan, Qəbələdən və digər rayonlardan 86 nəfərin meyidini çox uzun zaman bir müddət keçəndən sonra döyüş mövqeyindən çıxarda

bilmişəm. Onların şəxsiyyətini bəzilərinin ciblərindəki anasına və nişanlısına yazdığı məktublarla, bəzilərində olan "nakolka" ilə müəyyənləşdirir, sonra da valideynlərini axtarıb tapırdım. Elə meyit olub ki, onun barmağında bir ədəd qızıl üzük olub. Həmin üzüyü də şəhidin valideynlərinə yazılı kağız vasitəsilə təhvil vermişəm.

***- Əli bəy, Qarabağ döyüşlərində ən dəhşətli hansı döyüş səhnəsini xatırlayırsınız?***

- Ən dəhşətli döyüş Fərrux dağı /1993-cü il aprelin 17-də/ uğrundakı döyüş idi. Həmin bölgədə 23 batalyonumuz döyüşürdü. Komandirlərin səriştəsizliyi ucbatından bu döyüşdə xeyli itkilərimiz oldu. Mən görürdüm ki, komandirlər itkilərin sayını qəsdən düz demirdilər.Onlar Müdafiə Nazirliyinə hesabat verəndə 2 nəfər itki olduğunu qeyd edirdilər. Mən isə itkilərimizin dəqiq hesabını aparırdım özümçün. Komandir bunu biləndən sonra məni hospitalda "plotnik" elədilər, yəni şüşə-pəncərə təmir edən.

Bu döyüşdə mən mövqedən 108 avtomat silahı, on minlərlə patron gətirib hərbi hissəyə təhvil vermişəm. 158 şəhidi döyüş mövqeyindən çıxardıb şəxsiyyətlərini müəyyən etdikdən sonra Tərtər qəbiristanlığında bir cərgədə basdırmışam.

***- Əli bəy, dediyiniz kimi, elə meyitlər olurdu ki, döyüş mövqeyində uzun müddət qalıb iylənirdi. Bu zaman Siz hər hansı bir xəstəliyə tutula bilərdiniz.***

- Düz deyirsiniz, ancaq görünür, Allah- təalanın nəzəri üstümdə olub. Məni hər hansı bir bəlaya düçar olmaqdan xilas edib. Bir də ki, hər dəfə şəhidə yaxınlaşanda elə bilirdim ki, onu birinci dəfədir görürəm. Düzdür, qurd basmış meyidi görəndə məni əvvəlcə öyümək tuturdu, amma birdən xəyalımdan keçirdi ki, axı, bu, şəhiddir, torpaq uğrunda həlak olub. O ki, qaldı xəstəliyə

tutulmağıma, cəmi bircə dəfə qanımı dəyişiblər. Mən eyni zamanda gigiyena qaydalarına ciddi əməl edirdim.

***- Cənab "general", bildiyimizə görə, bu müharibədə ermənilər ən iyrənc və alçaq vasitələrdən istifadə etməkdən belə çəkinmirdilər. Bu barədə nə deyə bilərsiniz?***

- Düz deyirsiniz, Camal müəllim.Bir dəfə Sərsəng su anbarından gələn sudan bir batalyondan 72 əsgər istifadə etdikləri zaman qarın yatalağına tutumuşdular. Həkimlər əvvəlcə nə qədər çalışırdılarsa səbəbini aydınlaşdıra bilmirdilər. Onlar 10 gün əsgərlərin qarınlarının ağrısını kəsə bilmədilər. Sonradan bir çoban məlumat verdi ki, suda meyid görüb. Bundan sonra məlum oldu ki, meyid suda qaldığından suya  zəhərlənmə verib. Sən demə, ermənilər 7 meyidi Sərsəng su anbarında axan kanalın başlanğıcında məftil ilə suyun altında bağlayıblar ki, bu sudan istifadə edən azərbaycanlılar zəhərlənsinlər. Həmin meyitləri sudan mən çıxartdım.

Ikinci bir faktı misal göstərim: bir dəfə də döyüş mövqelərinin birindən şəhidləri çıxararkən bir erməni  meyidinə rast gəldim. Ciblərindən sənədlərini axtararkən maye ilə dolu olan, ağzı bağlı bir banka tapdım. Əvvəlcə, bunun nə olduğunu anlaya bilmədim. Sonradan öyrəndim ki, erməni zabitləri öz əsgərlərinə göstəriş verib ki, hansı əsgər bir türk öldürərsə, ona pul veriləcək, türkün də türk olduğunu ermənilər onun cinsiyyət orqanından müəyyən edirmişlər. Buna görə də hansı erməni əsgəri türkün kişiliyini kəsib aparırdısa, həmin dığaya 25 min dram pul verirdilər. Bu maye dolu banka da onun üçünmüş ki, döyüş zamanı həlak olmuş türkün kişiliyini kəsib maye dolu bankaya atsınlar. Sonra da bankanı sübut üçün erməni zabitlərinə göstərirmişlər.

***- Əli bəy, ümumiyyətlə, indiyə kimi nə qədər şəhidin şəxsiyyətini müəyyənləşdirib valideynlərinə təhvil vermisiniz?***

- Mən hospitala düşəndə torpağa naməlum adıyla 950 şəhid tapşırılmışdı. Mən məlum olanlardan söhbət açmıram. Döyüşdə ölüb, dostu aparıbsa, onu demirəm. Şəxsən mən özüm 1992- 96-ci illərdə yuxarıda adını çəkdiyim bölgələrdə 950 naməlum şəhid aşkar etmişəm. Onların hər birinin şəxsiyyətini müəyyənləşdirərək valideynlərinə çatdırmışam. İndiyə kimi 938 naməlum şəhidi alilərinə təhvil vermişəm. Qalıb 12 nəfəri. Axtarışlarımı davam etdirirəm.

- ***Belə çıxır ki, saqqalınızı ona görə qırxdırmırsınız?***

- Bəli, nə vaxt 12 şəhidin də valideynini tapıb onlara təhvil versəm, onda saqqalımı qırxacam.

**P.S.:** *"General" Əli bəy rəsmi olaraq, 1992- ci ilə kimi döyüş bölgələrindən yaralı əsgərlərin və meyitlərin üstündən 1017 avtomat silahı hərbi hissi komandirlərinə, silah anbarına və polis idarəsinə təhvil verib. Bundan əlavə, o, 10 minə qədər patron, 4 ədəd qumbaratan, 6 ədəd PK pulemyotu hərbi hissyə təhvil verib. Əli bəy Yevlax aeroportundan 14 şəhidi tək Naxçıvana yola salıb. O, bütün bunları özünün vətəndaşlıq borcu sanır.*

*Əli bəy erməni dilini yaxşı bildiyindən dəfələrlə erməni mövqelərində kəşfiyyatda olub. Növbəti kəşfiyyatların birində o, ermənilərdən 5 avtomat silah əldə edərək, gətirib öz hərbi hissələrinə təhvil verib. Açığını deyək ki, Əli bəy hələ çox şeyləri demək istəmədi, daha doğrusu, lazım bilmədi...*

*Biz isə "general" Əli bəyin gördüyü bu işləri gələcəkdə tarixə yazılası əsl qəhrəmanlıq salnaməsi adlandırırıq.*

**Bakı, 21.01. 2000**

# "General Əli bəy"in Erməni vəhşiliyini əks etdirən şəkilləri










1992-ci ildə öldürülmüş cəsədə ermənilər mina qurğusu birləşdirmişdilər.Cəsəd götürülərkən partlamışdı.
Xanlar rayon sakinidir.
Fb.com/KarabakhWarPictures


1992-ci ildə erməni əsirliyində olan azərbaycanlı hamilə qadın işgəncələrə dözə bilmədiyi üçün şüşə parçası ilə özünə qəsd edir boynunun damarını kəsir. Erməni döyüşçüsü qəzəblənərək əsirlərin gözləri qarşısında çörək piçağı ilə qadının qarnını yarır.Azərbaycanlı əsirlərə deyir ki, biz sizin kökünüzü ana bətnində bax, belə kəsəcəyik. Bu hadisəni əsirlikdən geri qaytarılan əsgərimiz söylədi. Səhər saat 5 radələrində əsgərlərlə birlikdə cəsədi ərazimizə gətirə bildik. Bu cəsədin gətirilməsində **mənə Ulu öndərimiz Heydər Əliyevin bağışladığı gecə görəmin köməyi oldu.**
Fb.com/KarabakhWarPictures


Fb.com/KarabakhWarPictures
Ermənilər tərəfindən işkəncəylə
öldürülmüş Azərbaycanlı savaş əsirləri...


Foto: Əlövsət Qasımov


Foto: Əlövsət Qasımov

# Tarixi həqiqətlər, faktlar...

# Birinci Dünya müharibəsi ərəfəsində erməni terror dəstələrinin yaradılması və Rusiya tərəfindən ermənilərin Türkiyə əleyhinə silahlandırılması

XIX əsrin sonu XX əsrin əvvəllərində ermənilər terror dəstələri yaradaraq Osmanlı dövlətinin əraziləri ilə Osmanlı dövlətinin mövcudluğunu istəməyən böyük dövlətlər hesabına özlərinin dövlətini yaratmaq istəyirdilər. Bu işdə ermənilərə böyük dövlətlər tərəfindən köməklik edilirdi. Erməni terror dəstələrinin yaradılması və fəaliyyəti haqqında yazılmış ədəbiyyat və faktlarla tanış olmadan öncə türk-erməni, rus-erməni və türk-rus münasibətlərini nəzərdən keçirməyimiz məqsədə uyğundur.

Səlcuq türkləri tərəfindən Anadolu fəth edildikdən sonra ermənilərə geniş hürriyyət, dini inam və ibadətlərində sərbəstlik verildi. Osmanlı idarəçiliyi dövründə də ermənilərə qarşı münasibət dəyişməmişdir. Fateh Sultan Mehmet İstanbulu fəth etdikdən sonra 1461-ci ildə Bursadakı erməni patriarxı Avakimi bir sıra erməni ailəsi ilə birlikdə İstanbula dəvət etmiş və Samatyadakı «Sulmanastır» adlanan kilsədə erməni patriarxlığını təsis etdirmişdir. İstanbulda patriarxlıq təsis edildikdən sonra burada böyük bir erməni koloniyası yaradılmışdı. XX əsrin axırlarına yaxın İstanbulda 150 min nəfərə yaxın erməni yaşayırdı.

Hətta uzun müddət Ərzurumda rus konsulu olmuş general Mayevski Türkiyədə ermənilərin yaxşı həyat şəraitinə malik

olduqlarını etiraf etməli olmuşdur. O yazırdı ki, Türkiyədəki şəhərli ermənilər həmişə kifayət qədər azadlığı, təhlükəsizliyə və firavanlığa malik olmuşlar; kəndli ermənilər, həmişə kifayət qədər ərzaq məhsullarına malik olmuşlar, onların maddi rifah halı rusiyanın orta hissəsində rus kəndlilərinin maddi rifah səviyyəsindən yüksək olmuşdur.

Ermənilərin Osmanlı dövlətindən ilk ayrılıq hərəkatları 1828-1829-cu illər Osmanlı-Rus müharibəsində ortaya çıxdı. Müharibə zamanı ermənilər Osmanlı qoşunlarının mövqeyi və durumu haqqında Rus ordusuna məlumat verərək Şərqi Anadolunun işğalının asanlaşmasında yardımçı oldular. Ancaq onu qeyd etmək lazımdır ki, erməni-rus əməkdaşlığının taixi Rus çarı I Pyotrun dövrünə təsadüf edir. Rusiyanın XVIII əsrin sonlarından bu günə qədər davam edən cənub siyasəti, Qara dənizdən və Rumelidən irəliləyib boğazları zəbt edərək Ağ (Aralıq) dənizə çıxmağı, Qafqaziya təriqi ilə də İsgəndərun körfəzindən Ağ dənizə, Mesapatomiyaya və İrandan irəliləyərək Bəsirdə Hind okeanından qarışmağı nəzərdə tuturdu. Bu siyasətin əsasını qoymuş I Pyotr Cənubi Qafqazı ələ keçirmək üçün və Osmanlı imperiyasına qarşı mübarizədə ermənilərdən istifadə etməyə çalışırdı. I Pyotrdan sonra gələn bütün rus çarları da onun açdığı yolla irəliləyərək ermənilərlə bağlı fəaliyyəti gücləndirmişlər.1816-cı ildə Moskvada «Erməni Şərq Dilləri İnstitutu» yaradılması buna bir daha sübutdur.

1828-1829-cu il Osmanlı-Rus müharibəsində baş vermiş hadisələrin təkrarına 24 aprel 1877-ci ildə başlanmış Osmanlı-Rus müharibəsində yenidən rast gəlindi. Ruslar din qardaşlarının köməkliyi ilə fəaliyyətini asanlaşdırmış oldular. Rus ordusunda xidmət edən erməni əsgərləri və xüsusən də erməni generalı Lozarev müharibənin gedişində dini müsəlman-türk əhlinin məhv edilməsində və ermənilərin ruslar tərəfindən çıxış etməsində böyük rolu olmuşdur. Müharibənin gedişində işğal edilən Şərqi Anadoluda yaşayan ermənilər arasında milliyyətçilik duyğularını hərəkətə

gətirən təbliğatlar edilirdi. Rusların bu xidmətindən təsir altına düşmüş ermənilər arasındakı məshəb problemini bir kənara qoyaraq birgə fəaliyyətə üstünlük verdilər. Şərqi Anadolunu əlində saxlamağı planlaşdıran Rusiya müstəqil Ermənistan fikrinin tərəfdarı deyildi. Onun məqsədi, Osmanlı ermənilərinin eyni Balkan millətlərində olduğu kimi rəğbətini qazanmaq idi. Rusiyanın gerçək niyyətini anlaya bilməyən ermənilər müharibə zamanı ruslara etdikləri xidmətin mükafatını almaq üçün hərəkətə başladılar. Erməni patriarxı Nerses Varjeberdiyan və İzmurilyanın rəhbərliyi ilə «Erməni Milləti» məclisində ermənilər öz istəklərini dəqiqləşdirdilər. Ermənilər Şərqi Anadoluda Fərat çayına qədər olan bölgələrin Türkiyəyə verilməsi və bunların Ararat vilayəti ilə birləşdirilərək Rusiyaya tabe Ermənistanın yaradılmasını, bu olmadığı halda Bolqarıstan və bolqar millətinə veriləcək imtiyazların erməni millətinə verilməsini, işğal edilmiş torpaqlar boşaldılacağı halda isə Osmanlı hökumətində islahat keçirilməsi üçün maddi bir təminat alınmasını və bu islahatın sona çatacağı vaxta qədər Rus əsgərlərinin işğal etdikləri torpaqları boşaltmamalarını istəyirdilər. 3 mart 1878-ci ildə San-Stefano müqaviləsində erməni istəkləri nəzərə alınaraq, onların yaşadıqları vilayətlərdə islahat keçirməyi və Rusiyanın bu işdə nəzarəti olacağı nəzərə alındı. Bu San-Stefano müqaviləsinin 16-cı maddəsində öz əksini tapdı. «Ermənistan» adlanan bir məmləkətin varlığının rəsmi sənəddə qeyd edilməsi ermənilər üçün çox böyük nailiyyət idi. Bununla yanaşı islahat tamamlanana qədər Rus qoşunlarının burada qalması rusların çox xeyrinə idi. Ancaq bu müqavilənin şərtləri İngiltərənin istəklərinin əksinə idi. İngilis ticarəti üçün həyati əhəmiyyət kəsb edən ticarət yolların Rusiya təsir altına keçməsi İngiltərəni heç cürə qane edə bilməzdi. Bu səbəbdən İngiltərə son razılaşmanın 1856-cı ildə bağlanmış Paris müqaviləsinin şərtlərini pozduğunu bəhanə edərək yeni bir konfransın təşkil edilməsini təklif etdi. Rusiya müharibədən yorğun çıxdığı üçün yeni bir

müharibənin başlanmasını istəməyərək İngiltərənin təklifini qəbul etməyə məcbur oldu.

13 iyun 1878-ci ildə toplanan Berlin konfransına erməni kilsəsi də bir heyət göndərdi. Keçmiş patriarx Hrimyan, Beşiktaş baş yepiskopu Noren Narbey, Stephan Papazyan və Minoş Çerezdən ibarət erməni heyəti Avropa paytaxtlarını gəzərək maraqlı dövlətlərin yardımını istəməklə işə başladılar. Berlin konfransında memorandiumla çıxış etmiş ermənilərin müstəqillik iddiaları konqresə sədrlik edən Bismark üçün gözlənilməz olmuş, amma o, buna qətiyyən maraq göstərməmişdir. Müzakirələrin sonunda San-Stefano müqaviləsinin 16-cı maddəsi Berlin konqresinin 61-ci maddəsi kimi qəbul edildi. Rusiya isə işğal etdiyi ərazilərin çoxunu Osmanlı dövlətinə qaytarmalı oldu.

Rusiya ilə İngiltərə arasında rəqabət, erməni mövzusunu dövlətlər arası məsələyə çevirdi. Bu vəziyyətdən cəsarətlənən ermənilər təşkilatlanma işlərini sürətləndirməyə və fəaliyyətlərinin miqyasını artırmağa başladılar. Ermənilər tərəfindən ilk cəmiyyət 1860-cı ildə İstanbulda yaradılmışdır. Bu cəmiyyətin adı «Xeyir-sevər Cəmiyyəti» (Benevolent Union) kimi qeyd edilir. Cəmiyyətin əsas məqsədi Kilikyanın müstəqilləşdirilməsi olmuşdur.

1870-ci il ilə 1880-ci illər arasında Vanda «Araratlı», Muşta «Məktəbsevənlər» və «Şərq», Ərzurumda «Milliyətçi Qadınlar» adlı dərnəklər meydana çıxmışdı. «Araratlı»; «Məktəbsevənlər» və «Şərq» cəmiyyətləri daha sonra birləşərək «Ermənilərin Birləşmiş Cəmiyyəti»ni qurmuşlar.

1872-ci ildə Vanda yaradılmış «**Qara Xaç Cəmiyyəti**» Amerikadakı «**Clu Clux Clan**» təşkilatının bənzəri idi. Bu cəmiyyətlərin məqsədi milli mənafelərə nail olmaq, gənclərin silahlandırılması və silahlı üsyanların təşkil edilməsi idi. 1881-ci ildə Ərzurumda «Ana Vətən müdafiəsi» (Pashtpon

Haireniats) təşkilatı yaradıldı. Bu təşkilat erməniləri silahlandıraraq üsyana hazırlamaq məqsədi güdmüş və Rusiyanın dəstəyi ilə öz fəaliyyətini Muş və Vana qədər genişləndirə bilmişdi. Xaçatur Krekçiyan, Karabet Nişkiyan, Aqop İşqalatsiyan, Aleksan Yetelikyon, Havannes Asturyan və Yegişe Tursunyan tərəfindən qurulmuş və təşkilat Ərzurum Yepiskopu Osmanyan və İstanbuldakı erməni patriarxı Nerses tərəfindən də dəstəklənmişdir. Cəmiyyət, 1882-ci ildə aralıq ayında, üzvləri həbs olduqdan sonra fəaliyyətini dayandırmalı olmuşdur.

İnqilabçı partiya kimi yaranan ilk təşkilat isə «Armenekan» partiyası olmuşdur. Partiya Vanda müəllimlik fəaliyyəti ilə məşğul olmuş, sonralar isə Vanda qalması qadağan edilmiş Mıqırdıç Portakalyanın 9 tələbəsi tərəfindən 1885-ci ilin payızında təsis edilmişdir. Partiyanın adı Portakalyan tərəfindən nəşr edilən «Armenia» qəzetindən götürülmüşdür. Bu cəmiyyət inqilab yolu ilə ermənilərin özünüidarəsinə nail olmağı qarşısına məqsəd qoymuş və fəaliyyət göstərdiyi müddətdə çoxlu cinayətlər törətmişdr. Partiyanın proqramı əllə 7-8 nüsxə yazılmış və ilk dəfə İkinci Dünya Müharibəsindən sonra nəşr edilmişdir. «Armenekan» məqsədinə çatmaq üçün əhali içərisində geniş millətçi təbliğat aparmağı, hərbi təhsil verməyi, silahlı dəstələr təşkil etməyi, sonra Avropa dövlətlərinin münasibətləri əlverişli olarsa Türkiyə əleyhinə çıxış etməyi lazım bilirdi. Bu partiyanın fəaliyyəti Qafqazdakı Rusiya hakimiyyət orqanları tərəfindən şirnikləndirilirdi. Lakin «Armenekan» partiyası erməni əhalisinin geniş dairələrini cəlb edə bilmədi və onun fəaliyyəti yalnız Türkiyənin bir neçə Şərq vilayəti ilə məhdudlaşdı. Daha fəal və daha kütləvi «Hnçak» və «Daşnaksütyun» partiyalarının meydana gəlməsi ilə Armenekanın nüfuzu heç dərəcəsinə endi.

**«Hnçak» («Zəng»)** partiyası 1887-ci ildə Cenevrədə Avetis Nazarbekyan və millətçi erməni tələbə mühacirləri tərəfindən təşkil edilmişdir. Avetis Nazarbekyan «Armenia» qəzetində çox radikal yazılar çap etdirməklə erməni oxucular içərisində rəğbət

qazanmışdı. O, 1886-cı ilin yay aylarında nişanlısı və silahdaşı Marian Vardanjan ilə Cenevrəyə gəldi və burada Rusiyadan olan erməni tələbələr Qabriel Kafian, Ruben Hanarad, Nikoli Martinyan və Mqırdıç Manuçaryanla tanış oldu. Elə həmin ilin sonunda partiyanın proqramının əsas müddəalarını hazırladılar. Yuxarıda dediyimiz kimi partiya 1887-ci ilin avqust ayında yaradılsa da, partiyaya «Hnçak» adı 1890-cı ildə verildi. Bu ad 1887-ci ildə ermənicə çap edilən və partiyanın orqanı olan «Hnçak» qəzetinin adından götürülmüşdür. Parityanın proqramı 1888-ci ildə «Hnçak» qəzetinin oktyabr-noyabr sayında çap edilmişdir.

«Hnçak» partiyasının ilk və yaxın hədəfi Türkiyə Ermənistanının siyasi və milli müstəqilliyini əldə etmək, daha sonra isə İran və Rusiya Ermənistanını bura birləşdirərək Federativ bir Ermənistan yaratmaq idi. Partiya hər an istifadə etmək üçün xüsusi hazırlanmış dəstələrə malik olmuşdu və çoxlu üsyan və qırğınlara təşkilatçılıq etmişdir. Partiyanın 1910, 1911, 1912, 1913-cü il qərar dəstələri ilə yaxından tanış olduqda məlum olur ki, Şərqi Anadoluda fəaliyyət göstərmiş Orsfan Canq, Qoçnak, Pençak, Badami, Tejehenk, Maro və Parot adlı terror dəstələrinin qurulmasını və idarəsini bu təşkilat həyata keçirmişdir.

I Dünya müharibəsində Rusiya tərəfindən çıxış edərək Osmanlıya qarşı döyüşən «Hnçak» könüllüləri müsəlman əhalini öldürməklə yanaşı, onlara maddi yardım göstərməkdən imtina edən varlı erməniləri də öldürmüşlər.

«Hnçak» partiyası ilə yanaşı fəaliyyət göstərmiş və erməni təşkilatları bir arada birləşdirməyi qarşısına məqsəd qoymuş, «Daşnaksütyun» partiyasının yaranma tarixi və fəaliyyəti bizlərə məsələni daha yaxşı anlamağımızda yardımçı olacaq.

Daşnaksütyun kəlməsi Ermənicədə Federasiya mənasını daşıyır. Əsasən Rusiyada olan erməni qruplarının bir araya gəlməsi ilə yarandığı üçün federasiya adı verilmişdir.1890-cı ilin yayında bu birləşməni həyata keçirənlərin başında Kristoter Mikealyan, Stepan Zaryan və Simon Zavaryan adlı 3 kişinin olduğunu və «Hnçak»

partiyasından isə Ruben Hanradın toplantılarda iştirak etdiyi tədqiqatçılar tərəfindən təsdiqlənir. Başlanğıcda işlərin Cenevrədə yerləşən gizli bürodan idarə edildiyi söylənilir. Əslində Cenevrədəki mərkəz çox gizli saxlanılırdı və fəaliyyətin əsas mərkəzi Tiflis hesab edilirdi. Bu fikri söyləyən Nalbandyan sözlərinə belə davam edir. *«Mərkəzi komitəsi 5 kişidən təşkil edilmişdir və onların çoxu Tiflisdə oturmağa üstünlük verirdilər. Məkrəzi komitəyə seçilən bu insanlar Kristofer Nikaelyan, S.Zavarion, Abraham Dastakyan, H.Loris Malokyan və Levan Sarkisyan idi.»*

1890-cı ildə **«Daşnaksütyun»** partiyası ortaya çıxdıqdan sonra «Hnçak» partiyasında buraya qoşulması hesab edilirdi. İlk anda bu baş tutsa da, bu birlik çox davam etmədi. 5 iyun 1891-ci ildə Hnçaklar Daşnaklarla əlaqəni kəsdilər. Hnçakların buradan ayrılması və bununla əlaqədar bir çox partiya layihəsinin də bu aksiyaya qoşulması Daşnaksütyunda sıxıntılar yaratdı. Bu sıxıntını aradan qaldırmaq üçün 1892-ci ilin yayında konqres keçirməsi qərara alındı. Elə həmin vaxtdan etibarən Daşnakların rəsmi qəzeti **«Droşak»** qəzetinin nəşrinə başlandı. Daşnakların proqramı da bu konqresdə üzə çıxdı. Proqramda partiyanın üsyan yolu ilə istədiyinə çatmağını göstərməklə yanaşı, xüsusi terror dəstələri quracaqları və Rus nihilistlərinin yolunda gedəcəkləri göstərilirdi.

Proqramda Daşnakların aşağıdakı metodlardan istifadə edəcəkləri qərara alınmışdır:

1.Terror dəstələri təşkil etmək və onları fəaliyyətə hazırlamaq,
2.Bütün yollardan istifadə etməklə xalqın mənəviyyatını və fəaliyyətini artırmaq,

3.Xalqı silahlandırmaq üçün hər vasitədən istifadə etmək,
4.Təşkilatı Komitələr təşkil edib, aralarında sıx əlaqələri qurmaq,
5.İğtişaşların baş verməsi üçün çalışmaq və s.

Bütün bu söylədiyimiz faktlardan çox aydın məlum olur ki, Daşnak da bir terror partiyası idi. Sadəcə olaraq Daşnak öz

proqramında Hnçakdan fərqli olaraq Türk-Rus-İran Ermənistanlarının birləşdirilməsini nəzərdə tutmurdu. Yalnız 1919-cu ildə «Daşnak» partiyasının IX konqresində Daşnaklar proqramlarına dəyişiklik edərək Türk və Rus Ermənistanlarının birləşdirilərək müstəqil Ermənistan yaradılması fikrinə gəlmişlər.

«Hnçak» və «Daşnaksütyun» partiyaları Türkiyə ermənilərinin silahlanmasında və üsyanların baş verməsində təşkilatçılıq etmişlər.

Berlin konqresindən sonra ermənilər arasında silahlanma sürətlənmişdir. İngiltərənin Van Yüzbaşı Claytanun 12 Ekim 1880-ci il raportunda Rusiya Ermənistanında Türkiyə ermənilərinə silah göndərmək üçün cəmiyyət qurulduğu və silahların paylanılması üçün fəaliyyətlər göstərildiyi bildirilir. Ərzurum konsulu Yüzbaşı Everett 24 Kasım 1880-ci ildə Türkiyə ermənilərinə paylatmaq üçün Rusiyada silah yığıldığı xəbərini söyləyirdi.

Sultan II Abdülhamit zamanında silah idxalı qadağan olduğu halda, məşuriyyətdən (23 Temmuz 1908) sonra- bu qadağanın ləğv edilməsi ilə ermənilər gətirdikləri tüfənglər, tapançalar və bombalarla erməni gənclərini bir ordu kimi silahlandırmağa nail oldular. Sabahgülyan Avropada nəşr edilən **"Anfey Hayastan"** (Müstəqil Ermənistan N.H.) qəzetində nəşr etdirdiyi yazısında bu söylədiklərimizi təsdiq edir. O, yazırdı: *"Məşuriyyətdən sonra bütün erməniləri silahlandırmağa qərar verdik. Bu məqsədlə bəzi mərkəzlərdə silah mağazaları açdıq və ucuz qiymətlərlə bu silahları ermənilərin bütün təbəqələri arasında payladıq."*

1909-cü ilin aprel ayında Adanada baş vermiş erməni qırğınlarından sonra **«İttihat və Tərəqqi»** Cəmiyyəti ilə «Daşnaksütyun» komitəsi arasında vətənin müstəqilliyini qorumaq, bütünlüyünü və siyasətini sonuna qədər müdafiə etmək və Osmanlı ünsürləri arasında yaxşı münasibətlər yaratmaq haqqında müqavilə imzalandı. Birlik və bərabərlik sözləri əsnasında imzalanmış bu müqavilə gözdən pərdə asmaqdan başqa bir şey deyildi. Məsqəd yeni höküməti ermənilər sarıdan rahat etmək, bu arada isə öz istəklərini həyata keçirmək üçün rahat hazırlıq görmək idi.

Həqiqətən də bu müqavilədən sonra ermənilər öz çirkin əməllərindən əl çəkməyərək, əksinə əvvəlkindən də güclü şəkildə «Müstəqil Ermənistan» ideyasını həm xarici, həm də yerli mətbuatda təbliğ etmişlər.

Balkan müharibəsindən sonra Avropada erməni islahat təbliğatının başlanmasından və dövlətin zəif vəziyyətindən Rusiyanın öz xeyrinə istifadə edə bilmə təhlükəsindən narahat olan «**İttihat və Tərəqqi**» hökuməti tez tərpənərək məsələni gündəmə gətirdilər. Türkiyə 24 aprel 1913-cü ildə islahat planı hazırlayaraq İngiltərədən bunun həyata keçirilməsi üçün müfəttiş və əsgər istədi. İngiltərə bu layihə haqqında Rusiyaya məlumat verdikdə, Rus hökuməti İstanbuldakı Rus, İngilis və Fransız səfirliklərinin birlikdə yeni islahat layihəsini hazırlamalarını təklif etdi. İngiltərə isə belə bir işin 3 dövlətlə bağlı olmamasını, Almaniya, Avstraliya və İtaliyanın da bu məsələdə iştirakının olmasını məqsədəuyğun olmasını bildirdi. Uzun müzakirələrdən sonra qərara gəlindi ki, Rusiya yeni islahat layihəsini hazırlasın və İstanbuldakı 6 dövlətin səfirliklərinə təqdim etsin.

8 fevral 1914-cü il tarixində Osmanlı-Rus müqaviləsi imzalandı. Yeni islahat layihəsində əsas diqqəti çəkən bir məsələ var idi. Rusiyanın təkidi ilə müqaviləyə Osmanlı vətəndaşlarının yaşadıqları ərazidə hərbi xidmət çəkmələri haqda maddə daxil edilmişdir.

Bu maddənin sayəsində Rusiya Osmanlı ordusuna nəzarət imkanı əldə edirdi. Şərqi Anadoluda hərbi xidmətdə olan ermənilər hər an Osmanlı ordusunda baş vermiş yenilikləri ruslara çatdırır və lazım gəldikdə isə Rus qoşunlarına birləşməyə hazır saxlanılırdı.

Ancaq bu dəfə ermənilərin islahatı baş tutmadı. I Dünya müharibəsinin baş verməsi bunun qarşısını aldı.

Qeyd etmək lazımdır ki, hələ dünya müharibəsi başlamazdan xeyli əvvəl Rusiya Türkiyədəki erməniləri Türkiyəyə qarşı mübarizə aparmaq üçün silahlandırmağa çalışırdı.

Ərzurumun Ilıca nahiyəsi «Hnçak» komitəsindən İstanbul

şöbəsinə 25 dekabr 1913-cü il tarixində göndərilən məktubda silahın az olmasından və bu məsələnin tezliklə həllinin tapmasının vacibliyi qeyd edilirdi. Ərzurum şöbəsindən 1 mart 1914-cü il tarixində göndərilən məktubun sonunda silah məsələsini unutmamaqları xahiş edilirdi.

Bu cür məktublar Anadolunun hər tərəfindən gəldiyi tarixi sənədlərdən çox aydın şəkildə bəlli olur.

Kayseridən 28 yanvar 1914-cü ildə İstanbul «Hnçak» Komitəsinə göndərilən məktubda *«əllərində xüsusi kağızlar olan üzvlərinizdən 115 nömrəli Sisiyan ilə 116 nömrəli Jamkoçyanı 150 lira ilə yola salmağa nail olduqda isə yarayacaq hər növ silah və dinamit alacayıq. Siz onlara yardımçı olun.»* deyilir.

Kayseridən 14 martda göndərilən məktubda deyilən bir fikir çox maraqlıdır. *«Daşnakların həm silahları, həm də fəalları gəldi. Onlar bizdən daha çox hazırdılar.»*

Buradan çox gözəl aydın olur ki, Rusiya ilə birbaşa əlaqədə olan Daşnaklar silah məsələsində o qədər də əziyyət çəkmir və Hnçaklardan fərqli olaraq müharibədən əvvəl artıq döyüşə hazır vəziyyətdə idilər.

Rusiyadan silah gətirildiyi haqda Osmanlı dövlətinin xəbəri olsa da, bunun qarşısını almaq mümkün olmurdu.
Ermənilərin öz hesablarına silhlanmaları ilə yanaşı Rusiyanın Şərqi Anadoluda ermənilərdən dəstələr yaratmaq üçün göndərdiyi silahlar hesabına Osmanlı vilayətlərində silah depoları əmələ gəlmişdi. Müharibədən əvvəl hökumətin apardığı yoxlamalar nəticəsində minlərcə silah və bomba tapılmışdır.

**Axtarış Aparılan Yer, Tapılmış silah və sursatlar:**

Bursa - 400 tüfəng, çox miqdarda güllə və əl bombası. İzmir - 100 tüfəng, çox miqdarda güllə və əl bombası. Sivas - 100 tüfəng, çox miqdarda güllə və əl bombası. Arapkir - çox sayda tapanca və

xəncərlər. İzmir - 200 tüfəng, 50 bomba, 10qaz tapancası, bomba və dinamit. Dörtyol - 150 tüfəng. Samsun - 250 tüfəng, çox sayda güllə və əl bombası.Trabzon - 100 tüfəng, çox sayda güllə və əl bombası.Urfa - 180 tüfəng, çox sayda güllə və əl bombası. Merzifon - 200 tüfəng, çox sayda güllə və əl bombası. Amasiya - 100 tüfəng, çox sayda güllə və əl bombası. Adana - 200 tüfəng, çox sayda güllə və əl bombası. Hasanbeyli (Adanada kənd) - 100 tüfəng, çox sayda güllə və əl bombası. Saimbeyli (Haçin) - 1200 tüfəng, barıt çəlləyi, güllə və bombalar. Malatya - 200 tüfəng, barıt çəlləyi, güllə və bombalar. Diyarbakır - 450 tüfəng. Maraş - 300 tüfəng. Antep - 300 tüfəng, əl bombası. Halep - çox sayda əl bombası. Kayseri - 150 tüfəng. **Cəmi: 4780 tüfəng.**

1914-cü il avqustun axırlarında, artıq Türkiyənin müharibəyə qoşulacağını yəqin edən Rusiya erməniləri silahlandırmağı qət etdi. Avqustun 26-da Saronov Voronsov-Daşkov bu barədə konkret göstərişlər verirdi. «*Siz həzrətlərin indi erməniləri, kürdləri və aysorları silahlandırmağın hələ tez olduğu barədə fikrinizə tamamilə şərik olmaqla bərabər hesab edirəm ki, artıq indi bu xalqların dəstələrini təşkil etmək, onlara rəhbərlik etməyi həvalə etmək üçün etibarlı şəxsləri müəyyənləşdirmək, bununla bərabər həm Qafqazda, həm də İrandakı dəstələrimizin yaxında lazımi silahları toplamaq gərəkdir.*» Voronsov-Daşkov 1914-cü il 2 sentyabr tarixində katolikosa yazdığı məktubunda göstərirdi ki, Rusiya Nazirlər şurasının sədri Qormekin bildirmişdir ki, ermənilər lazım gəldikdə rus ordularına kömək etdikdə (yəni çar ordusu Şərqi Anadolunu işğal etməyə başladığı anda üsyana qalxarlarsa) rus hökuməti onlara verdiyi vədləri yerinə yetirməkdədir.

Müharibənin ilk günlərində Daşnaksütyun partiyasının xarici əlaqələrinə rəhbərlik edən Dr.Zavariyev Qafqaz canişini Voronsov-Daşkovla görüşmüş, qarşıdakı müharibədə erməni müllətinin

Qafqaz cəbhəsində türklərə qarşı rus ordusuna əlindən gələn yardımı göstərəcəyini erməni millətinin və daşnak partiyası adından vəd etmiş və partiyanın bütün qüvvələrinin canişinin itaətinə verməyinə hazır olduğuna dair təminat vermişdir.

Müharibə elan edildikdən bir qədər sonra - 1914-cü il sentyabrın 24-də II Nikolay ermənilərə xüsusi müraciətlə xitab etdi. Müraciətdə «beş əsr zülm altında qalan ermənilər» üçün guya azadlıq saatının yaxınlaşdığı iddia olunur, onlar Rusiya tərəfindən vuruşmağa dəvət olunurdular. Çarın müraciəti ermənilərin şüurlarına hakim kəsilmiş ajiotajı daha da artırdı. Onlar şübhə etmirdilər ki, müharibə müttəfiqlərin qələbəsi ilə başa çatacaqdır. Türkiyə məğlub olacaq və bölüşdürüləcdir. Türkiyədəki ermənilər nəhayət azadlıq əldə edəcəklər. Qafqaz erməniləri katolikos V.Sevurkun və «Daşnaksütyun» partiyasının başçılığı ilə ruslara xidmət edərək qırğın hazırlıq tədbirləri görürdülər. Daşnak liderləri Eçmiədzin katolikosu vasitəsilə əvvəllər sürgünə göndərilən və məhkum edilən ermənilərin əfv edilməsinə çalışırdılar.

Rus çarının əmri ilə əvvələr məhkum edilən və sürgünə göndərilən «Daşnaksütyun» partiyası üzvləri əfv edilib çarizmə xidmət üçün Cənub Qafqaza dönürdülər. Daşnaklar rus ordusu sıralarında Müstəqil Ermənistan uğrunda vuruşaraq xususi erməni birləşməsinin təsis edilməsinə çalışırdılar.

Sürgündən geri çağırılmış 180 erməni və Osmanlı dövlətindən qaçmış bir çox erməni Qafqazda toplanan könüllü süvarilərə qoşulmuşdular.

Qafqaz ordusu səhra idarəsinin kəşfiyyat bölməsinin rəisi kapitan Drasenko öz məruzəsində əsas diqqətini Rusiyaya ən sadiq xalq kimi ermənilərə yönəldir və Türkiyənin erməni əhalisinin silahla təchiz etməyin zəruriliyini əsaslandırırdı. O, erməni «özünümüdafiə dəstəsi» yaradılmasını təklif edir, bunun Rusiyanın mənafeyinə uyğun olduğunu qeyd edirdi. Drasenko yazırdı: *«Əgər Rusiya üçün türklərin tatarlarla birləşməsi sərfəli deyilsə, osmanlıların şöhrət və qüdrətinin dirçəldilməsi sərfəli deyilsə,*

*güclənən Türkiyənin Ön Asiyanın bütün müsəlman əhalisi üçün istiqlaliyyət və Avropanın əsarətindən qurtarmaq simvoluna çevrilməsinə imkan vermək sərfəli deyilsə, yuxarıda deyilənə qarşı ən faydalı əks-təsir vasitələrindən biri erməni tayfasının, Türkiyə daxilində onun fiziki və mədəni güclənməsini müdafiə etməkdir. Buna görə də Türkiyə ermənilərini kifayət qədər silahla təmin etmək Rusiya üçün faydasız olmaqdır.»*

Qafqazdakı ermənilər və Rusların əməkdaşları haqqında məlumat toplamaq üçün Rusiyaya göndərilən Osmanlı Ordusunun məmuru M.Muhtarın 13 Eylül 1914-cü il tarixində verdiyi raportda yazırdı: «*Rus hökuməti Osmanlı dövləti ilə münasibətləri və Qafqazda baş verə biləcək hər hansı bir məsələlərin həllində ermənilərə çox güvənirlər. Ruslar çoxlu pul xərcləyərək və şirin vədlər verərək erməniləri öz tərəflərinə çəkməklə Şərqi Anadoluda istədikləri vaxt hər hansı bir üsyan yaratmaq, bəhanə edərək Osmanlı dövlətinin daxili işlərinə müdaxilə edə bilmə məqsədi güdürdülər.»*

Ahmet Necatinin 1 Ekim 1914-cü il tarixində III Ordu Rəhbərliyinə göndərdiyi raportunda, topladığı məlumata görə Rusların ermənilərdən təşkil etdiyi və silahlandırdığı quldur dəstələrinin tərkibindəki ermənilərin çoxu Osmanlı tələbələridir. Eyni zamanda burada söyləyirlər ki, bu cür erməni dəstələri Osmanlı torpaqlarında da yaradılır və lazım olduqda fəaliyyətə başlayacaqlar.

Həqiqətən də Osmanlı-Rus müharibəsinin qaçılmaz olduğu meydana çıxdıqdan sonra Rusya Türkiyədən qaçmış ermənilərdən quldur dəstələri quraraq Osmanlı ərazisinə göndərməyə və orada ermənilərin bir arada türklərə qarşı təşkilatlanmasına təkan verir.

Bu arada ermənilərin, daha dolğun desək «Daşnak» partiyasının VIII konqresinin I Dünya müharibəsi elan etdiyi ərəfəyə «təsadüf» etməsi diqqətimizdən heç cürə yayına bilməzdi. Bildiyimiz kimi 1 avqust 1914-cü ildə Avropada müharibə başladı. «Daşnaksütyun» partiyası baş vermiş hadisələri müzakirə etmək və

Osmanlı-Rus müharibəsi başlayarsa hansı addımların atılmasının ermənilər üçün xeyirli olacağını müəyyənləşdirmək üçün 2-14 avqust tarixləri arasında Ərzurum teatr binasında VIII konqreslərini keçirtdilər. Toplantı çox sərbəst və Osmanlı dövlətinin heç bir müdaxiləsi olmadan baş tutdu. Ermənilər özlərini elə aparırdılar ki, sanki bu toplantını müstəqil Ermənistan torpaqlarında keçirdilər. Bunun isə əsas səbəbi 8 fevralda Osmanlı-Rus müqaviləsinin bağlanması idi. Konqresə dünyanın hər yerində olan partiya nümayəndələri gəlmişdir. Gələnlərin içində Daşnak liderlərindən Arşak Vramiyan, Rostom (Stefan Zoriyan), E.Aknuni (Xaçatur Mahumiyan) və Papasiyanın olduğu tarixi sənədlərdə öz əksini tapmışdır.

Konqresin keçirilməsinin məqsədinin Osmanlı dövlətini müharibəyə girməkdən çəkindirmək olduğunu və əgər Osmanlı dövləti müharibəyə girərsə Şərqi Anadolu ermənilərinin türklərə sadiq qalacağı nəticədə açıqlandı. Ancaq bu qərar gözdən pərdə asmaq məqsədi güdürdü. Çünki ermənilərin əziyyət çəkib dünyanın hər bir yerindən bura toplaşmaları, ruslarla müttəfiqlik etmələri və müstəqil Ermənistan ideyası ilə yaşamaları bu qərarların verilə bilməsi üçün heç bir imkan yarada bilməzdi. «Daşnak»ların VIII konqresində isə əslində aşağıdakı qərarlar qəbul edilmiş və bütün yerli və xarici nümayəndəliklərə göndərilmişdir.

1. - Osmanlı-Rus müharibəsi başlayana qədər sükunəti qorumaq. Ancaq bu arada Rusiyadan gələcək və daxilə tədarük olunacaq silahlarla tam döyüş halına gəlmək.

2. - Müharibə elan olunduqda Türk ordusunda xidmət göstərən erməni silahlıları ilə birlikdə rus qoşunlarına qatılmaq;

3. - Türk ordusu irəliləyərsə, sükunəti mühafizə etmək;

4. - Türk ordusu geriləyərsə və ya irəliləyə bilməyəcək bir vəziyyətə gələrsə, erməni dəstələri ordu arxasından əllərində olan proqram

əsasında fəaliyyətə başlasınlar.

Bütün bunlarla yanaşı siyasi və digər məsələlərlə də bağlı qərarlar qəbul olunmuşdur.

Qəbul olunmuş bu qərarları incələdikdən sonra belə bir nəticəyə gəlmək olar ki, ermənilər əsasən üç yolla silahlanmışlar.
1. - Rusiyadan və digər xarici ölkələrdən göndərilmiş silahlar vasitəsilə;

2. - Osmanlı ordusunda və jandarmasında fəaliyyət göstərərək rəsmi silaha sahib olmaqla;

3. - Daxildə fəaliyyət göstərən komitələrin özlərinin hazırladıqları silahlar vasitəsilə (əsasən bombalar);

Rus - Osmanlı müharibəsi başladıqdan sonra ermənilərin hansı mövqedə olduqları hamıya bəlli oldu. Ermənilərin Osmanlı dövlətinə verdiyi sözü tutmaması və rus ordusuna xidmət göstərməsi Türk-Erməni münasibətlərində yeni mərhələnin əsasını qoydu.

İslahat məsələlərində həm Avropa dövlətlərinə və Rusiyaya güvənib kömək uman ermənilər, bu müharibədə nəhayət ki, özlərinə Ermənistan qurduracaqlarına ürəkdən inanaraq bütün güclərini səfərbər edərək Antanta dövlətləri, xüsusən də Rusiyanın yanında olmağa qərar verdilər.
Daxildə və xaricdə olan bütün erməni komitələri müharibədə Rusiya və onun müttəfiqlərinin yanında olmağa səsləyən çağırışlar dərc etdirməyə başladılar.

Osmanlı hökuməti səfərbərlik elan etdikdən sonra «Daşnaksütyun», «Hnçak», «Ramqanar» və «Veranasnial» komitələrinin İstanbuldakı mərkəzlərində çox maraqlı hadisələr baş verdi. Bütün bu komitələr tamamən birləşmək və bu döyüşdə öz amalları yolunda birgə döyüşməyi qərarlaşdırdılar. Komitə liderləri

aşağıdakı təlimatı bütün şöbələrə göndərdilər: *«Ruslar hüdudu keçib Osmanlı orduları geri çəkilməyə başladığı zaman mövcud vasitələrdən istifadə edilərək hər tərəfdə ümumi bir üsyan törədilməlidir. Osmanlı ordusu bu vəziyyətdə iki od arasında qalacaqdı. Bütün rəsmi binalar dağıdılacaq, hökumət daxildə işğal ediləcək və Alman nəqliyyatına hücum ediləcəkdir. Bununla yanaşı Osmanlı ordusu irəlilədiyi halda erməni əsgərlər silahları ilə birlikdə ordunu tərk edəcəklər, dəstə təşkil edib ruslarla birləşəcəkdir.»*

Ərzurum konqresindən sonra «Daşnaksütyun» komitəsi İstanbul mərkəz təşkilatında Türkiyə və Qafqaz ermənilərinin Osmanlı-Rus müharibəsində nə cür addım atmaları müzakirə edildi. Bu toplantıda iki fərqli fikir ortaya çıxdı. Hajak, Armen, Garo, Sarakis və Doktor Paşayanın müdafiə etdiyi fikirdə deyilirdi ki, ruslar güclü ordu ilə hücuma keçəcək və erməni komitələri də həmin vaxt hücumlara qoşulmalı, Türkiyə Ermənistanın ən strateji ərazilərini zəbt etməlidir. S.Minasyan, Hrçak, Vartkas, Şahrikyan və Zohrap isə əksinə fikirləşirdilər. Onların fikrincə almanlarla döyüşdə ruslara qüvvətli ordu lazım olduğundan, Qafqaz ordusuna ruslar az qüvvə ayıracaq və bu səbəbdən də Rus qoşunlarının Osmanlı ərazisinə sürətli hücumu baş tutmaya bilər. Erməni dəstələri isə bunu göz önünə alaraq çalışmalıdırlar ki, türklərlə açıq mübarizəyə ilk anlarda qoşulmasınlar, vəziyyətin aydın olmasını gözləsinlər.

Bu fikirlər Papazion tərəfindən Tiflisdəki şərq bürosuna çatdırıldı. 1914-cü ilin avqust ayında Vorontsov-Daşkov Tiflisdə Piskopos Mesrop, bələdiyyə sədri Aleksandr Katisyan, Erməni Milli Bürosu rəhbəri Oz.Zavrievlə görüşdü və onlara erməni könüllülərindən mütəşəkkil alaylar yaratmalarının lazım olduğunu bildirərək, yaradılan alayların silah, sursat və pul ehtiyatlarının ödəniləcəyini və bu qrupların idarəçiliyini tanınmış liderlərə həvalə ediləcəyini söylədi.

«Daşnak» partiyasının öndərlərindən biri Hovhannes Kaçasnuni

Daşnaksütyunun 1823-cü ildən Bükreş konqresindəki çıxışında 1914-cü ilin sonlarına doğru Türkiyənin hələ müharibəyə girmədiyini, ancaq hazırlıqlar etdiyi vaxta Qafqazda erməni könüllülərinin böyük həvəs və məhəbbətlə dəstələrdə toplaşmaları və 1914-cü ilin payızında erməni könüllü birliklərinin türklərə qarşı döyüşdüyünü xüsusi olaraq vurğuladılar.

ABŞ-da nəşr olunan «Hayastan» qəzeti 1914-cü ilin payızında yazırdı: *«Bu dəqiqə Rus bayrağı altında 80.000 erməni əsgəri Avstriya və Almaniya cəbhəsində, 40.000 erməni əsgəri də türklərə qarşı vuruşurlar. Dünyanın hər yerindən gələn erməni könüllüləri müttəfiqlərin zəfəri üçün Türkiyə İran hüdudunda qanlarını tökürlər. Türk əsgərinin ruhi durumunu yaxşı bilən erməni fədailəri oradadırlar. Bunlar məmləkətin strateji əhəmiyyətli mövqelərini tanıdığından rus ordusunun öncüllərinə çox dəyərli xidmət göstərirlər».* Digər mənbədə isə erməni könüllülərini 180.000 olduğu göstərilir.

Mənbələr göstərir ki, 1914-cü ilin sonuna 4 erməni könüllü alayı təşkil edilib silahlandırılmışdır. Bəzi mənbələrdə isə alayların sayının 6 olduğu göstərilir. Bu alaylara Andranik, Dro, Armen Garo, (Karakin Pasdırmaciyan), Heço, Hamarasp, Keri, Avaşaryan, Varton və Prens Argoutiyan tərəfindən rəhbərlik edilirdi.

Birinci drujina (alay) Andranik Oranyanın başçılığı ilə cəbhənin son cinahına - hissə komandiri general Çernorubovun sərəncamına göndərilmişdi. 1914-cü il dekabrın sonunda Andranikin drujinası «İtkilərinin yerini doldurmaq üçün» Culfaya qayıtdı. Bir müddətdən sonra Andraniki İrandakı Rus qoşunlarının yanına göndərdilər. 1915-ci il martın əvvəllərində bu drujina yenidən cəbhəyə göndərildi. Bu alay Vana girmiş, 1916-cı ilin aprelində birinci olaraq Bitlisə daxil olmuşdur.

İkinci drujinaya general Dro başçılıq edirdi. Armen Karo onun köməkçisi idi. Bu drujina İqdır-Bəyazid-Berkri-Van marşrutu üzrə hissə komandiri general Nikolayevin sərəncamına göndərilmişdir. Vanın yaxınlığında Abatsiyevə tabe edildi. Hamazaksun başçılıq

etdiyi üçüncü drujina Kağırmanda təşkil edilmişdi. Müharibə başlanandan sonra Alaşkert vadisinə göndərilmişdi. Noyabrın 6-dan 3-cü drujinaya polkovnik Gülbekyanın sərəncamına göndərilmişdi.

Kerinin başçılığı ilə dördüncü drujina Sarıqamış rayonuna göndərilən general İstoliminin göstərişlərini yerinə yetirirdi.

Beləliklə, tarixi faktların araşdırılması göstərir ki, Türkiyə Birinci Dünya müharibəsinə girdiyi ərəfədə Rusiya tərəfindən könüllü erməni dəstələri yaradılmış və onlar silahlandırılmışdı. Bu dəstələr və ümumiyyətlə ermənilər Qafqaz və Şərqi Anadolu hərbi teatr meydanında Rus ordusunun rolunu oynamalı idi.

1. **ARMENIAN ALLEGATIONS: "Myth and Reality" Hits:681**
2. **Sani Hacıyev: "Türkiyə-Rusiya münasibətləri və erməni terroru"**

# Birinci Dünya müharibəsinin gedişində ermənilərin törətdikləri qırğınlar və türklərin cavab tədbirləri

Türkiyə Birinci Dünya müharibəsinə girdiyi ərəfədə «Daşnaksütyun»un Anadoludakı şöbələrinə göndərdiyi təlimatları uyğun olaraq hər bir erməni qonşulara, türklərə, türk ordusuna və hökumətə qarşı silahlandırılmışdı. Plana görə ermənilər hökumətin səfərbərlik çağırışına əməl etməməli idilər. Orduya çağırılanlar da silahları ilə birlikdə fərarilik edərək ölkə içində çətələr təşkil edəcək, yaxud Rusiya ordusunun nəzdindəki könüllü erməni alaylarına qoşulacaqlar. Van və Bitlis kimi cəbhəyanı bölgələrdə dərhal hərəkət edərək, rus qüvvələrinin sürətlə irəliləməsinə şərait yaradacaq, Elyazıq, Sivas, Diyarbəkir kimi bölgələrdə isə Türk ordusunun arxa xəttlərini kəsəcək və cəbhə arxasında iğtişaşlar yaradacaqlar. Beləcə qalib dövlətlərdən Türkiyənin sülh danışıqlarına başladıqları zaman öz mükafatlarını alacaqdırlar.

Birinci Dünya müharibəsi illərində ermənilərin Türkiyəyə qarşı ilk silahlı çıxışı Zeytun bölgəsində oldu. III Napaleon tərəfindən «Zeytun respublikası» adlandırılan bu bölgədə ermənilər çoxdan hazırlıq işləri görmüşdülər. Onlar Türkiyədə səfərbərliyə qarşı çıxır, səfərbərlik məntəqələrinə qeydiyyat üçün gedən müsəlman sakinləri öldürməyə, əşyalarını qəsb etməyə başlamışdılar. Zeytun erməniləri komandir və zabitləri özlərindən olmaqla «Zeytun fədai alayı» adı ilə bölgəni mühafizə etmək üçün ermənilərdən ibarət bir milis təşkilatının qurulmasına icazə verilməsini tələb etmişdilər. Ermənilər buna nail olmayıb və başqa silahlarla silahlanmış dəstələr təşkil edərək dağa çəkilmiş və 1894-cü il 18-30 tarixində üsyan etmişdilər. Onlar, tərxis olub kəndlərinə dönən yüzdən çox türkə

hücum edərək, əksəriyyətini qətlə yetirmişdilər. Həmin gün 40 nəfərlik erməni dəstəsi Zeytun qəsəbəsindən bir saat məsafədə Maraşa gedən iyirmi bir yolçunu soymuşdu. Yerli hakimiyyət orqanları 60-a qədər silahlı qiyamçını tutmuş və bir müddət sakitlik bərpa olunmuşdu. Ancaq dekabr ayında Zeytun erməniləri yenə mülki məmurlara basqınlar etməyə başladılar.

Zeytundakı Hnçak komitəsi liderlərindən Çakiroğlu Panosun evində keçirilən toplantıda «İngilislər İsgəndəruna çıxacaqları üçün Adana, Maraş işğal oluncaya qədər üsyanlarla səfərbərliyə mane olunması, ingilislərin hərəkətinin dəstəklənməsi, jandarmların silah və cəbhəxanaların ələ keçirilməsi, kaymakam və digər hökumət məmurlarının və ailələrinin öldürülməsi, teleqraf tellərinin kəsilməsi tövsiyə olunmuşdur. 1915-ci ilin fevral ayında hərəkətə keçən 800 nəfərlik dəstə Maraşın teleqraf xəttini kəsmiş, əsgəri qışlağa basqın etmiş və təkkə monastırına sığınmışdır. 25 jandarm şəhid olmuş, 34-ü də yaralanmışdır. Bundan əlavə Maraşın müxtəlif yerlərində bir çox müsəlman erməni dəstələri tərəfindən öldürülmüşdür. Bölgədən orduya çağırılan ermənilərin hamısı fərarilik etmişdir.»

1915-ci il fevralın 24-də İngiltərədəki rus səfiri İngiltərə Xarici işlər nazirliyinə gedərək bildirmişdir ki, Zeytunlu bir erməni Qafqaz canişini knyaz Voronsov-Daşkova müraciət edərək, türk ordularının əlaqə yollarını kəsmək üçün 15 minlik bir qüvvə topladıqlarına, ancaq silah və sursat olmadığını söyləmişdir; Güman edilirdi ki, ingilis və fransızlar Antakya limanı vasitəsilə yardım göndərə bilərlər. Rus səfiri ingilislərin bu işə necə baxdıqlarını soruşmuş, ancaq müsbət bir cavab ala bilməmişdi.

Osmanlı dövlətinin mühüm ticarət və strateji məntəqələrindən biri Qeysəriyyə idi. Hnçak komitəsi buradakı təşkilatı kəndlərə yaymaq üçün məşhur David Sultanyanla, Sargis Torosyana, vanlı qiyamçı Melkona həvalə etmişdi.

Bunlara qeysəriyyəli Hacı Ovanes, dəmirçi Karapet və qardaşı Levon kömək göstərmiş, xeyli miqdarda bomba istehsal etmişdi. Bundan əlavə Amerikada olan ermənilərin maddi yardımları ilə və

ticarət mallarının içərisində hissələrə parçalanmış halda göndərilən silah və sursatla əhali silahlandırılmışdı. Hnçak komitəsinin Parisdəki keçmiş başçılarından Sabah Gülyan Qeysəriyyəyə gələrək Everek, Tomarza və İncəsuda təşkilatlanmanı, silahlanmanı və təbliğ fəaliyyətini gücləndirmişdi. «Daşnaksütyun»da Qeysəriyyə sancağında böyük fəaliyyət göstərmişdir. Verilən təlimatlara əsasən orduya çağırılan qeysəriyyəli gənc ermənilər ya orduya getməmiş, ya da orduya gedənlər silahları ilə birlikdə fərarilik etmişdirlər.

Everekin müxtəlif yerlərinə gizli çəkilən tellərə elektrik cərəyanı buraxmaq yolu ilə komitəçilər müsəlman əhali və əsgərləri öldürməyə çalışmışlar. Bir neçə il öncə Amerikada bomba düzəltməyi öyrənən Gevorq bomba emalatxanaları qurmudşu. Lakin 1914-cü ilin yanvarında Gevorqun evində kazein bombasının partlaması nəticəsində bu emalatxanada saxlanan, silah və sursat hakimiyyət orqanları tərəfindən ələ keçirilmişdi. Patriarxlıq və xüsusilə də patriarxlığın ən məşhur komitəçisi Həsrəf Əfəndinin hazırladıqları qiyam planı vaxtından əvvəl hakimiyyət orqanlarına məlum olmuşdu. Buna görə də vaxtından qabaq 1915-ci ilin əvvələrindən Qeysəriyyənin bir çox yerlərində qiyam, təcavüz, qəsb və qətl hadisələri başlamışdı.

Osmanlı dövləti səfərbərlik elan etdikdən sonra Mamüratüləzirzdə (Elyazıq) də fərarilik, müsəlman əhaliyə basqınlar yayıldı. Bunların ən mühümləri aşağıdakılardır: Mərkəzi ingilis konsulluğunun tərcüməçisi olan bir erməni osmanlı təbəəsi ətrafı dolaşaraq II korpus haqqında məlumat toplmış, konsulluğa vermiş, raport səfirliyə göndərildiyi zaman ələ keçirilmişdi. Dersimdəki tayfaları hökumət əleyhinə təşviq etmək üçün İstanbul və Rusiya mərkəzlərindən bir çox komitəçilər göndərilmişdi. Dersimdən orduya göndərilmək üçün toplanmış ləvazimatın olduğu anbarın yanındakı bir erməni dükanında yanğın törətmək və bu yolla ordu üçün vilayətdən toplanmış ərzağı məhv etmək məqsədi ilə Eginli Filipp adlı 25 yaşında bir erməni 4 bomba və bir miqdarda alışdırıcı maddə alaraq həmin dükana girmiş və dükanı yarmağa başlamışdı.

Bu zaman dükan sahibi yanğını ayrı yerdə törətməyi təklif etmişdi: cavabında həmin gənc dükan sahibini qətlə yetirmiş, alışdırıcı maddə tökərək dükanın bir hissəsi ilə bərabər özünü də yandırmışdı. Vilayət mərkəzində ermənilərə məxsus anbarda 5000-dən çox silah, 300-ə qədər bomba, 40 kq miqdarında bomba fitili, 200 paket dinamit üzə çıxarılmışdı. Səkur nahiyəsində ermənilər jandarmlara silahlı basqın edərək iki jandarmı öldürmüşdülər.

Ermənilər Diyarbəkirdə də çıxışlara hazırlaşırdılar. Əsgərliyə getməyən və silahları ilə birlikdə ordudan qaçan ermənilər «Dam taburu» adlı dəstələr təşkil edərək ev-ev gəzir hərbi ehtiyaclar üçün pul və vəsait toplayır, verməyənləri hədələyirdilər. Ruslar Cənubi Azərbaycanda Diyarbəkir istiqamətində hücum planlaşdırmışdılar.

Bununla əlaqədar ermənilər Diyarbəkirdə böyük bir qiyam qaldırmaq fikrində idilər.

Türk hakimiyyət orqanlarının apardıqları axtarışlar nəticəsində «Dam taburu» təşkil edən 500 erməni silahlıları ilə birlikdə yaxalanmışdı. Daha sonra evlərdən 1000-ə qədər erməni fərarsi tutulmuşdu. Çoxlu silah və hərbi sursat ələ keçirilmiş, məlum olmuşdu ki, silahların böyük qismi kilsələrdə və məzarlarda gizlədilir.

Diyarbəkirin Silvan qəzasına aid Başnik kəndində gizlənən erməni Deryan Dononun dəstəsi 1915-ci il 28 iyun jandarm mühafizə dəstəsinə hücum etmiş, jandarmların əksəriyyətini öldürmüşdü. Şərq nahiyəsinə aid Arzaoğlu və Saniköydəki əli silah tutan bütün ermənilər Xonekin başçılığı ilə bir dəstə təşkil edərək, kişiləri cəbhədə olan Xıdır İlyas kəndinə basqın etmiş, qadınlar və uşaqları Mersent çayı yanına qovaraq güllələmiş və süngüləmişdilər.

Qeyd etmək lazımdır ki, ermənilər dini idarələrdən də təxribat məqsədilə və silah gizlədilməsi üçün istifadə edirdilər. Sivasda hələ 1913-cü ilin oktyabr ayında Şirşəhri qəzası Ezdebir nahiyəsindəki erməni monastırının keşişi Kariq evində çoxlu silah gizlətdiyi üçün həbs edilmişdi. Saponil adlı bir erməni keşişi 1914-cü ilin noyabr

ayında Sivas bölgəsinin kəndlərini gəzərək yerli ermənilər içərisində Türkiyə əleyhinə təbliğat aparırdı. Əldə olan məlumatlara görə «Daşnaksütyun» üzvləri 1908-ci ildən bu vilayətdə fəaliyyət göstərir, səfərbərlik elanından sonra otuz min nəfər mauzerlə və martin tüfəngi ilə təchiz edilmiş on beş mini Rusiyaya göndərilmiş, on beş min nəfəri Türkiyədə qalaraq Rusiyadan gələcək təlimat üzrə müharibənin lazımi məqamında qiyam və ixtişaş qaldırmağa hazırlaşmışdır. Qiyama rəhbərlik üçün otuz nəfər erməni təyin olunmuşdu.

Ermənilər Ərzurum bölgəsinə xüsusi əhəmiyyət verirdilər. Rusiya erməniləri Türkiyəyə buradan keçmiş və mərzkəzlərini də burada yaratmışdılar. Ərzurum, Trabzon-Van yolunun ortasında yerləşdiyindən həm quru yoluyla Qafqazdan, həm də Trabzon yoluyla (dənizdən) Batum, Göstənçə və digər yerlərdən müntəzəm məlumat almaq, vilayətlərə silah, hərbi sursat göndərmək çox asan idi. Müharibə başlanar-başlanmaz vilayət mərkəzində və Bəyaziddə yaşayan ermənilərin böyük qismi və ordudan fərarilik edən ermənilər Rusiyaya keçmiş, silahlandırılıb təşkil edilən könüllü alaylarla rus orduları ilə Osmanlı ordusuna qarşı vuruşmağa başlamış və məhəlli çətələrlə birlikdə bölgədəki müsəlman əhalisinə qarşı hər cür zülm və qətllər törətmişdilər.

Səfərbərliyin elanından sonra böyük qismi Türkiyə ermənilərindən və fərari əsgərlərdən ibarət olan 800-dən çox erməni Kağızmanda toplanmış və rus hakimiyyəti tərəfindən silahlandırılmışdı. Kağızmana ermənilərdən ibarət rus könüllü bölüyü də gəlmiş, beləliklə, Kağızmandakı silahlı ermənilərin sayı 15.000 nəfərə çatmışdı. Osmanlı hökümətinin yerlərlə əlaqəsini kəsmək məqsədi ilə ermənilər poçtlara basqınlar edirdilər. 1914-cı ilin oktyabırında bölgədə poçtlara basqınlar edən üç nəfər həbs olunmuşdu.

Ərzincandakı sui-qəsdlər, qəsəbələrdə yersiz və lüzumsuz hərbi məmurlara atəş açmalar gündəlik xarakter almışdı. Erməni evlərində xüsusi tərtibatlı yerlər, gizli yollar, mağazalar, evləri bir-

birinə bağlayan yeraltı dəhlizlər salınmışdı. Ərzincanlı Nazyan Tikran adlı erməni komitəçisi açıqca bildirmişdi ki, on beş gün daha keçmiş olsaydı, komitələrin aldıqları təlimatlarla Ərzincana başdan-başa od vuracaq, yanıb-yaxılacaq, bütün müsəlman və əsgərləri doğranacaqdı; fəqət hökumətin xəbərdar olması ilə bu təşəbbüs müvəfəqiyyətsizliyə uğramışdı.

Erməni komitəçilərinin mühüm əhəmiyyət verdikləri bölgələrdən biri də Bitlis idi. Van-Diyarbəkir-Hələb-İsgəndərun yolu burdan keçirdi. Buna yaxın olan Muş, Talori kimi şəhərlər keçmişdə erməni üsyanlarının mərkəzi kimi şöhrət qazanmışdılar. Osmanlı ordusu Baş komandanlığı nümayəndəliyi (Vəkaltinin) raportunda qeyd edilirdi ki, Daşnaksütyunun VIII konqresinin «nümayəndələri Viyerman və Papazyan rəislərindən bir neçəsi ilə Muşa daxil olan» Çankeli monastrına gedərək ətrafdakı ermənilərlə konqres qərarlarını təbliğ edir; Papazyan Muşu və ətrafını idarə etmək üçün Muşda qalmış, Viyerman isə yoldaşları ilə Vana getmişdi. Raportda qeyd olunurdu ki, Van, Bitlis, Ərzurum, Qarahisar qiyama hazırlığın əsas mərkəzləridir. Burada 13 yaşına qədər kişi cinsdən olanları komitəyə üzv yazılmaları və silahlandırılmaları əmr edilmişdir.

Ermənilərin və onların avropalı havadarlarının ən çox təbliğat və təşkilat işi apardıqları Van bölgəsi idi. Erməni komitələri bölgədəki konsulluqlardan, məktəblərdən, kilsələrdən istifadə edərək sürətlə təşkilatlanmış və quldurluğa başlamışdırlar. Bölgə daşnak liderlərinə Qafzaqda və Qarabağda törətdiyi cinayətlərə görə rus hökuməti tərəfindən edama məhkum edilmiş İşxan və Aram da qatılmışdı. Vanın Axtamar adasındakı ruhani məktəbi təşkilatın hərəkət mərkəzinə çevrilmişdi. Van-Muşun erməni əhalisinin qiyama hazırlanmasına Van millət vəkili Papazyan rəhbərlik edirdi.

Daxili İşlər Nazirliyinə Bitlisdən 1915-ci ilin əvvələrində gələn teleqramda deyilirdi ki, Akan nahiyəsindəki Güməs qəriyəsində gedən nahiyə müdiri jandarm mühafizəçiləri ilə birlikdə oturduqları

evdə atəşə tutulmuş, mühafizəçilərdən 9 nəfər şəhid olmuş, nahiyə müdiri zorla xilas olmuşdu.

Hizan qəsəbəsinin ətrafında olan Sukur kəndində Korsu, Ahkis, Beygeri, Arşin, Tasu kəndlərində Gevaşda baş qaldıran erməni dəstələri bir çox müsəlmanı öldürmüşdülər. Sukur kəndinə qaçaqları tutmaq üçün gələn jandarmlar öldürülmüş, gözləri oyulmuş, sonra cəsədləri daşlar altında əzilmişdi.

Van vilayətindən Daxili İşlər Nazirliyinə göndərilən 2 dekabr 1914-cü il tarixli məruzədə Vanda üsyana hazırlıq getdiyindən danışılır və bildirilirdi ki, komitə rəisləri məqam yetişincə bir qədər hadisə çıxmamasına çalışırlar. Buna baxmayaraq yeni təlimatdan xəbəri olmayan və köhnə təlimatla hərəkət edən bəzi ermənilər Havsor nahiyəsində bir neçə jandarmı, Kevaş qazısı İsmayıl Həqqi Əfəndini öldürmüşdülər. 1915-ci ilin fevralında Timar nahiyəsindəki ermənilər üsyan edərək müsəlman kəndlərinə basqınlar etmiş, bölgənin Banat kəndində yüzbaşı Süleyman əfəndini və tabeliyindəki jandarmları öldürmüşdülər.

1915-ci il fevralın 27-28-də Adilcəvazdan Vana gedən 300-ə qədər Siyirtli könüllü əsgər Arın adlı erməni kəndində gecələmək istədikdə ermənilər buna silahla müqavimət göstərmiş və könüllü əsgərlərdən səkkizini öldürmüşdülər.

Van bölgəsinin Mahmudiyyə qəzasının kaymakamı Kamal bəyin Daxili İşlər Nazirliyinə göndərdiyi 1915-ci il 15 mart tarixli raportunda ermənilərin Mərkəhu və İsticu kəndlərindən 70 müsəlmanı qətl etmələri, 9 qadının namusuna təcavüz etmələri xəbər verilirdi. Şəhidlərin şəkilləri də raporta əlavə olunmuşdu.

Van valisinin 1915-ci il 20 mart tarixli teleqramında Vanda ermənilərin silahlı qiyama qalxdıqları xəbər verilir və qiyamçıların sayının 200 nəfərdən çox olduğu göstərilirdi. Amerikan tarixçisi Stenford C.Şou yazır ki, belə bir şəraitdə rus ordusu hücuma keçdi və mayın 14-də Vana çatdı: rus ordusunun önündə gələn erməni könüllüləri iki gün ərzində yerli müsəlman əhalisinin qırğınını həyata keçirdilər. Vanda rusların himayəsi altında erməni dövləti

yaradıldı və elə göründü ki, öldürülən və yaxud qaçmağa məcbur edilən müsəlman sakinlər yoxa çıxdıqdan sonra bu dövlət yaşaya bilər.

Xarici ölkələrdə nəşr olunan erməni qəzetçilərinin üsyanlarla bağlı 1915-ci il aprelin 7-də verdiyi bəyanatda deyilirdi: *«...Erməni könüllüləri Andranik, Vartan və silahdaşları, intiqam üçün silahlarınızı qınlarından çıxarınız, alim və iztirab artıq həddini aşdı. Artıq erməni anaları nə qədər ağlayırsa, türk anaları da o qələr ağlasın, nə qədər erməni evi yıxıldısa, o qədər türk evi yıxılsın. İntiqam, bila istisna intiqam, dünya üzərində bütün ermənilər əsla zəiflik göstərmədən son erməniyə qədər cümləsi qanlı əhdimizlə tərbiyə olunsun. Düşmənin qanıyla məşbu olsun (doysun-S.H.) Mərhəmət, ülvi cənab göstərən hər bir erməni bədamə (Hədis-S.H.) alçaqdır. Artıq erməni kəlməsiylə ermənin mütəradit olması zaman intiqamdan başqa bizə nə qaldı?...”*

1915-ci ilin aprel ayına yaxın ermənilərin Vanda başladıqları qiyam böyük vüsət almağa başlamışdı. Erməni katalikosu V Gevork bu üsyanda 10.000 nəfər silahlı komitəçinin iştirak etdiyini bildirdi.

Van valisi Gövdət bəy 1915-ci il 21 aprel tarixli teleqramında ermənilərin şəhərdə vuruşmağa başlaması haqqında xəbər verirdi. Vali aprelin 24-də vurduğu digər teleqramda bölgəyə ətrafdan 4000-ə qədər qiyamçı erməni gətirildiyini, qiyamçıların ətraf kəndləri yandırdığını, qiyamçıların qarşısını almağın qeyri-mümkün olduğunu yazırdı. Erməni quldurlarının yarısı Vanın mərkəzinə hücuma keçmiş, aprelin əvvəllərində Osmanlı bankı, Duyumu, ümumiyyətlə Reci, poçt-teleqraf idarəsi, hökumət binaları və bir çox binanı dağıtmışdılar. Aprelin 15-dən etibarən ətrafdakı bütün erməni dəstələri də bölgəyə gələrək şəhəri tamamilə mühasirəyə almışdılar.

Ermənilərin Vandakı vəziyyətini öyrənən Qafqaz rus ordusunun komandanı general Yudeniç məqamdan istifadə etməyi

qərara almışdı. Mart ayından bəri erməni drujinalarından dördünü Bəyazidə toplamışdı. Yudeniç general Truxinin ikinci Transbaykal kazak eskadronunu da əlavə etmiş və Truxinə Aladağ üzərindəki Təpəriz kəndini aşaraq Bəkirqala və Vana tərəf irəliləməsini əmr etmişdi.

1915-ci il mayın 8-də ermənilər Van şəhəri və ətrafına böyük hücum təşkil etmiş, ətrafdakı müsəlman kəndləri yandırılmağa başlanmışdı. Vali Gövdət bəy Vandan çəkilmək haqqında əmr vermiş, mayın 17-də müsəlman əhalisi Vandan çıxmışdı. Həmin gün ermənilər Van şəhərini öz nəzarətləri altına almışdılar.

Osmanlılar Vanı tərk etdikdən bir neçə gün sonra rusların ön dəstələri Vana gəlmiş və erməni birlikləri ilə birləşmişdilər. Vanın yeni hakimi Arama Manukyan rus komandanı Nikolayevə şəhərin açarlarını təqdim etmiş, Nikolayev də onu Vanın rəsmi valisi təyin etmişdi.

Türklərə düşmən münasibət bəsləyən Vandakı İtaliya konsulluq agenti Sbordan 1915-ci il mayın 31-də yazırdı ki, aprelin əvvəlində Vandakı ermənilər Aram və başqalarının başçılığı ilə qiyam qaldırdılar. Şəhərin mərkəzi hissəsində 100-120, «bağlar» adlanan hissəsində isə 1500-ə qədər erməni qiyamçısı vardır. Türklər qiyamı yatırmağa müvəffəq olmadılar. Ermənilər poçt, teleqram, Dette Publique kontorunu, hətta ingilis konsulluğunu və bir çox başqa binaları dağıtdılar. Qiyam 27 gün davam etdi, ermənilər səbirsizliklə rusları gözləyirdilər. Nəhayət ruslar gəldilər. Birinci olaraq şəhərə erməni könüllüləri daxil oldular. Aram general qubernator təyin olundu.

«Hayastan» qəzetinin 1915-ci il 6 iyun tarixli 25-ci sayında yazılmışdı. *«...Biz düşməndən çox mövqe aldıq. Üsyanın dördüncü günü ən böyük qələbəni əldə etdik. Həmid Ağa qışlağındakı partlayış da o gün oldu. Biz qışlağın təməli altında bir bomba yerləşdirdik. Qumbara ataş aldısa da binanı yıxa bilmədik. Sonra gecə birdən qışlağın yanmaqda olduğunu gördük. Əsgərin bir bölüyü yandı, başqaları qaranlıqdan istifadə edərək qaçdılar.*

*Orada düşmən qovulduqdan sonra bütün Aydesdən əlimizə keçdi. Bundan sonra hücuma keçən hökumət qüvvələrini hər yandan geri çəkilməyə məcbur etdik. 6 mindən çox olan bu qüvvələr təxminən minə qədər ölən və yaralı gətirdi. Bütün tariximizdə belə şanlı bir çarpışma görünməmişdir».* Qəzetin yenə həmin sayındakı bir yazıda deyilirdi: *«Erməni könüllüləri birinci alayı düşmənlə baş verən savaşda qələbə qazanaraq əsgərsiz olan bir çox möhkəmləndirilmiş mövqe tutmuşdur… İkinci könüllü alayı Aykidirtiş Dronun komandası altında hərəkət etdi. Tumanin ilk döyüşü Kavza kəndi yaxınlığında oldu. Bu döyüşdə Dro yaralandığından komandanlıq Armen Karoya (Karaqin Pastırmacıyan) keçdi. Van işğal edildikdən sonra ermənilər rus generalının şərəfinə bir ziyafət təşkil etmişdilər…»* Ziyafətdə Aram demişdi: *«Bir ay əvvəl üsyana qalxdığımız zaman ümidimizi rusların gəlişinə balğamışdıq, durumumuz çox təhlükəli idi. Titanik tayfaları kimi ya təslim olmalı, ya da ölməli idik. Biz ölüm yolunu seçdik. Amma siz gözlənilməyən bir anda yetişdiniz…»*

Van ruslar tərəfindən alındıqdan sonra, orada baş vermiş hadisələri ABŞ tarixçiləri st.C.Şou və E.K.Şou belə təsvir edirdi: Muşun və Türkiyənin şərq rayonlarının digər mühüm mərkəzlərinin minlərlə erməni sakini yeni erməni dövlətinə toplanmağa başladılar, onların içərisində qaçqın dustaqların dəstələri də vardı. İyulun ortalarında ən azı 250 000 erməni toplanmışdı. Ancaq yulun əvvəllərində Osmanlı hissələri rus ordusunu sıxışdırdılar. Geri çəkilən rus ordusunu minlərlə erməni müşayiət edirdi: onlar ölü doğulmuş dövlətin yol verdiyi qətllərə görə cəzadan ehtiyat edirdilər. Türklərə kəskin düşmən münasibət bəsləyən erməni müəllifi Ovanesyan yazırdı ki, geri çəkilən rus ordusu ilə birlikdə 200 000-dən çox erməni Cənubi Qafqaza qaçdı. Müəllif bu geri çəkilmə zamanı 40 min nəfər erməninin öldürüldüyünü qeyd edir. İstisnasız olaraq müharibə şərtləri və ağılsız təbliğat nəticəsində baş vermiş bu itkilərin günahını heç cür türklərin üstünə yıxmaq olmaz.

Vanın işğalından sonra rusların da təhriki ilə erməni qiyamları

ətrafa yayılmış, erməni dəstələri bir çox yerlərdə qətllər etmiş və bəzi kəndləri tamamilə yox etmişlər. Son zamanlar aparılan axtarışlar nəticəsində Van şəhərindəki Səlimbəy məhəlləsində, Ersiş (Qıla məhəlləsi) də, Zava kəndində, Çatbayır (Baxçasaray), Çaldıranda və Alagöydə toplu məzarlar təşkil edilmişdir. Zivə kəndində 8 kəndin 3 min nəfər sakini ermənilər tərəfindən qətl edilmişdi.

Vandakı rus hərbi hissələrinin komandanı general Nikolayev Qafqazdakı rus ordularının komandanına 1915-ci il avqustun 1-də bildirirdi ki, erməni «könüllüləri» ələ keçən qənimətləri götürərkən bunlara mane olmağa çalışan rus əsgərlərinə atəş açmışlar. Bundan başqa, «könüllülər» daxili basqınlar etməkdən və hər cür cinayətlər etməkdən zövq alırlar. Bu artan cinayətlərə son qoymaq məqsədi ilə Vanda hərbi tribunal qurulmuşdu. Erməni «könüllülərinin» qətl və qarət hərəkətlərinə son qoymaq üçün ayrıca cəza dəstələri lazım bilinmişdi.

Osmanlı qüvvələri 1915-ci il iyulun 22-də hücuma keçib Vanı geri aldılar. Türklərin müvəffəqiyyətləri uzun müddət davam etmədi. Avqustda ruslar yenidən Vanı işğal etdilər. Şərq cəbhəsi Van-Ağrı-Xorasan xətti üzrə sabitləşdi. Ancaq, 1916-cı ilin fevralında ruslar iki istiqamətdə: Van gölü ətrafında cənubdan Bitlisə və Muşa doğru, ikincisi Qarsdan Ərzuruma doğru hücuma keçdilər. Fevralın 16-da Ərzurum alındı. Şou yazır: «Bunun ardınca bütün müharibə ərzində ən dəhşətli qırğın baş verdi: milyondan çox müsəlman kəndli qaçmalı oldu… Onlardan minlərcəsi Ərzincana çəkilən Osmanlı ordusu ilə birlikdə qaçmağa cəhd etdikdə tikə-tikə doğrandı.

Aprelin 18-də ruslar Trabzonu, iyulda Ərzincanı tutdular. Ancaq cənubda Van gölü ətrafında rusların hücumu dayandırıldı. Bundan sonra 1918-ci ilin yazına kimi Şərq cəbhəsində mühüm dəyişiklik baş vermədi.

Osmanlı qüvvələri 1915-ci il iyulun 2-də hücuma keçib Vanı geri aldılar: ancaq avqustda Van yenidən rusların əlinə keçdi. Vandakı qiyam Muşa da sirayət etmişdi. 1915-ci il fevralın 21-də II korpus komandanlığının Daxili İşlər Nazirliyinə göndərdiyi teleqramda deyilirdi ki, Muşdan iki saat yarım məsafədəki Siranun kəndində olan 40-50 nəfərlik erməni quldur dəstəsi ətraf kəndlərə basqınlar etmişdir.

Muş və ətrafında əvvəlcə 7000 erməni silahlandırıldı və bunlar qruplarla kəndlərə səpələndilər. Ordudan fərarilik edən ermənilər də onlara qoşuldular və Sasunda böyük quldur birləşməsi təşkil edildi. Rus ordusunun bölgəyə gəlməsi ilə daşnak dəstələri və hnçak qrupları «ruslara sədaqətlərini və şücaətlərini» göstərmək üçün kişiləri cəbhədə olan türk kənd və qəsəbələrindəki qadın, uşaq və yaşlılara təsəvvürə gəlməz işgəncələr verirdilər və qətlə yetirirdilər. Rusiyadan gələn erməni «könüllü alayları»nın da iştirakı ilə erməni quldurlarının sayı 30 minə çatdı.

Muşulu Hacı Əlizadə Əbdülbaqi, Hacı Əhmədoğlu, Yunus çavuş və yoldaşlarının 1916-cı il mayın 23-ü iyunun 5-i arasında verdikləri ifadədə deyilirdi: Müharibənin ilk günlərində bəyazidli Suren və Ərzurum vəkili Karaqin Pastırmacıyanın tabeçiliyindəki 1200 nəfərlik erməni dəstəsi müsəlman kəndlərinə basqın edir, talan edir və görünməmiş bir vəhşiliklə zavallı və müdafiəsiz əhalini yerlərindən qovurdu.

Şahidlər daha sonra demişlər ki, Yeramiş və Akçaviran əhalisinin böyük bir qismi qətl edilmişdi. Hətta yaralı və xəstə əsgərlər belə bu vəhşilikdən qurtula bilməmişdirlər. Beləcə rus ordusu çəkildikdən sonra Osmanlı ordusunun Rizədə qoyduğu bütün yaralılar öldürüldülər. Ruslar tərəfindən yardım görən erməni dəstələri Malazkirt bölgəsində 53 kəndin 20.000 nəfərinin böyük bir qismini qətlə yetirdilər.

Bu olayların böyük bir qismi gözlərimizin önündə cərəyan etdi. Dolabaş kəndindən olan Martiros, Xaraba Qasım kəndindən olan Simon, Qala qəsəbəli Mardivadin və Yürəkli Siron tərəfindən Bekran (Malaskirt) kənd bərbərinin, oğlunun və arvadının gözləri önündə yalvarışına baxmayaraq, qızları zorlandı, işgəncə verildi və öldürüldülər. Bidayət məhkəməsi hakimi Hüseyn bəyə və Ağa kəndli Malaskirt idarə məclisi üzvü Şanlı bəyə qadınların hüzurunda işgəncə verildi və əvvəllər onlara xidmətçilik etmiş ermənilər tərəfindən qətlə yetirildilər. Qadınların və kiçicik Səbinənin də namusuna toxunuldu.

Şahidlərin ifadəlrinə görə Muş süqut edərkən erməni quldurları, sanki qana susamış vəhşi heyvanlar kimi, şəhərin ətrafını «intiqamımızı aldıq» deyərək dolaşdılar və rastlaşdıqları hər bir müsəlmanı rəhmsizcəsinə qətlə yetirdilər. Qadınların namusuna toxunub, yaşlıları diri-diri yandırdılar. Muşun tanınmış adamlarından Hacı Murad, Rəid, Yunaylı Hacı Mehmet, Cəfər, Timur, Abdulla, Yusif Mehmet xan və Nadir xanın boğazları kəsildi. Ayaz (Vayto) nahiyəsində Cebranlı tayfasından, Cindi ağanın idarə etdiyi 15 kəndin sakinlərinin ayaqlarına ağır at nalları vurulub, Hazal gölünə atıldılar. Bundan əlavə, ermənilər Mavkeli yoluyla Anadolunun içərilərinə doğru keçən müsəlmanlara da hücum etdilər. Xəstələr, uşaqlar və yaşlı qadınlar toplaşdıqları Təkkə monastrında diri-diri yandırıldılar. Döşləri kəsilən gənc qızlar, daha sonra öldürüldülər. Beşikdə yaralı bir körpənin ağzına ermənilər tərəfindən kəsilib gətirilən anasının döşü qoyuldu. Şeyx Əbdülqafar Əfəndi adlı bir din adamı, işgəncələrlə başının dərisi soyularkən öldü. Doktor Mustafa bəy iyirmiyə yaxın erməni quldurunun yüzə yaxın uşağı, onların qarşısında şərqi deyib rəqs edən qadınlarla birlikdə apardıqları və qərb körpüsü ilə Dikli-Taşlı arasında bir çoxunun boğazları kəsilmiş minlərlə kişi, qadın cəsədlərinin gördüyünü qətiyyətlə bəyan etdilər.

Feliks Valua adlı bir müəllif yazır: *«Apreldə erməni üsyançıları Van şəhərini ələ keçirdilər. Aram və Vardanın başçılığı ilə bir erməni hakimiyyət orqanı təşkil etdilər və mayın 6-da Van əyalətini müsəlmanlardan təmizlənmiş şəkildə rus qüvvələrinə təslim etmişlər...»*

ABŞ müəllifləri St.C.Şou və E.K.Şou yazırlar: "1915-ci ilin aprelində hələ köçürülmə haqqında əmr verilməzdən əvvəl Rusiya Ermənistanından olan daşnaklar Van şəhərində ermənilərin qiyamını təşkil etdilər: şimaldan olan qızışdırıcı ermənilər müsəlmanları yaşayış yerlərindən qovmaqla rus çarına sədaqətlərini göstərəcəkləri təqdirdə Rusiyanın köməyini vəd etdilər. Qafqazdakı rus ordusu da Van istiqamətində hərəkətə başladı. Köçürmə haqqında əmrdən bircə gün sonra və bu əmrin Şərq vilayətlərinə çatmasına xeyli qalmış, mayın 14-də erməni könüllüləri Vana daxil oldular və iki gün ərzində müsəlman əhalisini kütləvi şəkildə qırdılar. Vanda rusların himayəsi altında erməni dövləti yaradıldı. Türkləri Vanın bütün cənub sahilindən qovmaq və rusların Bitlis vilayətinə girməsini hazırlamaq üçün erməni legionu təşkil edildi. İyulun ortalarında Van bölməsində 250 min erməni toplaşdı. Ancaq Osmanlı ordusu rus-erməni ordusunu geriyə sıxışdırdı. Qətlərə görə intiqamdan qorxan minlərlə erməni də Rusiyaya qaçdı."

Erməni dəstələri Trabzonda, Ankarada və başqa bölgələrdə də müsəlman kəndlərində xeyli qoca, qadın və uşaq öldürmüşdülər.

Antanta dövlətlərinin İsgəndəruna desant çıxaracağını bilən ermənilər, ingilis, fransız gəmiləri bölgəyə gəlməyə başlayınca Samandağı ətrafındakı 7 kənddə qiyam qaldırmışdılar.

Jandarmlara atəş açan 5000-ə yaxın erməni öz silahları, bombaları, patronları, ərzaq və qoyun sürüləriylə Samandakı qəsəbəsi yaxınlığında Musa dağına çıxmışdılar: buradan İsgəndərun yaxınlığındakı fransız və ingilis gəmilərinə nümayəndələr göndərərək birgə hücuma keçməyi təklif edirdilər. Bir müddətdən sonra türk qoşunları tərəfindən mühasirəyə alınan ermənilər gecə vaxtı Viktor Hüqo, Henri Kuatre adlı fransız gəmilərinə və ingilis

gəmilərinə minib Misirin Port-Səid limanına qaçdılar.

Bu gün Ərzurum, Qars, Van, Bitlis, Muş, Sivas, Ankara bölgələrində ermənilər tərəfindən qətl edilmiş türklərin 100-ə yaxın toplu məzarı mövcuddur. Bunların açılan ilk beşində minlərcə insanın skeletləri tapılmışdır.

İngilislər və fransızlar da Rusiya kimi Çanaqqala əməliyyatına başlayarkən «kiçik müttəfiqləri» olan erməniləri hərəkətə gətirmişdilər. Erməni konqresinin ikinci sədri Xalkonyan 1916-cı il 24 may tarixli «Tayms» qəzetinin rusca hissəsində yazırdı: *«Üstümüzə müdhiş bir fəlakət gəlir. Bu da itilaf (Antanta) dövlətlərinə dostluq göstərməyimizdən, erməni millətinin durduğu mövqedən doğur. Fransızlar parlaq və sevimli bir dillə, bizim üçün «kiçik müttəfiqimiz» deyirlər... başdan bəri dostluğumuz tamamən itilaf dövlətləriylədir. Çünki bunların başında ermənilərin ona bağlılığı tarixən qəbul edilmiş Rusiya dururdu.»*

Göründüyü kimi, Türkiyənin 4-5 cəbhədə güclü dövlətlərə qarşı ölüm-dirim mübarizəsi apardığı bir vaxtda erməni təbəələri xəyanət edərək qiyamlar (özü də ən çoxu cəbhə bölgələrində) qaldırırdılar.

Həsən Arfa adlı bir tarixçi yazır: *«1914-cü il Sarıqamış məğlubiyyətindən sonra rus orduları Türkiyəni işğal edəndə Qafqşaz və Türkiyə ermənilərindən təşkil olunmuş erməni könüllü dəstələri irəlidə gəlirdilər. Bunlardan birisinə qana susamış Andranik adlı birisi komandanlıq edirdi. Bu ermənilər kürdlər tərəfindən öldürülmüş soydaşlarının intiqamını almaq məqsədi ilə 1915-1918-ci illər arasında Türkiyənin şərq vilayətlərində 600.000-dən çox kürdü qətlə yetirdilər.»*

Osmanlı hökuməti əvvəlcə kiçik miqyasda çıxan erməni qiyamlarına sırf daxili təhlükəsizlik məsələləri kimi baxmış, kiçik tədbirlər görmüşdür. Ancaq belə tədbirlərlə üsyanları yatırmaq olmadı.

1915-ci ilin fevralında Şərqi Anadolunun bütün erməni əhalisi artıq qiyam etmişdi. Buna görə də Osmanlı hökuməti qəti tədbirlər görməyə məcbur oldu. Fevralın 25-də Baş Qərargah bütün hissələrə

«ermənilərin heç bir halda hərbi xidmətə cəlb edilməməsi barədə» təlimat göndərdi. Beləliklə, erməniləri tərksilah etdilər, lakin onları köməkçi hərbi hissələrdə həqiqi hərbi xidmətdə saxladılar. «Erməni soyqırımının» məddahları məhz bu tədbirlərdə türklərin qara planlarını həyata keçirmək üçün ilk addımı» görürlər: ermənilər tərkisilah edildilər ki, sonra silahsızları öldürmək asan olsun. J.Malevil haqlı sual verir: əgər türklər doğurdan da erməni xalqını istəyirdilərsə nəyə görə əvvəl silahlandırırdılar, sonra da tərksilah? Həm də təlimatın 3-cü maddəsində deyilirdi ki, təcavüz aktı baş verməyən bütün yerlərdə vəziyyətə nəzarət edərək erməni əhalisinə qarşı züla hərəkətlərindən çəkinmək lazımdır. Əhalinin qiyama qızışdırılmasına yol vermək olmaz.

Rafael de Noqales adlı bir nəfər erməni yazırdı:*«... məclisdəki Ərzurum nümayəndəsi Karo Pasdərmicyan (Pastırmacıyan) üçüncü ordudakı bütün erməni zabit və əsgərlərlə Rusiyaya keçdi. Qısa müddətdən sonra onlarla geri dönərək, kəndləri yandırmağa, əllərinə keçən bütün məsum müsəlmanları insafsızcasına qılıncdan keçirməyə başladı. Bu qanlı zülmə zəruri cavab tədbiri kimi Osmanlı hakimiyyət orqanları qaça bilmədikləri üçün türk ordusunda qalan erməni əsgərləri və jandarmlarını tərksilah edərək onları yol inşaatında və nəqliyyatda istifadə etmək üçün işçi dəstərinə keçirdi.»*

1915-ci il aprelin 24-də Daxili İşlər Nazirliyi erməni komitə mərkəzlərinin bağlanması, əmlakının müsadirə edilməsi və komitə başçılarının həbs edilməsi barədə əmr vermişdir. Aprelin 26-da Baş komandanlıq birləşmələrə eyni məzmunda göstəriş verərək komitə başçılarının hərbi məhkəmələrə verilməsi və təqsirlilərin cəzalandırılmasını tələb etmişdi.

Daxili İşlər Nazirliyindən vilayətlərə və mütəssərrifliklərə hələ 1914-cü il 24 aprel tarixində göndərilən teleqramda deyilirdi: *«Hnçak, Daşnak və bənzəri komitələrin el içindəki şöbələrinin dərhal qapadılması, şöbə mərkəzlərində olan əmlak və sənədlərin gizlədilməsinə və məhvinə imkan vermədən müsadirə edilməsi,*

*komitələrin liderləri və öndə gələnləri ilə hökumətə zərərli ermənilərin dərhal tutulması, olduqları yerlərdə qalmalarında ehtiyat olunanların vilayət, sancaq içində uyğun yerlərdə topladılaraq pis hərəkətlər etmələrinə imkan verilməməsi, gərəkli yerlərdə silah axtarılmasına başlayaraq hər cür hadisəyə qarşı xəbərləşmək sürətiylə qüvvətli olması; yürütmənin uyğun şəkildə yerinə yetirilməsiylə ortaya sıxacaq əmlak və sənədlərin təhqiqatı nəticəsində tutulan şəxslərin hərbi məhkəmələrə verilməsi Ordu Baş Kamandanlıq Vəkaləti ilə görüşülərək qərarlaşdırıldıqdan sonra dərhal həyata keçirilməsi və tutulan şəxslərin sayı ilə uyğulama haqqında Heydər bəyə bilgi verilməsi önəmlə tövsiyə olunur.»*

Daxili İşlər Nazirinin bu təlimatına uyğun olaraq İstanbulda 2345 erməni həbs edilmişdi.

Mənbələrin araşdırılmasından məlum olur ki, ermənilərin hər il soyqırımı günü kimi qeyd etdikləri gün əslində 2345 erməni komitəçisinin həbs olunması günüdür.

Soyqırım məddahları iddia edirlər ki, guya aprelin 24-də 600 nəfər yazıçı, şair, jurnalist, siyasətçi, həkim, vəkil, hüquqşünas, müəllim, alim və ruhani mərkəzi xəstəxanaya göndərildi; Bu, Türkiyənin erməni əhalisinin tamamilə məhv edilməsinə yönəldilmiş əməliyyatın başlanğıc zərbəsi idi; xalqı məhv etməzdən əvvəl, onun səsini kəsməyə çalışırlar.

Göründüyü kimi, 600 nəfər barədə əfsanənin tərəfdarları heç həbs olunanların dəqiq sayını da bilmirdilər. 1915-ci il 24 aprel təlimatından sonra cəmi 345 nəfər həbs olunmuşdu. Osmanlı hökumətinin bu ilk tədbirləri sırf polis tədbirləri olmuşdu. Çox maraqlıdır ki, 1915-ci il aprelin 24-də ABŞ prezidentinə Eçmidzin katolikosundan bu məzmunda teleqram göndərilmişdi. Teleqramda deyilirdi: *«Hörmətli prezident, Türkiyə Ermənistanından aldığımız son xəbərlərə görə orada qətllər başlamış və mütəşəkkil bir tədhiş erməni xalqının mövcudiyyətini təhlükə altına almışdır. Bu çətin anda böyük millətinin əsil hisslərinə müraciət edir, insanlıq və xristianlıq naminə, böyük cümhuriyyətimizin diplomatik təmsilçiləri*

*vasitəsilə dərhal müdaxilə edərək türk fanatizminin şiddətinə tərk edilmiş Türkiyədəki xalqımın qorunmasını rica edirəm.»*

Teleqramın ABŞ-da aprelin 24-də alınması üçün onun daha əvvəlki günlərdə vurulması lazım idi. Xatırladaq ki, ABŞ səfirinin 24 apreldə vurduğu teleqram Amerikada yalnız aprelin 27-də alınmışdı. Belə çıxır ki, ermənilər əvvəlcədən müəyyən çıxışa hazırlanmış və əks-tədbirin mütləq olacağını bilərək əvvəlcədən hay-haray salmışlar ki, Qərb havadarlarının köməyi ilə əks tədbirin qarşısını alsınlar. Tanış xəttdir. 1988-ci ilin fevralından Sumqayıt hadisələri xatırlanırmı?

Ermənilərin yaşayış yerlərindən köçürülməsinin başlanğıcı Ənvər paşanın bir qədər sonra yazdığı məktub oldu.

Baş komandan vəkili Ənvər paşa Daxili İşlər Naziri Tələt bəyə 1915-ci il mayın 2-də yazırdı: «*Van gölü ətrafında və Van valiliyinə daxil olan yerlərdəki ermənilər üsyanlar qaldırmaq üçün daim toplu və hazır bir haldadırlar. Bu toplu halda olan ermənilərin buralardan çıxarılaraq üsyan yuvasının dağıdılmasını fikirləşirəm. 3-cü ordu komandanlığının verdiyi mətumala görə ruslar 1915-ci il aprelin 20-də öz sərhədləri daxilində olan müsəlmanları səfil və pərişan bir halda bizim sərhədlərimizin daxilinə qovmuşlar. Həm buna cavab kimi, həm də yuxarıda qeyd etdiyim məqsədi yerinə yetirmək üçün ya bu erməniləri ailələri ilə birlikdə Rusiyaya göndərmək, yaxud bu erməni və ailələrini Anadolu içərisində müxtəlif yerlərə dağıtmaq gərəkdir. Bu iki tədbirdən birinin görülməsini rica edirəm. Bir çətinlik yoxsa üsyançıların ailələrini və üsyan bölgəsi əhalisini sərhədlərimizdən kənara göndərməyi və onların yerinə sərhədlərimiz içərisində xaricdən gələn müsəlman əhalisinin yerləşdirilməsini məsləhət (tercih) edirəm.»*

Göründüyü kimi Ənvər paşa erməniləri qiyam edə bilməz hala gətirilmələrini təklif edirdi. Antanta dövlətləri, ilk növbədə Rusiya erməni qiyamlarının qarşısının alındığını görüb böyük hay-haray qaldırmışdılar. Aprelin 27-də Vaşinqtondakı Rusiya səfiri ABŞ-ın bu məsələyə müdaxiləsini təklif edirdi.

1915-ci il mayın 26-da Baş komandanlıq Daxili İşlər Nazirinə yazırdı: "*Ermənilərin Şərqi Anadolu vilayətlərindən, Zeytundan və buna bənzər toplum olduqları yerlərdən Diyarbəkir vilayətinin cənubuna, Fərat çayı vadisinə, Urfa Süleymaniyyə ətraflarına göndərilmələri şifahi qərara alınmışdır. Yenidən fəsat yuvaları meydana gətirmək üçün ermənilərin köç etdirilməsində bu düşüncələr əsas götürülməlidir:*

*a) Erməni əhalisinin göndərildiyi yerlərdəki aşirət (köçəri tayfa – S.H.) islam sayına görə 10% nisbəti artmamalıdır.*

*b) köç etdiriləcək ermənilərin quracaqları kəndlərin hər birində əllidən çox ev olmamalıdır.*

*v) erməni köçkün ailələri səyahət və nəqliyyat surətilə də olsa yaxın yerlərə ev dəyişdirilməməlidirlər."*

Göründüyü kimi Ənvər paşa ermənilərin köçürülməsini təklif etdikdə yalnız qiyam ocaqlarının aranmasına imkan verməmək məqsədi güdürdü.

Osmanlı hökuməti 1915-ci il mayın 27-də «Sövq və İskan qanunu» adlı bir qanunu çıxartdı. Bu qanuna görə ordu, korpus və briqada komandirinə ərazidəki əhali xəyanətkarlıqla məşğul olarsa, orduya qarşı təxribatlar törədərsə, onların casusluq və xəyanətlərini hiss etdikləri kənd və qəsəbələrin əhalisini digər bölgələrə köçürmək ixtiyarı verildi. Göründüyü kimi, qanunda ancaq erməniləri köçürmək barədə bir qeyd yox idi. Osmanlı dövlətində ermənilərlə yanaşı yəhudi, yunan, gürcü, nestroian kimi qeyri-müsəlmanlar da vardı. Üstəlik, Osmanlı dövləti yalnız Qafqaz cəbhəsində vuruşmurdu, eyni zamanda Çanaqqala, Süveyş kanalı, Suriya, Fələstin və İraq cəbhələrində də vuruşurdu. Yunanıstan düşmən cəbhəsində olduğu halda, nəyə görə Anadoludakı yunanlar

sürgünə məruz qalmadılar? Çünki, onlar Osmanlı ordusunun arxasında qiyam qaldırmırdılar. Anadolunun hər yerində, cəbhələrdə türk qanı axarkən, ermənilər «müstəqil Ermənistan» xəyalına qatılmış, könüllü alaylarla rus və fransız hissələri ilə birlikdə Anadolunu işğal etmyə çalışmışdılar. Alman səfiri Vanhen türk hökumətinin bu tədbirlərini «təbii tədbirlər» kimi xarakterizə etmişdi.

Osmanlı hökumətinin bu qanunu qəbul etməsində ordu komandanlığının verdiyi belə bir məlumat da az rol oynamamışdı. Bununla əlaqədar rus ordu komandanlığının özü erməniləri Rusiyaya, yaxud Anadolunun müxtəlif yerlərinə köçürməyi təklif edirdi.

Osmanlı hökuməti «Sövq və İskan qanunu»nu çıxarmazdan əvvəl bu qanuna tabe olacaq ermənilərin harada yerləşdiriləcəklərini, bunlar üçün yeni evlər inşa ediləcəklərini, köçürmələrin məhəlli idarə məmurları vasitəsi ilə həyata keçiriləcəyi, köçürülən ermənilərin, bütün daşına biləcək əmlak və əşyalarının götürə biləcəklərini yerlərdəki hakimiyyət nümayəndələrinə bildirmişdi. Daşınmaz əmlakın haqqı ödəniləcəkdi.

Beləliklə, Van, Bitlis, Ərzurum vilayətləri ilə Adana, Mersin, Kozan, Cəbəltbərəkət qəzaları, Maraşın mərkəzi istisna olmaqla Maraş mütəsərrəfliyi, Hələb vilayətində İsgəndərun, Beyyan, Antakya qəzalarında yaşayan ermənilərin yeri dəyişdiriləcəkdi. Bunlar Mosul və Zor müstəsərrifliklərinin, Van vilayətiylə bitişik bölgələrlə ermənilərin yerlərinin dəyişdirilməsi nəzərdə tutulurdu.

Yer dəyişdirmənin həyata keçirilməsinin əsasları nazirlər kabineti tərəfindən aşağıdakı kimi müəyyən olunmuşdu:

- əhali onlar üçün ayrılan bölgələrə rahat bir şəkildə, can və əmlak toxunulmazlığı mühafizə olmaqla köçürüləcəkdir;

- yeni evlərinə yerləşənə qədər köçkünlər komitəsinin vəsaiti hesabına yerlə təmin ediləcəklər;

- əvvəlki əmlakı və iqtisadi durumları nəzərə alınaraq, onlara əmlak və ərazi veriləcək, ehtiyacı olanlar üçün hakimiyyət məskən inşa edəcək, əkinçi və sənət adamları toxum və alətlə təmin ediləcəkdir;

- köçkünlərin daşına biləcək əmlakı münasib şəkildə onlara çatdırılacaqdır;

- daşınacaq əmlak və tarlaları sonradan bu əraziyə köçürülənlərə satılacaq, dəyərləri sahiblərinə ödəniləcək.

Köçün həyata keçirilməsi üçün ayrıca təlimat hazırlanmışdı. Bu təlimatın 21 və 22-ci maddələrində deyilirdi ki, köçkünlərə yolda hücum edənlər, köçkünlərdən rüşvət, yaxud hədiyyə alanlar və ya vəd, yaxud təhdid ilə qadınları saxlayanlar, yaxud onlarla qeyri-rəsmi münasibət saxlayanlar dərhal vəzifəsindən götürüləcək, hərbi məhkəməyə verilərək ağır şəkildə cəzalandırılacaqlar. Bəzi məlumatlara görə, yolda erməni köçlərinə elatlar (aşirətlər) tərəfindən basqın halları olmuşdur. Osmanlı hakimiyyət orqanları belə halların qarşısını almağa çalışırdılar. Türkiyə Daxili İşlər Nazirliyi köçlərin aşirətlərin və kəndlilərin basqınlarından qorunması üçün təqsirlilərin edama kimi cəzalarla cəzalandırılması barədə göstəriş vermişdi. Daxili İşlər Nazirliyinin digər bir əmrində 20 yaşınadək kimsəsiz qızların və 10 yaşına qədər oğlanların cənuba göndərilməyərək ailələrə övladlığa verilməsi barədə göstəriş vardı. Uşaqların imkanlı ailələrə övladlığa verilməsi, onlar çox olardısa bir hissəsinin yoxsul, lakin təmiz və namuslu ailələrə verilib, hər aya hər uşaq üçün 30 quruş ödənilməsi, uşaqların kimlərə verildiyini müntəzəm qeydiyyatının keçirilməsi nəzərdə tutulurdu.

Ermənilər köçürülərkən Urfa, Şəbinkarahisar, Fındıcık, Boğazliyan və Silifkdə qiyamlar baş vermişdi. Urfa üsyanını şəhərdən saat yarım məsafədəki Germuş kəndində gizlənən erməni dəstəsi törətmişdi. Hökumət hərbi qüvvə göndərərək Urfada silah axtarışı aparmış, 720 odlu silah, o cümlədən 406 tapança, 74 soyuq silah,

4922 fişəng ələ keçirmişdi. Buna baxmayaraq Ermənilər Rrusların Diyarbəkir-Sivərək yolundan enərək onları qurtaracağı ümidi ilə 7-8 ay dayana biləcəklərini düşünərək Mkırtıçyan familiyalı yeddi əmioğulların rəhbərliyi ilə 1916-cı ilin sentyabrın 16-cı gecəsi qiyam etmişdilər. Oktyabrın 2-nə kimi davam edən Urfa üsyanında Amerikada yetişdirilmiş protestant keşişi Soğoman və ABŞ missioneri İ.Lesle mühüm rol oynamışdılar.

Şəbinkarahisarda bütün müsəlman məhəllələri yandırılmışdı. Maraşın Baxça nahiyəsinin Ayvacıq yaylasında Fındıcıp erməni kəndində olan yüzdən çox quldurdan ibarət erməni dəstəsi türk kəndlərinə və köç qafilələrinə basqınlar edirdi. Antakya erməniləri ilə Xaçın, Zeytun, Maraş və Adana ətrafından qaçan çətələr Süveydirədə sahilə yaxın bir təpədə toplandılar. Dənizdə dolaşan fransız donanmasının top atışının müdafiəsi altında son hərəkətlərini edərək, fransız nəqliyyat gəmilərinə minib qaçdılar. Ermənilər başqa bölgələrə köçürülərkən onların arasında tələfat oldu. Türk əsgərləri cəbhələrdə xarici düşmənlərə qarşı döyüşməkdə olduğundan və qüvvə azlığı üzündən, əsgər olmayan şəxslər, xüsusilə də həbsxanadan bu məqsədlə buraxılmış məhbuslar, kürdlər və köç qafilələrini dağıtmağa çalışan erməni komitəçiləri bu tələfata səbəb oldular. Kürdlər hökumətin gözündən düşmüş ermənilərlə sərt davranmaq imkanı əldə etmişdilər.

IV ordunun komandanı Camal paşa 1915-ci il 20 iyul tarixli əmrində köçürdülən ermənilərin əmlak, can və namuslarının mühafizəsi üçün məsul şəxslərə vəzifələrini yerinə yetirmədikləri təqdirdə sərt cəzalar veriləcəyini bildirdi.

Köç zamanı yol verilən zorakılıq və özbaşınalıqları cəzalandırmaq üçün hərbi nazirlikdə bir təhqiqat orqanı yaradılmış və bu qurum 1918-ci ilin sonuna qədər fəaliyyət göstərmişdir. 1897 nəfər məhkəməyə verilmiş, bunların böyük qismi (648 nəfər Sivasda, 233 nəfər Əl-əzizdə) edam edilmiş, qalanları ağır cəzalarla cəzalandırılmışdılar.

1916-cı ilin oktyabr ayının sonlarına kimi Anadoludan

köçürülənlərin sayı 702 900-ə çatmış, köçürmə tədbirlərinə 1915-ci ildə 25 milyon lirə xərclənmiş, ilin sonuna kimi də 150 milyon lirə lazım idi və ermənilərin iddia etdiyi kimi Osmanlı hökuməti bir soyqırımı keçirmət istəyirdi, dövlətin ağır maliyyə vəziyyətində bu qədər vəsaiti xərcləyərdimi?

Erməni və bəzi qərb tarixçiləri köçürmə əsnasında 2 milyon nəfərə qədər ermənінin planlı şəkildə öldürüldüyünü iddia edirlər. Bu ölü rəqəmi 1915-ci ildə 300 mindən başlamış və hər il bir qədər artırılaraq 1980-ci illərdə 2 milyona çatmışdır. Məsələn, A.Noviçev iddia edirdi ki, birinci dünya müharibəsi dövründə Türkiyədə 1,5 mln. nəfər erməni qətlə yetirilmiş, 120 000 nəfəri Suriya və İraqa sürgün edilmiş, üstəlik böyük miqdarda erməni Rusiya, İran və başqa ölkələrə qaçmışdır. Erməni müəllifi Y.Petrosyan isə iddia edir ki, 1915-ci ilin yazından 1916-cı ilə kimi ermənilərin soyqırımı davam etmiş və guya 1,5 milyon erməni həlak olmuş, 300 min nəfərə qədər Qafqaza qaçmışdır. O, həm də məntiqə zidd olaraq bildirir ki, Van, Şataxa, Urfa, Sasun çoxlu digər şəhər və kəndlərin silahsız əhalisi qəhrəmancasına özlərini müdafiə etmişlər. Vanın özünümüdafiəsi bir aya yaxın davam etmiş və rus Qafqaz ordusunun hissələrindən kömək alan ermənilərin xilası ilə nəticələnmişdir.

Ədalət naminə qeyd etmək lazımdır ki, hətta bəzi erməni tarixçiləri 1915-ci il faciələrində başlıca günahkarların komitəçilər olduğunu, Osmanlı hökumətinin erməniləri köçürərkən düzgün hərəkət etdiyini etiraf etmişlər. Erməni tədqiqatçısı Leo daşnakların qiyamçı fəaliyyətini təhlil edərək yazmışdı: "*Daşnaksütyun»un hiddəti, şübhəsiz pərdənin kiçik bir guşəsini qaldırır. Bunun arxasında da çox diqqətəlayiq fəaliyyətlər təzahür edir. Görürük ki, Daşnaksütyun həqiqətdə dövlət içində bir dövlət olmuş, hətta ölü siyasətini idarə iddiasına qalxmışdır.*"

Leo təhcirdən əvvəl ermənilərin qiyamlara qalxdığını bildirərək yazırdı ki, Muşda və Ovada 7000 erməni silahlandırılmış və müxtəlif kəndlərə dağılmışlar; bir çoxları türk əsgərliyindən

fərarilik etmişlərdir. Onlar nəinki əsgərləri, hətta kürd məmurları da öldürmüşlər.

Leo daha sonra yazırdı*: «Bir tərəfdə türk milləti, digər tərəfdə də sanki erməni milləti var. Bütün dünya qan və yanğın içindədir. Bu «İttihad və Tərəqqi»də üsyanların hərb sahəsində olmasından istifadə edərək dövlətin mövcudiyyətini müdafiə etməsi haqqından istifadə edirdilər. Bu elə bir haqdır ki, ən mədəni bir dövlət belə bundan istifadə etməkdən çəkinməz.»*

Erməni soyqırımının müdafiəçilərinin əsas «dəlillərindən» biri Andonyan adlı bir ermənin ingilis və fransız dillərində nəşr etdirdiyi «Andonyanın sənədləri»dir. Onun iddiasına görə guya 1915 və 1916-cı ilin əvvəllərində Tələt paşa tərəfindən Hələb valisinə erməniləri qırmaq tədbirlərinə dair göndərdiyi teleqramların «surətlərini» **«Nəim bəyin xatirələri. Ermənilərin təhcir və qətli əmrinə dair türk sənədləri»** adlı kitabında vermişdir. Bu surətlər guya 1921-ci ildə Almaniyada Tələt paşanın qatili Tehliryanın məhkəmə prosesində çıxarılmışdı. Maraqlıdır ki, guya bu sənədlərin doğruluğunu təsdiq edən ekspertiza da yoxa çıxmışdır. Bu bədnam teleqramları Andonyan guya xırda Osmanlı məmuru olmuş Nəim bəy adlı birisindən almışdır. Ancaq məlum deyil ki, kiçik vəzifə sahibi məxfi sənədlərə necə yol tapmışdır. Həm də maraqlıdır ki, bu sənədlərin Osmanlı inzibati idarələrində qeydiyyatının heç bir izi tapılmamışdır. Teleqramlar guya o zaman Hələbdə heç bir rəsmi vəzifə tutmayan Mustafa Əbdül Xaliq adlı birisi tərəfindən təsdiq edilmişdir. Göstərilən uydurma «rəsmi teleqramlarda» müsəlman, yulian və qriqoryan təqvimləri qarışdırılmış və «Bismillah» sözü orfoqrafik səhvlərlə yazılmışdır.

1916-cı ildə İngiltərə Xarici İşlər Nazirliyinin rəsmi yayınlar orqanı Lord Brisin başçılıq etdiyi «Ermənistanı dirçəltmək komitəsi» ilə birlikdə Türkiyədə ermənilərlə rəftar barədə yalançı şahidlərin hekayələrindən ibarət **«Mavi kitabı»** nəşr etmişdir. Bu kitabın mənbələri istisnasız olaraq erməni mənbələridir və buna

görə də yalanla doludur. Kitabın əsas tərtibatçılarından olan Toynbi sonralar «Mavi kitab»ın hərbi təbliğat məhsulu olduğunu etiraf etmişdi.

Avropa dövlətləri Türkiyədə ermənilərin köçürülməsi hadisəsindən hərbi təbliğat üçün istifadə etməyə başladılar. 1915-ci ilin mayında İngiltərə və Fransa hökumətləri bu cinayətlərə görə Osmanlı hökuməti üzvlərini, qətllərdə iştirak etmiş və iştirak edəcək şəxsləri təqsirli biləcəklərini elan etmişdilər.

1918-ci ilin noyabrında İstanbul ingilis qoşunları tərəfindən tutulduqdan sonra ingilislər ermənilərin iddialarını sübut etməyə çalışaraq Osmanlı imperiyasının və digər ölkələrin arxivlərini ciddi surətdə yoxladılar. Erməni millətçilərinin istifadə etdikləri başlıca «dəlil» Osmanlı imperiyasının Daxili İşlər Naziri olmuş Tələt paşaya aid edilən saxta teleqramlar seriyası idi. Ancaq, hətta Osmanlı imperiyasının 150 nəfər keçmiş yüksək rütbəli şəxsini hərbi cinayətdə günahlandırmaq üçün Maltada həbsdə saxlayan ingilislər belə bir kobud saxtakarlığı rədd etdilər. Krallıq prokurorluğu iki illik ciddi təhqiqatdan sonra kimi isə hərbi cinayətdə günahlandırmaq üçün əsas olmadığına görə ittihamdan imtina etdi və dustaqlar azad edildilər. Bundan əlavə, Britaniya Xarici İşlər Nazirliyi bildirdi ki, 1914-cü ildə Türkiyənin erməni əhalisi 1,3 milyon nəfər təşkil etmişdir. Deməli, guya 1,5 mln. erməninin öldürülməsi haqqında uydurma fiziki cəhətdən mümkün deyildir.

Bəzi erməni tarixçilərinin əsərlərində belə bir maraqlı fikir irəli sürülür ki, 1915-ci ildə Türkiyə ermənilərinin kütləvi surətdə qırılmasına Rusiya özü şərait yaratmışdı; rus qoşunları əvvəlcədən xeyli Anadolunun içərilərinə yerimiş, erməniləri Türkiyəyə qarşı qaldırmış, sonra hərbi zərurət olmadan cəbhə xəttini düzləndirmək bəhanəsiylə xeyli geri çəkilmişdir və beləliklə erməni əhalisinin türklər tərəfindən qırılması üçün şərait yaratmışdır. Lakin erməni

tarixçisi A.O.Artunyan bu fikri təkzib edərək yazır ki, əsrlər boyu ermənilləri müdafiə edən Rusiya onların kütləvi qırğınına razılaşa bilməzdi, bu, çar generallarının kütbeyinliyinin nəticəsi olmuşdur. Ancaq zənnimizcə yuxarıda deyilən fikir heç də tam əsassız deyil. Rus qoşunlarının geri çəkilməsinin hərbi zərurətdən irəli gəlib-gəlmədiyini deyə bilmərik. Lakin o ki qaldı Rusiyanın ermənilərə «sadiq» olmasına tarix bunun necə doğru olduğunu göstərmişdir. Rusiya həmişə ermənilərdən bir alət kimi istifadə etmiş, sonra onlardan xəbərsiz sazişlər bağlamışdır. Elə 1915-ci ildə ermənilər rus mənafeləri üçün qan tökdükləri bir zamanda Rusiya İngiltərə və Fransa ilə ermənilərin iddia etdikləri torpaqları öz aralarında bölüşdürmək barədə məxfi danışıqlar aparırdı.

Təəssüf ki, vaxtilə bəzi Azərbaycan sovet tarixçiləri də rejimdən gələn təqsirlər nəticəsində erməni və ermənipərəst tarixçilərin qərəzli iddialarını kor-koranə təkrar etmişlər. Məsələn, onlar ermənilərin 1915-ci ildəki terrorçuluq hərəkətlərini «milli və sinfi zülmə qarşı üsyanlar» kimi xarakterizə edir, gənc türkləri ermənilərə muxtariyyət verməmək istəyində günahlandırır və birinci dünya müharibəsi dövründə milyondan çox erməninin qətlə yetirildiyini söyləyir.

Birinci Dünya müharibəsi dövründəı Türkiyə 1,5 milyon erməninin qətlə yetirildiyini iddia edənlər belə bir faktı unudurlar ki, müharibə ərəfəsində Anadoluda 1,3 milyon nəfərdən çox erməni yaşamamışdır. Belə ki, Britaniya ensiklopediyasında müharibə ərəfəsində Türkiyənin 9 bölgəsində (Ərzurum, Van, Bitlis, Harput, Diyarbəkir, Sivas, Hələb, Ədənə, Trabzon) cəmi 913.875 erməni, İstanbul patriarxlığının 1912-ci ilə aid statistikasına görə 6 vilayətdə (Ərzurum, Van, Bitlis, Harput, Diyarbəkir, Sivas) 1.018000 erməni yaşayırdı.

1830-cu ildə Osmanlı dövlətində keçirilmiş ilk siyahıya almaya görə Anadoluda 2.100000 müsəlman, 400000 xristian kişi əhalisi yaşayırdı.

Müxtəlif qərb və Türkiyə mənbələrində XIX əsrin sonu – XX əsrin əvvəllərində Osmanlı imperiyasında cəmi 1-1,3 milyon erməni yaşadığı göstərilir.

Rəsmi statistikada 1914-cü ildə Osmanlı dövlətində 1.234.671 nəfər erməni yaşadığı qeyd olunur. Həm də ermənilər heç bir vilayətdə əhalinin çoxluğunu təşkil etmirdilər. Ermənilərin ən çox yaşadığı vilayətlərdə onların digər əhaliyə görə nisbəti belə idi.

Bitlis - müsəlman – 309999; erməni - 117. 492.

Diyarbəkir - müsəlman – 492101; erməni - 65.850
Ərzurum - müsəlman – 673.297; erməni - 134.377
Harput - müsəlman – 446.379; erməni - 79.791.

Van - müsəlman – 179.380; erməni - 68.899
Sivas - müsəlman - 939.735; erməni - 147.099

Rusiyaya 400-420 min nəfər erməni qaçdığını, sürgündən yerlərinə dönmüş 625000 erməninin də nəzərə alsaq, müharibə dövründə ölən ermənilərin sayının 275-302 min nəfər olduğu görünür. Bunların da bir qismi xəstəliklərdən və pis hava şəraitindən ölmüşdür. Rus ordusu içərisində vuruşub ölən 180.000 erməni də bura daxildir. Protestant və katolik erməni ailələri öz yaşayış yerlərində qalmışlar.

Qeyd etmək lazımdır ki, Ərzurum, Tərcan, Egin, Sasun, Bitlis, Muş və Kilikiya erməniləri dövlətə qarşı qiyamlarda iştirak etmədikləri üçün yerlərindən köçürülməmişdilər.

Hələ 1915-ci il avqustun 8-də Dövlət Dumasının üzvü Papacanyan Sazonova yazırdı ki, ilkin məlumatlara görə Türkiyədən Rusiya ərazisinə 200 min nəfərdən çox erməni qaçıb gəlmişdi.

Qərb ermənilərinin patriarxı 1915-ci ilin oktyabrında Poqos Nübar paşaya yazırdı ki, Sebastiya, Trabzon, Samsun, Kerairu və bir çox yerlərdə ermənilər sürgündən yaxa qurtarmaq üçün

müsəlman dinini qəbul etmişlər.

Tiflisdə erməni bürosuna məruzədə deyilirdi ki, Mesopotomiyaya 350 min nəfər erməni çatmış, İstanbul və İzmirdə isə 180 min nəfər erməni köçürülməmiş qalmışdı.

Beləliklə, mənbələrin araşdırılması göstərir ki, erməni millətçiləri birinci dünya müharibəsində Türkiyənin ağır vəziyyətə düşməsini «Böyük Ermənistan» barədə xülyalarının həyata keçirilməsi üçün əlverişli məqam bilib hərəkətə keçdilər. Şərqi Anadolunun bir çox yerlərində erməni qiyamları təşkil olundu, silahlı erməni quldur dəstələri gələcək Ermənistan dövləti üçün sərbəst ərazi yaratmaq məqsədi ilə dinc türk əhalisini qırmağa, ata-baba yurdlarından qovmağa başladılar.

Ancaq Osmanlı hakimiyyət orqanları tərəfindən erməni millətçilərinin qiyamlarının xəbis əməllərinin qarşısını almaq üçün zəruri və qəti tədbirlər görüldü. Erməni quldurlarının bir çoxu həbs olundu, cəbhəyanı bölgələrdə yaşayan ermənilər imperiyanın digər yerlərinə köçürüldülər. Bununla belə, erməni millətçiləri öz havadarlarının – Rusiya, Fransa və İngiltərənin köməyi ilə necə olursa-olsun öz alçaq niyyətlərinə nail olmağa çalışırdılar.

1. **ARMENIAN ALLEGATIONS: “Myth and Reality” Hits:804**

2. **Sani Hacıyev: “Türkiyə-Rusiya münasibətləri və erməni terroru”**

# Türklərə qarşı erməni terroru

## Erməni terrorizmi okeanın o tayında

Dünyanın çox yerində olduğu kimi okeanın o tayında da erməni terrorizmi özünün böyük şəbəkəsinə malikdir. Erməni diaspor və lobbi təşkilatlarının dəstəyi ilə fəaliyyət göstərən terror qrupları müxtəlif vaxtlarda "düşmən" elan etdiyi Türkiyənin vətəndaşlarına qarşı amansız sui-qəsdlər törətmiş, partlayışlar və hücumlar təşkil etmişdir. Bir çoxları erməni terrorunun "marşrut" xəritəsinin Avropa olduğunu düşünsə də hadisələr onu deməyə əsas verir ki, sən demə erməni terrorunun əsas zərbə qüvvəsi okeanın o tayında hazırlanmaqla istər orada, istərsə də digər ölkələrdə fəaliyyət göstərir. Təkcə XX əsrin son onilliklərini götürsək ermənilərin ABŞ-da kifayət qədər terror və digər quldur əməllərinin xronologiyasına rast gələrik.

Bu gün dünyanın super dövləti hesab edilən və okeanın o tayında yerləşən ABŞ-ın qardaş Türkiyə ilə yaxın strateji müttəfiqliyi hər kəsə bəllidir. Hətta müttəfiqlik o səviyyədədir ki, bu iki dövlət müştərək şəkildə hərbi əməliyyatlarda belə iştirak edir və bir sıra ümumi maraqlarını birgə müdafiə edirlər. Lakin tarixə qısa nəzər salsaq görərik ki, Birinci Dünya müharibəsində və ondan sonra təqribən 5 il müddətinə qədər bu dövlətlərin münasibətləri nəinki mövcud deyildi, hətta olduqca mənfi idi. Doğrudur, bu iki dövlət arasında heç bir hərbi əməliyyat baş verməsə də, bir-birinə düşmən bloklarda olmaları münasibətləri sıfıra endirmişdi. Yalnız

1923-cü ildə Lozanna sülh müqaviləsindən sonra ABŞ-la Türkiyə arasında bir sıra sahələrdə dostluq və əməkdaşlıq razılaşması imzalandı və bundan sonra iki dövlət arasında münasibətlər yeni mərhələyə qədəm qoydu. Lakin elə həmin dövrdə ABŞ-da erməni lobbisinin və cinayətkar qruplaşmanın təhriki və dəstəyi ilə antitürk şüarlar səsləndirilir və "Lozanna əməkdaşlığına yox" ilə kampaniya aparılırdı. Hətta Türkiyə Respublikasının ABŞ-da ilk səfiri təyin olunan **Əhməd Muxtar bəy** diplomatik fəaliyyətinin ilk günlərindəcə erməni quldurlarının təhdidi və lobbinin təzyiqi ilə üzləşir. "Ermənistanın Azadlığı Uğrunda Amerikan Komitəsi" və "Lozanna Müqaviləsinə Qarşı Amerikan Komitəsi" adlı qurumlar Türkiyəni düşmən dövlət elan etməklə, türk vətəndaşların həyatına da təhlükə yaradırdılar. Qaragüruhun başında duranlar ermənilərə satılmış amerikalı siyasətçilər James W. Gerard, Henry Morgenthau və erməni Vahan Kardaşyan və digərləri idilər.

Amerikada vəhşi bir türk imici formalaşdırmağı hədəf götürən erməni lobbisinin ilhamvericiləri sayılan erməni ideoloqları və terror aktlarını dəstəkləyənlər istəklərinə çatmasalar da terror əməllərini davam etdirir. Vaxtilə türklərə qarşı **"Nemezis"** adlı terror hərəkatının əsas təşkilatçılarından və rəhbərlərindən olan erməni yazıçısı Şaan Natali özünün **"Türklər və biz**", **"Ankaradan Bakıyacan türkçülük"** və başqa əsərlərində erməniləri türklərə qarşı nifrət ruhunda "tərbiyə" edir və onların quldur əməllərinə haqq qazandırırdı. 1983-cü ildə Massaçusets ştatının (ABŞ) Vottertaun şəhərində ölən Ş.Natali ABŞ-da erməni məsələsini qabardan əsas qaynaqlardan biri olur.

Ş. Natalidən başqa erməni terror və mafiya qruplaşmalarına hələ 1905-ci ildə Bakı qubernatoru Nakaşidzeyə sui-qəsd edən Ermənistanın dövlət və hərbi xadimi, general Dro kimi tanınan Drastamat Kanayan da rəhbərlik edir. O, ABŞ - da "erməni məsələsi"ni gündəmə gətirən, erməniləri türklərə qarşı terror hərəkətlərinə sövq edən aparıcı şəxslərdən biri sayılırdı. Bundan

əlavə, “Daşnaksütyun”un əsas simalarından biri Armen Qaronun ABŞ-da erməni terror mafiyasının yaranmasında böyük rolu olmuşdur. Armen Qaro Ermənistan daşnak hökumətinin ABŞ-dakı ilk səfiri idi. Ümumiyyətlə, ABŞ-dakı erməni lobbisinin himayəsi ilə terrorçular bu ölkəyə gəlmiş və çoxları burada həyatlarını başa vurmuşlar. Müəyyən dövrlərdə erməni lobbisinin təsir imkanlarına malik olması bu terrorçuların xislətlərindən xəbərsiz qalması ilə nəticələnmişdir. Belələrindən biri də vaxtılə Osmanlı dövlətinin sədr-əzəmi olmuş **Tələt paşanı** qətlə yetirən terrorçu Soqomon Teyleryandır. O, ömrünün sonuna kimi ABŞ-da yaşamış və erməni quldur birləşmələrinin formalaşdırılmasında fəallıq göstərmişdir. Ölümündən sonra Kaliforniyada bu cinayətkarın dəbdəbəli qəbirüstü abidəsi ucaldılmış və bura Amerika Erməni Milli Komitəsinin əsas toplantı məkanlarından birinə çevrilmişdir.

Ən maraqlı cəhət odur ki, ermənilərin terror əməllərini araşdırdıqda, qatillərin əksəriyyətinin erməni “ziyalıları”ndan təşkil olunduğu üzə çıxır. Erməni xalqını məzlum, zavallı, əzilən bir xalq kimi qələmə verən bu “ziyalı” təbəqənin nümayəndələri daim qarşıdurma yaratmağa cəhd göstərmiş və bu işdə onların tapşırıqlarını icra edəcək münasib ermənini tapmayanda, qatillik missiyasını öz üzərilərinə götürmüşlər. Belələrindən biri də Türkiyəyə qarşı ölümlə müşayiət olunan ilk qanlı terror aktını həyata keçirən Qurgen Yanikyandır. Q.Yanikyan Birinci Dünya müharibəsindən sonra ABŞ-a köçmüş və mühəndis, eyni zamanda, yazıçı kimi fəaliyyət göstərmişdir. 1973-cü il yanvarın 27-də 77 yaşlı Q. Yanikyan Santa Barbara şəhərində yerləşən “Baltimor” otelində Türkiyənin Los-Ancelesdəki konsulu **Mehmet Baydar** və vitse-konsul **Bahadur Demirə** onda olan sultan Əbdülhəmidin portretini Türkiyəyə bağışlamaq bəhanəsi ilə görüş təyin edir. Diplomatlar otelə gəldikdə Yanikyan əlindəki tapançadan atəş açaraq diplomatları qətlə yetirir. Məhkəməsi zamanı Yanikyan öz

cinayəti barədə bunları demişdi: *“Mən iki insanı yox, iki pisliyi öldürmüşəm. Onlar mənim üçün adam deyildilər.”*

Bu hadisədən sonra ABŞ-da və digər ölkələrdə erməni terroru daha da ardıcıl xarakter alır və çoxlu dinc insanın ölümü ilə nəticələnir. 1980-ci ilin oktyabrın 12-də ABŞ-ın Nyu-York şəhərində “Türkiyə” mehmanxanası qarşısında avtomobilə qoyulmuş bomba partladılır. Partlayış nəticəsində 4 amerikalı həlak olur, qonşu binalara xeyli ziyan dəyir. CSAQ qrupu kütləvi informasiya vasitələrinin nümayəndələrinə zəng vuraraq partlayışın onlar tərəfindən törədildiyini bildirir. Bundan iki il sonra yanvarın 28-də Kaliforniya ştatında, Los-Anceles şəhərində Türkiyə konsulu **Kamal Arkan** işə gedərkən iki terrorçu tərəfindən qətlə yetirilir. Qatillərdən biri 19 yaşlı Livan mühaciri Xamtiq Sosunyan həbs edilir, sonra mühakimə olunaraq ömürlük həbs cəzası alır. Onun cinayət yoldaşı Krikor Saliba isə Livana qaçır. Bu dəfə də qətlə görə məsuliyyəti erməni təşkilatı CSAQ öz üzərinə götürür.

1982-ci il mayın 4-də ABŞ-ın Massaçusets ştatında Türkiyənin Bostondakı fəxri konsulu **Orxan Gündüz** şəxsi avtomobilində erməni terrorçusu tərəfindən qətlə yetirilir. Bu terror ABŞ ictimaiyyətində də geniş narahatlıq yaratmış və o zamankı Prezident Ronald Reyqan cinayəti törədən şəxsləri tapmağı tapşırsa da, heç bir nəticə əldə olunmamışdır. Onu da qeyd edək ki, bu hadisədən cəmi iki ay əvvəl martın 22-də Orxan Gündüzün ofisi partladılmış, özü isə ağır yaralanmışdı. Hadisənin sonrakı inkişafından da görürük ki, fəxri konsulun ağır yaralanması, konsulluq binasının partladılması erməni terrorçularına kifayət etməmiş, onun qətli üçün qarşılarına qoyduqları iyrənc məqsədi iki ay sonra həyata keçirmişlər. 1982-ci il avqustun 27-də Kanadanın Ottava şəhərində Türkiyə səfirliyinin hərbi attaşesi, polkovnik **Atilla Altıkat** şəhərin küçələrindən birində qırmızı işıqda dayanarkən atəşə tutulur və qətlə yetirilir. ABŞ-da olduğu kimi, burada da qətlə görə məsuliyyəti CSAQ erməni terror qrupu öz üzərinə götürür. Həmin şəhərdə 1985-ci ildə üç erməni

terrorçu Türkiyənin Kanadadakı səfirliyini atəşə tutur. Atışma zamanı "Pinkerton" federal təhlükəsizlik xidmətinin əməkdaşları öldürülür. Bu azmış kimi terrorçular əsas qapını partladaraq səfirliyin binasına soxulur və girov götürürlər. Səfir **Cosqun Kirsə** özünü ikinci mərtəbənin pəncərəsindən ata bilir. Erməni inqilab ordusu terror təşkilatına mənsub olan terrorçular polis tərəfindən yaxalanır və məhkəməyə verilir.

1957-ci ildə ABŞ-ın Kaliforniya ştatında anadan olmuş və erməni terrorizminin əsas simalarından biri olan Monte Melkonyan da ilk quldur təcrübələrini məhz okeanın o tayında mənimsəmiş və dünyanın bir sıra ölkəsində, o cümlədən Fransada və Türkiyədə insan tələfatı ilə nəticələnən terror aktları həyata keçirmişdir. O, daha sonra Qarabağda Azərbaycan Silahlı Qüvvələrinə qarşı savaşmaq üçün Ermənistana gəlmiş, dinc azərbaycanlı əhaliyə qarşı amansız qətllər törətmiş və "Avo" ləqəbi ilə tanınmışdır. Lakin 1993-cü ildə Ağdamın Mərzili kəndi ətrafında gedən döyüşlərdə Azərbaycan Milli Ordusunun kəşfiyyatçısı İbad Hüseynov tərəfindən məhv edilmişdir.

2001-ci ilin dekabr ayında ABŞ-ın Los-Anceles şəhərində erməni cinayətkar mafiyanın üzvləri Aşot Manukyan, Poqos Ketçejiyan, Ovanes İqarayan, Xovsep Keşişyan uzun müddətə azadlıqdan məhrum edilir. Bir müddətdən sonra həmin quldur dəstəsinin başqa bir üzvü Suzanna Onosyan da yaxalanır və 45 il azadlıqdan məhrum edilir. Jurnalist N. Əliyev yazır: *"Federal ittihamçılar sübut edirlər ki, bu adamlar Ermənistandan olan miqrantları öz sıralarına cəlb edərək, onları hiylə ilə saxta çekləri pula dəyişməyə məcbur edən cinayətkar dəstənin üzvləri idi". Erməni quldur dəstəsi insanları oğurlamaqla və biznesmenləri şantaj etməklə məşğul olurdu. FTB-nin Los-Ancelesdəki bürosunun rəhbəri Ronald İden bu barədə deyir: " Ola bilsin ki, bu cür cinayətlər Ermənistandakı erməni cinayətkar qruplarının üzvləri arasında adi bir işdir, lakin bu hərəkətlər Birləşmiş Ştatlarda məqbul sayılmır."*

Erməni terrorunun ABŞ-da əsas hərəkətverici qüvvəsi sayılan şəxslərdən biri də “Moose” ləqəbli (Maral) Murad Topalyandır. O, “Amerika Ermənilləri Milli Komitəsinin” keçmiş sədri olmuşdur. Topalyan Amerikadakı erməni diasporunun tanınmış liderlərindən biri kimi, bir neçə dəfə Ağ evdə olmuş və ABŞ Prezidenti Bill Klintonla görüşmüşdü. Bundan əlavə, dəfələrlə ABŞ Konqresində olmuş və çoxsaylı görüşlər keçirmişdi. Məqsədi də təbii ki, ABŞ hökumətinin “erməni məsələsi”nə diqqət və qayğısını təmin etmək, antitürk fikir formalaşdırmaq, lobbiçilik və erməni mafiya qruplaşmalarını himayə etmək idi. **“U.S. News & World Report”** jurnalının verdiyi məlumata görə, AEMK Daşnaksütyun partiyası ilə sıx əlaqələrə malik idi. 1999-cu ildə Topalyan Klivlend şəhərinə köçür və Kayxodi kollecinin vitse-prezidenti vəzifəsində çalışır. Həmin il ona “ABŞ Murad Topalyana qarşı” (USA vs. Mourad Topalian, Case No.1:99 CR 35) adı ilə tanınan federal ittiham irəli sürülür. Bundan sonra, o, rəhbərlik etdiyi qurumun sədrliyindən istefa verir. Topalyana qarşı təhqiqat 1996-cı ildə Ohayo ştatının Bedford şəhərinin yaxınlığında şəxsi anbarda tapılan partlayıcı maddələr və silahların aşkarlanmasından sonra başlanır. 1980-ci ildən Topalyanın icarəsində olan anbarda 100 funt çəkisində partlayıcı maddə ilə yanaşı, bir neçə insan tükü tapılır. Tapılmış insan tüklərinin 1999-cu ildə keçirilmiş DNK testi ilə M. Topalyana məxsus olduğu göstərilir. Topalyanın həbsi zamanı Federal Təhqiqatlar Bürosu onu “Erməni Soyqırımına Ədalət Komandosları” nın lideri olmasını və BMT-dəki Türk missiyasına hücumda iştirakını ehtimal edir. Topalyan 20 il ərzində ABŞ-dakı türk obyektlərinə qarşı terror aktları hazırlamaqda və həyata keçirməkdə ittiham edilir. İki partlayışda isə Topalyanın bilavasitə istirakı ehtimal olunur. Bunlar 1981-ci ildə Kaliforniyanın Annaxaym şəhərindəki Konqres mərkəzinə və Beverli Xillsdəki Türkiyə konsulluğuna qarşı keçirilmiş terror aktlarıdır. 1979-1996-cı illlər arasında Topalyana qarşı terrorçulara yaxından kömək etdiyi, silah və hərbi sursat istehsal edilən müəssisələrdən

oğurluqlar təşkil etdiyi, qeyri-qanuni yollarla silah əldə etdiyi ittiham aktında öz əksini tapır. Topalyana qarşı sübutlar əsasən onun əlbir olduğu şəxsin köməyi ilə əldə olunur. Aktda qeyd olunur ki, Topalyan partlayışlar və qətllər törətmək üçün adamları ABŞ-da yaşayan erməni gənclərin arasından seçirdi. "Daşnaksütyun" un nəzdində fəaliyyət göstərən "Erməni Gəncləri Federasiyası"nın Massaçusets ştatında yerləşən yay düşərgələrindən, terrorçuları hazırlamaq və onlara təlim keçmək üçün istifadə olunurdu. M.Topalyan buradakı təlimlərdə fərqlənən gəncləri təlimi davam etdirmələri üçün Beyruta göndərirdi.

M.Topalyana Nyu Yorkda Türkiyənin BMT-dəki nümayəndəliyinin qarşısında, 12 oktyabr 1980-ci ildə baş vermiş partlayışın həyata keçirilməsində iştirakı ilə əlaqədar ittiham irəli sürülməsi ən ciddi ittiham olmuşdur. Hüquq-mühafizə orqanlarının ehtimalına görə, məhz Topalyan bu terror aktı üçün terrorçu dəstə yığmış, bu dəstəyə partlayıcı maddələr istehsal edən müəssisədən partlayıcı maddə oğurlamağı əmr etmiş və sonra nümayəndəliyin qarşısında partlayış törətməyə cəlb etmişdir. Qeyd edək ki, terror aktı zamanı nümayəndəliyin qarşısında içərisi partlayıcı maddələrlə dolu olan avtomobil partladılmışdı. 1979-1980-ci illərdə Topalyanın göstərişi ilə bir neçə erməni terrorçusu Manhettendə yerləşən Türkiyənin BMT-dəki numayəndəliyinin yerləşdiyi binada olmuş, keçiriləcək terror aksiyası üçün oranın dəqiq planını işləyib hazırlamışdılar. 11 oktyabr 1980-ci ildə isə Topalyan özü şəxsən terror aktı üçün nəzərdə tutulmuş partlayıcı maddələri də götürüb Nyu-Yorka gəlmiş, oktyabrın 12-də o, iki əlbiri ilə birlikdə nümayəndəliyin qarşısında saxladıqları, partlayıcı dolu maşını partlatmış hadisə nəticəsində küçədən keçən 3 nəfər yaralanmış, nümayəndəliyin binasına isə ciddi ziyan dəymişdir. İstintaq zamanı Topalyan terror aktında iştrakını təkzib etsə də, tapılmış partlayıcı maddə və silahların ona məxsus olduğu təsdiqlənmişdir. Həmçinin istintaq zamanı 1982-ci ildə Topalyanın Kaliforniyadan 5 dinamit şaşkası

sifariş verdiyi də məlum olmuşdur. Bu partlayıcı maddələr, Filadelfiyada həyata keçiriləcək partlayışda istifadə olunmaq üçün nəzərdə tutulubmuş, lakin FTB agentləri bundan xəbər tutur və "yük" yoldə ikən onu ələ keçirməyə nail olurlar. Murad Topalyanın həbsi və ona qarşı irəli sürülmüş ciddi ittihamlara baxmayaraq, erməni lobbisinin təsiri və təzyiqi sayəsində onun üzərindən terrorizmlə bağlı ittiham götürülür və o yalnız qanunsuz silah və sursat saxlamaqda təqsirli bilinir. 2004-cü ilin yanvarın 24-də Topalyana hökm oxunur və o, cəmi 37 ay həbs cəzasına və 3 illik polis nəzarətinə məhkum edilir. Qərar verilən hökmə Türkiyənin etirazları və Ermənistanın Topalyanı müdafiəsi ilə yadda qalır. Onu da bildirək ki, 2000-ci ildə Amerika Erməni Milli Komitəsi tərəfindən terrorçu Topalyan "Ümumi erməni məsələsinə töhfəsinə görə" və "erməni tarixinə və erməni millətinə həsr olunmuş unikal fəaliyyətinə görə" "Azadlıq mükafatına" layiq görülür. Əlbəttə, erməni "ziyalısı"nın terrorda iştirakını və çirkin dağıdıcılıq niyyətlərini millətə "unikal" xidmət kimi göstərən erməni diaspor və lobbi qurumlarından bundan qeyri bir sağlam addım gözləmək sadəlövhlük olardı.

Təbii ki, M. Topalyan hadisəsi ABŞ-da erməni terror və mafiya qruplaşmalarının fəaliyyətinin son nöqtəsi deyildi. 2010-cu ildə ABŞ-ın Kaliforniya, Corcia, Nyu-Mexiko və Ohayo ştatlarında həyata keçirilmiş elə ilk həbslər nəticəsində erməni əsilli 44 mafiya üzvü həbs olunmuşdu. Bundan sonra araşdırmalar artdıqca həbs dalğası daha da genişlənir. **"The Los Angeles Times"** qəzeti əməliyyat zamanı "Erməni gücü" adlı etnik cinayətkar qruplaşmanın 74 üzvünün həbs olunduğunu yazıb. Ölkənin Ədliyyə Nazirliyi isə rəsmi saytında 80-dən artıq erməninin ələ keçirildiyini xəbər verib.

"İşıqları söndürmək" adlı əməliyyatda ABŞ-ın müxtəlif hüquq-mühafizə strukturlarının mindən artıq əməkdaşı, o cümlədən Federal Təhlükəsizlik Bürosunun işçiləri iştirak ediblər.

Maraqlı məqam o idi ki, həbslərlə yanaşı ABŞ səhiyyə sisteminə dəyən maddi zərər də ən yüksək həddə çatmışdı. Bu barədə verilən məlumatlara görə, aparılan hesablamalar nəticəsində dəymiş maddi zərərin 35 milyon dollar olduğu göstərilmişdir.

ABŞ-da böyük bir erməni mafiyasının ifşa olunması nəticəsində o da aydın oldu ki, bu işlərin digər tərəfində də erməni diasporu və İrəvan hökumətinin bir sıra üzvləri dayanır. Hətta həbs edilən erməni mafiya üzvlərinin rəhbəri Armen Kazaryanın Ermənistan prezidenti Serj Sarkisyanla yaxın əlaqələrə malik olduğunu erməni mətbuatı da gündəmə gətirir.

Ermənistanda nəşr olunan "Aykakan Jamanak" qəzetinin yaydığı məlumata görə, 1998-ci ildən Los Ancelesdə yaşayan "Pzo" ləqəbli Armen Kazaryanla Ermənistan prezidenti Serj Sarkisyanın qardaşı - "Saşik" ləqəbli Aleksandr Sarkisyanın birbaşa biznes əlaqələri olub. "Aleksandr Sarkisyanla Kazaryan arasında geniş biznes əlaqələrinin olması faktı hələ çoxdan bəlli idi. Lakin Ermənistanın sabiq XİN başçısı Vano Sıradyeryan 1996-cı ildə mafiyaya qarşı müharibə elan etdikdən sonra Kazaryan ölkədən qaçmışdı. Ermənistana sonuncu dəfə gəldiyi zaman Kazaryan hətta həbs olunub. Ancaq "Saşik" işə qarışdıqdan sonra polis onu azadlığa buraxıb". ABŞ-da erməni terror və quldur mafiyasının lideri A. Kazaryanla Ermənistanın milli təhlükəsizlik naziri Serob Arutyunyanın da sıx əlaqələrə malik olması qəzet tərəfindən işıqlandırılmışdır.

Göründüyü kimi, erməni terrorizminin yayıldığı və inkişaf yolu keçdiyi regionlardan biri də ABŞ-dır. Qanunların idarə etdiyi bu ölkədə erməni lobbisinin siyasətə və ictimai fikirə təsiri danılmazdır. Halbuki, erməni terrorçuların nəinki türklərə, eyni zamanda bütün bəşəriyyətə düşmən kəsilməsi, onların dinc ABŞ vətəndaşlarına qarşı soyğunçuluq, talançılıq, ölümlə təhdid, partlayışlarla müşayiət olunan əməllərindən də aydın olur.

Ermənistanın bir dövlət kimi region üçün təhlükə mənbəyi olması, etibarlı tərəfdaş imicini itirməsi ilə yanaşı ABŞ-ı özünə vətən hesab edən erməni diaspor və lobbi təşkilatları da öz çirkin əməllərindən çəkinmir, Türk dünyasına, bütövlükdə ümumbəşəri insani dəyərlərə qarşı kəskin nifrət nümayiş etdirirlər, onlar normal vətəndaşlıq qaydalarına riayət etmək hissindən belə məhrumdurlar.

**Anar Turan,**

**"Xalq qəzeti"** qəzeti, 22 iyun 2013 - cü il.

# Erməni terroru

## Azərbaycan ərazisində törədilən erməni terror-təxribat faktları

Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terror müharibəsi 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədi ilə Ermənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur.

* **10 mart 1988-ci il.** Yerevan ətrafında 10 nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi.

Elə həmin gün Zəngibasarın Mehmandar kəndində ermənilər 5 nəfər azərbaycanlını öldürdülər.

* **25 mart 1988-ci il.** Vedibasarda el ağsaqqalı, Allah adamı Seyid Ağabala ermənilər tərəfindən vəhşicəsinə öldürüldü.

* **11 dekabr 1988-ci il.** Ermənistanda baş vermiş zəlzələ nəticəsində təyyarə ilə qonşu köməyinə göndərilən 78 nəfər Azərbaycan oğlu ermənilər tərəfindən vurularaq partladıldı. Onlardan yalnız bir nəfəri möcüzə nəticəsində sağ qalmışdı.

Dekabr ayında Quqarkda 70 nəfər azərbaycanlı ermənilər tərəfindən kütləvi şəkildə qətlə yetirildi.

Təkcə 1988-ci ildə Ermənistanda 186 nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə ödürülmüşdü. Bununla da, qədim Azərbaycan torpaqları azərbaycanlılardan təmizləndi.Yüz minlərlə adam yurdsuz-yuvasız qaldı.

* **16 sentyabr 1989-cu il.** "Tbilisi-Bakı" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

* **06 avqust 1989 -cu il.** Əsgəran rayonunun Meşəli kəndində bir nəfər azərbaycanlı qətlə yetirildi.

* **17 noyabr 1989-cu il.** Hadrut rayonunun Tuğ kəndində ermənilər kənd sakini Teyyub Süleymanovu vəhşicəsinə qətlə yetirdilər.

* **28 noyabr 1989-cu il.** Qubadlı rayonunun ərazisində 2 nəfər azərbaycanlı ermənilər tərəfindən öldürüldü.

* **Noyabr 1989-cu il.** Ermənistanda qalmış 30 nəfər azərbaycanlı kütləvi şəkildə məhv edildi.

* **12 yanvar 1989-cu il.** Ermənilər Todana hücum etdilər və 4 nəfər azərbaycanlını öldürdülər.

* **14 yanvar 1990-cı il.** 5 nəfər azərbaycanlı qətlə yetirildi.

* **15 yanvar 1990-cı il.** Todan kəndində 2 nəfər, Kərkicahanda 3 nəfər azərbaycanlı öldürüldü.

* **19-20 yanvar 1990-cı il.** Naxçıvanın Sədərək rayonunda 10 nəfər azərbaycanlı xüsusi qəddarlıqla qətlə yetirildi. Həlak olanlar arasında 4və 6 yaşlı körpələr də var idi.

* **Mart 1990-cı il.** Qazax rayonunda 1 nəfər, Bağani-Ayrım kəndində isə Dadaş Əliyevin 5 nəfər ailə üzvü vəhşicəsinə öldürüldü.

* **29 mart 1990-cı il.** Babək rayonunun Gərməçatax kəndində 1 nəfər öldürüldü.

* **Aprel 1990-cı il.** Ermənilər Gürcüstanda yaşayan azərbaycanlılardan 1 nəfəri, avqust ayında isə daha 1 nəfəri öldürdülər.

* **19 may 1990-cı il.** Naxçıvanın Yayçı kəndində 1 nəfər vəhşicəsinə öldürüldü.

* **11 iyun 1990-cı il.** Xankəndində 1 nəfər azərbaycanlı öldürüldü. Həmin gün Kəlbəcərdə də 1 nəfər qətlə yetirildi.

* **21 iyun 1990-cı il.** Laçın rayonundakı Köhnə kəndində 2 qardaş qəddarlıqla öldürüldü.

* **21 iyun 1990-cı il.** Ağdərə-Kəlbəcər yolunda sərnişin avtobusu gülləbaran edildi. 4 nəfər həlak oldu, onlarla azərbaycanlı yaralandı.

* **19 avqust 1990-cı il.** Qazax rayonunun Əskipara kəndində 2 nəfər azərbaycanlı öldürüldü.

* **17-21 avqust 1990-cı il.** Qazax rayonunda 3 nəfər vəhşicəsinə qətlə yetirildi.

* **08 sentyabr 1990-cı il.** Laçın rayonunda 2 nəfər soydaşımız öldürüldü.

* **13 sentyabr 1990-cı il.** Ağdam rayonunda qaçqın Mehbalı Əliyev ermənilər tərəfindən qətlə yetirildi.

* **02 oktyabr 1990-cı il.** Kərkicahanda birinci sinif şagirdi Eyvaz Abbasov vəhşicəsinə öldürüldü.

* **21 oktyabr 1990-cı il.** Laçın rayonunda 1 nəfər azərbaycanlı qətlə yetirildi.

* **03 noyabr 1990-cı il.** Laçın rayonunun Zabux kəndində 3 nəfər azərbaycanlı öldürüldü.

* **15 noyabr 1990-cı il.** Ağdam-Şuşa yolunda 1 nəfər azərbaycanlı öldürüldü.

* **20 noyabr 1990-cı il.** Tərtər-Kəlbəcər yolunda 2 nəfər azərbaycanlı öldürüldü.

* **24 noyabr 1990-cı il.** Martuni rayonunun Qaradağlı kəndində 3 nəfər azərbaycanlı qətlə yetirildi.

* **30 noyabr 1990-cı il.** Xanlar rayonunun Martuni kəndində 5 nəfər polis işçisi azərbaycanlı qətlə yetirildi.

* **14 dekabr 1990-cı il.** Ağdərə rayonunda 1 nəfər azərbaycanlı öldürüldü.

* **15 dekabr 1990-cı il.** Əsgəran rayonunun Cəmilli kəndində 3 nəfər azərbaycanlı qəddarlıqla qətlə yetirildi.

* **17 dekabr 1990-cı il.** Şərur rayonunda 2 nəfər azərbaycanlı qətlə yetirildi.

* **18 fevral 1990-cı il.** Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, çoxlu insan təlafatı olmuşdur.

* **11 iyul 1990-cı il.** "Tərtər-Kəlbəcər" sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə 14 nəfər qətlə yetirilmiş, 35 nəfər yaralanmışdır.

* **10 avqust 1990-cı il.** "Tbilisi-Ağdam" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayətin təşkilatçıları A.Avanesyan və M.Tatevosyan cinayət məsuliyyətinə cəlb olunmuşlar. Həmin gün "Şəmkir-Gəncə" avtomobil yolunda Xanlar rayonunun Nadel kəndi yaxınlığında "LAZ" markalı 43-80 AQF dövlət nömrə nişanlı avtobus partladılmış, nəticədə 17 nəfər həlak olmuş, 26 nəfər yaralanmışdır.

* **30 noyabr 1990-cı il.** Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu partladılmış, 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

* **09 yanvar 1991-ci il.** "Molodyoj Azerbaycana" qəzetinin müxbiri Salatın Əsgərova və 3 hərbi qulluqçunun olduğu avtomobilə qarşı terror aktı nəticəsində 4 nəfər qətlə yetirilmişdir. Terrorçu qrupun üzvləri A.Mkrtçyan, Q.Petrosyan, A.Manqasaryan və Q.Arustamyan cinayət məsuliyyətinə cəlb olunmuşlar.

* **30 may 1991-ci il.** Rusiya Federasiyası Dağıstan Respublikasının Xasavyurd stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, nəticədə 11 nəfər həlak olmuş, 22 nəfər yaralanmışdır.

* **19 iyun 1991-ci il.** "Yevlax-Laçın" avtomobil yolunun 106-cı kilometrində 5459 saylı hərbi hissəyə məxsus "UAZ-469" markalı avtomaşın partladılmış, 3 nəfər həlak olmuş, 3 nəfər ağır yaralanmışdır.

* **31 iyul 1991-ci il.** Dağıstan Respublikasının Temirtau stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, nəticədə 16 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

* **02 avqust 1991-ci il.** Hadrut rayonunun Dolanlar kəndində "QAZ-53" markalı avtomaşın partladılmış, nəticədə 4 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır. 21 avqust 1991-ci il. Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında "KAVZ" markalı 70-30 AQO dövlət nömrə nişanlı avtobus partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 10 nəfər ağır bədən xəsarəti almışdır.

* **08 sentyabr 1991-ci il.** "Ağdam Xocavənd" avtobusunun atəşə tutulması nəticəsində 5 nəfər qətlə yetirilmiş, 34 nəfər müxtəlif dərəcəli xəsarət almışdır. Terrorun Xaçaturyan Volodi, Yeremyan Saro, Çalyan Saşa, Arustamyan Armo tərəfindən törədildiyi sübuta yetirilmişdir. Həmin gün "Ağdam-Qaradağlı" marşrutu ilə işləyən avtobus erməni quldurları tərəfindən atəşə tutulmuş, 8 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcədə xəsarət almışdır.

* **26 sentyabr 1991-ci il.** "Yevlax-Laçın" yolunda "VAZ-2106" markalı D 72-07 AQ nömrə nişanlı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

* **19 oktyabr 1991-ci il.** Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında "UAZ-469" markalı avtomaşın partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

* **20 noyabr 1991-ci il.** Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında "Mİ-8" vertolyotunun atəşə tutulması nəticəsində vertolyot heyəti və sərnişinlər – Azərbaycanın görkəmli dövlət və hökümət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər – 19 nəfər həlak olmuşdur.

* **26 dekabr 1991-ci il.** Şuşa-Laçın yolunun 4-cü kilometrliyində "ZİL-130" və "Moskviç" maşınları partladılmış, 5 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

* **08 yanvar 1992-ci il.** Türkmənistandan "Krasnovodsk-Bakı" marşurutu ilə hərəkət edən dəniz bərəsində törədilən terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

* **28 yanvar 1992-ci il.** "Ağdam-Şuşa" marşrutu ilə uçan Mİ-8 mülki vertolyotu Şuşa şəhəri yaxınlığında erməni terrorçuları tərəfindən vurulmuşdur. Nəticədə çoxu qadın və uşaq olan 44 nəfər həlak olmuşdur. 1992-ci ilin yanvar ayında erməni terrorçu dəstələri Kərkicahan qəsəbəsində 80 nəfər, 1992-ci ilin fevral ayında Xocavənd rayonunun Qaradağlı kəndində 77 nəfər və 26 fevral 1992-ci il tarixdə Xocalı şəhərində 613 nəfər dinc sakini qətlə yetirmiş, 650 nəfəri isə yaralamışlar.

* **22 mart 1992-ci il.** "UAZ 469" markalı 60-25 AZU dövlət nişanlı avtomaşın Qazax rayonu ərazisində partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır. 28 mart 1992-ci il. "Kamaz-5410" markalı 40-53 AQŞ dövlət nişanlı avtomaşın partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

* **18 aprel 1992-ci il.** "Qazax-Cəfərli" yolunun 10-cu kilometrliyində "Vaz" markalı maşın silahlı basqına məruz qalmış, nəticədə 2 nəfər ölümcül yaralanmışdır.

* **20 may 1992-ci il.** Zəngilan rayonunun Qarançı kəndi yaxınlığında "UAZ-469" markalı 80-33 AQD dövlət nömrə nişanlı avtomaşın silahlı basqına məruz qalmış, nəticədə 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

* **28 fevral 1993-cü il.** Rusiyanın Şimali Qafqaz ərazisində Qudermes stansiyası yaxınlığında "Kislovodsk-Bakı" sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

* **02 iyun 1993-cü il.** Bakı dəmir yolu vağzalında sərnişin qatarının vaqonunun partladılması nəticəsində dövlətə külli miqdarda maddi ziyan dəymişdir. Partlayışın icraçısı Rusiya vətəndaşı İqor Xatkovski Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsi kəşfiyyat şöbəsinin rəisi, polkovnik Caan Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək, cəsusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı aldığını etiraf etmişdir. İstintaq zamanı sübuta yetirilmişdir ki, həmin qrup 1992-1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törətmişdir.

* **22 iyul 1993-cü il.** Tərtər rayonunda törədilmiş partlayış nəticəsində 5 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır. Həmin gün Qazax rayonunun mərkəzində törədilmiş partlayış nəticəsində 6 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

* **30 avqust 1993-cü il.** Hadrut rayonu ərazisində "ZİL" markalı maşın partladılmış, nəticədə 2 nəfər həlak olmuşdur. Həmin hadisədən bir neçə gün sonra içərisində 12 nəfər kənd sakini olan

"QAZ-66" markalı sərnişin avtobusu rayondan çıxarkən partladılmış, nəticədə 4 nəfər həlak olmuş, 8 nəfər ağır dərəcədə yaralanmışdır.

* **01 fevral 1994-cü il.** Bakı dəmir yolu vağzalında "Kislovodsk-Bakı" sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

***18 mart 1994-cü il.** Xankəndi şəhəri yaxınlığında İran Hərbi Hava Qüvvələrinə məxsus "Herkules" tipli təyyarə vurulmuş, 34 diplomat və ailə üzvləri həlak olmuşlar.

***19 mart 1994-cü il.** Bakı metropolitenin "20 Yanvar" stansiyasında törədilmiş partlayış nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. Məhkəmə sübut etmişdir ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı "Sadval" ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir. Müəyyən olunmuşdur ki, "Sadval" separatçı təşkilatının həmin fəalları 1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olmuş, bu ölkənin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak etmişdir. 1992-ci ilin aprel-may aylarında 30 nəfər milliyyətcə ləzgi olan Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçmişdir. İstintaq zamanı müəyyənləşdirilmişdir ki, təxribatçılar təlimata uyğun olaraq, "20 Yanvar" stansiyası ilə yanaşı Bakının "Nizami" kinoteatrında, Respublika sarayında və Bakı lampa zavodunda da partlayışlar törətməyi planlaşdırmışlar. "20 Yanvar" metro stansiyasında partlayışın törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilmişdir.

* **13 aprel 1994-cü il.** Dağıstan Respublikasının "Daqestanskiye Oqni" stansiyası yaxınlğında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

* **03 iyul 1994-cü il.** Bakı metropolitenin "28 May" və "Gənclik" stansiyaları arasında elektrik qatarındakı partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Terror aksiyası Azərbaycan Respublikasının vətəndaşı, Dağlıq Qarabağ uğrunda gedən döyüşlər zamanı – 13 yanvar 1994-cü ildə əsir düşmüş və Ermənistan xüsusi xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb edilmiş Aslanov Azər Salman oğlu tərəfindən törədilmişdir. Məhkəmə araşdırmaları zamanı müəyyən olunmuşdur ki, 14 yanvar 1994-cü ildə erməni separatçılarının ideoloqlarından biri, yazıçı Zori Balayan hərbi əsir, milliyətcə ləzgi Azər Aslanovla görüşmüş, azərbaycanlılara qarşı mübarizədə bütün azsaylı xalqların birgə fəaliyyət göstərmələrinin vacibliyini bildirmişdir. 9 iyun 1994-cü ildə Ermənistan xüsusi xidmət orqanlarının Artur adlı əməkdaşı A.Aslanovun Bakıdakı mənzilinə zəng vuraraq onun sağ olduğunu bildirmiş və azad olunması üçün yaxın qohumlarından birinin Yerevan şəhərinə gəlməsinin zəruriliyini qeyd etmişdir. 16 iyun 1994-cü il tarixində A.Aslanovun anası Tacibat Aslanova Yerevana gəlmişdir. Azər Aslanova anasının həyatının təhlükə altında olduğu bildirilmiş, bu təhdidlər altında o, Ermənistan xüsusi xidmət orqanları ilə "Ömər-75" təxəllüsü ilə daimi əməkdaşlığa cəlb edilmişdir. Azərbaycana maneəsiz gəlməsi üçün Azər Aslanovun adına saxta sənədlər hazırlanmış, partlayıcı maddə isə müvafiq qaydada peçenye, şokolad və dezodarant qutularında gizlədilmişdir. A.Aslanov "Yerevan-Mineralnıye Vodı-Bakı" marşrutu ilə Azərbaycana gələrək, 3 iyul 1994-cü ildə Bakı metrosunun "28 May" və "Gənclik" stansiyası arasında qatarda terror aktını həyata keçirmiş və yenidən Ermənistana qayıtmışdır. Bu müddət ərzində Yerevanda girov saxlanılan anası yalnız bundan sonra azad olunmuşdur.

İstintaq zamanı müəyyən edilmişdir ki, terror aktının təlimatçıları Ermənistan xüsusi xidmət orqanlarının polkovniki Karen Baqasaryan və kapitan Seyran Sarkisyan olmuşlar. Azərbaycan Respublikasının Ali Məhkəmə instansiyaları tərəfindən aparılmış araşdırmalar prosesində göstərilən terror aktlarının həyata keçirilməsində Dağlıq Qarabağın qeyri-qanuni rejiminin funksionerləri və Ermənistan Respublikasının xüsusi xidmət və digər dövlət orqanlarının təşkilatçılığı, maliyyə və texniki dəstəyi, əksər hallarda isə bilavasitə iştirakı prosessual qaydada sübuta yetirilmişdir.

Erməni terrorçuları son 8 ildə Azərbaycan vətəndaşlarına qarşı çoxlu terror aktı həyata keçirmişlər.

*__1986-cı ilin ortalarında__ Bakıda 106 saylı marşrutda işləyən avtobus partlamış, bir adam ölmüş, bir neçə nəfər yaralanmışdır.

*__1989-cu il avqustun 10 - da__ Tbilisi-Ağdam, həmin il sentyabrın 16-da Tbilisi-Bakı, 1990-cı il fevralın 18-də Şuşa-Bakı marşrut avtobusları partladıldı. Üç avtobusun partladılması nəticəsində 40 nəfər həlak olmuş, 74 nəfər yaralanmışdır.

*__1990-cı ildən 1992-ci__ ilə qədər Moskva-Bakı marşrutunda hərəkət edən 6 qatar partladılmış, 64 nəfər ölmüş, 220 nəfər yaralanmışdır.

*__1992-ci il yanvarın 8-də__ Krasnovodskdan Bakıya gələn bərədə törədilmiş partlayış nəticəsində 23 nəfər həlak olmuş, 86 nəfər yaralanmışdır.

**MTN - nin arxivindən**

# QARABAĞ: ETİMOLOGİYASI, ƏRAZİSİ VƏ SƏRHƏDLƏRİ

Qarabağ Azərbaycanın ən qədim tarixi vilayətlərindən biridir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın adı Azərbaycan dilindəki "qara" və "bağ" sözlərindən əmələ gəlmişdir. "Qara" və "bağ" söz birləşməsi Azərbaycan xalqının özü qədər qədim tarixə malikdir. Dünyanın hər yerində bu söz birləşməsinin Azərbaycanın konkret ərazisinə aid edilməsi də danılmaz həqiqətdir. Azərbaycan xalqının öz doğma torpağının bir parçasına verdiyi "Qarabağ" sözü ilk mənbələrdə hələ 1300 il bundan əvvəl (VII əsrdən!) işlənmişdir. Qarabağ əvvəllər bir tarixi-coğrafi anlayış kimi konkret məkanı bildirmiş, sonra isə Azərbaycanın geniş coğrafi ərazisinə aid edilmişdir. Yeri gəlmişkən, bu hal Azərbaycan üçün xarakterikdir: Naxçıvan şəhəri - Naxçıvan bölgəsi, Şəki şəhəri - Şəki bölgəsi, Gəncə şəhəri - Gəncə bölgəsi, Lənkəran şəhəri - Lənkəran bölgəsi və i.a.

"Qarabağ"ın Azərbaycanın konkret bir vilayətinin, bir bölgəsinin adı kimi formalaşması tarixi onun etimologiyasının daha elmi şəkildə izahına imkan verir. Çünki Azərbaycan dilində (həmçinin başqa türk dillərində) "qara"nın rəngdən başqa "sıx", "qalın", "böyük", "tünd" və başqa mənaları da vardır. Bu baxımdan, "Qarabağ" termini "qara bağ", yəni "böyük bağ", "sıx bağ", "qalın bağ", "səfalı bağ" və s. mənası kəsb edir. Beləliklə, Qarabağın özü kimi "Qarabağ" sözü də Azərbaycan xalqına məxsusdur.

Qarabağdan bəhs edərkən qarşıya əvvəlcədən belə bir sual çıxır: Qarabağ haradır, Azərbaycanın hansı ərazilərini əhatə edir? Bu sualın cavabı bu gün daha aktualdır və erməni separatçıları tərəfindən törədilmiş "Dağlıq Qarabağ problemi"nin dərk edilməsi

üçün mühüm əhəmiyyətə malikdir. Qoyulmuş suala cavab üçün ilk mənbəyə müraciət edək. Vaxtı ilə bu ərazini əhatə edən Azərbaycan dövlətinin - Qarabağ xanlığının vəziri olmuş Mirzə Camal Cavanşir özünün "Qarabağ tarixi" (1847) əsərində bu məsələdən bəhs edərkən yazırdı: "Qədim tarix kitablarının yazdığına görə Qarabağ vilayətinin sərhədləri belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər - Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçi-Həsənli camaatı arasındadır və Rusiya dövləti məmurları onu rus istilahilə Krasnı most, yəni Qızıl körpü adlandırırlar. Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla sərhədi Kür çayına qədər - Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır".

Rusiya işğalı və müstəmləkəçiliyinin ilk dövründə Qarabağın ərazisi və sərhədlərinin belə dəqiq təsvir edilməsi onunla izah olunur ki, 1) bu faktı bilavasitə Qarabağın idarəsilə məşğul olan dövlət adamı yazır, başqa sözlə, həmin fakt rəsmi sənədlərə əsaslanan rəsmi sözdür, Rusiyanın xidmətində olan dövlət adamının rəsmi sözüdür; 2) digər tərəfdən bu fakt yalnız reallığa, təcrübəyə əsaslanmaqla qalmayıb ilk mənbələrlə də sübut olunur. Mirzə Camalın mövqeyinin doğruluğunu göstərmək üçün qədim tarix kitablarına istinad etməsi təsadüfi deyil. Göründüyü kimi, siyasi-coğrafi məkan olaraq, tarixdə həmişə "Dağlıq Qarabağ" deyil, bütöv halda, yəni Qarabağın bütün ərazisini - dağlarını, düzənlərini əhatə edən ümumi bir "Qarabağ" anlayışı olmuşdur. Başqa sözlə, "Dağlıq Qarabağ" anlayışı çox sonraların "məhsuludur", separatçılıq niyyəti ilə Qarabağın bir hissəsinə verilmiş addır. Adicə məntiq də bunu sübut edir: əgər Dağlıq Qarabağ varsa, deməli düzən və ya aran Qarabağ da var! Reallıq da belədir: bu gün Azərbaycanda həm Dağlıq Qarabağ var, həm də Aran Qarabağ (yəni düzən Qarabağ)! Özü də həm düzən (aran), həm də dağlıq Qarabağ həmişə, bütün

tarixi dövrlərdə bir xalqın - Azərbaycan xalqının Vətəni olmuşdur, dilində "qara" və "bağ" sözləri olan xalqın! Azərbaycan xalqının yüzlərlə ən qədim, ən nadir folklor nümunələri, musiqi inciləri məhz Qarabağda yaranmışdır, Qarabağla bağlıdır.

**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu**

# QARABAĞ ƏN QƏDİM ZAMANLARDAN XANLIQLAR DÖVRÜNƏDƏK

## Ərəb xilafətinədək

Qarabağ təkcə Azərbaycanın deyil, ümumiyyətlə dünyanın da ən qədim tarixə malik olan diyarlarındandır. Bu ərazidəki Azıx mağarasında ən qədim insanların yaşayış məskəni aşkar edilmişdir. Bu yaşayış məskəni Azərbaycanın, o cümlədən Qarabağın, Aralıq dənizi hövzəsi və Şərqi Afrika ilə birlikdə insanlığın ilk vətənlərindən biri olduğunu sübut edir. Azıx mağarasının tədqiqatçısı Azərbaycan alimi M.Hüseynov yazırdı: *"Azıxda öyrənilmiş çay daşı alətləri mədəniyyətləri, Şərqi Afrikanın Olduvay mədəniyyəti kompleksi ilə yaxınlıq təşkil edir. Eyni zamanda, alətlərin hazırlanmasında fərqli cəhətlər də vardır ki, bu da, Azıxın alt təbəqələrindən aşkar olunmuş əmək alətlərini Quruçay mədəniyyəti adlandırmaq imkanı vermişdir… Quruçay mədəniyyətinin yaşı isə 1 milyon 200 min ildən də qədimlərə aid edilə bilər"*.

1968-ci ildə Azıx mağarasının aşöl təbəqəsindən Azıx adamı - azıxantrop adlandırılan insanın çənə sümüyü tapılmışdır. Azıx adamının 350-400 min il əvvəl yaşadığı guman olunur. Qarabağda mustye mədəniyyəti daha çox Tağlar mağarası ilə təmsil olunmuşdur. Qarabağın arxeoloji cəhətdən öyrənilməsinin davam etdirilməsi burada daş dövrünün mezolit və eneolit dövrlərinin də geniş inkşaf etmiş olduğunu müəyyənləşdirə bilər. Eneolit (e.ə.VI-IV minilliklər), tunc və ilk dəmir dövrlərində (e.ə. IV minilliyin sonu - I minilliyin əvvəli) Qarabağın həyatında böyük dəyişikliklər baş vermişdi. Son tunc və ilk dəmir dövrü (e.ə. XIII-VII əsrlər) Xocalı-Gədəbəy mədəniyyəti adı almışdır. Bu dövrə aid Xocalı qəbiristanlığı arxeoloji abidəsindən üstündə Aşşur (Assuriya)

hökmdarı Adadnirariyə aid mixi yazı olan əqiq muncuq tapılmışdır. Bu və digər tapıntılar bölgənin Yaxın Şərqlə iqtisadi və mədəni əlaqələrini təsdiq edir.

Təsərrüfat və mədəni həyatın inkişafı ilə yanaşı etno-siyasi proseslər də davam edir. Azərbaycanın cənubunda qüdrətli Manna dövləti (e.ə. IX-VI əsrlər) meydana gəlir. Manna Assuriya və Urartu ilə mübarizədə müstəqilliyini qorumağa nail olur. Şimali Azərbaycan torpaqları, o cümlədən Qarabağ ərazisi Urartunun işğallarından kənarda qalır. Bu dövrdə, ümümiyyətlə Cənubi Qafqazda (Zaqafqaziyada) erməni etnosu yox idi. Çox sanballı tədqiqatçılar, kollektiv monoqrafiyaların müəllifləri Zaqafqaziyanın siyasi tarixindən bəhs edərkən vahid fikir söyləyirlər: Urartunun əsas ərazisi SSRİ-nin sərhədlərindən kanarda yerləşirdi. Qədim dövrdə və orta əsrlərdə ermənilərin kompakt yaşadığı ərazi də indiki Ermənistan SSR-in hüdudlarından uzaqda idi. Urartu dövlətinin varlığına son qoyan Midiya dövləti (e.ə. 672-550) zamanı vəziyyət dəyişdi. Midiya Cənub-şərqi Zaqafqaziyanı özünə tabe etdi. Bu vəziyyət Əhəmənilər dövründə də (e.ə. 550-330) davam etmişdi.

Makedoniyalı İsgəndər (e.ə.336-323) Əhəməni dövlətini dağıtdıqdan sonra Azərbaycanın şimalında siyasi proseslər yeni mərhələyə qədəm qoydu. Bunun nəticəsi idi ki, Makedoniyalı İsgəndərin qısamüddətli hakimiyyətindən sonra, onun ölümü ilə imperiyası parçalandıqda Azərbaycanın cənubunda Atropatena, şimalında isə Albaniya dövlətləri yarandı. (Son dövrlərdə Azərbaycan tarixçiləri Atropatenaşünaslıq və Albanşünaslığı yeni elmi əsərlərlə zənginləşdirmiş, uzun zaman erməni müəllifləri tərəfindən qəsdən saxtalaşdırılmış olan bu dövrün elmi əsaslarla araşdırılmasına böyük töhvələr vermişlər. Onları burada xüsusi olaraq sadalamağa ehtiyac görmədik). E.ə. IV əsrdə və sonralar Atropatena Azərbaycanın şimalında da ərazilərə malik idi və bu zaman Qarabağ ərazisinə daxil olan torpaqların bir hissəsi həmin

Azərbaycan dövlətinə tabe idi. Atropatena ilə eyni zamanda yaranmış Albaniya dövləti təxminən e.ə. IV- e. VIII əsrlərində mövcud olaraq, 1200 ilə yaxın dövr ərzində Azərbaycan tarixində böyuk rol oynadı. Bütün Qarabağ ərazisi Albaniya dövlətinin tərkibinə daxil idi və bu dövlət Qarabağı öz tərkibində qoruyub saxlamaq üçün misilsiz mübarizə apardı və bəzi istisnalarla buna nail ola bildi. F.Məmmədovanın Albaniya dövlətinin, o cümlədən onun tərkib hissəsi olan əyalətlərin (Sakasena, Otena - Uti, Orxistena - Arsax, Araksena və s.) ərazisi və sərhədlərini tarixi dinamikada əks etdirdiyi 6 xəritəsi də bu fikri təkzibolunmaz surətdə təsdiq edir.

Qarabağ Azərbaycan Albaniya dövlətinə məxsus olduğu kimi, burada yaşayan etnoslar - uti, sovdey, qarqar və başqaları da alban tayfaları idilər.

Ermənilərin ilk dəfə Cənubi Qafqazda (Zaqafqaziyada) peyda olmaları təxminən e.ə. II əsrdən sonralara təsadüf edir. Onların regiona daxil olması ilə yerli dövlətlərə və xalqlara qarşı təcavüzkar fəaliyyətləri də başlanır. Bu dövrdə ermənilər Kiçik Asiyanın şərqindəki erməni çarlığını qondarma "Böyük Ermənistan" adlandırır və köçüb məskən saldıqları bütün əraziləri erməni torpaqları elan etməyə cəhd edirlər. Roma imperiyasının e.ə. 66-cı ildə II Tiqranı darmadağın etməsi ilə uydurma "Böyük Ermənistan" əfsanəsi puça çıxır, onlar Romanın vassalına çevrilir. Bu vəziyyət IV əsrədək davam edir. Belə olduğu halda ermənilərin Albaniyanın tarixi torpaqlarını Ermənistanın tərkib hissəsi kimi qələmə verməsi heç bir elmi-tarixi əsasa malik deyil. Halbuki ermənilərdən fərqli olaraq Azərbaycan-Albaniya dövləti müstəqil siyasət yeritməkdə davam edirdi və Qarabağın tarixi vilayətləri onun tərkibinə daxil idi. Tədqiqatçının yazdığına görə "mənbələrin tədqiqi və I-IV əsrlərdəki gerçəkliklərin öyrənilməsi bizi əmin edir ki, Albaniyanın cənub sərhədi Araz çayı boyunca keçmişdir."

Qarabağın Azərbaycana məxsus olduğunu və burada ən qədim zamanlardan başlayaraq müxtəlif türk etnoslarının yaşadığını Azərbaycan və ümumtürk şifahi xalq ədəbiyyatının möhtəşəm abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanları da sübut edir. Dədə Qorqud dastanları VI-VII əsrlərdə Qarabağ da daxil olmaqla bütün Azərbaycan torpaqlarında, o cümlədən Göyçə gölü hövzəsində yayılmışdır. Bu qiymətli xalq-qəhrəmanlıq eposunun təsdiq etdiyi kimi, bəzi oğuz qəhrəmanları hətta Məhəmməd peyğəmbərin (s.) hüzuruna gedərək onun özü ilə də görüşmüşdülər. Ağqoyunlu hökmdarı Uzun Həsənin (1453-1478) göstərişi ilə yazılmış məşhur Oğuznamədə (Əbu Bəkr Tehraninin 1470-ci ildə yazdığı "Kitabi-Diyarbəkriyyə"sində) Göyçə dənizi yaylaqlarının və Qarabağın qədim oğuz türklərinə məxsus olduğu, oğuz türklərinin soykökündə duran Oğuz Xaqanın Göyçə dənizi ətrafında dəfn olunduğu, Bayandur Xaqanın isə Qarabağda, Göyçə dənizi yaylaqlarında yaşadığı və orada da dəfn olunduğu göstərilir.

## Qarabağ Ərəb xilafəti dövründə

### Arsaxda qriqorianlaşdırma və erməniləşdirməyə dair

Qarabağın tarixində əsas dəyişikliklər Ərəb xilafətinin işğalları və bunun nəticəsində Albaniya dövlətinin aradan qaldırılması ilə baş verir. Ərəb işğallarınadək Qarabağın tarixi əhalisi etnik baxımdan eyni kökdən, yəni Azərbaycan-Albaniya kökündən olduğu halda, bu dövrdə Ərəb xilafətinin Azərbaycanla bağlı yeritdiyi faciəli siyasət nəticəsində vilayətin dağlıq hissəsində ermənilərin dini üstünlüyünün təmin edilməsi, zaman keçdikcə etnik sahədə də özünü göstərdi: Albaniyanın tarixi Arsax bölgəsi əhalisinin əvvəlcə qriqorianlaşdırılmasına, bunun ardınca da erməniləşdirilməsinə başlandı. Azərbaycanın bu bölgəsində qriqoiyanlaşdırma və erməniləşdirmə proseslərinin səbəbləri, gedişi və erməni-xilafət əməkdaşlığının mahiyyəti və b. problemlər, onun

tarixi ədəbiyyatda necə əks olunması məsələləri akad. Z.Bünyadov tərəfindən xüsusi olaraq tədqiq edilmişdir. Təbiidir ki, qriqorianlaşdırmaya nisbətən erməniləşdirmə uzun proses olmalı idi və həqiqətən də bu belə oldu. Ona görə də Z.Bünyadov akad. S.T.Yeremyanın "VII əsrdən (qəti olaraq VIII əsrin əvvəllərindən) Alban kilsəsinə erməni kilsəsinin bir hissəsi kimi baxılırdı" və bu zaman Arran vilayətindən Sünik, Arsax, Uti və başqalarının erməniləşdirilməsini iddia edən fikrinə etiraz edərək yazır: "İki müxtəlif anlayış olan erməniləşdirmə və qriqorianlaşdırma anlayışlarının qarışdırılması diqqəti cəlb edir. Bu yerdə erməni kilsəsinin köməyi ilə Arran əhalisinin yalnız qriqorianlaşdırılmasından danışıla bilər. S.T.Yeremyanın bu barədəki nöqteyi-nəzəri o qədər də doğru deyildir, çünki Arran vilayətində Sünik vilayəti və Arsaxın xeyli hissəsi XII əsrin əvvəllərinə yaxın erməniləşdirilmişdir."

Bu fikir (həm də akad. S.T.Yeremyanın gəldiyi nəticə!) bir daha təsdiq edir ki, Qarabağın bu hissəsində yaşayan əhali əvvəldən erməni olmamış, əksinə yerli Azərbaycan-alban tayfaları olmuşlar və sonradan erməniləşdirilmişlər, daha doğrusu əvvəlcə qriqorianlaşdırılmış, sonra isə erməniləşdirilmişlər.

Populyasiyanın etnogenezi və onun qarşılıqlı əlaqəsi haqqında informasiya verən və müasir elmi nailiyyətlərə əsaslanan odontoloji tədqiqatlar da bunu sübut edir. Heç də təsadüfi deyil ki, Ərəb xilafəti parçalandıqdan sonra Albaniyanın həmin ərazisində Sünik və Arsax-Xaçın knyazlıqları yarandı. "XII əsrin sonlarına yaxın Sünik padşahlığı dağıldı, buradakı hakim sülalə 1166-cı ildən knyaz Qriqorun və Smbatın ölümü ilə kəsilmiş oldu. XII əsrin sonu-XIII əsrin əvvəllərində Arsax ərazisində təşəkkül tapan Xaçın knyazlığı İ.A.Orbelinin sözləri ilə desək "qədim Albaniyanın bir hissəsi" idi". Beləliklə, tamamilə təbiidir ki, Ərəb xilafəti dağılarkən onun ərazisində dirçələn yerli dövlətlər içərisində heç bir erməni dövləti

olmamışdır. Bu da, Azərbaycandan və Gürcüstandan fərqli olaraq, Cənubi Qafqazda ermənilərin ümumiyyətlə dövlətçilik tarixinə malik olmadıqlarını sübut edir.

Bu proseslərin baş verdiyi IX-XIII əsrin əvvəlləri, xüsusilə Sacilər-Atabəylər-Şirvanşahlar dövrü bütün Cənubi Qafqazda Azərbaycanın qüdrətinin daha da artdığı bir dövr idi. Sacilər və Atabəylər faktik olaraq Azərbaycanın tarixi torpaqlarını siyasi cəhətdən birləşdirmişdilər. Keçmiş Albaniya ərazisində yaranmış Xaçın knyazlığı Mehranilər nəslinə mənsub olan Həsən Cəlalın dövründə (1215-1261) yüksək inkişaf mərhələsinə çatmışdı. Təsadüfi deyil ki, dövrün narrativ və epiqrafik abidələrində o, "Xaçın ölkələri knyazı", "Xaçın və Arsax ölkələrinin əzəmətli knyazı" titulları ilə yanaşı, "Albaniya hökmdarı" titulu ilə də anılır. Başqa sözlə, Həsən Cəlalın bütün titulları Azərbaycan - Albaniya tarixinə məxsusdur. Onun zamanında Alban memarlığının ən mühüm incilərindən biri olan Qanzasar monastırı tikildi.

## Qarabağ Azərbaycan siyasi həyatının mərkəzlərindən biri kimi (XIII-XVIII əsrin 40-cı illəri)

Monqolların birinci yürüşü zamanı (1220-1222) zəifləmiş Atabəylər dövlətinə son qoyan Xarəzmşah Cəlaləddinin Azərbaycanda hökmranlığı zamanı (1225-1231) Qarabağ da onun hakimiyyəti altında idi.

Monqolların ikinci yürüşü və Azərbaycanın işğalının başa çatması ilə (1231-1239) Qarabağ digər Azərbaycan torpaqları kimi Ali monqol xaqanlığının (1239-1256), sonra isə Hülakülər (Elxanilər) dövlətinin (1256-1357) tərkibində idi. Qarabağın bu dövr tarixi haqqında məlumat nisbətən daha əhatəlidir və daha yaxşı öyrənilmişdir. Həmin dövrdə "Qara" və "bağ" söz birləşməsi - "Qarabağ", artıq, konkret coğrafi əraziyə şamil edilir. V.Piriyev

yazır: "Arran Qarabağı" adı ilk dəfə Rəşid əd-Dinin "Came ət-təvarix" əsərində 1284-cü il hadisələrinin şərhi ilə əlaqədar xatırlanır". Bu dövrdə Qarabağ Arranın daxilində dağlıq və dağətəyi torpaqları birləşdirən vahid ərazidən ibarət idi. XIII-XIV əsrlərdə Qarabağ Hülakular dövlətinin siyasi tarixində mühüm rol oynayır. V.Piriyev qeyd edir ki, "Monqol hökmdarlarının daima Qarabağda qışlamaları bir sıra dövlət səviyyəli hadisələrin burada baş verməsinə səbəb olmuşdur. Təkcə onu göstərmək kifayətdir ki, monqol hökmdarlarından ikisi (Qazan xan və Arpa xan) səltənət taxtına Qarabağda çıxmış, ikisi isə (Arqun xan və Əbu Səid) Qarabağda vəfat etmişdir". XIII-XIV əsrlərdə də Qarabağ Azərbaycan torpağı idi və onun əhalisi də, əsasən, Azərbaycan türklərindən ibarət idi.

XV əsrdə Qarabağ Azərbaycan Qaraqoyunlu (1410-1467) və Ağqoyunlu (1468-1501) dövlətlərinin tərkibində idi. Lakin Qaraqoyunlular dövründə Qarabağın sonrakı tarixində özünü göstərəcək bir hadisə baş verdi. XV əsrdə keçmiş alban hakimi Həsən Cəlalın nəsli (Cəlalilər) Qaraqoyunlu Cahan şahdan "məlik" titulu aldı. Sonralar Cəlalilər nəslinin mülkü beş alban feodal knyazlıqları - məliklliklərinə (Gülüstan, Cəraberd, Xaçın, Vərəndə, Dizaq) parçalandı…

Azərbaycan Səfəvi dövlətinin yaranması ilə (1501) bütün Azərbaycan torpaqlarının mərkəzləşdirilməsinə başlandı. XVI əsrin ortalarında Azərbaycan torpaqlarının vahid dövlət halında mərkəzləşdirilməsi başa çatdı. Bununla Azərbaycan Səfəvi dövləti regionun Osmanlı imperiyasından sonra ikinci ən qüdrətli dövlətinə çevrildi. Belə olduğu halda o dövrdə ermənilərin hər hansı etnik-siyasi üstünlüyü mümkün olan məsələ deyildi. Əksinə, həmin dövrdə Azərbaycanın etnik və siyasi sərhədləri daha aydın şəkil alır. Səfəvilər Azərbaycanda 4 bəylərbəylik yaradır ki, onlardan biri də Qarabağ və ya Gəncə bəylərbəyliyi idi. Osmanlıların bu torpaqlarda

tərtib etdikləri icmal və müfəssəl dəftərlər həmin bəylərbəyliyin inzibati-ərazi bölgüsü haqqında aydın təsəvvür yaradır. 1593-cü il məlumatına görə Gəncə-Qarabağ əyaləti 7 sancaq, 36 nahiyəyə bölünürdü. Burada qeydə alınan 1,3 mindən çox toponimik vahidlərin hamısı, demək olar ki, azərbaycanlılara məxsus idi. Bunlardan heç biri ermənilərə məxsus olmamışdır.

Səfəvi dövlətinin zəifləməsindən sonra Azərbaycan torpaqları İran, Rusiya və Osmanlı dövlətləri arasında müharibələr meydanına çevrildi.

Bu dövrdə Gəncə-Qarabağ torpaqları əvvəlcə Osmanlı imperiyası tərkibində olmuşdur. Həmin dövrdə tərtib olunan Osmanlı dəftərləri də azərbaycanlıların bölgənin əsas əhalisi olduğunu sübut edir. Hesablamalara görə 1727-ci ildə Gəncə-Qarabağ əyalətinin əhalisi 122 min nəfər idi. Onun 80,3 min nəfərini (66%) azərbaycanlılar, 37,8 min nəfərini (31%) ermənilər (daha doğrusu qriqorianlaşmış və erməniləşmiş albanlar), 3,7 min nəfərini (3,1%) kürdlər təşkil etmişdir. Bəhs olunan dövrdə Rusiyanın fəal köməklik göstərdiyi qriqorianlaşmış albanlar siyasi cəhətdən fəallaşır. Digər tərəfdən, sonuncu Səfəvi hökmdarı III Abbası yıxaraq hakimiyyətə gələn Nadir şah Əfşar (1736-1747) onu qanuni hökmdar kimi tanımaqdan imtina edən Gəncə-Qarabağ bəylərbəyliyinin türk-müsəlman əhalisinə qarşı ağır cəza tədbirləri həyata keçirdi ki, bu amil də Qarabağın alban məliklərinin mövqeyini gücləndirdi və onların separatizminə təkan verdi. Nadirin ölümü ilə onun dövləti parçalandı, Azərbaycanda yerli dövlətlər - xanlıqlar yarandı. Başqa sözlə Azərbaycan, xanlıqların timsalında özünün dövlət müstəqilliyini növbəti dəfə bərpa etdi. Keçmiş Gəncə-Qarabağ əyalətinin ərazisində iki Azərbaycan xanlığı - Gəncə və Qarabağ xanlıqları yarandı. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları başlıca olaraq Qarabağ xanlığı ilə bağlı olduğundan onun üzərində ayrıca dayanaq.

# QARABAĞ XANLIĞI

## Qarabağda Azərbaycan dövlətçilik ənənəsinin bərpası



Nadir şah Əfşar imperiyasının süqutundan sonra müstəqillik qazanmış Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının banisi Azərbaycanın görkəmli dövlət xadimlərindən biri olan Pənahəli bəy Cavanşir idi. O, Qarabağın Sarıcalı kəndində anadan olmuşdur. Qarabağ xanlığının vəziri olmuş tarixçi Mirzə Camal yazır: "Mərhum Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra, ellər və kəndlər arasında görüb tanıdığı hər bir şücaətli və işgüzar adamı yanına çağırıb, öz yaxın qulluqçuları sırasına alar və onu məvacib, ehtiram və mənsəb sahibi edərdi. O cümlədən ellər arasında Pənahəli bəy Sarıcalı Cavanşir adı ilə şöhrət tapmış, hər işdə fərqlənmiş, ad çıxarmış, müharibə və davada tay-tuşuna üstün gələn və xüsusilə mərhum Nadir Rum əhli qoşunları ilə etdiyi müharibələrdə (XVIII yüzilin 30-cu illərində Osmanlı imperiyasına qarşı müharibələr nəzərdə tutulur) şücaət göstərmiş Pənah xanı da öz yanına apardı". Lakin Muğan qurultayından sonra Nadir onun hakimiyyətini qəbul etmək istəməyən qarabağlılara divan tutmağa, bu diyarın türk-müsəlman əhalisini Əfqanıstan və Xorasana sürgün etməyə başlamışdı. Bu tədbirə etiraz etdiyinə görə Pənahəli bəyin qardaşı Fəzləli xan edam olunmuşdu. Bunu görən Pənahəli bəy şah

Xorasanda olduğu zaman, fürsət tapıb bir neçə qohumu və yaxın adamı ilə 1737-1738-ci illərdə Qarabağ vilayətinə qaçdı. Şah onun qaçmasından xəbər tutan kimi onu yolda ələ keçirmək üçün ardınca çaparlar göndərdi. Lakin onu tutmaq mümkün olmadı. Nadir Azərbaycan sərdarına, Gəncə, Tiflis və Şirvan hakimlərinə qəti fərmanlar göndərdi ki, Pənah xanı harda tapsalar, tutub şahın hüzuruna göndərsinlər. Şahın əmri ilə Pənah xanın ailəsini və qohum-qardaşını çox incidib cərimə etdilərsə də fayda vermədi.[28] Beləliklə, hələ Nadirin sağlığında Pənahəli bəy ona tabe olmaqdan boyun qaçırıb Vətəni olan Qarabağı müstəqil surətdə idarə etməyə cəhd göstərmişdi. Nəticədə Nadir şahın ölümündən sonra Qarabağ torpaqlarında müstəqil Azərbaycan dövləti - Qarabağ xanlığı yarandı.

Qarabağ xanlığı müstəqil dövlət elan edildikdən sonra başlıca vəzifə onun möhkəmlənməsinə nail olmaq idi. Pənah xanın bu sahədə ilk tədbirlərindən biri Qarabağın Nadir şah tərəfindən sürgün olunmuş türk-müsəlman əhalisini geri - doğma torpağa qaytarmaq oldu. Köçkünlərin geri qaytarılması və dədə-baba torpaqlarında yerləşdirilməsi Qarabağ xanlığını gücləndirdi. Sürgündən ilk qayıdanlar içərisində Qarabağın gələcək xanı, 15 yaşlı İbrahimxəlil də var idi.

Qarabağ xanlığı yarandığı zaman burada Təbriz, Ərdəbil, Gəncə, Şamaxı, Bakı, Naxçıvan, Şəki, Dərbənd kimi şəhərlər yox idi. Halbuki belə siyasi-iqtisadi mərkəzlərin olması xanlıqların gələcək inkişafı üçün çox mühüm idi. Yeni müdafiə qurğuları və şəhərlərin salınması Pənah xanın hərbi-siyasi işlərlə yanaşı dəyərli quruculuq uğuru sayılmalıdır.

Bu sahədə ilk addımlardan biri 1748-ci ildə qədim Azərbaycan - türk tayfası olan bayatların adı ilə bağlı Bayat qalasının tikilməsi oldu. *"Xan bütün ailəsini, qohumlarının və el*

*böyüklərinin əhli-əyalını oraya topladı. Ətrafda olan camaat, hətta Pənah xanın tərəqqisini, onun rəftar və məhəbbətini eşidən Təbriz və Ərdəbil vilayətlərinin bir çox əhalisi və sənətkarları belə öz ailələrilə birlikdə gəlib Bayat qalasında yerləşdilər".*

Pənah xanın müstəqil dövlət quruculuğu sahəsindəki fəaliyyəti onun rəsmən tanınması ilə nəticələndi. Mirzə Camal yazır: *"Müsəlman tarixi ilə 1161, xristian tarixi ilə 1745-ci ildə (1748-ci il olmalıdır) Adil şahın Pənah xana "xan" adı verilməsi və Qarabağ hakimi vəzifəsinə təyin edilməsi haqqında fərmanı, qiymətli xələt, qızıl yəhərli at və daş-qaşla bəzənmiş qılıncla birlikdə Sərdar Əmir Aslanın yaxın adamı vasitəsilə o zaman yaşadıqları Bayat qalasına gəlib çatdı".*

Adil şahın fərmanı, əslində gecikmiş bir sənəd idi. Həqiqi "hakimlik" şah fərmanından əvvəl, ondan asılı olmadan qazanılmışdı.

Pənah xanın "Qarabağ hakimi" kimi tanınmasında Şəki xanlığının Qarabağ üzərinə uğursuz yürüşü mühüm rol oynadı. Şəki xanı Hacı Çələbi özünün 1748-ci ildəki uğursuz Bayat yürüşündən sonra bildirmişdi: *"Pənah xan bu vaxtacan sikkəsiz gümüş idi. Biz gəldik ona sikkə vurduq və qayıtdıq" (və ya "Pənahəli özünü xan elan etmişdi, mən isə öz məğlubiyyətimlə onun xanlığını təsdiq etdim").* Hacı Çələbi xanın xalq içərisində zərb-məsələ çevrilmiş bu sözləri, əslində, Adil şahın fərmanından daha artıq gücə malik idi. Əhməd bəy Cavanşir yazır: *"...Bu qalibiyyətdən (Bayat döyüşündən) sonra Pənah xanın igidliyi haqqında dillərə düşən dastan o zaman Qarabağda yaşayan bütün müsəlman tayfalarını müharibəsiz olaraq onun təbəəliyinə tabe etdirdi".*

Bayat döyüşü eyni zamanda bu qalanın gələcək tarixi sınaqlara dözə bilməyəcəyini də üzə çıxardı. Ona görə də yeni qala salınması tələb olunurdu. Mirzə Adıgözəl bəy yazırdı: *"Pənah xan Şahbulağı adı ilə məşhur olan Tərnəkütdə bir qala bina etdi. Daş və əhəngdən məscidlər, evlər, çarsu (meydan, bazar meydanı) və hamamlar*

*tikdirdi. Bu işləri 1165-ci ildə (1751-ci il) bitirərək oranı özünə məskən etdi".*

## Kürəkçay müqaviləsi

Pənah xan gücləndikcə pərakəndəlik tərəfdarı olan feodalların - məliklərin pozuculuq fəaliyyətləri də artırdı. Bunun qarşısının alınması hərbi-siyasi baxımdan zəruri idi. Belə olmasa, xanlığın ərazi-inzibati bütövlüyü itirilə bilərdi. Bu tarixi həqiqəti ilk mənbələr də təsdiq edir.

Mir Mehdi Xəzani çox haqlı olaraq yazırdı: *"Bu Qarabağda ki, beş mahal bundan əqdəm Xəmsə mahalı işlaq olurmuş və şimdi hər birisi bir qeyri-ism ilə adlanırlar...".* Mirzə Adıgözəl bəy Qarabağdakı feodal mülkləri - məlikliklər haqqında yazırdı: "Bu mahallardan **biri** - Dizaqdır. Məlikləri Məlik Yeqan adlanır. O Loridən qaçıb gəlmiş, Nadir şahın səltənəti dövründə və onun əmrilə məliklik taxtında oturub hörmət qazanmışdır.

**İkincisi** - Vərəndədir. Məlikləri Məlik Şahnəzərlilər olmuşdur. Onlar daha qədim bir nəslə mənsub və daha çox etibar sahibidirlər. Əsilləri də Göyçə əsilzadələrindəndir. Sonra oradan qaçaraq gəlib Qarabağda Vərəndə mahalının məliklik camından sərxoş olmuşlar.

**Üçüncü** - Xaçındır. Məlikləri Həsən Cəlalyan övladıdır. (Onlar) riyasət gəlininə gözəllik verib, (hökmran olmuşlar). Bu ailə məliklik mənsəbindən məhrum olduqdan sonra, bu mahalın müstəqil bir məliki olmamışdır. Axırda, mərhum Pənah xan Cavanşirin dövlət günəşi və şövkət bayrağı riyasət üfüqündən baş vurub Qarabağ vilayətinin bütün sahəsini cəlal və dəbdəbə ilə işıqlandırdı. Bu zaman xınzırıstanlı (indiki adı - Xındırıstan) Məlik Mirzə xan… bu əbədi dövlət məmurlarının əmrilə məliklik sikkəsini… adına kəsdirdi. Ondan sonra da oğlu Allahverdi və nəvəvsi Məlik Qəhrəman… məliklik bayrağını göylərə qaldırdılar.

**Dördüncü** - Çiləbörd mahalıdır. Məlikləri Məlik Allahquludur. Əsilləri Mağavizdən gəlmədir. Bunlar gəlib Çiləbörddə məlik omuş, Tərtər çayının ortasında vaqe ən möhkəm bir məmləkətdə yerləşmişlər. Çox çətin bir yolu olan Çermux qalasını (Çiləbördün müxtəsər adıdır) özlərinə məskən, sığnaq və mənzil etmişlər. Çiləbördə müstəqil olaraq yiyələnmiş və böyük bir şöhrət qazanmışlar… Nadir şah… ona sultanlıq rütbəsi və xələti verdi…

**Beşinci** - Talış mahalıdır. Məlikləri Məlik Usubdur. Əsilləri Şirvandan gəlmədir. Bir müddət Talış kəndində sakin olmuşlar. Onlardan bir çoxu dəfələrlə məliklik etmişdi. Sonralar məlik Usub Gülüstan qalasını zəbt edib orada sakin olmuşdur".

**Qarabağ məliklikləri**

| ***Məlikliyin adı*** | ***Qarabağa gəlmələri*** | |
|---|---|---|
| | ***Nə vaxt*** | ***Haradan*** |
| Vərəndə | 1603 | Göyçə mahalından |
| Çiləbürd | 1637 | Zəngəzurdan (Sünikdən) |
| Xazın | XVIII əsrdə yaranmışdır | Yerli |
| Dizaq | XVIII əsrin əvvəlləri | Lori vilayətindən |
| Gülüstan (Talış) | XVIII əsrin əvvəlləri | Şirvandan (Qəbələ sultanlığının Nic kəndindən) |

Beləliklə, Xaçın istisna olmaqla, Qarabağdakı digər məliklər və onların mənsub olduqları nəsillər əslən Qarabağdan deyildilər və bu diyara başqa yerlərdən gəlmə idilər. Özü də erməni deyil, keçmiş

alban nəsillərinin nümayəndələri idilər. Buna görə də erməni millətçilərinin Azərbaycana qarşı ərazi iddialarına "haqq" qazandırmaq üçün həmin məliklərə "erməni dövlətçiliyinin" davamı kimi baxmaları kökündən yanlışdır, daha doğrusu, elmi saxtakarlıqdır. Digər tərəfdən, gəlmə məliklər Qarabağda mahal başçılığını ələ keçirdikdən sonra kiçicik də olsa, heç bir dövlət birləşməsi yarada bilməmişdilər. Onlar bir-birindən təcrid olunmuş, çox zaman isə bir-birilə çəkişən mahal başçıları səviyyəsindən yuxarı qalxa bilməmişdilər. Bundan başqa, yuxarıdakı cədvəldən göründüyü kimi Xaçın istisna edilməklə XVII yüzildən əvvəlki dövrdə onların Qarabağda kökü yoxdur. "Məliklər Qarabağda feodal dağınıqlığının güclənməsini istəyən qüvvələri təmsil edirdilər". Məliklərin separatçı-mərkəzdənqaçma fəaliyyəti xanlıqda və bütün ölkədə gedən mərkəzləşdirmə işinə mane olurdu. Onların yadelli qüvvələrin Qarabağa hücumunun həyata keçirilməsində iştirak etmələri Qarabağ xanlığının müstəqilliyinə ağır zərbə vururdu. Buna görə də məlikliklərin separatçılıq meyillərini aradan qaldırmaq üçün görülən tədbirlər etnik konflikt olmayıb, Qarabağ xanlığının müstəqilliyinə yönəlmiş qəsdlərə qarşı mübarizə idi.

Xəmsə məliklərindən Pənah xanın hakimiyyətini birinci olaraq tanıyan Məlik Şahnəzər oldu. Bu, İbrahimxəlil ağanın Məlik Şahnəzərin qızı Hürzatla evlənməsi ilə nizama salındı. Xaçın məliyi Ulubab Ballıqayada məğlub edildikdən sonra Pənah xanın hakimiyyətini tanıdı. Dizaq, Çiləbörd, Talış məliklərinin düşmənçilik siyasəti isə bir neçə il sürdü. Əhməd bəy Cavanşir yazır: *"Qonşu vilayətlərdən toplanmış xəzinə pullarını saxlayan Tuğ və ya Dizaq məliyi Yegan öz oğulları və qohumları ilə birlikdə kəskin müqavimət göstərdikdən sonra onların bir hissəsi qırılmış, bir hissəsi isə islam dinini qəbul etmişdi… Çiləbörd məliyi Allahqulu Sultan əvvəlcə onun təbəəliyini qəbul etmiş, lakin sonralar xəyanətdə ittiham edilərək Pənah xanın əmri ilə öldürülmüşdü. Onun qardaşı Məlik Hətəm Talışın beşinci məliyi Məlik Usubla ittifaq bağlayıb uzun müddət öz obalarını Pənah xan*

*dəstələrinin hücumlarından müdafiə etmiş, lakin Mardakerd kəndində məğlub olduqdan sonra Tərtər çayının yuxarılarında yerləşən alınmaz Cermux qalasına çəkilmişdi. Bir ilə qədər qalada qaldıqdan sonra nəhayət, öz ailəsi ilə birlikdə qürbət ellərdə nicat axtarmalı olmuşdu. Lakin bununla öz siyasi fəaliyyətlərini bitirmədi. Belə ki, sonralar onun həm özü və həm də övladları (birincinin oğlu Məlik Məcnun) daim Qarabağa hücumlar edirdilər..."*. Pənah xanın məlikləri tabe etmək yolunda qazandığı uğurları onun oğlu İbrahim xan davam etdirdi.

Qarabağ məliklərindən dizaqlı Yesay, çiləbördlü Məcnun və gülüstanlı Bəyləryan İbrahim xana tabe olmaqdan imtina etdilər. Vərəndəli Məlik Şahnəzər və xaçınlı Mirzə xan isə İbrahim xanın hakimiyyətini qəbul edərək onun yaratdığı vətənsevər qüvvələr birliyinə qoşuldular.

Müttəfiqlər 1781-ci ildə Tuğ qalasını mühasirəyə aldılar. Məlik Yesay təslim oldu, burada hakimiyyət Məlik Bahtama keçdi. Lakin tezliklə o da dönük çıxdı.

İbrahim xanla separatçı məliklər arasındakı mübarizəyə 1783-cü ildən Rusiya dövləti də qarışmağa başladı. Cənubi Qafqazı işğal etməyə çalışan Rusiya burada - Azərbaycan ərazisində həmin məliklərin köməyi ilə "xristian dövləti", daha doğrusu, özünə dayaq yaratmağa çalışırdı. Bu zaman İbrahim xan özünün yüksək diplomatik bacarığı sayəsində düşmənçilik edən məlikləri Şuşaya toplaya bildi. Sənədlər əsasında onların Qarabağ xanlığına xəyanət etdiyini sübuta yetirərək onları həbsə aldırdı.
Məlik Məcnun və Abov Şuşa həbsxanasına salındı, Məlik Bahtam isə günahlarına görə Ərdəbil xanına verildi. Məliklərin müttəfiqi Gəncəsər monastırının katolikosu İohannes qardaşı ilə birlikdə tutulub cəzalandırıldı.

Lakin Şuşa həbsxanasındakı məliklər qaça bildilər. Onlar Tiflisə gələrək burada Qarabağ xanlığına qarşı hazırlanmış qəsdi

gürcü çarı II İrakli (1744-1798) və rus polkovniki Burnaşovun köməyilə yerinə yetirməyə girişdilər. Qarabağ xanlığına qarşı "xaç yürüşü"nə başlayan düşmənlər Gəncəyə yaxınlaşdılar. Lakin 1787-1791-ci illər Rusiya-Türkiyə müharibəsinin başlanması nəticəsində bu "xaç yürüşü" baş tutmadı. İbrahim xan müstəqil Qarabağ xanlığının bütövlüyünü qoruyub saxlay bildi.
1795-ci ilin yayında İranda hakimiyyəti ələ alan Ağa Məhəmməd Qacar (1742-1797) Qarabağ xanlığına hücum etdi. Şuşanın 33 günlük mühasirəsi uğursuz oldu. Şuşadan sonra o, Tiflis üzərinə yeridi. V.Zubovun komandanlıq etdiyi rus qoşunlarının hücumu ilə Ağa Məhəmməd Qacar geri çəkildi. Rus çariçası II Yekaterinanın (1764-1796) ölümü ilə V. Zubov da Azərbaycandan geri çağırıldı. 1797-ci ildə Ağa Məhəmməd Qacar yenidən Qarabağa hücum etdi, Şuşanı tutdu, lakin burada öldürüldü.

XVIII yüzilin sonları - XIX yüzilin başlanğıcında Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycanda işğalçılıq fəaliyyəti gücləndi, 1801-ci ildə Gürcüstan imperiyaya birləşdirildi, Azərbaycanın Car-Balakən camaatlığı (1803) və Gəncə xanlığı (1804) işğal olundu.

İbrahim xan belə bir vəziyyətdə Rusiya qoşunlarının komandanı P.D.Sisianovla (1802-1806) Kürəkçayda müqavilə bağladı. Kürəkçay müqaviləsinə əsasən, Qarabağ xanlığı məhz müsəlman - Azərbaycan torpağı kimi Rusiyaya ilhaq olundu. Tarixi reallığı əks etdirən Kürəkçay müqaviləsi, eyni zamanda, Qarabağın, o cümlədən bu diyarın dağlıq hissəsinin Azərbaycan xalqına məxsus olduğunu sübut edən ən mötəbər sənəddir.

**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu**

# QARABAĞ RUSİYA İMPERİYASI TƏRKİBİNDƏ

## Çarizmin Qarabağda üsul-idarəsi. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi

1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı faktik olaraq Rusiyaya ilhaq edildi. Xan hakimiyyətinin hələ 17 il də saxlanması müəyyən strateji məqsəd daşıyırdı. 1806-cı ildə İbrahim xanın qətli Rusiyanın heç bir hüquqa məhəl qoymadığını nümayiş etdirirdi. Belə bir şəraitdə İbrahim xanın xanlığa keçən oğlu Mehdiqulu xanın hakimiyyəti (1806-1822) möhkəm deyildi. Çar hökuməti işğal rejimini gücləndirir, xanlığın ərazisində möhkəmlənmək məqsədi ilə yerli müsəlman hakim təbəqənin iqtisadi mövqelərini zəiflətməyə, əksinə özünə arxa sandığı qriqorianlaşmış və erməniləşmiş albanları - üstün mövqeyə çıxarmağa çalışırdı. Xanlıq ləğv edildikdən sonra Şimali Azərbaycanın digər yerlərində olduğu kimi, burada da komendant idarə üsulu yaradılmış, o, Hərbi-müsəlman dairəsinin (mərkəz Şuşa) tərkibinə daxil edilmişdi. Bu dövrdə Rusiya qoşunlarının işğalçılıq əməliyyatlarında iştirak edən və əslən erməni olan general-leytenant V.Q.Mədətov (1782-1829) Qarabağda sözün əsl mənasında erməni-Rusiya müstəmləkə rejimi yaratmışdı. Çar hökuməti 1830-cu il üsyanlarının təsiri nəticəsində Cənubi Qafqazda 1840-cı il 10 aprel inzibati-hərbi islahatı keçirdi. Bu islahata görə Qarabağ əyaləti Şuşa qəzasına çevrilmiş və Kaspi vilayətinə (mərkəz Şamaxı) tabe edilmişdi. Bununla da Qarabağ anlayışı siyasi mənasını itirmiş oldu və yalnız coğrafi anlayış kimi qaldı.

1846-cı il inzibati ərazi bölgüsü zamanı Şuşa qəzası yeni yaradılmış Şamaxı quberniyasına (1859-u ildən Bakı) tabe edildi. 1867-ci ildə Yelizavetpol quberniyası yaradıldıqda Şuşa qəzası onun tərkibinə verilir və ərazisi bölünərək burada daha üç qəza - Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları da təşkil olunur. Bununla Şuşa qəzası da vahid inzibati-siyasi idarəsini itirir. Belə bir inzibati ərazi bölgüsü xüsusi məqsədlə həyata keçirilmişdi. Bu islahatlar ermənilərin idarə sistemində daha geniş təmsil edilməsinə hərtərəfli imkanlar açdı.

Çarizm Şimali Azərbaycan torpaqlarını işğal etdikə, bu torpaqlarda möhkəmlənmək üçün həm də əhalinin erməniləşdirilməsi siyasətini də həyata keçirirdi. 1828-ci il Türkmənçay müqaviləsindən (Sənəd 3) sonra bu hal daha müntəzəm və məqsədyönlü xarakter alır. Ermənilərin İrandan Şimali Azərbaycana köçürülməsi həmin müqavilənin XV maddəsilə təsdiq olunurdu. Həmin maddəyə görə şah öhdəsinə götürürdü ki, ölkədə yaşayan məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan əmlakını aparmaq və satmaq üçün bir il vaxt verilir. Daşınmaz əmlaka gəldikdə isə, onun satılması və ya onun haqqında öz xoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir. Yuxarıda göstərildiyi kimi, bu maddə İrandan ermənilərin kütləvi surətdə Şimali Azərbaycana, o cümlədən Qarabağa göçürülməsini təmin etmək üçün müqaviləyə daxil edilmişdi.

1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Şimali Azərbayan ərazilərinə

köçürülməsi həyata keçirilməyə başlayır. Ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri Qarabağ torpaqları idi.

Qarabağ xanlığının ləğv edilməsi zamanı onun əhalisinin etnik tərkibi Qafqazdakı rus qoşunlarının baş komandanı A.P.Yermolovun (1816-1827) göstərişi ilə tərtib olunan "Təsvir"də əksini tapmışdır. Hələ bu sənədin tərtibinə qədər (1805-1822) Qarabağda aparılmış erməniləşdirmə siyasətinə baxmayaraq, statistikanı (1593-cü ildən başlayaraq) müqayisə etsək, burada əhalinin əksəriyyətini yenə də azərbayanlılar təşkil edirdi. "Təsvir"ə görə Qarabağ əyalətində olan 20.095 ailədən 15.729-u azərbayanlı (1.111-i şəhərdə, 14.618-i kənddə), 4366-sı erməni, o cümlədən alban idi (421-i şəhərdə, 3.945-i kənddə). Yeri gəlmişkən, bu ermənilərin böyük əksəriyyəti qriqorianlaşdırılmış və erməniləşdirilmiş keçmiş albanlar idilər. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri (Marağalı, Canyataq və s.) meydana gəlməyə başlamışdı. (Ermənilər sonralar köçürülmə "şərəfinə" Qarabağda abidələr ucaltmış, lakin XX yüzilliyin 80-ci illərində Azərbaycana qarşı ərazi iddiaları qaldırdıqları zaman onları dağıtmışdılar). Rəsmi məlumatlara əsasən, 1828-1830-cu illər arasında, cəmi 2 il ərzində, Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min, Osmanlı imperiyasından 90 min erməni köçürüldü. Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə onların sayı 200 mini ötmüşdü. Köçürülmədən sonra Qarabağın etnik tərkibində ermənilərin sayı artmağa başladı.

## Dağlıq Qarabağın Azərbaycan-alban əhalisinin qriqorianlaşması və erməniləşməsinin başa çatması

Dağlıq Qarabağın alban əhalisinin qriqorianlaşması və erməniləşməsi yuxarıda qeyd olunduğu kimi, uzun sürən bir tarixi proses olmuşdur:

1. Qarabağın aborigen (yerli) əhalisi digər Şimali Azərbaycan torpaqlarının (Albaniyanın) əhalisi kimi alban tayfaları olmuşdur;

2. IV əsrin əvvəllərində Albaniyanın bəzi yerlərində, o cümlədən burada da xristianlıq dini yayılmışdı;

3. Ərəb xilafətinin Şimali Azərbaycanın işğalı və hökmranlığı dövründə VII-IX əsrlərdə ölkədə İslam dini yayılmış, lakin Qarabağın dağlıq hissəsində yaşayan albanlar xristianlıqda qalmışlar;

4. Cənubi Qafqaza miqrasiya edən erməni-qriqorian missionerləri Ərəb xilafətinin işğalları nəticəsində əlverişli şəraitdən istifadə edərək Qarabağın dağlıq hissəsinin xristian-alban əhalisini qriqorianlaşdırması, bunun ardınca da erməniləşdirməsi uzun proses oldu.

5. Qarabağın dağlıq hissəsinin xristian əhalisi rus çarı I Pyotra məktubunda özlərini alban adlandırmışdılar. Bu sübut edir ki, onlar hələ XVIII əsrin əvvəllərində özlərini erməni hesab etmirdilər;

6. Rusiyanın regiona müdaxiləsi ermənilərin digər ölkələrdən Cənubi Qafqaza, o cümlədən Azərbaycana köçürülüb gətirilməsi burada erməni amilinin gücləndirilməsinə kömək etdi. Bu siyasət Qarabağın dağlıq hissəsini qriqorianlaşdırılmış albanlarının tarixi

taleyində dönüş yaratdı. Onların erməniləşdirilməsi son mərhələyə qədəm qoydu;

7. Rus-İran müharibələri dövründə (1804-1813, 1826-1828), xüsusilə 1828-ci il Türkmənçay və Rus-Türk müharibələri (1806-1812, 1828-1829) zamanı, xüsusilə 1829-cu il Ədirnə müqaviləsindən sonra İran və Osmanlı dövlətlərindən Şimali Azərbaycanın digər bölgələri ilə birgə Qarabağa ermənilərin kütləvi köçürülməsi qriqorianlaşmış alban əhalisinin erməniləşməsini başa çatdırmışdı. 1836-cı ildə Alban katalikosluğu ləğv edilmişdir. Məhz bundan sonra onları sözün əsl mənasında erməni adlandırmaq olar;

8. Bütün bunlara baxmayaraq, Dağlıq Qarabağ erməniləri tarix boyu ümumi erməni əhalisi içərisində alban kökündən əmələ gələn spesifikasını saxlamışdır.

**Ermənilərin Azərbaycanda, o cümlədən Qarabağda soyqırım fəaliyyətinin genişlənməsi**

XIX yüzilin 30-cu illərindən sonra da ermənilərin kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa köçürülməsi davam etdirilirdi. N.Şavrov məhz buna görə yazırdı (1911) ki, Zaqafqaziyadakı 1,3 mln. erməninin 1 mln.-dan çoxu gəlmə idi. Bütün bunlara baxmayaraq, 1916-cı ildən Qarabağda (xanlıq sərhədləri daxilində) əhalinin yenə də təxminən 51 %-i azərbaycanlı, 46%-i isə erməni (yerli alban mənşəli ermənilərlə birlikdə) idi. Köçürülüb gətirilən ermənilərin Qarabağın dağlıq hissəsində məskunlaşdırılması daha geniş hal almışdı. Bu, gəlmə ermənilərin kompakt surətdə bir yerdə yaşamasını təmin etmək məqsədilə edilirdi və strateji niyyət güdürdü.

Ermənilərin inzibati-idarə sistemində möhkəmləndirilməsi, köçürülmə yolu ilə saylarının mexaniki surətdə artırılması və

onların iqtisadi potensialının möhkəmləndirilməsi paralel surətdə həyata keçirilirdi. Beləliklə, Ermənilər çarizmin hərtərəfli dəstəyi və yaratdığı əlverişli şərait nəticəsində Qarabağın iqtisadi həyatında da möhkəmlənə bildilər.

Rusiya imperiyasının ayrı-seçkilik siyasəti, çarizmin dəstəyi və məqsədyönlü siyasəti nəticəsində ermənilərin Şimali Azərbaycanda nail olduqları iqtisadi potensial 1872-ci ildə Bakıda neftli torpaqlar üzərində iltizam sisteminin ləğvi zamanı daha aydın nəzərə çarpmağa başladı; nəticədə neftli torpaq sahələrinin hərracı prosesində azərbaycanlılar cəmi 5%, ermənilər isə 50% -dən çox torpaq sahəsi almışdılar. Bakıda fəaliyyət göstərən 167 neft şirkətindən 55 iri və orta şirkət ermənilərə məxsus idi və s. Ermənilərin mədəni-təhsil səviyyəsinin yüksəldilməsi üçün də hərtərəfli şərait yaradılmışdı. Bütün bunlara baxmayaraq Qarabağ, onun mərkəzi olan Şuşa şəhəri Azərbaycan xalqının ictimai-siyasi və mədəni mərkəzlərindən biri olaraq qalırdı. Çar hökumətinin və onun əlaltıları olan ermənilərin bütün maneə və müqavimətinə baxmayaraq Qarabağ Azərbaycan - müsəlman diyarı kimi inkişaf edirdi.

Beləliklə, Çar Rusiyası ermənilərin Şimali Azərbaycana, o cümlədən Qarabağa kütləvi surətdə köçüb gəlməsinə və burada onların inzibati-siyasi, sosial-iqtisadi və mədəni inkişaf üçün geniş imkanlar yaratdı. Çox keçmədən ermənilər Azərbaycan torpaqlarında "Böyük Ermənistan" ideyasının reallaşdırılması uğrunda açıq mübarizəyə başladılar. Həmin ideyanın əsas tərkib hissələrindən biri də Qarabağ, İrəvan, Naxçıvan və digər Azərbayan torpaqlarının yerli - azərbayanlı əhalisini məhv etmək və onların yaşadıqları torpaqları ələ keçirməkdən ibarət idi. Ermənilərin 1890-cı illərdən başlayaraq Osmanlı dövlətinə qarşı qaldırdıqları xəyanətkar qiyamlar uğursuzluğa düçar olduqdan sonra bu mübarizənin mərkəzi Şimali Azərbayana keçdi.

Ermənilər 1905-ci ildən başlayaraq Azərbaycan xalqına qarşı kütləvi soyqırımları törətdilər. Ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti Qarabağda daha faciəli şəkil aldı. Lakin 1905-1906-cı illərdə törətdikləri qırğınlar da erməniləri sakitləşdirmədi. Onlar Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edərək yenidən mifik "Böyük Ermənistan" dövləti yaratmağa cəhd göstərdilər. 1915-ci ildə Osmanlı dövlətinə qarşı qaldırdıqları yeni qiyamlarda uğursuzluğa düçar olan ermənilər, əsas qüvvələrini Cənubi Qafqazda cəmləşdirərək və çarizmin himayəsinə sığınaraq azərbaycanlılara qarşı soyqırımlarını davam etdirməyə başladılar. Əvvəlcə çar hökumətinin devrilməsi (1917, fevral), sonra isə Rusiyada bolşeviklərin hakimiyyəti ələ alması ilə (1917, oktyabr) Zaqafqaziyada yaranan anarxiya şəraitində - uzun tarixi dövr ərzində Rusiya ordusunda xidmət edən erməni silahlı dəstələri daşnak-bolşevik güruhu ilə birləşərək azərbaycanlılara qarşı soyqırımın yeni, daha dəhşətli dövrünü başladılar. 1918-ci ilin martında Bakıda başlanan və bütün Azərbayanı əhatə edən yeni kütləvi soyqırımlar Azərbayan xalqına çox ağır zərbə vurdu. Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə Azərbaycan tarixində yeni dövr başlandı. Azərbaycan Xalq Cümhuriyyəti Şimali Azərbaycanda silahlı erməni quldur dəstələrinin və daşnak-bolşevik rejiminin Azərbaycan xalqını tamamilə məhv etmək planlarının qarşısını almaq üçün tədbirlər gördü.

**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu**

# QARABAĞ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ (1918-1920-ci illər)

1918-ci il mayın 28-də təxminən 120 ilədək davam edən Rusiya əsarətindən sonra Azərbaycan xalqı Şimali Azərbaycanda yeni müstəqil dövlətini yaratdı. Azərbaycan Xalq Cümhuriyyəti İstiqlaliyyət bəyannaməsində vaxtı ilə Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Rusiya tərəfindən işğal olunmuş Şimali Azərbaycan torpaqlarının qanuni varisi olduğunu bəyan etdi. İstiqlal bəyannaməsinin birinci maddəsində deyilirdi: "Bu gündən etibarən Azərbaycan xalqları suveren hüquqlara malikdirlər, Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan tam hüquqlu müstəqil dövlətdir". Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisinin hüquqi-siyasi cəhətdən əsaslandırılmış xəritəsini nəşr etdirmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın bütün tarixi ərazisində öz siyasi hakimiyyətinin bərqərar edilməsinə çalışırdı. Bu zaman yenicə elan olunmuş Ermənistan (Ararat) Respublikası da Qarabağa heç bir əsası olmayan iddia irəli sürdü. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu iddianı rədd etdi. Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Ə.M.Topçubaşov (1862-1934) Osmanlı dövlətinin xarici işlər naziri ilə 1918-ci il noyabrın 18-də İstanbulda apardığı danışıqlar zamanı bildirmişdi: "Ermənilərin ortaya atdıqları Qarabağ məsələsi 5 ya 10 kənd məsələsi deyil, mübahisə bütöv 4 sancaq - Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur üstündədir. Bu elə bir xanlığın ərazisidir, burada erməni və müsəlmanların sayı bərabər olmasa da, hər halda ermənilərin mütləq çoxluğu barədə danışmağa əsas yoxdur, özü də onlar buranın yerli əhalisi deyildirlər. Rusiya ilə müharibədən sonra Türkiyədən buraya

köçənlərdir… Nəhayət, Qarabağın özündə ermənilər yığcam halda yaşamırlar, müsəlmanlarla qarışıq məskundurlar. Bununla belə, biz məsələnin sülh yolu ilə həlli tərəfdarıyıq".

Ermənilər Qarabağı ələ keçirmək üçün əvvəllər başladıqları soyqırımlarını Azərbaycan Xalq Cümhuriyyəti dövründə də davam etdirdilər. Azərbaycan hökuməti yaranmış vəziyyəti nəzərə alaraq 1919-cu ilin yanvarında Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaratdı. X.Sultanov Qarabağ general-qubernatoru təyin edildi. Ermənistan (Ararat) Respublikasının Xarici işlər naziri S.Tiqranyan Qarabağ general-qubernatorluğu yaradılmasına etirazını bildirmiş, lakin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin cavabında bu etiraz əsassız hesab olunmuş və həmin ərazilərin Azərbaycanın ayrılmaz tərkib hissəsi olması göstərilmişdi. Qarabağ general-qubernatoru ermənilərin ərazi iddiaları ilə yanaşı, əvvəlcə ingilislər, sonra isə amerikanlarla gərgin münasibətlər şəraitində fəaliyyət göstərməli oldu. Lakin ermənilər Qarabağ general-qubernatorluğu ərazisində sülh yaranmasına imkan vermədilər.

1919-cu ilin sonları-1920-ci ilin yazında Zəngəzurda erməni-daşnak silahlı quldur dəstələri dinc azərbaycanlı əhaliyə qarşı basqınlar və kütləvi qırğınlar törətdilər.

Ermənilər Cavanşir qəzasında da sakitləşmirdilər. Onların qəzanın dağətəyi kəndlərinə hücumları adi hal almışdı. Erməni quldur dəstələri 1918-ci ilin yaz-yay aylarında qəzanın düzənlik hissəsinin müsəlman əhalisinə qarşı da çoxsaylı zorakılıq aktları etdilər. *"Ermənilər Tərtər çayının qabağını kəsərək başqa istiqamətə yönəldir və qəzanın aran kəndlərinin əkinlərini susuz qoyaraq, onlara böyük zərər vururlar. Hətta iş o yerə çatmışdı ki, aran kəndlərində içməli su belə çatışmırdı"*.

Qarabağın digər qəzası - Cəbrayılda da erməni silahlıları dinc əhaliyə hücum edirdilər. 1918-ci ilin dekabrında Cəbrayıl qəzasının azərbaycanlı kəndlərinə ermənilərin hücumları genişlənmiş, 1919-cu ilin əvvəllərində daha dağıdıcı xarakter almışdı.

Şuşa qəzası və Qarabağın siyasi mərkəzi olan Şuşa şəhərində ermənilərin vəhşilikləri daha amansız şəkil almışdı. Vaxtı ilə Zaqafqaziya Ölkə Komitəsinin Dağlıq Qarabağda məsul nümayəndəsi olmuş S.Şaduns 20 dekabr 1922-ci ildə yazırdı: "... ***Еще до создания в Карабахе Мусаватской власти (т.е. Азербайджанской Демократической Республики - Я.М., К.Ш.) туда был назначен со стороны турецких властей (т.е. Азербайджанской Демократической Республикой - Я.М., К.Ш.) генерал-губернатор Карабаха, и вот в это время появляется новый термин - Нагорный Карабах, созданный дашнаками. Не довольствуясь безграничными бойнями, вызванными в Турецкой Армении, партия "Дашнакцутюн", после сдачи гор. Шуши туркам, подымается на горы, населенные исключительно армянами, и постановляет сражаться "до последней капли крови", но не сдаваться туркам. Вот здесь в это время впервые вместе с социал-демократами, именующими себя интернационалистами, организуется правительство Нагорного Карабаха. Если партии "Дашнакцутюн" удалось избежать войны с турками, то вскоре, по настоянию крестьян этого же самого Нагорного Карабаха, пришлось соединить эту часть с низменной частью и весь Карабах подчинить власти мусаватского правительства ..."***

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Şuşada ermənilərin ən xəyanətkar silahlı qiyamlarından biri 1920-ci il martın 22-də Azərbaycan xalqının Novruz bayramı günü baş verdi. Bu separatçı qiyam Azərbaycanı işğal etməyə hazırlaşan bolşeviklərin sifarişi ilə

qaldırılmışdı. Bu zaman erməni-separatçı qiyamlarının əksər yerlərdə dəf edilməsinə baxmayaraq, onlar Əsgəran qalasını ələ keçirə bildilər. Görülən hərbi-siyasi tədbirlər nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti Qarabağda suveren hüquqlarını bərpa etdi. Lakin ərazisində yaşadıqları dövlətə xəyanət edən ermənilərin Qarabağda separatçı qiyamları və törətdikləri soyqırımları 1920-ci ilin aprel işğalı ərəfəsində ölkənin şimal sərhədlərinin müdafiəsi işinə ağır zərbə vurdu və müstəqil Azərbaycan dövlətinin - Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu sürətləndirdi.

**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu**

# QARABAĞ 1920 -1980-Cİ İLLƏRDƏ

## Sovet hökumətinin Qarabağın ərazisini bölüşdürməsi

Rusiyada Sovet hakimiyyəti möhkəmləndikcə çar Rusiyası sərhədlərinin bərpa edilməsinə başlandı. Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədlərində möhkəmlənən XI Qırmızı Ordu hissələrinə respublikanın işğalı planını reallaşdırmaq üçün müvafiq əmr və sərəncamlar verildi. Azərbaycan Parlamenti daxilində sovet dövlətini müdafiə edən qüvvələr və Qarabağda erməni-daşnak separatçılarının qaldırdıqları mart qiyamı Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu sürətləndirdi. 23 ay yaşamış olan Azərbaycan Xalq Cümhuriyyəti XI Qırmızı Ordunun süngüləri ilə devrildi, Şimali Azərbaycanda sovet hakimiyyəti quruldu. Bununla Qarabağ ətrafındakı hadisələrin yeni mərhələsi başlandı.

## Dağlıq Qarabağa muxtariyyət verilməsi: 1920-1923-cü illər

Dağlıq Qarabağ: coğrafiyası və "Dağlıq Qarabağ" anlayışı. Bu problemin şərhi üçün əvvəlcə Dağlıq Qarabağın coğrafiyası və "Dağlıq Qarabağ" anlayışı üzərində dayanaq.

Relyefinə görə Qarabağ aran (düzən) və dağlıq hissələrə bölünür. Bu reallıq elmdə də öz təsdiqini tapmışdır. Məsələn, tanınmış qafqazşünas M.A.Skibitskinin oğlu A.M.Skibitski "Qafqaz böhranı" adlı məqaləsində yazır: "Qarabağ xanlığının dağlıq hissəsi o vaxt Dağlıq Qarabağ adlanırdı. Şərqdə Qarabağ dağ silsiləsi, Qərbdə isə Zəngəzur dağları arasındakı torpaqlar, habelə Yuxarı

Qarabağla, aran yeri olan Aşağı Qarabağı bir-birindən ayıran Qarabağ yaylası həmin yerə aid idi". Aydın olduğu kimi çar Rusiyası tərkibində olduğu zaman Qarabağın ərazisi, daha doğrusu keçmiş Qarabağ xanlığının torpaqları müxtəlif inzibati bölgülərə məruz qaldığından, "Qarabağ" anlayışı əvvəlki inzibati-siyasi mənasını itirmişdi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) "Qarabağ" anlayışı öz əvvəlki mənasını yenidən özünə qaytardı. S.Şadunsun yuxarıda göstərilən fikrindən aydın olduğu kimi, elə Dağlıq Qarabağ termini də bu zaman daşnaklar tərəfindən meydana gətirildi.

Bu zamandan "Dağlıq Qarabağ" anlayışı yalnız coğrafi deyil, siyasi maraq da kəsb etməyə başladı. Bolşeviklər Şimali Azərbaycanda hakimiyyəti ələ keçirdikdən sonra bu anlayış inzibati-siyasi məna kəsb etməyə başlayır, Azərbaycan-Ermənistan münasibətlərində və ona müdaxilə edən Rusiyanın siyasi leksikonunda əsas anlayışlardan birinə çevrilir. Elə bu zaman Dağlıq Qarabağın coğrafi baxımdan əhatə dairəsində də dəyişiklik baş verir. Yenə A.M.Skibitskinin yazdığı kimi "... Qarabağ yaylası 1923-cü ildə muxtariyyət almış və Muxtar Dağlıq Qarabağ Vilayəti və ya Azərbaycanın yeni sərhədləri daxilində qısaca olaraq Dağlıq Qarabağ adlanmışdır".

Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV): yaradılması tarixi, əsas hadisələrinin sinxronlaşdırılması və buradan irəli gələn nəticələr. Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının prinsipial məsələlərini müəyyən etmək, daha doğrusu bu prosesi tam aydınlığı ilə təsəvvür etmək üçün əsas hadisələrə mənsubiyyəti üzrə sinxron şəkildə diqqət yetirək.

**"RK (b) P MK Qafqaz Bürosu plenumunun iclas protokolundan** 5 iyul 1921-ci il

| | |
|---|---|
| İştirak edirlər: | RKP MK üzvü Stalin, Qafbüronun üzvləri: yol. Orconikidze, Kirov, Oraxelişvili, Fiqatner, Nərimanov, Myasnikov, ASSR Xalq Xariji İşlər Komissarı Hüseynov. |
| Dinlənildi: | Qərar verildi: |
| 1. yol. Orconikidze və Nazaretyan əvvəlki Plenumun Qarabağ haqqında qərarına yenidən baxılması məsələsini qaldırdılar | 1) Müsəlmanlar və ermənilər arasında milli sülhün zəruriliyindən və yuxarı və aşağı Qarabağın Azərbaycanla kifayət qədər iqtisadi əlaqələrini nəzərə alaraq Dağlıq Qarabağ ASSR tərkibində saxlanılsın, ona muxtar vilayətin tərkibində saxlanılan, inzibati mərkəzi Şuşa ş. olmaqla geniş vilayət muxtariyyəti verilsin. Səs verirlər - 4 lehinə, 3 bitərəf. 2) Azərbaycan MK-ya tapşırılsın ki, sonradan RKP MK Qafbürosunun təsdiqinə verməklə muxtar vilayətin sərhədlərini müəyyən etsin. 3) RKP MK Qafbürosunun Rəyasət Heyətinə Dağlıq Qarabağın Fövqəladə Komitəsinə namizəd haqqında Azərbaycan və Ermənistan MK ilə danışıq aparması tapşırılsın. 4) Azərbaycan MK tərəfindən Dağlıq Qarabağın muxtariyyət həcmi müəyyən edilsin və təsdiq üçün MK Qafbürosuna təqdim edilsin. |
| | RKP MK Qafbürosunun Katibi: Fiqatner." |

**Qaynaq:** Sov. İKP MK yanında MLİ PAAF. (indi ARDSRİHA), f.

64, siyahı 2, iş 1, v. 118; 122-122ob; К истории образования Нагорно-Карабахский автономной области Азербайджанской ССР, с. 90-91; 92

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Xalq Komissarlar Soveti yaradıldıqda yerlərə fövqəladə komissarlar da təyin olundu. Bu əsasla A.N.Karakozov (1890-1938) Dağlıq Qarabağ üzrə fövqəladə komissar təyin olundu. Azərbaycan Sovet hökuməti 1920-ci il 30 apreldə Ermənistan Respublikasına nota verdi və tələb etdi ki, Zəngəzurdan və Qarabağdan öz qoşunlarını çıxarsın. May ayında Qarabağda Sovet hakimiyyətinın qurulması elan olundu.

Bu dövrdə Sovet Rusiyası Qafqazın sovetləşdirilməsi planını həyata keçirməkdə davam edir, yeni sovet dövlətlərinin sərhədlərinin müəyyənləşdirilməsi prinsiplərini irəli sürməklə mövcud və gələcək dövlətlərin fəaliyyətini nəzarət altına almağa cəhd göstərirdi. Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosu Qafqaz Cəbhəsi Hərbi-inqilabi şurasına 7 iyul tarixli təlimatında bu məsələyə toxunmuşdu. Ermənistanda Sovet hakimiyyətinin qurulması ilə (1920, 29 noyabr) xarici sərhədlərlə yanaşı, sərhədlər daxilində də bölgülərin aparılması kəskinləşdi. Azərbaycan İnqilab Komitəsinin Ermənistan Sovet Respublikasına 30 noyabr teleqramı və 1 dekabr Bəyannaməsində də Qarabağ və onun dağlıq hissəsindən bəhs olunurdu. Bu sənədlərin erməni tarixşünaslığında təhrif edilməsi əsas şəkildə sübut edilmişdir. Bəyannamədə Dağlıq Qarabağın əməkçi kəndlilərinə tam öz müqəddəratını təyinetmə hüququ verildiyi elan edilirdi.

Ermənistan İnqilab Komitəsi isə 28 dekabr Bəyannaməsində Naxçıvana iddiadan əl çəkdiyini bildirirdi. Lakin Ermənistan Qarabağı "əldən vermək" istəmirdi. Azərbaycan və Ermənistan

arasında sərhədlərin müəyyənləşdirilməsi məsələsində Dağlıq Qarabağ yenidən gündəmə gəldi. Qafqaz Bürosu 3 iyun 1921-ci ildə Dağlıq Qarabağın Ermənistana məxsus olmasının Ermənistan hökumət Bəyannaməsində göstərilməsi barədə qərar qəbul etdi. Ermənistan Xalq Komissarları Soveti isə 12 iyunda bunu dekretləşdirdi. İşlərin belə gedişi Azərbaycanı təmin edə bilməzdi. Tiflisdə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Təşkilat Bürosunun, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi Q.Kaminskinin (1895-1938) sədrliyilə keçirilən 27 iyun iclasında komissiyanın işi ilə əlaqədar Azərbaycanın Ermənistanla sərhədi haqqında məsələ müzakirə edildi. Bu iclasda 5 maddədən ibarət qərar qəbul olundu. İlk dəfə burada Dağlıq Qarabağa bəyan edilən öz müqəddəratını təyin etməyə Azərbaycanın baxışı ifadə olundu: " *3. Məsələnin (Dağlıq Qarabağ haqqında) yeganə həlli erməni və müsəlman kütləsinin Sovet quruculuğu işinə geniş cəlb edilməsi (yol. Nərimanovun Bəyannaməsindən aydın olduğu kimi) ola bilər". Problemin həlli haqqında Siyasi Büro və Təşkilat Bürosunun fikrinin Tiflisə çatdırılması Nərimanova həvalə edildi. Nərimanovun Tiflisdə olan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri M.H.Hacıyev və xarici işlər naziri M.D.Hüseynovla elə həmin gün birbaşa xətlə danışığı oldu.* ***Nərimanov:*** *"Deyin ki, bu Siyasi və Təşkilat Bürosunun fikridir. Əgər onlar mənim bəyannaməmə istinad edirlərsə, bəyannamədə hərfən belə deyilmişdir: Dağlıq Qarabağa tam azad öz müqəddəratını təyin etmə hüququ verilir".*

**Hüseynov:** "Yaxşı. Hər şeyi çatdıraram. Hər halda deyim ki, bizim qərarımız, şübhəsiz, çox soyuq qarşılanacaqdır." Yenə həmin gün Hüseynov bu barədə Qafqaz Bürosuna məlumat verdi. Bu məsələ üzrə Qafqaz Bürosunun fövqəladə plenumunu çağırmaq, Nərimanov və Myasnikyanı Tiflisə dəvət etmək qərara alındı.

Azərbaycanın ayrılmaz hissəsinə necə "muxtariyyət" verildi: Qafqaz Bürosu plenumunun 1921-ci il 4 və 5 iyul tarixli qərarları. Belə bir zəmində Tiflisdə Qafqaz Bürosu plenumunun iclası keçirildi. Xüsusi əhəmiyyətini nəzərə alaraq Qafqaz Bürosunun 4 iyul axşam və 5 iyul iclas protokolundan çıxarışları olduğu kimi veririk:

Ermənilər Qafqaz Bürosunun 5 iyul tarixli qərarının qəbul edilməsində Stalinin əsas rol oynadığını sübut etməyə çalışır. Əslində, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun 4 və 5 iyul iclaslarında Stalinin təzyiqinin nədən ibarət olması faktlarla təsdiq olunmur. Bir sözlə, SSRİ-nin yaradılması (1922, 30 dekabr) ərəfəsindəki mübarizədə özünün "muxtariyyətləşdirmə" planı ilə çıxış edən Stalinin guya sosialist dövlətinin federativ quruluşunun Lenin ideyasını həyata keçirməsi ağlabatan görünmür. Ona görə də məsələ daha dərin və ətraflı şəkildə nəzərdən keçirilməlidir:

1) Mərkəz Qafqaz Bürosunun timsalında hələ SSRİ-nin yaradılmasından, Azərbaycan və Ermənistan SSR-nin ittifaq dövlətində birləşdirilməsindən əvvəl praktik olaraq sərhəd məsələsinə müdaxilə etməklə səlahiyyətli tərəf kimi çıxış etdi. Dağlıq Qarabağ məsələsi üçtərəfli müzakirə məsələsinə çevrildi;

2) Qafqaz Bürosu bu "hüququndan" istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ barəsində elan etdiyi öz müqəddəratını təyinetmə müddəasının təbii-tarixi şəkildə yerinə yetirilməsinə imkan vermədi, onu "geniş vilayət muxtariyyəti" kimi ifadə etdi;

3) Qafqaz Bürosu 4 iyul qərarı ilə Azərbaycana (yəni, Dağlıq Qarabağ Ermənistana verilə bilər!), səhəri gün isə bu məsələyə qayıtmaqla Ermənistana təsir göstərmək (yəni, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması təsdiq edilə bilər!) və Mərkəz

üçün əlverişli mövqeni təmin etmək istəyirdi, buna da (yəni Dağlıq Qarabağa muxtariyyət verilməsinə) nail oldu. Beləliklə, Qafqaz Bürosu plenumunun 5 iyul qərarından sonra Dağlıq Qarabağ ətrafında hadisələr yeni istiqamət aldı: Qafqaz Bürosu Mərkəz üçün əlverişli qərarı təmin edib, onun reallaşdırılması uğrunda təzyiqlərə başladı. Bununla Azərbaycan SSR özünün ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa məcburi şəkildə muxtariyyət verilməsi nəticəsində yeni şəraitlə qarşılaşdı. Ermənistan isə Dağlıq Qarabağ məsələsi ilə bağlı olaraq Qafqaz Bürosu ilə Azərbaycan arasında münasibətləri kəskinləşdirməyə, Dağlıq Qarabağa muxtariyyət verilməsilə onun işlərinə qarışmaq imkanlarından istifadə edərək, Dağlıq Qarabağa olan iddialarını həyata keçirməyə çalışdı.

Bu məsələlər kompleks şəkildə nəzərdən keçirilməlidir.

## S.M. Kirovun mövqeyində dəyişiklik

5 iyul qərarı qəbul edildikdən sonra Azərbaycan rəhbərliyi tərəfindən onun həyata keçirilməsinə başlanmalı idi. Bununla əlaqədar olaraq Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin həmin ilin 19 iyul tarixli iclasında Nərimanovun Tiflis səfərinin yekunları bəyənilmiş, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Təşkilat Bürosunun 20 iyul tarixli iclasında isə muxtar vilayətin konstitusiyasının hazırlanması üçün komissiya yaradılmışdı. Burada bir məsələnin aydınlaşdırılmasına ehtiyac yaranır. Artıq məlum olduğu kimi, 5 iyul qərarı ilə Dağlıq Qarabağa muxtariyyət verilməsində Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə həlledici rol ayrılmışdı. Görünür, 1921-ci ilin iyulunda Kirovun Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi rəhbərliyinə gətirilməsində elə bu amil də mühüm rol oynamışdı. Məhz Kirov faktiki olaraq Azərbaycanda rəhbərliyə keçdikdən sonra Dağlıq Qarabağın muxtariyyət

verilməsinə rəsmi münasibət dəyişdi və bu proses iki ilədək ləngidi. Ona görə də bu məsələ ətrafında Kirovun mövqeyi və ona təsir edən amillər xüsusi olaraq araşdırılmalıdır. Əgər 4 iyul iclasının protokolundan çıxarışa nəzər salsaq görərik ki, o zaman Kirov Qarabağın dağlıq hissəsinin Azərbaycanın hüdudlarında saxlanmasının əleyhinə çıxmış (5,a), onun Ermənistanın tərkibinə daxil edilməsinin isə lehinə (5,b) səs vermişdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 19 iyul, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Təşkilat Bürosunun 20 iyul iclaslarında və qeyd olunan qərarların qəbulunda Kirov da iştirak etmişdi. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosu və Təşkilat Bürosunun 26 sentyabrda bilavasitə Kirovun sədrliyilə keçirilən iclasında onun mövqeyinin əksinə dəyişdiyini görürük. İclasda iştirak edən 9 nəfərdən (Kirov, Nərimanov, Axundov, Qarayev, Əfəndiyev, Stukalov, Mirzoyan, Bünyadzadə, Hüseynov) 7-si Qafqaz Bürosundan Dağlıq Qarabağın ayrılması haqqında qərarın yenidən nəzərdən keçirilməsini xahiş etməyi qərara alır, yalnız 2 nəfər - Nərimanov və Bünyadzadə Qafqaz Bürosunun qərarının qısa müddətdə yerinə yetirilməsinə tərəfdar çıxır. Bu məsələ üzrə materiallar toplamaq üçün komissiya yaradılır. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Təşkilat Bürosu üzvlərinin iştirakı ilə Qarabağın məsul işçilərinin 21 oktyabr konfransına rəhbərlik edən Bünyadzadə də Kirovun mövqeyinə keçir. Belə ki, həmin iclasda Dağlıq Qarabağın muxtar vilayət kimi ayrılması xüsusi qeyddə məqsədəuyğun hesab olunmurdu.

Beləliklə, məhz Kirovun rəhbərliyilə Dağlıq Qarabağın muxtariyyəti məsələsinə yeni münasibətin yarandığı ortaya çıxır. Bu təsadüfi deyildi. Kirov nəinki öz şəxsi mövqeyinin, hətta Qafqaz Bürosunun Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasını təsdiq etmək əvəzinə ona məcburi muxtariyyət verilməsi

haqqındakı qərarının və onun qısa müddətdə həyata keçirilməsi zərurətinin yanlış olduğunu yəqin etmişdi.

Dağlıq Qarabağa muxtariyyət verilməsi dekretləşdiriləndən 4 ay keçdikdən sonra belə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin 8 oktyabr 1923-cü ildə Kirovun sədrliyilə keçirilən iclasında Dağlıq Qarabağa muxtariyyət verilməsi haqqında qərarın əhali, xüsusilə türklər (azərbaycanlılar) arasında təbliğ olunmasının başa çatdırılmadığı etiraf olunurdu.

Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycana necə qəbul etdirildi? Hadisələrin belə gedişi Qafqaz Bürosunun narahatlığına səbəb oldu və 5 iyul qərarının Azərbaycana qəbul etdirilməsi üçün təzyiqlərə başlandı. Bu iki yolla həyata keçirilirdi. Bir tərəfdən Azərbaycan rəhbərliyi qarşısında tələb qoyulur, digər tərəfdən Dağılq Qarabağın idarəçiliyi bura xüsusi olaraq göndərilən erməni kadrları ilə möhkəmləndirilərək həmin bölgədə Azərbaycanın təsirinin zəiflədilməsinə cəhd edilirdi.

Dağılq Qarabağın muxtariyyətləşdirilməsi Zaqafqaziya federasiyası və SSRİ-nin yaradılması prosesləri ilə paralel gedirdi. Buna baxmayaraq, onun həyata keçirilməsindəki problemlərə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının irəli sürdüyü şəkildə yenidən baxılmadı. Əksinə, 1922-ci ilin fevralında Zaqafqaziya kommunist təşkilatlarının I qurultayında Orconikidzenin sədr seçildiyi Rusiya Kommunist (bolşeviklər) Partiyası Zaqafqaziya Ölkə Komitəsi, 5 iyul qərarının qəbul edilməsində olduğu kimi, onun reallaşdrılmasında da inzibati-amirlik üsullarına əl atdı. Zaqafqaziya Ölkə Komitəsinin 27 oktyabr 1922-ci il tarixli iclasında Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə 5 iyul qərarının həyata keçirilməsi təklif edildi, Karakazovun İcraiyyə Komitəsinin sədri təyin edilməsi, Şadunsun məsul işə göndərilməsi

üçün Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə ezam edilməsi qərara alındı. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin 15 dekabr iclası Zaqafqaziya Ölkə Komitəsinin qərarını icra üçün qəbul etdi, Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya (Kirov, Mirzəbekyan, Karakozov) və 7 nəfərdən ibarət Komitə (1922, 15 dekabr-1923, 24 iyul) təşkil edildi. Bütün bunlara baxmayaraq Azərbaycana təzyiq yenə davam etdirildi. Dekabrın 22-də Zaqfederasiyanın İttifaq Soveti Dağlıq Qarabağa muxtariyyət verilməsinin sürətləndirilməsi haqqında xüsusi qərar qəbul etdi.

SSRİ-nin yaradılmasından sonra Zaqafqaziya Ölkə Komitəsinin tələbləri daha sərt şəkil aldı. 1923-cü ilin mayında Qarabağ Komitəsinin məruzəsi Zaqafqaziya Ölkə Komitəsi plenumunun gündəliyinə daxil edildi. İyunun 1-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyəti muxtariyyətin dekretləşdirilməsi və onun layihəsinin üç gün ərzində Mərkəzi Komitəyə təqdim olunması barədə qərar qəbul etdi. Bu qərar Zaqafqaziya Ölkə Komitəsini təmin etdi. Zaqafqaziya Ölkə Komitəsinin plenumu iyunun 27-də Şaduns və Karakozovun məruzəsi əsasında Dağlıq Qarabağa bir ay müddətində muxtar vilayət statusu verilməsinin təmin olunmasını Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinə həvalə etdi. İyulun 1-də Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin iclası Kirovun sədrliyilə Qarabağ haqqında məsələni dinləyərək 6 bənddən (a-e) ibarət qərar qəbul etdi. (Rəyasət Heyətinin adından) Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə Dağlıq Qarabağa muxtariyyət vermək, mərkəz Xankəndi olmaqla "Muxtar Qarabağ vilayəti" yaratmaq təklif olundu. Sərhədlərlə bağlı məsələləri müəyyən etmək üçün komissiya (Qarayev - sədr, üzvlər: Karakozov, Sviridov, İldırım və Bünyadzadə) yaradıldı və s.

1923-cü il iyulun 4-də Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi də eyni məzmunlu qərar qəbul etdi.

Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi iyulun 7-də M.B.Qasımov (1879-1949) və Ə. M.Xanbudaqovun (1893-1937) imzası ilə "Dağılq Qarabağ muxtar vilayəti yaradılması haqqında" dekret verildi. Dekret preambula, dörd bənd və müştərək komissiya yaradılması haqqında yekundan ibarətdir. Göründüyü kimi, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin qərarı ilə dekretin adı arasında fərq vardır, çünki Qarabağın aran və dağlıq hissəsini muxtar vilayət kimi bir yerdə ayırmaq əvəzinə, yalnız Dağlıq Qarabağı ayırmaq qərara alınmışdı. Dekretin "Muxtar Qarabağ" vilayəti deyil Muxtar Dağlıq Qarabağ Vilayəti adlandırılması diqqəti cəlb edir. Lakin sonralar o, Dağlıq Qarabağ Muxtar Vilayəti adlandırılır (işdə dolaşıqlıq yaratmamaq üçün biz də bu ənənəni davam etdirmək məcburiyyətindəyik, amma onu ilk rəsmi sənədlərdə qeydə alınmış mənada qəbul edirik). Dekret ciddi hüquqi sənəddən daha çox, primitiv məzmunu ilə fərqlənir. Preambulada tarixi xronologiya pozulur, faktlar təhrif olunur, Dağlıq Qarabağa muxtariyyət verilməsi zərurəti kifayət qədər əsaslandırılmır. Dekretin birinci bəndində ("1) Образовать из армянской части (?) Нагорного Карабаха автономную область, как составную часть (?) АССР, с центром в местечке Ханкенды") hüquqi-siyasi təhrifə yol verilir. Azərbaycan torpaqlarından Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılması və onun Azərbaycanın ayrılmaz tərkib hissəsi olmasının təsdiqi əvəzinə, müxtəlif cür təfsir olunan ifadələr işlədilirdi. Üçüncü bənddə isə Sovetlər qurultayı çağırılanadək Müvəqqəti İnqilab Komitəsi yaradılır. Bu da, heç şübhəsiz, vilayətin erməni rəhbərliyinə daha geniş hüquqlar verirdi və s. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Rəyasət Heyətinin 16 iyul (dekretdən 10 gün sonra!) tarixli iclasının qərarı ilə Şuşa şəhəri Dağlıq Qarabağ Muxtar Vilayəti tərkibinə daxil

edildi. Dağlıq Qarabağ Muxtar Vilayəti üçün quberniya icraiyyə komitələri haqqında 1923-cü il Əsasnaməsi qəbul və tətbiq edildi. Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə isə 26 noyabr 1924-cü ildə çap olundu.

Beləliklə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ süni şəkildə aran və dağlıq hissələrinə parçalanmış və Azərbaycan rəhbərliyi Qarabağın dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu verməyə məcbur edilmişdi. Özü də bu addım həmin hissədə - Dağlıq Qarabağda yaşayan azərbaycanlıların rəyi nəzərə alınmadan, onların hüquqları kobudcasına tapdalanaraq və müvafiq rəy sorğusu keçirilmədən atılmışdı.

## Ermənistanın Dağlıq Qarabağ "formulası"

Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanması və ona muxtariyyət verilməsi məsələsində Ermənistanın mövqeyi də maraq doğurur. Ermənistan ilk dövrdə məsələnin bu şəkildə həlli ilə razılaşmaq istəməmiş, 1921-ci il iyulun 16-da Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosunun 5 iyul tarixli qərarının onu təmin etmədiyini bildirmiş və Dağlıq Qarabağa iddiasını davam etdirməyə başlamışdı. Lakin sonra Qafqaz Bürosunun ona hədiyyə etdiyi Dağlıq Qarabağa muxtariyyət verilməsini məqsədinə uyğunlaşdırmağa başlamış, Dağlıq Qarabağ uğrunda mübarizə belə bir formula almışdı: Dağlıq Qarabağa muxtariyyət verilməsindən onun Azərbaycanın idarəsi altından çıxarılmasına - Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə doğru! Bu formulanın əsasınında Dağlıq Qarabağda və onun ətrafında erməni şovinizminin gücləndirilməsi dururdu. İş o yerə çatmışdı ki, Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi XII qurultayında (1923, 17-25 aprel) K.Radek Azərbaycanda erməni şovinizmindən (aprelin 23-də) bəhs etmişdi. İ.Stalin isə ona qarşı çıxmışdı. Adətən Qafqaz Bürosunun 5 iyul

qərarından bəhs etdikdə Stalinlə barışa bilməyən erməni müəllifi burada onun sözlərindən gen-bol iqtibas gətirir. Bu həmin partiya qurultayıdır ki, orada Leninin "Qurultaya məktub"u oxunmuş və orada Stalinin obyektiv xarakteristikası verilmişdi. XII qurultayda seçilmiş Mərkəzi Komitə üzvlərinin repressiyası da məlum faktdır. Ona görə də K.Radekin çıxışı ilə əlaqədar məsələlər də yenidən tədqiq olunmalıdır.

Stalinin timsalında güclü müdafiəyə malik olan ermənilər çox çəkmədən əsl niyyətlərini açıqladılar. Şaduns 13 iyunda Zaqafqaziya Ölkə Komitəsinə yazdı ki, bu muxtar vilayət (Dağlıq Qarabağ) bilavasitə Zaqafqaziya Ölkə Komitəsilə bağlı olmalıdır; "Zaqfederasiyanın rəhbərləri problemin belə alternativ, daha ağıllı həllinə getmədilər." Bununla o, Ermənistanın Dağlıq Qarabağla bağlı sonrakı fəaliyyətinin əsas formulası haqqında yuxarıda söylənənləri çox aydın təsdiq edir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın dağlıq hissəsinə muxtariyyət verilməsi və onun ətrafında yaranan məsələlərə münasibət Kirovun AK(b) P-nın VI qurultayında (1924, 5 may) yekunlaşdırılır. Onun Dağlıq Qarabağa muxtariyyət verilməsinə olan şübhə və inamsızlığı, hər cümlədə hiss olunur. O, həmin qurultayda demişdir: bu məsələni biz, nəhayət (!) həll etdik və şübhəsiz (!) tamamilə düzgün iş gördük. Bu məsələni, əsasən, yenidən həll etməyə qayıtmayacağımıza heç bir şübhə (?!) yoxdur. Əslində isə, yuxarıda göstərildiyi kimi, Kirovun bu məsələnin düzgün həll olunduğuna şübhəsi vardı və bu tamamilə əsaslı şübhə idi.

**Azərbaycanın Zəngəzur bölgəsinin Ermənistan tərəfindən ələ keçirilməsi, Naxçıvanın digər Azərbaycan torpaqlarından**

**ayrı salınması**

Yuxarıda göstərilənlərdən aydın olduğu kimi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Azərbaycanın tarixi-coğrafi ərazi bölgüsü ənənələrinə sadiq qalaraq Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını Qarabağ general-qubernatorluğunda birləşdirmişdi və bu regiona vahid inzibati ərazi kimi baxırdı. Azərbaycan SSR hökuməti də, artıq yuxarıda qeyd edildiyi kimi, 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi. Lakin sonralar, sovet dövründə, müəyyən məqsədlər əsas götürülərək Zəngəzurun Qarabağdan ayrı olması təsəvvürünün yaradılmasına başlandı. Bu həmin torpaqların taleyinin həllində Azərbaycana təzyiqi gücləndirmək məqsədi güdürdü. Hadisələrin sonrakı gedişi göstərdi ki, Sovet Rusiyasının təzyiqi nəticəsində 1920-ci ilin aprelindən noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti qurulmasınadək olan dövrdə Zəngəzura münasibətdə mövqe dəyişdi. Azərbaycan İnqilab Komitəsinin Ermənistan Sovet Respublikasına 30 noyabr tarixli teleqramı və 1 dekabr bəyannaməsində ("Nərimanov Bəyannaməsi"), artıq, Zəngəzurun Ermənistana verilməsindən bəhs olunur. Lakin həqiqətdə Zəngəzur qəzasının 6.742 kvadrat verstlik ərazisindən 3.105 kv.versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv.verstlik hissəsi isə Ermənistana verilmişdi. Azərbaycanın tarix ədəbiyyatında bu problem kifayət qədər həllini tapmamışdır. Bu məsələ hələlik A.M.Skubitskinin yuxarıda adı çəkilən məqaləsində müəyyən dərəcədə əks olunmuşdur. O yazırdı: "N.Nərimanovun Zəngəzur qəzasını "Sovet Ermənistanının ayrılmaz hissəsi elan edən Bəyannaməsi" ilə bağlı əsaslı bir düzəliş

də bu gün diqqətimizdən yayınır. Bu "Dağlıq Qarabağın əməkçi kəndlilərinə öz müqəddaratlarını təyin etmək üçün tam hüquq verilməsi" haqqında Azərbaycan hökumətinin Bəyanatıdır. Bu gün həmin Bəyanat ancaq Muxtar Dağlıq Qarabağ Vilayətinə aid edilir. O vaxtlar isə bütövlükdə Dağlıq Qarabağa və özü də təkcə Azərbaycan sərhədləri daxilində yaşayan ermənilərə yox, həmçinin Ermənistana təklif edilən Zəngəzur qəzasının daxilində kürdlərə muxtariyyət verilməsini nəzərdə tuturdu… Ermənistan İnqilab Komitəsinin sədri Ş.İ.Kasyan… qəzanın kürdlər yaşayan şərq hissəsinin Azərbaycanda qalmasını daha ağıllı və məqsədəuyğun hərəkət saymışdır". Bu baxış Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi Qafqaz Bürosu tərəfindən qəbul edilmişdi. Ermənistana verilmiş hissə Zəngəzur adını saxlamış, Azərbaycan SSR inzibati bölgüsündə isə dəyişiklik baş vermişdi.

Azərbaycana vurulan ən ağır zərbə, həyata keçirilən ən böyük düşmənçilik aktı isə bu idi ki, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanla Azərbaycanın digər torpaqları arasında əlaqələr kəsildi, Naxçıvan Azərbaycandan ayrı salındı. Digər tərəfdən, bu ermənilərin Naxçıvanla bağlı gələcək məkirli niyyətlərinin həyata keçirilməsi üçün bir hazırlıq xarakteri daşıyırdı.

## Qarabağın digər torpaqlarının inzibati bölgüsində dəyişikliklər

1920-1923-ci illərdə məqsədyönlü surətdə həyata keçirilən proseslər nəticəsində keçmiş Qarabağ xanlığının tərkibinə daxil olan Azərbaycan torpaqları ənənəvi tarixi-coğrafi vahidliyini və ya bütövlüyünü itirdi. Azərbaycanın 1917 və 1921-ci il kənd təsərrüfat siyahıya almalarının materialları əsasında nəşr edilmiş yaşayış məskənləri siyahısında ölkə ərazisi 15 qəzaya ayrılır. Qarabağ ərazisində Cəbrayıl (Karyagin), Cavanşir, Qubadlı (keçmiş Zəngəzur qəzasının bir hissəsi), Şuşa qəzalarının olduğu göstərilir. Göründüyü kimi, bu mərhələdə artıq Zəngəzur qəzasının

bölünməsi öz əksini tapır, digər qəzaların əraziləri isə hələlik əvvəlki sərhədləri daxilində qalır. Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkili nəticəsində Cavanşir, Şuşa və Qubadlı qəzalarının bəzi yaşayış məskənləri ənənəvi inzibati bölgüsündən qoparılaraq onun tərkibinə verildi. Nəticədə yeni inzibati bölgü aparmaq tələbi meydana gəldi. Bu məsələ Dağlıq Qarabağ Muxtar Vilayəti Əsasnaməsini hazırlayan komissiyanın iclasında müzakirə edildi. Aran (düzən) Qarabağın idarə forması və inzibati bölgüsünə dair 3-cü məsələ üzrə belə bir qərar çıxarıldı: Tərkibinə Cavanşir qəzasının aran hissəsi, Şuşa, Qubadlı və Karyagin (Cəbrayıl) qəzalarının daxil olduğu Aşağı Qarabağ Vilayət İcraiyyə Komitəsi yaratmaq, ona RSFSR-in quberniya icrakomları haqqında 1923-ci il əsasnaməsini tətbiq etmək, Aran Qarabağ vilayətinin rayonlaşdırılmasını Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi yanında Xüsusi komissiyaya həvalə etmək. Bu iclasda Kürdüstanın idarə forması və inzibati bölgüsü haqqında 4-cü məsələ də müzakirə olundu. Buradan aydın olduğu kimi, Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldığı dövrdə Aran Qarabağın da xüsusi bir inzibati-ərazi vahidində birləşdirilməsi fikri olmuşdu. Lakin az bir vaxt keçdikdən sonra bu fikir dəyişmişdi. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi sədri Qasımov, Xalq Komissarları Soveti sədrinin müavini M.Quliyev və Daxili işlər naziri İ.Sviridovun imzaladığı Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 6 avqust tarixli əmrinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra Qarabağın qalan hissəsindən Ağdam, Cəbrayıl və Kürdüstan qəzaları yaradılmışdı. Həmin sənədə görə Ağdam, Cəbrayıl və Kürdüstan qəzalarının ərazilərinin tərkibi, mərkəzləri, qəza icrakom sədrləri və b. məsələlər müəyyənləşdirilmişdi, Qubadlı qəzası isə ləğv edilmişdi.

Azərbaycan Mərkəzi Statistika idarəsi Azərbaycan SSR-də həyata keçirilən bu və digər inzibati-ərazi bölgülərini nəzərə alaraq 1921-ci il kənd təsərrüfatı siyahıya almasının materialları əsasında

onların ərazisinin sahəsi, əhalisinin milli tərkibi və b. məsələlər üzrə hesablamalar aparmışdı. Həmin hesablamalara görə Qarabağın tarixi ərazisindən (xanlığın sərhədləri üzrə) Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti - 4.160,5 kv.km., Cəbrayıl qəzası - 4.268,5 kv.km., Ağdam qəzası - 4.135,4 kv.km., Kürdüstan qəzası - 3.432,4 kv.km. (cəmi 15.996,9 kv.km.) qalmışdı. Qarabağın tarixi ərazilərindən bir hissə isə Azərbaycandan qoparılaraq Ermənistana verilmişdir. Sonrakı inzibati-ərazi bölgüləri prosesində Zəngəzur qəzasının Azərbaycan SSR tərkibində qalan hissəsində Zəngilan (0,7 min kv.km.), Qubadlı (0,8 min kv.km.), Laçın (1,8 min. kv.km.) rayonları yaradıldı. Ağdam və Cəbrayıl qəzalarının ərazisində isə Ağdam (1, 1 min. kv.km.), Bərdə (1,0 min.kv.km.), Ağcabədi (1,8 min. kv.km.), Tərtər (0, 4 min.kv.km.), Cəbrayıl (1,0 min.kv.km.) rayonları yaradıldı. Beləliklə, Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri olan Qarabağ xanlığının ərazisi parçalanaraq bir hissəsi Ermənistana verildi, Azərbaycanda qalan hissəsində isə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

## Dağlıq Qarabağ 1923-1980-cı illərdə

İndiyədək Dağlıq Qarabağa muxtariyyət verilməsi məsələsindən bəhs edilərkən demək olar ki, onun ərazisinin inzibati bölgüsü tarixinin ən mühüm hadisələrinə lazımi diqqət yetirilməmişdir. Təhlil göstərir ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi real tarixi əks etdirən elmi-coğrafi prinsiplər əsasında deyil, xüsusi məqsəd güdən volyuntarist yanaşma əsasında formalaşdırılıb, yəni o, erməni yaşayış məskənlərinin üstün olduğu lokal əraziləri muxtar qurum adı altında birləşdirilmək yolu ilə təşkil olunub. (Yeri gəlmişkən qeyd edək ki, bu "prinsip" əsasında ermənilər kompakt yaşadıqları başqa ölkələrin ərazisində də özlərinə "muxtariyyət" tələb edə bilərlər!). İş o yerə çatmışdı ki, Kəlbəcərə məxsus Ağdaban, Füzuliyə məxsus Yuxarı Veysəlli

kəndləri Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədləri daxilində qalmış, inzibati tabeçilik dəyişdirilmişdi. Dağlıq Qarabağ muxtariyyətinin Əsasnaməsini hazırlayan komissiyanın qərarına əsasən onun tərkibinə 170-dən çox yaşayış məskəni verilmişdi. Azərbaycan Mərkəzi Statistika İdarəsinin 1924-cü ilə aid məlumatında isə artıq həmin məskənlərin sayının 200-dən çox olduğu göstərilir. Q.Koçaryan familiyalı erməni isə 1925-ci ildə nəşr edilmiş kitabçada bu məskənlərin sayının 215 olduğunu bildirir. Bu faktlar Dağlıq Qarabağ muxtar vilayətinin ərazisinin rəsmi sənədlərin əksinə olaraq genişləndirildiyini və yeni yaşayış məskənləri hesabına əhalisinin sayı və etnik tərkibinin ermənilərin xeyrinə dəyişdirildiyini sübut edir.

Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra onun tərkibinə verilmiş yaşayış məskənləri rayon-volost-kənd pillələri əsasında inzibati baxımdan aşağıdaki kimi bölünmüşdü: 1. Dizaq rayonu. Bu rayonun tərkibində 5 volost (Hadrut, Tuğ, Xozabyurd, Arakül, Edilli) və 48 kənd var idi; 2. Vərəndə rayonu. Bu rayonun tərkibində 5 volost (Tağavert, Sus, Çartaz, Noraşen) və 46 kənd var idi. 3. Şuşa rayonu. Şuşa şəhəri və Malıbəyli volostundan (12 kənd) ibarət idi; 4. Xaçın rayonu. Bu rayonun tərkibində 4 volost (Daşbulaq, Əsgəran, Krasnoselsk, Qala dərəsi) və 53 kənd var idi. 5. Ceraberd rayonu. Bu rayonun tərkibində 4 volost (Marquşevan, OratAq, Dovşanlı, Aterk) və 53 kənd var idi. Yeni inzibati-ərazi bölgüsi həyata keçirilərkən DQMV-də dəyişiklik baş verir. 1930-cu ilin avqustunda DQMV ərazisi yenə də 5 rayona bölünür: 1. Ceraberd, 2. Martuni, 3. Stepanakert, 4. Dizaq, 5. Şuşa. Göründüyü kimi Vərəndə Martuni adlandırılır, Xaçının ərazisi isə Stepanakertə aid edilir. 1939-cu il avqustun 17-də Ceraberd Mardakert, Dizaq isə Hadrut adlandırılır. Başqa sözlə, Azərbaycan dövləti olan Qafqaz Albaniyası dövrünə aid olan Dizaq, Vərəndə, Xaçın, Ceraberd kimi tarixi-coğrafi adlar unutdurulur və xüsusi məqsədlə Rusiya işğalları dövründə bura köçürülüb gətirilmiş ermənilərə məxsus adlarla əvəz

olunur. 1960-cı illərin əvvəllərində rayonların iriləşdirilməsi siyasəti həyata keçirilərkən əsas zərbə Şuşaya vurulur. 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilir, onun ərazisi Stepanakert rayonuna verilir. Lakin N.S.Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra inzibati ərazi bölgüsündə yeni dəyişiklik baş verir. 1965-ci il yanvarın 6-da Şuşa rayonu yenidən təşkil olunur. 1978-ci ildə Heydər Əliyevin qətiyyəti sayəsində Stepanakert rayonu əsasında Əsgəran rayonu təşkil edilir. SSRİ-nin dağılmasınadək Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazi bölgüsü belə idi.

Beləliklə, yuxarıdakı faktlardan Azərbaycanın Qarabağ torpağına köçürülüb gətirilmiş ermənilərin özgə torpaqlarında özlərinə dövlət yaratmaq hiyləsinin anatomiyası çox aydın görünür. Ermənilər vaxtı ilə Qərbi Azərbaycanda - köç saldıqları İrəvan xanlığının ərazisində də belə etmişdilər, indi Qarabağda da bu hiyləni işlətmək niyyətindədirlər.

Dağlıq Qarabağ Muxtar Vilayətinin tarixində ermənilər tərəfindən ən çox saxtalaşdırılan məsələlərdən biri onun əhalisinin say dinamikası və etnik tərkibi ilə bağlı olan məsələdir. Bu barədə erməni müəlliflərinin mövqeyini əyani göstərmək üçün prof.Y.Barseqovun təqdim etdiyi bir cədvələ nəzər yetirək.

Dağılq Qarabağ Muxtar Vilayəti əhalisinin faktik (əhali siyahıya almalar üzrə) sayı və prof. Y.Barsaqovun guya əhalinin təbii hərəkəti əsasında müəyyən edilmiş "hesablama" sayının müqayisəsi (əvvəlki dövrə nisbətən artıma dair hesablama bizimdir)

| illər | Ermənilər | | Azərbaycanlılar | |
|---|---|---|---|---|
| | faktik say | hesablama sayı | faktik say | hesablama sayı |
| **1921** | 128 060 | 128 060 | 7 594 | 7 594 |
| **1939** | 132800 (3,7%)* | 208317 (62,7%) | 14100 (77,2%) | 9 875 (24,1%) |
| **1959** | 110100 (-17,1%) | 375677 (80,3%) | 18000 (27,6%) | 15 803 (60%) |
| **1970** | 121 100 (10%) | 517223 (37,7%) | 27200 (51,1%) | 22 312(41,2%) |
| **1979** | 123100 (1,6%) | 620238 (19,9%) | 37200 (36,7%) | 27176 (21,8%) |
| **1989** | | 731 959 (18%) | | 32548 (19,7%) |

**Qaynaq:** Барсегов Ю.Г. Право на самоопределение-основа демократического решения межнациональных проблем. К проблеме Нагорного Карабаха. Ереван,1989,с.101
Əvvəlki dövrə nisbətən artım.

Y.Barseqov oxucunu çaşdırmaq üçün yalnız mütləq rəqəmləri verir, şərhin daha aydın olması üçün isə nisbi rəqəmlərə ehtiyac vardır. Cədvələ belə hesablamaları əlavə etdikdə onun nə dərəcədə absurd olduğu aşkara çıxır. Bu hansı məntiqə uyğundur ki, 1921-1939-cu illər arasında ermənilərin faktik artımı 3,6% olduğu halda, hesablamalarla 38,5%-ə qaldırılsın, azərbaycanlılarda isə faktik artım 46,1% olduğu halda, hesablamalarla 23,1%-ə endirilsin. Belə yanaşma həqiqətin qəsdən təhrifinə yönəlib və elə kobud şəkildə həyata keçirilib ki, bu oxucunu ələ salmaqdan başqa bir şey deyildir! Biz isə problemi elmi məcraya yönəltmək üçün belə bir hesablamaya müraciət edək.

Ermənilərin Ermənistanda və Y.Barseqovun Dağlıq Qarabağ Muxtar Vilayətində əhalinin "hesablama" yolu ilə müəyyən edilmiş sayı üzrə DQMV-də orta sıxlığı və onların müqayisəsi (hər kv.km.-ə)

| **Ermənilərin orta sıxlığı** | | | |
|---|---|---|---|
| **İllər** | **Ermənistanda (faktiki)** | **DQMV-da(Y.Barseqovun hesablamasına görə)** | |
| | | cəmi | Ermənistanla müqayisədə fərq |
| 1921 | - | 29,1 | - |
| 1926 | 25 | - | - |
| 1937 | 33,8 | - | - |
| 1939 | 35,6 | 47,3 | +11,7 |
| 1959 | 52,1 | 85,4 | +33,3 |
| 1970 | 74,1 | 117,5 | +43,4 |
| 1979 | 91,4 | 141 | +49,6 |
| 1989 | 103,4 | 166,4 | +63 |

**Qaynaq:** Всесоюзная перепись населения 1926 г. Закавказская СФСР.т.ХЫВ. М., 1929, с.11-13; Вестник статистики, 1990, 7, с.77; "Правда" от 2 июня 1939 г; Итоги Всесоюзной переписи населения 1959 г. Армянская ССР. М., 1963, с.11, 102-103; Численность и состав населения СССР. По данным Всесоюзной переписи населения 1979 г. М., 1984; Ходжабекян В.Е. Армянская Советская Социалистическая республика. Население союзных республик. М., 1977, с.278

Y.Barseqovun hesablamalarının qeyri-elmiliyi elə bir dərəcəyə çatır ki, adından da məlum olduğu kimi 4,4 min kv. km-lik dağlıq ərazidə, yəni Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində

ermənilərin orta sıxlığı üçün astronomik rəqəmlər irəli sürür! Beləliklə, erməni müəllifləri (daha doğrusu millətçiləri!) tarixi o dərəcədə təhrif edirlər ki, həqiqəti aşkar etmək müşkül bir işə çevrilir. Həqiqətdə isə Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin say dinamikasının real vəziyyəti aşağıdaki kimi olmuşdur.

1926-1988-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin say dinamikası

| **İllər** | **Əhalinin sayı, min nəf.** | **Əvvəlki dövrə görə artım** | | **Dövr ərzində orta illik artım, faizlə** |
|---|---|---|---|---|
| | | **min nəf.** | **faizlə** | |
| 1926 | 125,3 | - | - | - |
| 1939 | 150,8 | 25,5 | 20,4 | 1,45 |
| 1959 | 130,4 | -20,4 | -13,5 | -0,7 |
| 1970 | 150,3 | 19,9 | 15,3 | 1,3 |
| 1979 | 162,2 | 11,9 | 8,1 | 0,85 |
| 1988 | 182,4 | 20,2 | 12,5 | 1,3 |

**Qaynaq:** Самедзаде З. Нагорный Карабах: неизвестная правда (О некоторых аспектах социально-экономического и демографического развития региона). Баку, 1995, с. 31

Rəsmi sovet əhali siyahıya almalarının (1989-cu il istisna olmaqla) nəticələrinə əsaslanan yuxarıdakı cədvəl real vəziyyəti daha doğru əks etdirir və erməni müəlliflərinin xüsusi məqsədlə uydurduqları (daha doğrusu şişirtdikləri!) qondarma rəqəmlər onları təkzib edə bilməz.

İndi də Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin etnik tərkibinə keçək.

Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisinin etnik tərkibi (əhali siyahıyaalmaları üzrə; min nəfərlə)

| **Etnik tərkib** | **1939** | | **1959** | | **1970** | | **1979** | |
|---|---|---|---|---|---|---|---|---|
| | **mütləq** | **%** | **mütləq** | **%** | **mütləq** | **%** | **mütləq** | **%** |
| Bütün əhali | 150,8 | 10,0 | 130,4 | 100 | 150,3 | 100 | 162,2 | 100 |
| ermənilər | 132,8 | 88,1 | 110,1 | 84,4 | 121,1 | 80,5 | 123,1 | 75,9 |
| azərbaycanlılar | 14,1 | 9,4 | 18,0 | 13,8 | 27,2 | 18,1 | 37,3 | 23,0 |
| ruslar | 3,2 | 2,1 | 1,8 | 1,4 | 1,3 | 0,9 | 1,3 | 0,8 |

**Qaynaq:** Достижения Нагорного Карабаха в девятой пятилетке. Стат. сб. Степанакерт, 1976, с.8, Самед-заде З. Указ.соч., с.31

SSRİ-nin dağılması ərəfəsində keçirilən 1989-cu il əhali siyahıyaalması dövrün təsirinə məruz qalsa da, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi həmin siyahıyaalmanın materialları əsasında Dağlıq Qarabağ Muxtar Vilayətinin etnik xəritəsini çap etdirmişdir. Həmin xəritədən aydın olduğu kimi 1989-cu il sovet əhali siyahıyaalmasının yekunlarına görə Dağlıq Qarabağ Muxtar Vilayətinin 187,8 min nəfərlik əhalisinin 145,4 mini (77%) erməni, 40,3 mini (21,5%) azərbaycanlı olmuşdur.

Göründüyü kimi, 1939-1979-cu il əhali siyahıya almalarına görə Dağlıq Qarabağ Muxtar Vilayəti əhalisi içərisində azərbaycanlıların sayı müəyyən dərəcədə artmışdır. Bu erməni separatçılarının təqiblərinə baxmayaraq, azərbaycanlıların öz doğma torpaqlarına bağlılığı və onların içərisində təbii artımın üstün olması ilə əlaqədar olmuşdur. Ermənilərin isə, əksinə, miqrasiyaya meylli olmaqları ilə bərabər, təbii artımları da aşağı olmuşdur. 1989-cu il əhali siyahıyaalması ərəfəsində Mərkəzdən bütün vasitələrlə himayə olunan erməni separatçılarının vilayətin etnik tərkibində

azərbaycanlıların sayını süni şəkildə azaltmaq cəhdləri isə azərbaycanlıların nisbi sayının 23%-dən 21,5%-ə endirilməsinə səbəb olmuşdur.

Dağlıq Qarabağın bir tərəfdən Azərbaycanın, tarixi torpaqları kimi onun tərkibində saxlanması və bununla da digər Azərbayan torpaqları ilə tarixi bağlılıq ənənələrini davam etdirməsi, digər tərəfdən Dağlıq Qarabağ Muxtar Vilayətinə Azərbaycanın göstərdiyi xüsusi qayğı bu diyarın sovet hakimiyyəti illərində sosial-siyasi və iqtisadi inkişafı üçün müstəsna şərait yaratdı. Lakin 1980-ci illərin sonlarında Dağlıq Qarabağı Azərbaycandan ayırmağı qarşılarına məqsəd qoymuş erməni "ideoloqları" və onların himayəçiləri bunu açıq-aşkar inkar etməyə başladılar. Lakin faktlar faktlığında qalır. Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycanın tərkibində nə qədər yüksək inkişafa nail olması Vilayət Statistika idarəsinin Stepanakertdə nəşr etdirdiyi statistik məcmuələrdə əksini tapmışdır. Sonralar məhz həmin Stepanakert bu nəşrlərə göz yummağa çalışmışdır. Halbuki onlara göz yummaq deyil, daha diqqətlə yanaşmağa böyük ehtiyac vardır. Statistik məcmuələrdən biri muxtar vilayətin yaranmasından keçən 40 il ərzində (1923-1963) mədəniyyət, iqtisadiyyat, səhiyyə və s. sahələrdəki vəziyyət barədə yazmışdır: İnqilaba qədər (yəni 1917-i il Oktyabr çevrilişinədək) Dağlıq Qarabağda orta ixtisas təhsilli müəssisələr, kütləvi kitabxanalar, teatrlar yox idi. Şuşa şəhərində yalnız üç xüsusi mədəni-maarif müəssisəsi və bir xüsusi kinoteatr var idi. Hazırda Dağlıq Qarabağ Muxtar Vilayətində min nəfər şagirdin təhsil aldığı beş xüsusi orta təhsil müəssisəsi vardır. 930 min nüsxədən çox kitab fondu olan 164 kitabxana fəaliyyət göstərir. Kütləvi kitabxanalardan 150-si kənd yerlərindədir, onların kitab fondu 630 min nüsxəyə çatır. Stepanakert şəhərində M.Qorki adına Erməni Dövlət dram teatrı, Dövlət mahnı və rəqs ansamblı vardır. Vilayətdə 176 klub müəssisəsi vardır… Dağlıq Qarabağ elmi müəssisələrə də malikdir… Dağlıq Qarabağ Muxtar Vilayətinin

yaranmasının ilk günündən ana dilində (erməni dilində) "Sovetakan Karabax" qəzeti çap olunur. Kənd təsərrüfatından bəhs olunarkən Dağlıq Qarabağın xış diyarından traktor və kombayn diyarına çevrildiyi təsdiq olunur. 1963-cü ilin əvvəllərində Dağlıq Qarabağın kənd təsərrüfatında 1,4 min ədəd traktor, 224 kombayn, 670 yük avtomobili və minlərlə digər müasir kənd təsərrüfat maşını olduğu göstərilir. 40 il ərzində Dağlıq Qarabağ Muxtar Vilayətinin sənaye potensialının reallaşdırılmasında da xeyli iş görülmüşdü. 1940-cı ilə nisbətən 1962-ci ildə bütün sənayenin ümumi məhsulu 341%, elektrik enerjisi 945 % və sairə artmışdı. 1960-cı illərin ortalarından sonra da vilayətin sosial-iqtisadi həyatı dinamik inkişaf etmişdi.

1965-1987-ci illərdə bütövlükdə Azərbaycan SSR, o cümlədən onun Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə iqtisadi və sosial inkişafa dair göstəricilərin müqayisəsi həmin dövrdə muxtar vilayətin nə qədər yüksək templə tərəqqi etdiyini çox aydın göstərir. Buradan aydın olur ki, 1987-ci ildə hər 10 min nəfərdən sənayedə çalışanların sayı respublika üzrə 686, Naxçıvan MSSR üzrə 387 olduğu halda, Dağlıq Qarabağ Muxtar Vilayətində 657 olmuşdu. Adambaşına düşən ümumi kənd təsərrüfatı məhsulları müvafiq olaraq 588, 501 və 692 (!) idi və i.a. Sosial inkişafa dair göstəricilərə gəldikdə isə bu rəqəmlər nəinki Azərbaycan SSR, hətta Ermənistan SSR və bütövlükdə SSRİ üzrə rəqəmlərdən də xeyli yüksək idi. Hər 10 min nəfərə xəstəxana çarpayısı ilə təminat Ermənistan SSR-də 86,2, Azərbaycan SSR-də 97,7 olduğu halda Dağlıq Qarabağ Muxtar Vilayətində 101,7 idi və s. Hətta, erməni separatçılarının Mərkəzdəki himayəçilərinin xüsusi cidd-cəhdləri nəticəsində Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafına dair qəbul etdiyi 1988-ci il 24 mart tarixli qərarının preambulasında da vilayətdə sosial və iqtisadi inkişaf sahəsində əldə edilmiş nailiyyətlər xüsusi qeyd edilirdi.

Separatçıların uydurduqları saxta məlumatların baş alıb getdiyi dövrdə də Azərbaycan onun tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi vəziyyətinə dair faktları olduğu kimi geniş ictimaiyyətin müzakirəsinə çıxarmaqdan çəkinməmiş, əksinə mövcud vəziyyətin daha da aydınlaşdırılmasında maraqlı olmuşdu. Buna görə də 1988-ci ilin gərgin mart günlərində Azərbaycan SSR Nazirlər Soveti yanında Xalq Təsərrüfatını İdarəetmə institutunda Dağlıq Qarabağ Muxtar Vilayətinin iqtisadiyyatı: problemlər və perspektivlər mövzusunda "dəyirmi stol" təşkil edilmiş, onun materialları çap olunub geniş ictimaiyyətə çatdırılmışdı. Buna görə də həmin faktları burada sadalamağa ehtiyac görmürük. Yalnız həmin "dəyirmi stol"da SSRİ Elmlər Akademiyasının akademiki, "Əsas fondlar, kapital qoyuluşu və yeni texnikanın iqtisadi səmərəliliyi" problemi üzrə elmi şuranın milliyyətcə erməni olan sədri T.S.Xaçaturovun müzakirələrin sonundakı çıxışına diqqəti yönəltmək istəyirik. O, real vəziyyəti təsdiq edərək demişdir: Dağlıq Qarabağın məhsuldar qüvvələrinin daha da inkişafına dair məsələlər üzrə həmkarlarımla fikir mübadiləsi etmək mənim üçün çox xoş oldu. Etiraf edim ki, mən bu məsələ üzrə kifayət qədər tam informasiyaya malik deyildim və bizim söhbətimiz bu boşluğu müəyyən qədər doldurmağa imkan verdi. Göründüyü kimi, iqtisadçı(!) akademik T.S.Xaçaturov belə mühüm məsələdə kifayət qədər informasiyası "olmadığını" etiraf edir. Belə olduğu halda, digərlərindən bəhs etməyə dəyərmi?! Əslində isə Dağlıq Qarabağın Azərbaycandan qoparılması uğrunda mübarizədə erməni separatçılarına real vəziyyəti əks etdirən informasiya deyil, əksinə informasiyasızlıq lazım idi.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa muxtariyyət verildikdən sonra da istər Dağlıq Qarabağ, istər Ermənistan, istərsə də bu hüdudlardan kənardakı ermənilər separatçılıq fəaliyyətini dayandırmadılar. Erməni "siyasətçilərinin" susduqları dövrdə yazıçılar, şairlər və başqa zümrədən olanlar

strateji məqsədin-separatçılığın daşıyıcılarına çevrildilər, daha doğrusu "siyasətçilər" onları qabağa verdilər (bu erməni separatçılığının "tarixi" ənənəsidir!). Tanınmış erməni yazıçısı M.Şaginyan (1888-1982) Dağlıq Qarabağa muxtariyyət verilməsindən az sonra "Dağlıq Qarabağ" adlı kitabça (1927) çap etdirdi. Bu "kitabçada" tarixi həqiqəti açıq-aşkar təhrif etdi; Ümumittifaq oxucusuna saxta və tendensiyalı məlumat verdi: "Нагорный Карабах страна армянская..." (с.3); "Нагорный Карабах - феодальная область, дворянский кусочек(?) Армении" (с.5) və i.a.

1920-30-cu illərdə istədiklərinə nail ola bilməyən ermənilər 1941-1945-ci illər müharibəsindən sonra yenidən fəallaşdılar. 1945-ci ilin noyabrında Ermənistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi katibi Qr.Arutinov İ.Stalinə müraciət edərək Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ vilayəti adı altında Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında məsələ qaldırdı. Həmin müraciətin mətnini Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi katibi G.M.Malenkov 1945-i il 28 noyabrda Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinın birinci katibi M..Bağırova göndərdi. Malenkov Ermənistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin qaldırdığı məsələyə öz rəyini bildirməsini ona təklif etdi. Bağırov bununla əlaqədar 1945-i il dekabrın 10-da cavabını Moskvaya bildirdi. Bağırov cavabında yazırdı: "**Tam məxfidir. Malenkov yoldaşa.**

*Ermənistan Kommunist (bolşeviklər) Partiyası MK-nın katibi Arutinov yoldaşın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-nin tərkibinə daxil edilməsi haqqında təklifi ilə əlaqədar Sizin teleqramınıza cavab olaraq məlumat verirəm:*

*Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan, mərkəzi 1747-ci ildə Qarabağlı Pənah xan tərəfindən qala kimi*

*tikdirilmiş Pənahabad şəhəri olan Qarabağ xanlığının tərkibində olmuşdur.*

*1826-cı ildə Qarabağ çar Rusiyasına birləşdirilmişdir. Sonralar indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının tərkibində olmuşdur.*

*1918-1920-ci illərdə müsavatçıların Azərbaycanda və daşnakların Ermənistanda ağalığı dövründə musavat hökuməti tərəfindən mərkəzi Şuşa (keçmiş Pənahabad) şəhəri olan general-qubernatorluq təşkil edilmişdir.*

*1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərlik vahid Vilayət İnqilab Komitəsi tərəfindən həyata keçirilirdi.*

*1923-cü ildə Qarabağın əsasən ermənilərin məskunlaşdığı dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi qaldırıldı. Lakin bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədlərinin olmaması və Ermənistandan yalnız azərbaycanlıların yaşadığı Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrılması səbəbindən, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekreti ilə mərkəzi Xankəndi, indi Stepanakert adlanan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.*

*Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-ə bitişik olmamışdır və hazırda da bitişik deyildir.*

*Azərbaycanda Sovet hakimiyyəti illərində Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu inkişafın ən parlaq nümunələrindən biri - DQMV-ın hazırki mərkəzi Stepanakert şəhərinin başlı-başına buraxılmış və dağıdılmış bir kənddən Azərbaycanın ən gözəl, abad və mədəni şəhərlərindən birinə çevrilməsidir.*

*Azərbaycan SSR-nin bütün ali təhsil məktəbləri və texnikumları tələbələrinin 20,5%-ni, əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilər təşkil edir.*

*Respublikanın partiya, sovet, təsərrüfat rəhbərləri - Azərbaycan K(b)P MK-nın katibləri, müavinləri, xalq komissarları, xalq komissarları müavinləri və s. arasında Dağlıq Qarabağdan olan yoldaşlar da az deyildir.*

*Bununla belə biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə qatılmasına etiraz etmirik, lakin Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olmasına baxmayaraq, hazırda da əsasən azərbaycanlıların yaşadığı Şuşa rayonunun Ermənistan SSR-ə verilməsinə razı deyilik.*

*Şuşa şəhəri bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçıları ilə apardığı mübarizədə müstəsna rol oynamışdır.*

*Ən qaniçən fatehlərdən biri, Zaqafqaziya xalqlarının cəlladı Ağa Məhəmməd şah Qacar məhz Şuşada öldürülmüşdür.*

*Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmışdır. İbrahim xan, Vaqif, Natəvan və digər bu kimi görkəmli siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır.*

*Eyni zamanda, ÜİK(b)P MK-nın nəzərinə çatdırmağı zəruri hesab edirik ki, DQMV-ın Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistan SSR-in Azərbayan Respublikasına bitişik olan və əsasən azərbaycanlıların yaşadığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.*

*Bu rayonların mədəni və iqtisadi cəhətdən son dərəcədə geridə qalmasını nəzərə almaqla, bunların Azərbaycana verilməsi əhalinin maddi-məişət şəraitini və ona mədəni-siyasi xidmət işini yaxşılaşdırmağa imkan yaradardı. ÜİK(b)P MK-dan yuxarıda göstərilənlərdən əlavə aşağıdakı məsələlərə baxılmasını xahiş edirik:*

*Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-in tərkibinə daxil edilməsi məsələsini qoyurlar.*

*Göstərilən rayonlarda əhalinin ümumi sayı 79.000 nəfər olduğu halda cəmi 9.000 gürcü-inqiloyun yaşamasına baxmayaraq biz bu məsələyə baxılmasına etiraz etmirik, lakin bu məsələ ilə bir zamanda, Gürcüstan SSR-in demək olar yalnız azərbayanlıların yaşadığı və bilavasitə Azərbaycan SSR-ə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-nin tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.*

*Və nəhayət biz, Dağıstan SSR-in keçmişdə Azərbaycanın bir hissəsi kimi Bakı quberniyası tərkibinə daxil olan və hazırda Azərbaycan SSR-ə bitişik olan Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR tərkibinə qatılması məsələsini nəzərdən keçirmənizi xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbayanlılardan ibarətdir, özü də maldarlıqla məşğul olan bu əhalinin yarıdan çoxu ilin 9 ayını Azərbaycan ərazisində keçirir.*

*Qaldırılmış bütün məsələlər üzrə təkliflərin hazırlanması üçün tərkibinə marağı olan hər bir respublikadan nümayəndələr daxil edilməklə ÜİK(b)P MK komissiyasının yaradılmasını məqsədəuyğun hesab edirik.*

**Azərbaycan K(b)P MK katibi M.C.Bağırov**

10 dekabr 1945-ci il № 330, Bakı şəhəri."

Bu cavab bir sıra tədqiqatçıların diqqətini cəlb etmiş və onun barəsində müəyyən mülahizələr söylənmişdir. Lakin buna yenidən qayıtmağa ehtiyac vardır. Bu sənəddə diqqəti çəkən məsələlər hansılardır?! Hər şeydən əvvəl: 1) O zamankı partiya bürokratiyası şəraitində Malenkovun təklifi kimi mürəkkəb məsələyə qısa müddətə cavab verilməsi diqqəti cəlb edir. Bu göstərir ki, belə bir təklif Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi üçün gözlənilməz olmamışdır. 2) Mətnin siyasi, elmi-tarixi və tekstoloji təhlili də zəruridir. Bunların üzərində ləngimədən bir vacib məqama diqqət yetirək. Buradan aydın olur ki, bəzən iddia olunduğunun əksinə olaraq, Azərbaycan rəhbərliyi belə bir problemdən heç zaman qaçmamış, əksinə ən yüksək səviyyədə onun müzakirəsinə və konkret təkliflərlə çıxış etməyə hazır olmuşdur və s. Məhz belə bir əsaslandırılmış mövqe o zaman Moskvanı Azərbaycana təzyiqdən çəkindirmişdi. Bununla belə, Ermənistan rəhbərliyi məqsədindən əl çəkməmiş, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən - oz ata-baba torpaqlarından kütləvi surətdə deportasiyasına nail ola bilmişdi.

Lakin ermənilər bununla da Dağlıq Qarabağ ilə bağlı separatçılıq fəaliyyətindən əl çəkmədilər. 1960-cı illərdə SSRİ-də antitürkiyə kampaniyasının gücləndiyi şəraitdə yenidən bu problemi ortaya atdılar. 1965-ci ildə Dağlıq Qarabağın Ermənistana ilhaq edilməsi barədə 45 min nəfərin "imzaladığı" petisiya Moskvaya

təqdim edilmiş, bunun əsasında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi katibliyi Ermənistan və Azərbaycana bu barədə məsələ hazırlamağı tapşırmışdı. Erməni separatçıları belə hesab edirlər ki, buna Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi katibi M.Suslov mane olmuşdur. 1969-cu ildə Heydər Əliyevin Azərbayan rəhbərliyinə gəlməsi ilə onun cəsarətli və qətiyyətli mövqeyi sayəsində ermənilərin separatçılıq təşəbbüsləri və bu niyyətlə Mərkəzdə göstərdikləri "fəaliyyət" uzun müddət heç bir nəticə vermədi. SSRİ-nin 1977-ci il Konstitusiyasının qəbulu zamanı da ermənilər eyni inadla bu problemi ortaya atmağa çalışdılar. Lakin bu dəfə də heç nəyə nail ola bilmədilər. H.Əliyevin qətiyyəti sayəsində onun Azərbaycana rəhbərliyi (1969-1982) və SSRİ rəhbərlərindən biri olduğu dövrdə (1982-1987) erməni separatçılarının niyyətlərinin canlanmasına yol verilmədi.

1984-cü ildə İrəvanda Z.Balayanın "Oçaq" kitabının çap edilməsi, onun Qarabağın tarixinə və müasir dövrünə dair məqsədyönlü təhrifləri, millətçi-separatçı çağırışları ehtirasları yenidən qızışdırdı. Bu əhval-ruhiyyə erməni millətçiləri tərəfindən əhatə olunmuş M.S.Qorbaçovun elan etdiyi "aşkarlıq və yenidənqurma" şəraitində sovet rəhbərliyində (M.S.Qorbaçovun timsalında!) böyük dəstək qazandı və yeni mərhələyə qədəm qoydu. Moskvadan hərtərəfli dəstək alan erməni separatçıları və terrorçuları tərəfindən idarə olunan Dağlıq Qarabağ 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə olduğu kimi, yenə də Azərbaycan xalqına qarşı xəyanət yolunu tutdu.

## Dağlıq Qarabağ Muxtar Vilayəti və Qarabağın aran (düzən) hissəsinin inkişafına ümumi bir baxış

Özünün bütün əvvəlki tarixi dövrlərində Qarabağ Azərbaycanın vahid təbii - coğrafi regionu kimi iqtisadi və siyasi inkişafına, oxşar adət-ənənələrinə, həyat tərzinə və məişətinə görə bir-birini

tamamlayan tarixi vilayət olmuşdur. Lakin Qarabağın Dağlıq hissəsinə - Dağlıq Qarabağa muxtariyyət verilməsi ilə vəziyyətdə köklü dəyişiklik əmələ gəldi.

Dağlıq Qarabağ Muxtar Vilayəti onun üçün yaradılmış müstəsna şərait nəticəsində inkişaf etmiş aqrar-sənaye bölgəsinə, Qarabağın azərbaycanlılar yaşayan aran rayonları və digər rayonlar isə onun xammal bazasına çevrilməyə başladı. Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı azərbaycanlılar yaşayan rayonlar, əsasən, pambıq istehsalı ilə məşğul olmağa istiqamətləndirildi, emaledici sənaye sahələrinin inkişafı geri qalmağa başladı. Bütün bunlar Dağlıq Qarabağ Muxtar Vilayətində həyat səviyyəsinin Qarabağın digər rayonlarına nisbətən sürətlə yüksəlməsinə səbəb oldu. Kurort-istirahət mərkəzlərinin Dağlıq Qarabağ Muxtar Vilayətində yerləşməsi də aran rayonların əhalisinin yay dövründə buraya yönəlməsinə səbəb oldu və Dağlıq Qarabağın iqtisadiyyatını daha da inkişaf etdirdi. Bu da külli miqdarda vəsaitin Dağlıq Qarabağ Muxtar Vilayəti büdcəsinə daxil olmasına gətirib çıxarırdı. Bütün regionda yeganə ali məktəb - Pedaqoji İnstitut da Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Stepanakertdə idi.

Tarixi Qarabağın başqa rayonlarından fərqli olaraq, Dağlıq Qarabağ Muxtar Vilayətinin əldə etdiyi iqtisadi üstünlük muxtar vilayət statusunun siyasi üstünlüyünün artması ilə də müşayiət olunurdu. Azərbaycanlı - müsəlman əhalinin yaşadığı aran rayonları əsasən xristian-ermənilərin yaşadığı Dağlıq Qarabağ Muxtar Vilayətinə nisbətən sovet rejiminin təzyiqlərinə, ayrı-seçkiliyə daha çox məruz qalırdı.

Bütün bunlar Moskvadan və Ermənistan SSR-dən kömək alan Dağlıq Qarabağ ermənilərinin etnik eqoizmini artırır, azərbaycanlılara qarşı açıq həqarət mühiti yaradırdı. Beləliklə, 1905-1906 və 1918-1920-ci illərdə olduğu kimi, xüsusi mərkəzlərdən

idarə edilən ermənilər daha yaxşı təşkil olunurdu. Əlaltdan ermənilərin sürətlə silahlandırılması da həyata keçirilirdi. Bu amillər başqa şərtlərlə birlikdə, sonralar Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı digər rayonların Ermənistanın hərbi qüvvələri və Dağlıq Qarabağın erməni separatçı-terrorçuları tərəfindən işğalında həlledici faktorlardan oldu.

**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu**

# 1948 -1953-cü illər deportasiyasının bəzi məqamları

1950-ci il yanvarın 10-da Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P Mərkəzi Komitəsi ***"Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığı rayonlarina köçürülmüş kolxozçuların və digər azərbaycanlı əhalinin təsərrüfat cəhətcə yerləşdirilməsi ilə əlaqədar təxirəsalınmaz tədbirlər haqqında"*** qərar qəbul edir. Həmin qərarda göstərilirdi ki, 1948-1949-cu illərdə Ermənistan SSR-dən 4674 təsərrüfat (təqribən 20000 nəfər) köçürülmüşdür. Köçürülənlərdən 1410 ailə yerli sovetlər və kolxozlara məxsus evlərdə, 3264 ailə isə yerli kolxozçuları sıxışdırmaq hesabına yerləşdirilmişdir. Həmin qərarda qeyd edilmişdi ki, iki ildə köçürülənlər üçün cəmi 80 təzə ev tikilmişdir.

Azərbaycan SSR Nazirlər Soveti 1950-ci ildə 3419 ailənin (13361 nəfər) köçürülməsi haqqında qərar qəbul etsə də, faktiki olaraq, rəsmi və qeyri-rəsmi köçürülmələrin sayı nəzərdə tutulduğundan xeyli artıq olmuşdu, 1950-ci ildə köçürülənlər üçün 3500 ev tikmək planlaşdırılmış, faktiki isə 470 ev tikilmiş, 1488 köçkün ailəsi həyətyanı təsərrüfat sahəsi ilə təmin edilməmişdi.

Azərbaycanlıların öz tarixi-etnik torpaqlarından mümkün qədər sürətlə çıxarılmasını təmin etmək üçün Ermənistan hökumətinin ən qəddar üsullara əl atdığını həmin dövrün rəsmi sənədlərindən də görmək olar. Ermənistandan Azərbaycanlıların köçürülmə məsələləri üzrə Azərbaycan SSR Nazirlər Sovetinin nümayəndəsi Əliyevin Ermənistan SSR Nazirlər Soveti yanında Köçürülmə İdarəsinin rəisi Karapetyana və Nazirlər Soveti sədrinin müavini Piruzyana ünvanlanmış 28 noyabr 1949-cu il tarixli məktubunda qeyd edilirdi: *"Son zamanlar Amasiya, Spitak və Vedi rayonlarının ayri-ayrı təşkilatları köçürülmə barədə sənədlərin tam rəsmiləşdirilməsini,*

*kolxozçuların köçürülməyə razılıq vermələrini gözləmədən, təsərrüfatları köçürmək üçün sürətli hazırlıq işləri aparırlar. Həmin təşkilatlar bu təsərrüfatların əmlakını bölüşdürür, kolxozları məcbur edirlər ki, yemi satsınlar və hətta nə vaxt yola düşəcəklərini göstərsinlər. Onlar kolxozçuların bu və ya digər rayona köçürülmək arzusunda olub-olmaması ilə hesablaşmırlar, halbuki hökumətin köçürülmə barədə qərarına əsasən, kolxozçuların nümayəndələri köçürüləcəkləri yerləri qabaqcadan görüb baxmalı və öz istəklərinə uyğun yerlər seçməlidirlər. Köçürülmə qaydalarının bu cür pozulması isə kolxozçuları məcbur edir ki, onlar yuxarı təşkilatlara şikayət etsinlər, onların köçmək istəmədikləri rayonlara köçürülmələrindən narazı olduqlarını bildirsinlər."*

SSRİ hökumətinin Azərbaycanlıların köçürülməsi haqqında verdiyi qərarlar Ermənistan hökumətinə şans vermişdi ki, İrəvan ətrafında Ermənistanın sərhədləri boyunca mövcud olan azərbaycanlı yaşayış məntəqələri birdəfəlik xəritədən silinsin. Ermənistan hökumətinin nümayəndələri azərbaycanlı əhalinin köçürülməyə psixoloji cəhətdən hazırlanması üçün müxtəlif şayiələr buraxırdılar. 1948-ci il mayın 3-də Ermənistan SSR-in daxili işlər naziri Xoren Qriqoryanın Mircəfər Bağırova göndərdiyi "Azərbaycanlı əhalinin qarşıdan gələn köçürülmə ilə əlaqədar əhval-ruhiyyəsi haqqında arayış"da xüsusən dağlıq rayonlarda əhalinin köçürülməyə kəskin mənfi münasibət göstərdiyi qeyd olunur. Həmin arayışda Amasiya, Zəngibasar, Vedi, Basarkeçər, Artaşat, Qarabağlar, Hoktemberyan, Qafan, Meğri və Sisyan rayonlarında yaşayan ayrı-ayrı azərbaycanlıların narazılıqlarının motivləri ifadə olunmuşdur. Arayışda diqqəti çəkən məqamlardan biri də ondan ibarətdir ki, ayrı-ayrı ermənilərin ifadələri ilə, dolayısı ilə olsa da, rəsmi Ermənistanın mövqeyi çatdırılır. Ermənilər Türkiyə ilə sərhəd boyunda məskunlaşmış Azərbaycanlılar arasında qabaqcadan belə bir xəbər yaymışdılar: *"Azərbaycanlıların Ermənistandan köçürülməsi şübhə doğurmur. İlk növbədə, Araz və Axuryan (Arpaçay - N. M.) çayları boyu yaşayan azərbaycanlılar köçürüləcək. Sərhəd rayonlarının*

*kəndləri də azərbaycanlılardan təmizlənəcək...” Başqa bir şayiədə isə ermənilər öz arzularını belə ifadə edirdilər: “Azərbaycanlıları təkcə Ermənistandan deyil, eləcə də Naxçıvan MSSR-dən köçürmək və Naxçıvanı Ermənistan ərazisinə birləşdirmək lazımdır.”*

Digər tərəfdən, yaranmış fürsətdən istifadə edən Ermənistan rəhbərləri Gürcüstanla sərhəddə yerləşən strateji əhəmiyyətli azərbaycanlı kəndlərinin də köçürülməsi üçün müxtəlif üsullara əl atmışdilar. Noyemberyan rayonunun Ləmbəli və Aşağı Körpülü kəndləri Gürcüstanın Marneuli rayonu (Borçalı) ilə həmsərhəd olmaqla yanaşı, olduqca məhsuldar torpaqları var idi. Ləmbəli kəndini “Ermənistanın Kaliforniyası” adlandırırdılar. Ermənistan rəhbərləri bu kəndlərin sakinlərinin razılığı olmadan onları “könüllü köçmək istəyən” ilk təsərrüfatların siyahısına daxil etmişdilər. Ermənistan SSR Nazirlər Sovetinin 29 sentyabr 1948-ci il tarixli qərarına əsasən Ləmbəli kolxozu əsasında zeytun sovxozu, Aşağı Körpülü kolxozu əsasında isə subtropik bitkilər sovxozu yaradılması və həmin təsərrüfatlarda xaricdən gələn ermənilərin yerləşdirilməsi nəzərədə tutulmuşdu. 70 təsərrüfatdan (370 nəfər) ibarət Aşağı Körpülü kəndinin sakinlərinin bir hissəsi qonşu Qazax rayonuna, habelə Gürcüstanın Borçalı rayonuna, Noyemberyan rayonunun Yuxarı Körpülü kəndinə və Allahverdi filiz mədəninə köçürülərək kənd boşaldılmışdı. Ləmbəlililər isə Salyan rayonuna köçməkdən imtina etmişdilər. Ona görə də, 245 təsərrüfatdan 1192 nəfərdən ibarət olan bu kəndin köçürülməsi təxirə salınaraq, 1949-cu il köçürülmə planına daxil edilmişdi. Həmin il yaz-yay aylarında Ermənistan rəhbərləri ləmbəlilərin deportasiya olunması üçün müxtəlif təzyiq üsullarına əl atır, hətta hüquq-mühafizə orqanlarinın vasitəsilə əhalini qorxudaraq, onlardan kəndi tərk etmələrini tələb edirdilər. Noyemberyan rayonunun rəhbərləri Ləmbəli kolxozunun əmlakını, mal-qarasını zorla Yuxarı Körpülü kəndinə təhvil verirlər. Əlacsız qalan ləmbəlilərin bir qismi Gürcüstanın Azərbaycanlılar yaşayan kəndlərinə səpələnməli olurlar. Marneuli rayonunda sığınacaq tapmış ləmbəlililəri noyabrın 28-də döyə-döyə

komalarından çıxararaq, yenidən Ləmbəliyə qaytarırlar. Lakin artıq ləmbəlililərin əksər evlərində xaricdən gələn erməniləri yerləşdiribləmiş. Ona görə də, onları evlərinə buraxmır, Sadaxlı dəmiryol stansiyasında yük vaqonlarına dolduraraq, oradan İrəvan yaxınlığındakı Uluxanlı stansiyasına gətirirlər.

Uluxanlı stansiyasında üç gün qar-boran içərisində qalan ləmbəlililəri bir sutka ərzində Sevan şəhərinə, oradan qayıqlarla 8 saat ərzində Basarkeçərin Zağalı kəndinə, oradan xizəklərlə 18 km aralıda Zod və Ağkilsə kəndinə gətirib yerləşdirirlər.

Basarkeçərdən geri qayıdan ləmbəlililər Gürcüstanla sərhəddə - Ləmbəliyə yaxın yerdə yeraltı daxmalar tikərək, orada yaşamağa məcbur olurlar. Ləmbəlililərin şikayətlərinə yalnız İ. Stalinin ölümündən sonra baxılmışdı. Moskvadan xüsusi komissiya gəlib, ləmbəlililərin şikayətlərinin haqlı olmasını Ermənistan rəhbərlərinin nəzərinə çatdırmışdı. Yalnız bundan sonra, 1954-cü ildə Ermənistan KP MK **"Ləmbəlidə evlərin keçmiş sahiblərinə qaytarılması və onların sovxozda işə qəbul edilməsi barədə"** qərar qəbul etmişdi.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri T. Quliyev SSRİ Nazirlər Soveti qarşısında vəsatət qaldırmışdı ki, sonrakı illərdə köçürmə planı aşağıdakı kimi müəyyən edilsin: 1951-ci ildə 10000 nəfər, 1952-ci ildə 20000 nəfər, 1953-cü ildə 20000 nəfər, 1954-cü ildə 15000 nəfər. Lakin 1951-ci ildə 911 təsərrüfat (3714 nəfər), 1952-ci ildə 1257 təsərrüfat (5512 nəfər), 1953-cü ildə 1898 təsərrüfat (8254 nəfər) köçürülmüşdü.

SSRİ Nazilər Sovetinin yuxarıda adları çəkilən qərarlarının icra edilməsinin məcburiliyi ona gətirib çıxarmışdı ki, Ermənistanda deportasiya edilənədək mülayim iqlim şəraitində yaşamış, təmiz bulaq suyu içməyə adət etmiş əhalinin xeyli hissəsi Kür-Araz ovalığında ictimai binalarda yatalaqdan, qızdırmadan, malyariyadan və digər yoluxucu xəstəliklərdən məhv olmuşdur.

1951-ci ilin əvvəlindən etibarən, Azərbaycanda açıq səma altında qalan, tövlələrdə yerləşdirilən əhalinin bir hissəsi ağır şəraitə dözməyib Ermənistana - öz kəndlərinə qayıtmağa məcbur olurlar.

İyunun 1-nə kimi 217 təsərrüfat geri qayıdır. Geri qayıtmaların kütləvi şəkil almağından qorxuya düşən Ermənistan rəhbərliyi böyük hay-küy qaldırır, onları qəbul etməkdən imtina edir. Halbuki, xaricdən gələn erməniləri yerləşdirmək adı altında Azərbaycana köçürülən kəndlərin əksəriyyəti hələ də boş qalırdı. Xaricdən gələnlərin cüzi hissəsi kənd rayonlarında məskunlaşmışdılar. Hər cür yağlı vədlərlə xarici ölkələrdən gətirilən ermənilərin əksəriyyəti özlərini aldadılmış hesab edir, sosial inkişaf baxımından bərbad vəziyyətdə olan müsəlman kəndlərinə ayaq qoymaq istəmirdilər.

Hələ 1947-ci il mayın 22-də Ermənistan KP MK-nın birinci katibi Q.Arutyunov Stalinə göndərdiyi məktubunda göstərmişdi ki, xaricdən gətirilən ermənilərin 300 nəfəri artıq geri qayıdıb, 21 nəfər sərhədi keçərək Türkiyəyə qaçıb, 110 nəfər isə sərhədi keçmək istəyərkən yaxalanıblar. Q.Arutyunov "qaxdağan"ların Ermənistanı tərk etmələrini iqtisadi problemlərlə izah edirdi.

1953-cü ildə İ.Stalinin ölümündən sonra Ermənistandan türklərin köçürülməsinin sürəti azalır və əhalinin geriyə qayıtma prosesi sürətlənir. Ermənistan rəhbərləri Əştərək, Martuni (Qaranlıq), Qarabağlar, Abovyan (Ellər), Eçmiədzin rayonlarından türklərin izinin silinməsinə nail olsalar da, hər cür təqib və təzyiqlərə tab gətirərək Zəngibasar rayonunun Zəhmət, Qaraqışlaq, Yuxarı Necili, Vedi rayonunun Xalisa, Yengicə, Arazdəyən, Qaralar, Şidli, Şirazlı kəndləri, Basarkeçər və Krasnoselsk rayonlarının kəndləri qismən köçürülmə qrafikindən yayına bilmişdilər. Sonradan köçürülənlərin bir qisminin geri qayıtmalarına və onların hələ də boş qalan kəndlərində yenidən məskunlaşmasına şərait yaradanlar da məhz deportasiyadan yayınaraq, Ermənistanda qalan azərbaycanlı kəndlərinin əhalisi olmuşdur. Onlar hər şeylərini itirərək, geri qayıdan əhaliyə hər cür maddi və mənəvi köməklik göstərir, onların təsərrüfat qurması üçün öz imkanlarını onlarla bölüşdürürdülər. Geri qayıdan əhaliyə qarşı Ermənistan hökumətinin hər cür iqtisadi sanksiyalar tətbiq etməsinə baxmayaraq, əhalinin böyük əksəriyyəti öz kəndlərində və ya əgər onların evlərinə ermənilər

yerləşdirilmişdisə, qonşu türk kəndlərində yenidən məskunlaşmağa başlamışdılar. Ermənistanda öz evləri ermənilər tərəfindən zəbt edilən və başqa kəndlərdə məskunlaşmaq imkanından məhrum edilən yüzlərlə ailə isə özlərinə yaşayış şəraiti düzəldə bilmədiklərindən yenidən Azərbaycana qayıtmağa məcbur olmuşdular. Beləliklə, Ermənistandan deportasiya və miqrasiya prosesi 1957-ci ilədək davam etmişdi.

Azərbaycan SSR Nazirlər Sovetinin yanında Köçürülmə üzrə Baş İdarənin məlumatına görə, 1954-cü ildə 749 təsərrüfat (3368 nəfər), 1955-ci ildə 207 təsərrüfat (965 nəfər), 1956-cı ildə 360 təsərrüfat (1543 nəfər) deportasiya edilmişdir.

Araşdırmalar göstərir ki, azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi etnik torpaqlarından köçürülməsi (deportasiyası) haqqında SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarı artıqlaması ilə yerinə yetirilmişdir. Həmin qərarla Ermənistanın 22 rayonundan 100 min azərbaycanlının köçürülməsi nəzərdə tutulmuşdusa da, əslində, qərar zorakı üsullarla həyata keçirilmiş, 24 rayondan və İrəvan şəhərindən (200-dən artıq yaşayış məntəqəsindən) 150 minə yaxın artıq azərbaycanlı deportasiya edilmişdir.

Ermənistandan azərbaycanlıların deportasiyası ilə yanaşı, yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi, təhsil və mədəniyyət ocaqlarının bağlanması, rayonların birləşdirilməsi əməliyyatı aparılırdı. Təkcə 1947-1953-cü illərdə 50-yə yaxın yaşayış məntəqəsinin adları dəyişdirilmişdir. Ermənistan SSR Ali Sovetinin 19 sentyabr 1950-ci il fərmanı ilə aşağıdakı dəmiryol stansiyalarının adları dəyişdirilmişdir: Kolagirən-Tumanyan, Hamamlı-Spitak, Ortakilsə-Maisyan, Tomardaş-Vardakar, Arpaçay-Axuryan, Buğdaşen-Baqravan, Qaraqula-Gedap, Dərələyəz-Araqadz, Boğudlu-Arteni, Qaraburun-Qarmraşen, Qamışlı-Sovetaşen, Uluxanlı-Masis, İmanşalı-Mxçyan, Qəmərli-Artaşat, Şirazli-Ayqavan.

1951-ci il martın 19-da verilən fərmanla Dilican rayonu İcevan rayonu ilə, Əzizbəyov rayonu Mikoyan rayonu ilə, Ələyəz rayonu

Abaranla, Qarabağlar rayonu Vedi ilə, Qukasyan rayonu Amasiya ilə birləşdirilmişdi. Kadr məsələləri həll edildikdən, yəni məsul vəzifələrə Azərbaycanlıların əvəzinə erməniləri yerləşdirdikdən sonra bəzi rayonları yenidən ayırmışdılar.

Ermənistanda köçürmə aksiyasını həyata keçirdikdən sonra türkdilli əhalinin azalmasını əsas götürərək rayon və respublika səviyyəli türkdilli kadrları ermənilərlə əvəz etməyə başladılar. Qarabağlar, Vedi, Zəngibasar, Krasnoselsk rayonlarının partiya komitələrinin birinci katibləri, digər 10 rayonda isə ikinci və üçüncü katiblər dəyişdirilərək, yerlərinə erməniləri təyin etdilər.

Sonralar isə Ermənistan KP MK-nın katibi Məmməd İsgəndərov, kənd təsərrüfatı şöbəsinin müdir müavini Rəhim Allahverdiyev, MK-nın məsul təşkilatçısı Cümşüd Sultanov, kənd təsərrüfatı nazirinin müavini Hüseyn Məmmədov vəzifələrindən azad edilmişdilər. Ermənistan SSR Ali Sovetinin sədr müavini Mirzə Bəşirov isə Ali Sovetin 9 aprel 1949-cu il tarixli sesiyasının qərarı ilə tutduğu vəzifədən azad edilmişdi. Məsul vəzifələrdə işləmiş soydaşlarımızın Azərbaycana axını getdikcə sürətlənirdi. Bütün bunlarla yanaşı Amasiya, Basarkeçər və Krasnoselsk rayonlarından başqa, yerdə qalan rayonlarda Azərbaycan dilində çıxan qəzetlər bağlanmışdı.

Köçürmə illərinin hər cür təzyiq və sıxıntılarına baxmayaraq, Azərbaycan teatr sənətinə görkəmli sənətkarlar bəxş edən C. Cabbarlı adına İrəvan Azərbaycanlı Dram Teatrı 1948-1949-cu illərdə “Məşədi İbad”, “Leyli və Məcnun”, “Eşq və İntiqam”, “Şah İsmayıl” kimi əsərləri tamaşaya qoymuşdu. Bütün bunlara baxmayaraq, 1949-cu ildə teatrı azərbaycanlıların yaşamadığı Basarkeçər rayonunun mərkəzinə köçürmüş, sonra isə bağlamışdılar.

Ermənistanda azəri türklərini başsız qoymaq, ali təhsilli kadrların çoxalmasına imkan verməmək məqsədilə ilk növbədə X.Abovyan adına İrəvan Pedaqoji İnstitutunun təhsili Azərbaycan dilində olan fakültələri - dil-ədəbiyyat, tarix, coğrafiya, fizika-riyaziyyat fakültələri, Ermənistan Dövlət Qiyabi Pedaqoji İnstitutunun eyniadlı

fakültələri bağlanaraq Azərbaycandakı müvafiq institutlara köçürüldülər. Ermənistandan köçürülən əhalinin Xanlar rayonunda məskunlaşmasına hər cür maneçilik törədildiyi halda, Azərbaycan elminə görkəmli xadimlər bəxş etmiş İrəvan Azərbaycanlı Pedaqoji Texnikumu Xanlar rayonuna köçürüldü.

Ermənistan rəhbərləri xaricdən gələn erməniləri yerləşdirmək bəhanəsi ilə Naxçıvanla İrəvan arasında əvvəllər tamamilə azərbaycanlılar yaşayan ərazilərdə xeyli miqdarda erməni əhalisinin yerləşdirilməsinə nail oldular. İrəvan şəhərini üzük qaşı kimi əhatə edən azərbaycanlı kəndlərində erməniləri məskunlaşdırdılar. Köçürülmə nəticəsində İrəvanın ətrafındakı Əştərək, Qarabağlar, Qəmərli, Vedi, Zəngibasar, Hoktemberyan, Eçmiədzin rayonlarının və Arpa-Sevan xətti ətrafında yerləşən rayonların azərbaycanlılar yaşayan münbit torpaqları ermənilərin əlinə keçdi. Ermənilər Türkiyə ilə sərhəd boyunca yerləşən Vedi, Zəngibasar, Hoktemberyan rayonlarının azərbaycanlı əhalisini köçürməklə, özləri üçün "etibarlı sərhəd zolağı" təmin etdilər.

Əgər 1915-1920-ci illərdə azərbaycanlı əhali Ermənistanda soyqırıma, 1930-37-ci illərdə repressiyaya məruz qalmasaydı, 1948-1953-cü illərdə 150 minə yaxın əhali deportasiya edilərək, Azərbaycana köçürülməsəydi və bu köçürülmə ilə yanaşı mədəni-maarif ocaqları bağlanmasaydı, rəhbər kadrlar sıxışdırılıb çıxarılmasaydı, azərbaycanlı əhalinin yüksək təbii artımı nəticəsində 80-ci illərin sonunda Ermənistanda azərbaycanlıların sayı ermənilərin sayına nisbətən çoxluq təşkil edəcəkdi.

Hələ 1930-cu ildə Ermənistanda yeni inzibati-ərazi bölgüsünə keçirilərkən 25 inzibati rayon yaradılmışdı. Həmin vaxt bu rayonların üçdə birində rəhbər vəzifələrdə (raykomun birinci katibləri, icraiyyə komitələrinin sədrləri, prokurorlar, məhkəmə sədrləri və s.) azərbaycanlılar işləyirdilər. 1937-ci ildə Ermənistanın inzibati-ərazi bölgüsünə dəyişiklik edilmiş, əlavə olaraq, daha 7 rayon yaradılmışdı. Rayonlar bölünən zaman azərbaycanlı rəhbər kadrlar ermənilərlə əvəz edilmişdi. Daha sonralar yeni 5 rayon da

yaradılaraq rayonların sayı 37-yə çatdırılmışdı. Lakin cəmisi üç rayonda (Amasiya, Basarkeçər və Krasnoselsk) birinci katib və yaxud icraiyyə komitəsinin sədri vəzifəsində azərbaycanlılar işləyirdilər.

Ermənistandan azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar olaraq Ermənistan mətbuatı, xüsusən də "Sovet Ermənistanı" qəzeti heç bir iz buraxmamışdır. "Sovet Ermənistanı" qəzetinin 1948-1953-cü illər səhifələrindən yalnız onu müşahidə etmək olur ki, kəndlərdə əhalinin milli tərkibi tədricən dəyişir, rəhbər kadrlar ermənilərlə əvəz olunur, azərbaycanlı kəndləri tədricən erməni kəndlərinə çevrilir.

Ümumiyyətlə, Sovet təbliğatı nəticəsində 1946-1950-ci illərdə 15 xarici ölkədən Ermənistana təqribən 150 min erməni köçürülüb gətirilmişdi. Xaricdən gələn ermənilərə Ermənistanda ikinci dərəcəli vətəndaşlar kimi baxırdılar. "Qaxdağan" (yəni köçgün - N. M.) adlandırılan xaricdən gələn ermənilərlə yerli ermənilər qohum olmaq istəmirdilər. "Qaxdağan"lara yüksək vəzifələr etibar edilmirdi. Onlar İkinci Dünya müharibəsindən ac-yalavac çıxan SSRİ kimi bir ölkəyə köçmələrinə peşman olmuşdular. Yağlı vədlərlə xaricdən gətirilən ermənilər Ermənistanda quru çörək üçün saatlarla növbə gözləyirdilər. Aldandıqlarını görən "qaxdağan" ermənilər gəldikləri ölkələrə qayıtmaq istəyirdilər. Lakin onların qayıtmalarına icazə verilmirdi. Keçmiş SSRİ ərazisində ilk dəfə olaraq 1956-cı il mayın 24-də etiraz mitinqləri keçirilmişdi. Fransadan gətirilən ermənilər həmin gün Fransanın xarici işlər nazirinin İrəvana gəlməsi münasibətilə İrəvanda etiraz mitinqləri keçirmiş, yenidən Fransaya qaytarılmalarını tələb etmişdilər. 1958-ci ildə Fransa prezidentinin SSRİ-yə gəlməsi zamanı da İrəvanda nümayişlər təşkil edilmişdi. Bundan sonra Fransa ermənilərinə geri qayıtmağa icazə verilmişdi. 50-ci illərin sonlarında xaricdən gələn ermənilər kütləvi surətdə geri qayıtmağa başlamışdılar.

Ermənistan rəhbərlərinin deportasiya edilmiş azərbaycanlı kəndlərində xaricdən gətirilən ermənilərin məskunlaşdırılması planı baş tutmadı. Xaricdən gələn ermənilər bir qayda olaraq, şəhərlərdə

və yaxud xüsusi olaraq onlar üçün salınmış şəhər tipli qəsəbələrdə məskunlaşırdılar. Nəinki 1948-53-cü illərdə və bundan sonrakı illərdə Ermənistandan deportasiya olunmuş azərbaycanlı kəndləri, üstəlik Ermənistanın dağlıq rayonlarının bir çox erməni yaşayış məntəqələri də boşalmışdı. Ermənistan KP MK-nın 1975-ci il yanvar plenumunda 476 kəndin boş qaldığı qeyd edilmişdi. Bu, Ermənistanda mövcud yaşayış məntəqələrinin üçdə birindən çoxunun xaraba qalması demək idi. Bütün bunlar o nəticəyə gəlməyə əsas verir ki, Sovet hakimiyyəti illərində Ermənistan rəhbərləri Azərbaycanlılar yaşamaqdansa, kəndlərin xaraba qalmasını üstün tutmuşlar.

XX əsrin 40-50-ci illərində Ermənistandan azərbaycanlıların respressiyaya məruz qoyularaq deportasiya edilməsi prosesi ilə bağlı materiallar "məxfi" qrifi altında saxlandığı üçün SSRİ dövründə tədqiq edilməmişdir. SSRİ Ali Soveti 1989-cu il noyabrın 14-də "Zorla köçürülmüş xalqlara qarşı repressiya tədbirlərinin qanunsuz və cinayətkar tədbirlər hesab edilməsi və onların hüquqlarının təmin olunması haqqında" bəyannamə və SSRİ Nazirlər Soveti buna müvafiq olaraq xüsusi qərar qəbul etmişdir. Həmin bəyannamədə bütöv xalqları zorla köçürmək praktikası beynəlxalq hüququn əsaslarına, sosializm quruluşunun humanist təbiətinə zidd olan ən ağır cinayət kimi qətiyyətlə pislənmiş, repressiyaya məruz qalmış bütün Sovet xalqlarının hüquqlarının bərpası üçün müvafiq qanunvericilik tədbirlərinin görülməsi zəruri hesab edilmişdi. SSRİ Ali Sovetinin 1991-ci il 14 mart tarixli qərarı ilə repressiya olunmuş xalqların qanuni hüquqlarının bərpa edilməsi haqqında qərar qəbul etmişdir. Lakin adları çəkilən sənədlərdə deportasiya olunmuş xalqların sırasında Ermənistandan deportasiya olunan azərbaycanlıların adı çəkilməmişdir. Ona görə də indiki Ermənistan ərazisindən deportasiya edilmiş soydaşlarımızın öz tarixi vətənlərinə qayıtmaq hüququ tanınmadı və xalqımıza qarşı edilən tarixi ədalətsizlik bərpa olunmadı. Bu, keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı qərəzli münasibətindən irəli gəlirdi.

Tədqiqatçılardan Ataxan Paşayev, Bəxtiyar Nəcəfov, Cəmil Həsənli, Lətifə Həsənova, Əsəd Qurbanlı və başqaları azərbaycanlıların Ermənistandan deportasiyasının səbəblərini, faciənin miqyasını və onun nəticələrini xronoloji çərçivədə araşdırmışlar. Bu məqalənin yazılmasında adı çəkilən tarixçilərin araşdırmalarından da istifadə edilmişdir.

Prezident Heydər Əliyevin 18 dekabr 1997-ci ildə imzaladığı "***1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dəki tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında***" fərman xalqımıza qarşı siyasi qərarla həyata keçirilən bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması məqsədini daşıyırdı. Cəmisi iki bənddən ibarət olan bu fərmanın 1-ci bəndinə əsasən 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyanın hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə dövlət komissiyası yaradılmışdır. Sənədin 2-ci bəndində isə Nazirlər Kabinetinə tapşırılır ki, fərmanın icrası ilə bağlı məsələləri həll etsin. Çox təəssüf ki, indiyədək bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi məsələsi həll edilməmişdir. Beynəlxalq ictimaiyyət hələ də Azərbaycan xalqının başına gətirilən bu faciənin miqyasından xəbərsizdir. Təkcə onu qeyd etmək kifayətdir ki, Sovet hakimiyyəti illərində repressiyaya məruz qalan xalqlar haqqında son dövrlərdə Rusiyada çoxlu tədqiqat əsərləri yazılmışdır. Lakin azərbaycanlıların Ermənistandan 1948-1953-cü illər deportasiyası faktı hələ də rusiyalı tədqiqatçıların əsərlərində özünə yer tapmamışdır. Sovet hakimiyyəti illərində xalqların repressiyası və deportasiyaları tarixini ən xırda detallarına qədər araşdıran demoqraf, professor Pavel Polyan (milliyyətcə erməni deyil - N.M.) müəyyən etmişdir ki, SSRİ məkanında 110 deportasiya əməliyyatı həyata keçirilmişdir. O, həmin əməliyyatlardan miqyasına görə seçilən 47-sinin siyahısını

təqdim etmişdir. Həmin siyahıya 1938-ci ildə Cənubi Azərbaycandan olan soydaşlarımızın (siyahıda "iranlılar" kimi təsnif edilir - N.M.), İran inqilabı yatırıldıqdan sonra öz dəstəsi ilə bir müddət Azərbaycanda yerləşən Mustafa Bərzaninin kürd silahlı dəstəsinin 1948-ci ildə deportasiyası faktı daxil edilsə də, Ermənistandan soydaşlarımızın 1948-1953-cü illər deportasiyası faktı daxil edilməyib. Bu, o deməkdir ki, biz hələ də öz həqiqətlərimizi dünya ictimaiyyətinə çatdıra bilməmişik. Ermənilərin yalanları isə hər yerdə ayaq açıb yeriyir.

Azərbaycan xalqına qarşı həyata keçirilmiş bu tarixi cinayətə, etnik təmizləmə aksiyasına hüquqi-siyasi qiymət verilməsi üçün o vaxt qəbul edilmiş normativ sənədlər (Ümumittifaq əhəmiyyətli normativ və qanunvericilik aktları, Sovet hökumətinin, Kommunist Partiyasının qərarları, Respublika KP MK-nın və Nazirlər Sovetinin və digər icra orqanlarının qərarları, SSRİ Nazirlər Soveti Yanında Baş Köçürmə İdarəsinin və Azərbaycan SSR Köçürmə İdarəsinin arxivlərində saxlanılan fondların materialları, hesabatlar və s.), deportasiya olunanların əhval-ruhiyyəsi ilə bağlı "NKVD" və "KQB"-yə daxil olan məlumatlar, müraciətlər, yazışmalar və s., rayon arxivlərində saxlanılan sənədlər, deportasiya olunanların yazdıqları şikayət ərizələri və s. diqqətlə saf-çürük edilməli, sistemləşdirilərək sənədlər topluları şəklində çap edilməlidir. Dövlət Kino-Foto Sənədləri Arxivində saxlanılan materiallar və canlı şahidlərin ifadələri əsasında sənədli filmlər serialları çəkib dünyaya nümayiş etdirilməlidir. Yeni məskunlaşma yerlərində soydaşlarımızın üzləşdikləri humanitar fəlakət ayrı-ayrı aspektlər üzrə elmi-tədqiqat dövriyyəsinə daxil edilməlidir.

Prezident Heydər Əliyevin 26 mart 1998-ci il tarixli ***"Azərbaycanlıların soyqırımı haqqında"*** Fərmanının imzalanmasından sonra 31 mart 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi xüsusi sessiya keçirmiş, azərbaycanlılara qarşı soyqırımların cəzasız qalmasını və bu barədə beynəlxalq ictimaiyyətdə məlumatın olmamasını nəzərə alaraq beynəlxalq

təşkilatlara müraciət etmişdir ki, XIX-XX əsrlərdə erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı törətdikləri soyqırım cinayətini tanısınlar. Analoji addım "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı ilə bağlı da atılmalıdır.

Azərbaycan tarixinin qara hərflərlə yazılan bu səhifəsi də kompleks şəkildə tədqiq edilməli və araşdırmaların nəticələri müxtəlif dillərə tərcümə edilərək dünya ictimaiyyətinin nəzərinə çatdırılmalıdır.

**Nazim MUSTAFA,**
**AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi.**

**7.01.2009**

# İnsanlığa qarşı yönəlmiş dəhşətli cinayət

Azərbaycan dövləti erməni şovinistlərinin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir. Məqsəd tarixi ədalətin bərpasına nail olmaq, cinayətkarları ifşa etmək və onları dünya ictimaiyyətinin mühakiməsinə verməkdir. 20 il öncə Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olan Xocalıda baş verənlərlə bağlı həmin dövrdə Xocalıda icra hakimiyyətinin başçısı vəzifəsində işləyən, hazırda Milli Məclisin deputatı olan **Elman Məmmədovla** görüşüb söhbətləşdik.

**- Xocalı faciəsindən 20 il ötür. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ən ağır zərbə məhz Xocalıya vuruldu, soyqırımı aktı bu şəhərdə həyata keçirildi. Ötən 20 ildə Xocalı yarasının ağrıları azalıbmı?**

- Xeyr, Xocalıda 1988-1992-ci illərdə baş verən hadisələr heç vaxt unudulmayacaq. Çünki bu faciə hər bir xocalılının, hər bir azərbaycanlının qanına, canına hopub. 1988-ci ildən 1992-ci ilə qədər olan dövrün hər bir anını, saniyəsini yaşamışam. Mənim yaşantılarım bu gün evimin dörd divarına həkk olub. Hər dəfə müxtəlif istiqamətlərdə cəbhə bölgəsinə yaxınlaşanda Xocalıdan çıxarkən gəldiyimiz dağlara baxıram və həmin vaxt baş verən müdhiş anları yenidən xatırlayıram. Bu elə bir dəhşətli zərbədir ki, günü-gündən insana daha ağır təsir edir. Yadına düşəndə ki, 20 ildir Xocalısız qalmısan, çox kədərlənirsən, ağrıyırsan.

Ermənilər tərəfindən Xocalının işğalının çox ciddi səbəbləri var idi. Əvvəla, Xocalının yerləşdiyi coğrafi mövqe ermənilərin

strateji maraqlarının həyata keçirilməsində onlara çox gərəkli idi. Bakıdan qərb istiqamətində gedəndə Xocalıya qədər Ağdamdır. Ağdamdan şose yolu ilə Xocalıya 16 kilometrlik məsafədir. Ancaq bu 16 kilometr arasında 11 kilometr qərb tərəfdə Əsgəran qalasıdır. Əsgəran zolağı boyunca erməni kəndləri yerləşir ki, məkrli duşmənlərimiz burada azərbaycanlılar qarşısında cəbhə xətti yaratmışdılar. Xocalıdan 10 kilometr qərbə isə Xankəndi şəhəridir və Xocalının ətrafı yenə də erməni kəndləridir. Qeyd edim ki, orada elə bir azərbaycanlı yaşayış məskəni yoxdur ki, iki erməni kəndini keçməmiş ora gedə biləsən. Xocalı tamamilə erməni yaşayış məntəqələrinin əhatəsində idi. Bizə ən yaxın olanı isə Şuşanun Malıbəyli və Quşçular kəndi idi. Xocalı ilə bu kəndlər arasında olan yaşayış məntəqələrində ermənilər yerləşmişdilər. Digər yaxın kənd isə Cəmilli kəndi idi və ora getmək üçün yenə də ən azı iki erməni kəndindən keçməli olurdun. Eyni zamanda, Xocalı düşmən kəndləri arxasında yerləşirdi. Düşmən Ağdama hücum etmək istəyərkən arxada olan Xocalı özünümüdafiə dəstələrindən qorxurdu. Xocalı Bakı-Ağdam-Laçın-Şuşa magistral yolunun üstündə idi. Dağlıq Qarabağda yeganə hava limanı da məhz Xocalıda yerləşirdi. Hava limanı yaşadığım evdən 500 metr aralıdaydı. Üstəlik Bakıdan Xankəndiyə gedən dəmir yolu da Xocalıdan keçirdi. Biz Xocalıda elə bir müdafiə sistemi yaratmışdıq ki, istədiyimiz vaxt bu yolları bağlayırdıq. Həmin yollar bağlananda Xankəndidən Əsgərana avtomobillə 40 kilometrdən çox məsafə qət etmək tələb olunurdu. Xocalı bu strateji mövqeyinə görə düşmənin əsas hədəflərindən birinə çevrilmişdi.

Xocalı işğal edildiyi gecəyə qədər düşmən qüvvələrlə mübarizə apardı. Qeyd edim ki, ermənilərə ilk zərbəni də məhz Xocalı vurmuşdu. 1988-ci il sentyabrın 18-i bazar günü idi. Ermənilər Xankəndidəki meydanda mitinq keçirirdilər. Mitinqdə qərar vermişdilər ki, Xocalı dağıdılmalı və əhali oradan çıxarılmalıdır. Təxminən 10-12 min erməni həmin vaxt Xocalının

üstünə gəlmişdi. Xocalılılarda həmin vaxt cəmi 20 ov tüfəngi var idi. Dəhrə, yaba, balta - kimin əlinə nə keçdi, götürüb özünümüdafiəyə qalxmışdı. O zaman Əsgəranda SSRİ DİN-in daxili qoşunlarının bir hissəsi yerləşirdi və bizimlə onlar arasında 5 kilometr məsafə vardı. Ermənilərin hücuma keçdiklərindən xəbər tutanda Əsgəranın polis şöbəsinə təcili məlumat verdik ki, bizə kömək edin. Həmin vaxt daxili qoşunların əsgərləri yaxın 5 kilomertlik yolla deyil, Xankəndidən keçməklə bizə tərəf gəlmişdilər. Bu da iki saatdan çox vaxt aparmışdı. Həmin müddətdə Xocalı əvvəlcə müdafiə olundu, sonra isə hücuma keçdi və 10-12 min nəfər erməni geri qaçmağa başladı. O vaxt ermənilər qaçanda xeyli itki vermişdilər. Sonradan məlum oldu ki, hücumda iştirak edənlərin əksəriyyəti Ermənistanın həbsxanalarından çıxarılmış xüsusi residivist dəstələrdir və onlar bir neçə ay hərbi təlim keçiblər. Hamısı boz kostyumda idi. Səhəri gün Zori Balayan bir qrup həkimlə gəlib Xocalı hava limanına endi. Həmin vaxt aereport rusların və ermənilərin nəzarətində idi. O vaxtkı Azərbaycan rəhbərliyi isə bizim köməyimizə üç gündən sonra gəldi. Erməni radiosu Zori Balayanın dilindən məlumat verdi ki, Xocalıdan 19 meyit aparmışıq. Xocalı ermənilərə ilk zərbəni həmin vaxt vurmuşdu. Hadisədən sonra Xocalı ermənilərin qənimınə çevrildi. Azərbaycandan Laçın və Şuşaya gedən yolu, belə demək mümkünsə, Xocalı işlədirdi. Yəni o yolun işləməsi xocalılılardan asılı idi. Ermənilər Əsgəranda Ağdam-Şuşa yolunu bağlayan kimi, Xocalı da adekvat addım atırdı. Elə olurdu ki, Yerevana gedən avtobusları üç gün buraxmırdıq. Məcbur olurdular bizimlə danışıqlar aparıb yolu açsınlar.

1992-ci il fevralın 9-da axşam saatlarında vertolyotla Ağdama uçdum və oradan da başqa bir vertolyotla Bakıya gəldim. Səhərisi gün Müdafiə Nazirliyinə gedib qərargah rəisi Dadaş Rzayevlə görüşdüm. Onun otağında polkovnik Arif Salahov da var idi. Onların iştirakı ilə böyük əməliyyat xəritəsini açdıq. Həmin xəritədə mən bütün cığırları belə göstərdim. Bildirdim ki, əlverişli

məqam var. Əgər Azərbaycan cəld hərəkət edib Ağdamda olan qüvvələrlə Əsgəran zolağını vurub, o qüvvələri gətirib Xocalıda yerləşdirsə, Xankəndi bizim olacaq və bununla da Qarabağ məsələsində Azərbaycanın qələbəsi təmin ediləcək! Çünki Xankəndi qalacaq ortada. Yüksəklikdən Şuşa, aşağı tərəfdən isə Xocalı hücum edib düşməni məhv edəcək. Əgər geciksək, ermənilər Xocalını alıb Xankəndidə olan qüvvələri Əsgəran zolağına keçirəcək, bununla da Qarabağ məsələsi onların xeyrinə həllini tapacaq.

1996-cı ildə ulu öndər Heydər Əliyev xocalılıları qəbul edən zaman mən orada bir saatdan artıq çıxış etdim. Çıxışıma cavab olaraq bir həftədən sonra məni rəhbərliyə çağırdılar və qabağıma bir qəzet qoydular. Qəzetin adı "Naqornıy Karabax" idi. Bu qəzetdə Levon Məlik Şahnazaryan Moskvada mənim çıxışıma cavab yazmışdı. Yazısının başlığı isə belə idi: "Dağlıq Qarabağın xalq azadlıq ordusu Xocalını azad edib". Guya biz "işğal" etmişdik və onlar Xocalını azad ediblər. Sonra Şahnazaryan deyir ki, 1992-ci ildə hərbçilərin yığıncağında iştirak edib. Orada belə bir məsələ səslənib ki, əgər Azərbaycan bizdən öncə Əsgəranı alıb qüvvələri Xocalıya keçirsə, bizi məhv edəcəklər. Ancaq biz əminik ki, Azərbaycan bunu etməyəcək. Çünki bu ölkənin başı hazırda hakimiyyət davasına qarışıb. Ona görə biz Azərbaycandan qabaq Xocalını türklərdən azad elədik və qüvvələrimizi Əsgərana keçirərək qələbəmizi təmin etdik.

**- Xocalı faciəsi həddindən artıq qəddarlıqla törədilib, xüsusi amansızlıq olub. Doğrudur, digər kəndlərdə, rayonlarda da qırğınlar baş verib. Amma nədən məhz Xocalıda belə amansızcasına qətliam törədildi?**

- Ermənilərlə türklər arasında olan tarixi hadisələrin xronikasına nəzər salsaq, bir daha görərik ki, bütün tarixi dönəmlərdə ermənilər türklərə və azərbaycanlılara qarşı həmişə son dərəcə amansız, qəddar olublar. Bu, türk toplumuna qarşı yönəlmiş bir faşizmdir!

Onlar türkün ölüsündən də qisas alıblar. Əlsiz-ayaqsız insanlara, qadına, körpə uşaqlara qarşı amansız olublar. Xocalıda bu qəddarlıq özünü bir daha göstərdi. Bu, ermənilərin vəhşi hərbi taktikasıdır. Onlar əhali arasında vahimə, qorxu yaratmaq üçün bu cür qəddar üsullara əl atırdılar. Mən anamın cəsədini qırğın yerindən 20 gündən sonra çıxartdım. Axırıncı 36 şəhidin cəsədi meşədən hadisədən xeyli sonra - mart ayının 16-da çıxarıldı. Meyitlər tanınmaz halda idi. Anamın meyitini zorla tanıya bildim. Gecə əynində olan paltarları yadımda qalmasaydı, bəlkə heç meyiti tanımayacaqdım. İlkin görüntülərdə insanların hansı vəziyyətə salındığının kadrları da var. Bir gündən sonra belə ölmüş insanların cəsədləri üzərində vandalizm aktı törədilib. Meyitlərin başının dərisini soymaq, gözünü çıxarmaq, qulaq-burnunu kəsmək, bir-birinin üstünə yığaraq yandırmaqdan belə çəkinməyiblər. Yaralılara ölənə qədər olmazın zülm veriblər, çaydan keçmək üçün meyitlərdən "körpü" düzəldiblər. Hələ ölməmiş uşağı meyitlərin üstünə ataraq od vurub yandırıblar. Bunu orada iştirak etmiş Xeyriyan adlı Livan ermənisi xatirələrində yazır. Bunlar hamısı erməni yazıçılarının yazdıqları kitablarda da öz əksini tapıb.

"Böyük Ermənistan" ideyasının əsas ideoloqlarından biri olan Zori Balayanın Xocalı soyqırımında birbaşa iştirakını təsdiqləyən faktlar mövcuddur. Zori Balayan 1996-cı ildə dərc olunmuş "Ruhumuzun canlanması" adlı kitabında Xocalıda baş verən soyqırımı barədə qeyd edir: *"Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra bu uşağın başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum xalqımın bir faizinin belə qisasını aldığı üçün sevincindən qürurlanırdı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni vətənsevər kimi öz vəzifəmi yerinə yetirdim".*

Onların Xocalıda törətdikləri vəhşilikləri Roma kilsəsi də alqışlamış və bunu xaçın qələbəsi kimi təqdim etmişdi.

**- Qeyd etdiniz ki, yolları bağlayırdıq və Xankəndidən Əsgərana gediş-gəliş çətinləşirdi. Bunu hansı qüvvələrin vasitəsilə həyata keçirirdiniz və Xocalının müdafiəsi necə qurulmuşdu?**

- Xocalının müdafiəsində yerli əhalidən başqa Azərbaycanın müxtəlif bölgələrindən gəlmiş 21 nəfərdən ibarət döyüşçü də var idi. Bu dəstəyə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adını almış leytenant Aqil Quliyev rəhbərlik edirdi. Həmin 21 nəfərin də 5 nəfəri müəyyən səbəblərə görə yanvar ayında Xocalını tərk etdi. Bu dəstədə 12 nəfər sonadək mübarizə apararaq başda Aqil Quliyev olmaqla qəhrəmanlıqla şəhid oldular. Onlardan 4-ü isə sağ qaldı. Digər müdafiəçilərə gəldikdə isə, onlar - 817 saylı Xocalı ərazi özünümüdafiə taboru idi. Bu taborun xocalılılardan ibarət 200-dək döyüşçüsü vardı. Ancaq onların 1 nəfəri də hərbçi deyildi. Bu taboru da silah-sursatla tam təmin edə bilməmişdik. Taborda olan ən ağır atıcı silahımız 2 dənə 12,7 çaplı DŞK pulemyotu, 4 əl pulemyotu, 2 əl qumbaraatanı idi. Qalanları isə avtomat, tapança və ov tüfəngi ilə silahlanmışdı. Xocalının müdafiəsində hava limanının 25 nəfərdən ibarət polisi, 50 nəfər isə Xocalı polisi də var idi. Ümumilikdə 300 nəfərə yaxın döyüşçü Xocalını müdafiə edirdi. Mən o zaman 5 nəfərdən ibarət gizli bir komitə yaratmışdım (1988-ci il - E.M.). Gizli ona görə ki, həmin vaxt hələ sovet hökuməti, DTK var idi. Onun adını Xocalını Müdafiə Komitəsi qoymuşdum. İndi o 5 nəfərdən 3-ü sağdır.

Yavər Əzimov və Ələsgər Novruzov vəfat ediblər. Sağ qalanlar isə Xocalının həkimi, hazırda Daxili İşlər Nazirliyinin pansionatının rəisi polkovnik Eldəniz Allahverdiyev, Xocalı Təhsil Şöbəsinin müdiri Murad Şükürov və bir də mənəm. Biz o vaxt fikirləşib Xocalıda müdafiə sistemi qurmuşduq. Şəhəri dairəvi şəkildə, hər tərəfdən müdafiə edirdik. 32 müdafiə postu qurulmuşdu.

Xocalıda vəziyyətin gündən-günə pisləşdiyini gördüyümdən Müdafiə Nazirliyinə dayanmadan müraciət edirdim ki, heç olmasa bizə bircə nəfər hərbi təhsili olan mütəxəssis göndərin. Amma göndərmirdilər. Xocalı 300 nəfərlə müdafiə olunurdu.

**- Xocalıya qarşı əməliyyat necə hazırlandı, qüvvələr nisbəti necə idi, orada kimlər iştirak edirdi və hansı silahlardan istifadə olunurdu?**

- Xocalıda olan öz qüvvələrimizi qeyd etdim. Bizə qarşı olan düşmən qüvvələri isə dəfələrlə güclü idi. Bu istintaq mareriallları ilə də tam təsdiqini tapıb. Rus hərbi jurnalisti olan Viktoriya İveleva Xocalıya hücum ərəfəsində və hücum zamanı orada olub. O, xatirələrində yazır ki, Xocalıya hücumda mən də iştirak edirdim və hücumu belə qiymətləndirir: "Ön sırada 366-cı motoatıcı alayın bütün hərbi texnikası gəlirdi. Hərbi texnikanın ardınca alayın canlı qüvvəsi, üçüncü sırada isə erməni cəza dəstələri gəlirdi. Biz də - jurnalistlər, həkimlər onlardan arxada gəlirdik".

Xocalıda baş verənlərin soyqırımı olduğunu həmin dövrdə bir sıra ölkələrin aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri də təsdiqləmişlər. Bu baxımdan faciə baş verən gün Xankəndidə ezamiyyətdə olmuş Fransanın **"Libardion"** qəzetinin əməkdaşı Jül Gen Vaynerin qeydləri xüsusi maraq doğurur. Xocalı soyqırımını qorxulu yuxuya bənzədən Vayner jurnalistika ilə məşğul olduğu 25 il ərzində müharibələrin getdiyi çoxlu müxtəlif ölkələrdə olduğunu, lakin Xocalı şəhərindəki kimi dəhşətli və tükürpədici mənzərələrlə rastlaşmadığını yazmışdır. Jurnalist "Libardion" qəzetində çap etdirdiyi "Erməni terrorizminin canlı şahidi oldum" sərlövhəli yazıda Xocalıda baş verənlərin qabaqcadan cızılan senari olduğunu açıq bəyan etmişdir. Onun fikrincə, bunda məqsəd bütövlükdə bəşəriyyətin gözünü qorxutmaq olmuş, erməni terrorizmi dünyanı məhz bu yolla "ram etməyə" çalışmışdır. Fransalı müxbir Xocalı qətliamında iştirak edən erməni terror dəstələrinin necə amansızlıq etdiklərinin canlı

şahidi olduğunu yazmışdır. Mənfur Sovet ordusunun 366-cı motoatıcı alayının ermənilərlə birgə Xocalı üzərinə hücumundan bir gün əvvəl Xankəndidə bu alayın qərargahında olan Vayner orada rus polkovniki Zaviqarovun əməliyyata ciddi hazırlaşdığının şahidi olduğunu göstərmişdir: "Hələ Xocalı işğal edilməmişdən bir gün əvvəl 49 azərbaycanlı əsir alınaraq kütləvi şəkildə güllələndi. Batalyon və hərbi hissələrin komandirləri dinc əhalinin məhvinə qərar vermişdilər. Hücumdan bir neçə saat əvvəl 366-cı alayın qərargahında 58 azərbaycanlı qətlə yetirildi. Onların çoxu qadın və uşaqlar idi. Cəsədlərin gömüldüyü quyuların yanından keçmək mümkün deyildi. Çünki oradan dəhşətli dərəcədə meyit iyi gəlir, itlərin, çaqqalların səsləri eşidilirdi", - deyə müşahidələrini obyektiv şəkildə qeydə almış fransalı jurnalist Xocalıya hücum ərəfəsində Ermənistanın hakimiyyət orqanları rəhbərlərinin 366-cı motoatıcı alayın qərargahında olduğunu da vurğulamışdır.

"Xocalının işğalına dair istintaq materialları"nda göstərilir ki, hücumda mayor Ohanyan Seyran Muşeqoviçin komandanlığı altında 366-cı alayın 2-ci batalyonu, Üevgeni Nabokixinin komandası altında 3-cü batalyonun, 1 saylı batalyonun qərargah rəisi Çitçyan Valeriysayeviç və alayda xidmət edən 50-dən artıq erməni zabit və gizir iştirak etmişdir. Bundan əlavə, hər erməni kəndinin özünün müdafiə dəstəsi, qondarma "Dağlıq Qarabağ respublikası" adlandırılan qurumun özünün ordusu və Ermənistandan gələn ordu da iştirak edirdi.

Xocalıya hücum planı hərbin bütün qaydalarına əsaslanaraq hazırlanmışdı. Bir məlumata görə, bu plan 366-cı alayın qərargahında işlənib, ancaq sonrakı dəqiq məlumat belədir ki, plan hazırlanaraq qərargaha göndərilib. Planın Tbilisidə yerləşən 4-cü ordunun qərargahında hazırlandığı bildirilir. 366-cı alayın komandiri polkovnik-leytenant Zarviqarova həmin gecə - hücum başlamamışdan bir saat əvvəl zəng edərək təbrik ediblər ki, sən artıq generalsan. Bildirilib ki, general rütbəsini ona görə veririk ki,

Xocalıya hücumu uğurla başa çatdırasan. Bunu həmin dövrdə orada olan rus polkovniki Savelyev də xatirələrində yazıb. Məsələ burasındadır ki, fevralın 25-də səhər tezdən Zaqafqaziya hərbi dairəsi üzrə "komanda 1" elan olunub. Yəni "1 nömrəli hazırlıq komandası" verilib və Azərbaycan ərazisində bütün rus hərbi hissələrində qulluq edənlərin ailələrini (kənarda yaşayanları) gətirib təhlükəsizlik baxımından hərbi hissənin ərazisinə yerləşdiriblər. Bu ondan xəbər verir ki, artıq Moskva bilirdi ki, Xocalıya hücum olacaq və plan təsdiq edilib. Hücuma gəldikdə isə, Sovet ordusuna məxsus bütün texnika 366-cı motoatıcı alayda var idi. Reaktiv qurğulardan tutmuş bütün ağır və yüngül texnika həmin gecə Xocalıya hücuma keçmişdi. Böyük bir hərbi arsenal əliyalın Xocalının üstünə gəlmişdi.

**- Deyirsiniz ki, 366-cı motoatıcı alayın bütün silahlı texnikası və əlavə qüvvələr Xocalı ətrafına yığılmışdı. Bəs siz həmin günü hücum olacağını bilirdinizmi?**

- Bütövlükdə Xocalıya nə vaxtsa hücum olacağını bilirdik, amma konkret həmin günü yox. Həmin gün axşam yuxarı postdan məlumat gəldi ki, bizə tərəf hərbi texnika irəliləyir. Aqil Quliyevin postu şose yolunun üstündə idi. İlk döyüş orada başladı. Tanklar postu darmadağın etdilər. Milli Qəhrəmanın dəstəsi orada qəhrəmancasına döyüşərək həlak oldu. Onda mən komanda verdim ki, nə qədər ehtiyatda olan qüvvə varsa, hamı səngərlərə yığışsın. Bu mühasirə halqası iki saatdan çox davam etdi. Hücumu saniyəsinə qədər dəqiqləşdirmişdilər. Saat 23.00 radələrində bütün silah növlərindən necə atəş başladısa, yer-göy lərzəyə gəldi. İnsan qışğırığı qulaq batırırdı. Xocalı bu cür qüvvənin qarşısında aciz idi. Təxminən gecə saat 3 radələrinə qədər müqavimət göstərdik. Ondan sonra əhali şəhəri tərk etməyə başladı. Xocalı şəhərini öncə texnika göyə sovurdu, arxasınca isə canlı qüvvə insanlara divan tutdu.

**- Siz hadisələrin qaynağında idiniz. Ermənilər Xocalını yerlə yeksan edib sonra həmin mövqeyi ələ alaraq Dağlıq Qarabağı tam işğal etmək niyyətində idilər. Bununla əlaqədar o vaxtkı respublika rəhbərliyinə, eləcə də müvafiq qurumlara məlumat verirdinizmi və nədən köməyinizə kimsə gəlmədi, əlavə qüvvə göndərilmədi?**

- Bu məsələlər 1988-ci ilin fevralında başlamışdı. Bu müddət ərzində Xocalı dəfələrlə mühasirədə qaldı, blokada şəraitində yaşadı. 1991-ci ilin noyabrında isə Xocalının yolu birdəfəlik bağlandı. Oktyabrın 30-dan noyabrın 1-nə keçən gecə Bakıdan Ağdama gedəndə məni saxladılar ki, o tərəfə keçmə. Əsgəranda bir maşın vurublar və yenə pusquda dayanıblar. Sizi də vuracaqlar. Amma mən maşını sürərək keçib getdim. Gecə idi. Əsgəranın içərisində yavaş-yavaş maşınla irəliləyirdik. Birdən gördüm ki, yuxarı tərəfdən traktor üstümüzə gəlir. Mən cəld tərpənib maşını səki ilə sürdüm və əllərindən birtəhər qurtulduq. Traktorla qabağımızı kəsib bizi tutmaq istədilər. Qalanı zorla keçdik. Həmin gündən Xocalının Azərbaycanla olan maşın yolu əlaqəsi kəsildi. Respublika rəhbərliyinin bizə köməyi sıfır dərəcəsində idi. Xocalı 3-4 gün mühasirədə qalsaydı, deyərdik ki, xəbər tutmayıblar. Amma bu mühasirə 4 ay davam etdi. 1991-ci il noyabrın 1-dən 1992-ci il fevralın 25-nə qədər. Mən deputat deyildim. Amma gəlirdim, zorla Ali Sovetin iclas zalına daxil olurdum. Neçə dəfə çıxış etmişəm. Hətta bəzilərini təhqir də etmişəm, yalvarmışam. Xocalı camaatı adından Prezident Aparatına, Ali Sovetə, Müdafiə Nazirliyinə müraciətlər etmişəm, teleqramlar vurmuşam. Yalvarırdıq, xahiş edirdik ki, yolumuzu açın, kömək göndərin. O vaxt Bakıda vəzifə uğrunda qızğın mübarizə gedirdi. Mən Ali Sovetə gəldim və deputatlara müraciət etdim ki, Xocalıda insanlar qırılır, şəhəri məhv edəcəklər. Prezident Ayaz Mütəllibov da iclasda idi. Sual verdim ki, zalda əyləşənlərdən kimsə Dağlıq Qarabağda olan yaşayış məntəqələrinin birinin müdafiə imkanlarının nə dərəcədə olduğunu söyləyə bilərmi? Bir adam söz

demədi. "Demblok"dan Rəhim Qazıyev ayağa qalxıb dedi ki, mən bilirəm. Dedim, otur aşağı, sən də heç nə bilmirsən! Dağlıq Qarabağda vəziyyətin ağır olduğunu bildirsəm də, respublika rəhbərliyi konkret addım atmaq əvəzinə susmağı üstün tutdu. Ona görə də bu cür hadisələr baş verdi.

**- Azərbaycanın o vaxtkı rəhbərliyinin sizə qarşı mövqeyi bəlli idi. Xocalıya faktiki olaraq kömək göstərmirdilər. Xocalının işğalına dair istintaq materiallarında da göstərilir ki, MTN Xocalıda yaranmış gərgin durumla bağlı fevralın 14 və 16-da Müdafiə Nazirliyinə müraciət göndərib. Belə bir halda soyqırımının miqyasını azaltmaq üçün konkret nə iş görmək olardı?**

- Öz vətəninin, anasının qədrini bilən insan torpağın başının üstünü təhlükə alanda qaçmamalıdır. O, torpağını qorumalı, döyüşməli və orada da ölməlidir! Bizim bəxtimiz gətirdi ki, ölmədik! Təhlükəni ilk gündən görürdük. Ancaq o vaxtkı Azərbaycan rəhbərliyinə arxayın idik. Hər gün telefonla neçə dəfələrlə söz verirdilər ki, möhkəm dayanın, gəlirik, yolu açırıq. Bunlar istintaq materiallarında da əksini tapıb. Biz sübut etmişik və üzərində də durmuşuq ki, bizə söz verənlər kimlər olub. Fevralın 24-ü günü də söz verdilər ki, möhkəm durun, sabah gəlib çayımızı Xocalıda içəcəyik. Respublika rəhbərliyindən bir nəfər də demədi ki, başınızın çarəsini qılın, əhalini şəhərdən çıxarın. Biz özbaşına, respublika rəhbərliyinin xüsusi qərarı olmadan insanları köçürə bilməzdik. Əhalinin qırğından xilas olması üçün tədbirlər görmək mümkün idi. Ancaq bizə kömək gəlmirdi. Mən icazə vermişdim ki, kimin xəstəsi varsa, şəhərdən çıxarsın. Əhalinin bir qismi şəhərdən çıxmışdı. Axırıncı dəfə fevral ayının 13-də Ağdamdan Gəncənin hava limanına getdim. Abbas Abbasov, Eldar Həsənov, Dadaş Rzayev orada idilər. Dadaş Rzayev məni qucaqladı və dedi ki, hər şey danışılıb. Bir-iki günə hərbi texnika ilə Əsgəranda olan erməni qüvvələrini vuracağıq və qüvvələri keçirəcəyik Xocalıya. Sonradan

isə məlum oldu ki, həmin gün Dadaş Rzayevin Goranboya yerdəyişməsi ilə bağlı əmr veriblər. İki hərbi təyyarəni Xocalıya göndərdim. Onun ardınca isə Mİ-26 təyyarəsi ilə Xocalıya getdim. Qadın və uşaqları çıxarmağa başladıq. Adamlar həmin təyyarədə üst-üstə yığılmışdılar. İki dəfəyə 300-dək qadın və uşaq çıxardıq. Xocalıdan gizli yolla böyük insan kütləsini çıxarmaq mümkün deyildi. Ələ keçə bilərdilər. Həmin qırğının miqyasını azaltmaq isə mümkün idi. Birinci, Əsgəran zolağı Azərbaycan ordusu tərəfindən vurulub dağıdılmalı idi. Ağdamdakı 3 minə yaxın hərbi qüvvə Xocalıdan bütün mülki əhalini çıxara bilərdi. Digər bir yol o idi ki, ölkə rəhbəri Gəncəyə gedib rus hərbçilərinə yalvarmalı idi ki, vertolyotlarla heç olmasa mülki vətəndaşları oradan çıxarsınlar. Amma bu da baş vermədi. Qeyd edim ki, qadınların çoxu çıxmaq istəmirdi. Çünki onlar əlində silah səngərdə olan döyüşçülərin anaları, həyat yoldaşları idi! Uşaqlara dedim ki, mənim də anamı, yoldaşımı gətirin vertolyotla yola salaq. Heç biri gəlmədi. Anam dedi ki, oğlum, mən səndən çox yaşamışam, canım sənin canından əziz deyil ki! Bəs mən gedim, burada sənə kim yemək bişirsin, sizə kim baxsın?! Qonşu qadınlar da dedilər ki, biz sizdən artıq deyilik, balalarımız burada qırılacaq, biz də çıxıb gedəcəyik?! Heç ana da övladını atıb gedərmi?

Xocalılılar doğma şəhərləri üçün əllərindən gələni etdilər. Axır məqama qədər nəyə qadir idiksə, onu da etdik. Amma bizə kömək edən, yol göstərən olmadı, dadımıza çatan tapılmadı. Bizi aldadıb orada saxlamağın, qırğına verməyin məqsədi nə idi, - bunu bilmirəm. Mərkəzdə hakimiyyət davası gedirdi, Xocalı isə taleyin ümidinə buraxılmışdı.

**- Ölkəmizin milli maraqları tələb edir ki, tarixi faktları, şahid ifadələri, video və fotoçəkilişləri olan Xocalı faciəsinin soyqırımı kimi dünyada tanıdılması istiqamətində görülən işlərin miqyasını daha da artıraq. Bu istiqamətdə daha nə etmək tələb olunur?**

- Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də "Xocalı soyqırımı günü haqqında" xüsusi qərar qəbul etmiş, sənəddə hadisənin başvermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlanmışdır. Ümummilli liderin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 25 fevral 1997-ci il tarixli sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilir.

Ümumiyyətlə, Azərbaycan hökuməti Xocalı faciəsini soyqırımı kimi dəyərləndirərkən 9 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən 260 A saylı qətnamə ilə qəbul edilən "Soyqırımının qarşısının alınması və ona görə cəza" haqqında Konvensiyanı, keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının IV maddəsini, Ruanda üzrə Beynəlxalq Tribunalın Nizamnaməsinin I maddəsini, Beynəlxalq Cinayət Məhkəməsinin statusunu, həmçinin "Xocalı soyqırımı günü haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 24 fevral 1994-cü il tarixli qərarını, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il fərmanını və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü maddəsini əldə əsas tutur. Xocalı soyqırımı ilə bağlı Baş Prokurorluqda Cinayət Məcəlləsinin 103-cü (soyqırımı) və əhalini deportasiya etmə və ya məcburi köçürmə (107) maddələri ilə cinayət işinin istintaqı aparılır. İstintaq zamanı 280-ə yaxın erməni və rus millətindən olan şəxslərin təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunması barədə qərarlar çıxarılmış, barələrində həbs-qətimkan tədbiri seçilmiş və axtarışları ilə əlaqədar müvafiq sənədlər İnterpolun Azərbaycan Milli Bürosuna göndərilmişdir.

Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün hər il hökumət səviyyəsində müəyyən tədbirlər həyata keçirilir. Eyni zamanda, Milli Məclisin dünya parlamentlərinə müraciətində soyqırımı aktının real mahiyyəti, onun soyqırımı kimi tanıdılmasını

şərtləndirən amillər konkret faktlar əsasında əksini tapır. Xocalı faciəsi ilə bağlı Milli Məclis 75 müraciət, bəyanat və qərar qəbul edib. Bu baxımdan faciənin 15 illiyi ilə bağlı Milli Məclisin 2007-ci il 27 fevral tarixdə qəbul etdiyi bəyanatda deyilir: "Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla XX əsrin Xatın, Lidiçe, Babi Yar kimi dəhşətli faciələri ilə bir sırada dayanır. Xocalı soyqırımı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək məqsədi ilə Ermənistan Respublikasının apardığı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin miqyasına görə ən dəhşətlisidir. Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, Xocalı soyqırımı unudulmamalı, dünya birliyi tərəfindən beynəlxalq hüquqi qiymətini almalıdır. Faciənin ideoloqları, təşkilatçıları və icraçıları yaxalanaraq layiq olduqları cəzalara çatdırılmalıdırlar. Azərbaycan Respublikasının Milli Məclisi Birləşmiş Millətlər Təşkilatına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa Şurasına, Avropa Birliyinə, İslam Konfransı Təşkilatına, Müstəqil Dövlətlər Birliyinə, digər beynəlxalq təşkilatlara, dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə müraciət edir ki, erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş Xocalı soyqırımını tanısınlar və pisləsinlər, gələcəkdə bu cür cinayətlərin baş verməsinin qarşısını almaq üçün təsirli tədbirlər görsünlər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərinə, xüsusən onların arasında təməl rolunu oynayan dövlətlərin ərazi bütövlüyü prinsipinə əsasən sülh yolu ilə həllinə kömək göstərsinlər".

Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaq üçün indiyədək görülmüş işlər daha da genişləndirilməli, bu sahədə virtual məkanın - internetin hüdudsuz imkanlarından geniş istifadə olunmalıdır. Eyni zamanda səfirliklərimiz və diaspor təşkilatlarımız birgə işləməli, faciə ilə bağlı həqiqətlərin yerləşdikləri

ölkələrin ictimaiyyətinə çatdırılması üçün fəallıq göstərməlidirlər. Bu baxımdan Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətlərini xüsusi qeyd etmək lazımdır. Fond bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir. Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilən "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqəsinin, əl işlərinin, fotoşəkillərin dünyanın qabaqcıl ölkələrində keçirilən sərgisi beynəlxalq ictimaiyyətdə XX əsrin ən böyük faciəsi haqqında dolğun təsəvvürlər formalaşdırmışdır.

Dünyanın 56 ölkəsinin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Parlament Assambleyasının VI sessiyasında Xocalı faciəsi insanlığa qarşı cinayət kimi qiymətləndirilib. İƏT-in Xocalı hadisələrini insanlığa qarşı cinayət kimi qiymətləndirməsindən hüquqi əsas kimi istifadə edib bu ölkələrin parlamentlərində müzakirələrin keçirilməsinə və soyqırımı kimi tanıdılmasına nail olmaq üçün hərtərəfli fəaliyyət göstərilməlidir. Diaspor təşkilatlarının gücündən maksimum istifadə edilməli və onların fəaliyyətləri uzlaşdırılmalıdır.

2010-cu il fevralın 25-də Massaçusets ştatının Nümayəndələr Palatası Xocalıda qırğın törədlilməsi faktının tanınması haqqında qətnamə qəbul etmişdir. ABŞ-ın və Kanadanın bir sıra ştatları və şəhərləri, o cümlədən Kaliforniya ştatı Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyan qətnamə və proklamasiyalar qəbul etmişlər. ABŞ-ın Texas ştatı Ermənistan tərəfindən Xocalıda çox ağır cinayətlər törədilməsi faktını tanımışdır. Bu ştatın Nümayəndələr Palatası tərəfindən qəbul edilmiş 535 nömrəli qətnamədə Azərbaycanın bu şəhərinin erməni işğalından qaçaraq yaxa qurtarmağa çalışan dinc sakinlərinin Ermənistan silahlı qüvvələri və Sovet ordusunun hissələri tərəfindən qırğına məruz qalması pislənilir. Meksika və Pakistanın da parlamentləri Xocalı

soyqırımını tanıyıb. Ermənilərin Xocalıda törətdikləri dəhşətli soyqırımı aktı zaman keçdikcə öz həqiqi qiymətini alır. Hər il olduğu kimi, bu il də qardaş Türkiyə Böyük Millət Məclisində faciə ilə bağlı dinləmələrin keçirilməsi nəzərdə tutulub. Qardaş ölkənin parlamentində ermənilərin insanlığa qarşı yönəlmiş bu soyqırımı cinayəti pisləniləcəkdir. Ermənilərin Xocalıda törətdikləri soyqırımı aktı ilə bağlı dünyanın bir sıra ölkələrində də anım mərasimlərinin keçirilməsi və beynəlxalq ictimaiyyətin diqqətinin bu məsələyə yönəldilməsi nəzərdə tutulub.

Bu istiqamətdə aparılan işlər öz nəticələrini verir. Qeyd edim ki, 2002-ci ildə cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan nümayəndə heyəti Avropa Şurasında olarkən məsələ ilə bağlı mən də çıxış etdim. Sədr Xorvatiyadan idi. Ona şəkilləri göstərib izahat verirdim. O da gördü ki, qətlə yetirilənlər mülki əhali olub. Çıxışımı bitirdim və o, ayağa qalxaraq əlini ürəyinin üstünə qoyub cənab İlham Əliyev qarşısında baş əydi və başsağlığı verdi. Artıq bütün beynəlxalq təşkilatlar Azərbaycanın haqq səsini eşidir.

Xocalı şəhərində törədilmiş vəhşiliyin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün hər bir azərbaycanlı da üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir. Soyqırımı günü diaspor təşkilatları nüfuzlu Avropa ölkələrində mitinqlər, nümayişlər təşkil edərək, həmin ölkələrin ictimaiyyətinin diqqətini bu məsələyə cəlb edərək faciəni törədənlər barədə geniş məlumatlar verirlər. Aparılan məqsədyönlü tədbirlər nəticəsində Xocalıda törədilmiş soyqırımı aktı barədə beynəlxalq ictimaiyyət geniş məlumatlandırılır.

**Elnur Hacıalıyev, Rəşad Baxşəliyev,**

"**Azərbaycan**" qəzeti, 21 fevral 2012- ci il.

# Xocalı faciəsi beynəlxalq hüquq normalarına görə soyqırımı və insanlığa qarşı cinayət sayılır

Azərbaycanın çağdaş tarixində unudulması mümkün olmayan, bütövlükdə xalqın təhtəlşüuruna dərin iz salaraq onu daim milli özünüdərk ruhunda kökləyən faciəli hadisələr var ki, əsrlər ötsə də heç zaman qan yaddaşımızdan silinməyəcəkdir. Ermənilərin faşist xislətini, gerçək mahiyyətini çılpaqlığı ilə açan Xocalı soyqırımı da məhz belə dəhşətli hadisələrdəndir. 20 il öncə - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə belə amansız cinayətə rəvac vermiş erməni cəlladları dünyanın əzazil, qəddar və qaniçən insanları olduqlarını, terroru dövlət siyasətinə çevirdiklərini bir daha təsdiq etmişlər. Bu kütləvi və amansız soyqırımı aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin təzahürü olmaqla, təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə insanlıq əleyhinə törədilmiş qəddar cinayətdir. Hüquqi baxımdan yanaşdıqda aydın görünür ki, erməni silahlı birləşmələrinin çirkin niyyəti Xocalı şəhərindəki azərbaycanlıları məhz milli-dini zəmində son nəfərədək qətlə yetirmək olub. Ermənilər hətta beynəlxalq hüquq normalarına görə də ən təhlükəli sayılan soyqırımı cinayətinə məqsədli şəkildə əl atmış, misli görünməmiş qətliam törətmişlər.

Azərbaycan Respublikasının hərbi prokuroru, ədliyyə general-leytenantı **Xanlar Vəliyev** qəzetimizə müsahibəsində Xocalı soyqırımının istintaqı barədə geniş məlumat vermişdir.

**- Cənab general, ermənilər azərbaycanlılara qarşı əsrlər boyu dəfələrlə kütləvi qırğınlar törətməklə etnik təmizləmə siyasəti aparmışlar. Bu siyasətin başlanğıcı nə vaxta təsadüf edir və bunun kökündə nələr dayanır?**

- Əvvəla onu qeyd edim ki, başqa dövlətlərin ərazilərinə göz dikən erməni ideoloqları millətçiliyi və şovinizmi, qonşu xalqlara nifrət ideologiyasını rəhbər tutaraq son iki əsrdə siyasi və hətta terrorçu təşkilatlar yaratmış, erməni diasporunun və lobbisinin imkanlarını bu məqsədlərə səfərbər etmişlər. Hələ 1828-ci ildə Türkmənçay müqaviləsi bağlandıqdan sonra ermənilərin İran və Türkiyədən Dağlıq Qarabağa və digər Azərbaycan torpaqlarına köçürülməsinə başlanılmışdır.

XIX əsrin sonlarından etibarən çar Rusiyasının və digər dövlətlərin gizli və açıq himayəsindən istifadə edən erməni millətçiləri "Böyük Ermənistan" yaratmaq xülyasına düşmüş, ələ keçirmək istədikləri əraziləri yerli sakinlərdən təmizləmək niyyəti ilə müxtəlif dövrlərdə Şərqi Anadoluda və Cənubi Qafqazda soyqırımı və terror aktları törədərək, 2 milyona qədər günahsız türkü və azərbaycanlını vəhşicəsinə qətlə yetirmişlər. 1905-1907-ci illərdə, habelə 1918-1920-ci illərdə İrəvanda, Zəngibasarda, Vedidə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda və Azərbaycanın digər yerlərində, habelə Tiflisdə yerli azərbaycanlı əhali faktiki olaraq soyqırımına məruz qalmışdır.

Sovetlər dönəmində, yəni 1921-1992-ci illərdə Azərbaycan torpaqlarında yaradılmış Ermənistanda yaşayan azərbaycanlı əhalinin hüquqları ermənilər tərəfindən kobudcasına pozulmuş, onların ana dilində təhsil almalarına əngəllər törədilmiş, onlara qarşı repressiyalar həyata keçirilmişdir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilmiş, qədim toponimlərin müasir adlarla misli görünməyən əvəzolunma prosesi baş vermişdir.

Xalqımıza və ölkəmizə qarşı siyasi və hərbi təcavüz həyata keçirmək üçün ideoloji zəmin yaratmaq məqsədilə bizim mənəviyyatımıza, milli qürurumuza və mənliyimizə, ləyaqətimizə qarşı məkrli, hiyləgər xislətli erməni ideoloqları tərəfindən geniş miqyaslı böhtan kampaniyaları aparılmışdır.

Erməni millətçilərinin azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymət verilməməsi sovet hakimiyyəti dövründə xalqımıza qarşı düşmənçilik siyasətinin daha da genişlənməsinə rəvac vermişdır. SSRİ rəhbərliyinin köməyi ilə Ermənistan SSR-in hakim dairələri 1948-1953-cü illərdə əzəli türk torpaqları olan İrəvandan, Göyçədən, Vedidən, Zəngəzurdan, Dərələyəzdən və başqa yerlərdən yüz minlərlə azərbaycanlının deportasiya edilməsinə nail olmuşlar.

Ermənilərin sovet rejimindən bəhrələnərək həyata keçirdikləri antiazərbaycan təbliğatı ötən əsrin 80-ci illərinin sonunda daha da güclənmişdir. Bu məqsədlə ilk növbədə Qorbaçov - erməni millətçiləri birliyi arzularının həyata keçməsinə imkan verməyən insanın, xalqımızın böyük oğlu Heydər Əliyevin 1987-ci ildə SSRİ rəhbərliyindən istefasına nail oldular.

1988-ci ildə keçmiş SSRİ mərkəzi hökumətinin, xüsusən də onun başında duran avantürist - xəyanətkarlığın simvoluna çevrilmiş Mixail Qarbaçovun ermənipərəst siyasətindən istifadə edən erməni millətçiləri Ermənistan ərazisində etnik təmizləməni başa çatdırmaq niyyəti ilə azərbaycanlıların yaşadıqları rayon və kəndlərə basqınlar etməyə, azərbaycanlıları doğma torpaqlarından qovaraq "türksüz Ermənistan" siyasətini planlı şəkildə həyata keçirməyə başlamışlar. Ermənistan hökuməti, bədnam "Qarabağ" və "Krunk" komitələri, Eçmiədzin kilsəsinin nümayəndələri SSRİ rəhbərliyinin himayəsi ilə azərbaycanlıların qovulması prosesində minlərlə qanlı aksiyalar törətmişlər. Etnik təmizləmə nəticəsində Ermənistanın 185 yaşayış məntəqəsi boşaldılmış, 250 mindən artıq

azərbaycanlı, 18 min müsəlman kürd ev-eşiyindən zorla qovulmuşdur. Minlərlə şəxs qəddarlıqla döyülüb işgəncə verilməklə qətlə yetirilmiş, qaçıb canlarını qurtarmağa çalışan yüzlərlə soydaşımız güllələnmiş, yandırılmış, əzab və işgəncələrə dözməyərək ölmüşdür. Digər bir qismi suda boğulmaqla, asılmaqla, elektrik cərəyanına verilməklə, başları kəsilməklə qətlə yetirilmişlər.

Respublikaya o vaxt başçılıq edən Əbdürrəhman Vəzirovun qətiyyətsizliyi, vəzifəni itirmək qorxusundan millətin sonrakı taleyinə təsir edən bu cinayətkar hərəkətlərə biganə münasibət bəsləməsi, siyasi iradə ortaya qoymaq qabiliyyətində olmaması xalqın böyük faciələrlə üzləşməsinə gətirib çıxarmışdır.

Ermənistan ərazisinin azərbaycanlılardan təmizlənməsini başa çatdırdıqdan sonra Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana ilhaq etmək üçün 1988-ci ildən başlayaraq Ermənistanın Silahlı Qüvvələri və Dağlıq Qarabağdakı qanunsuz erməni silahlı birləşmələri ilə birlikdə keçmiş sovet ordusunun hərbi qurumlarının yaxından köməyi ilə Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində azərbaycanlılar yaşayan rayon və kəndləri işğal etmək məqsədi ilə fəal döyüş əməliyyatlarına başlamışlar. 1988-ci ilin fevral-mart aylarında Əsgəranda, o cümlədən Dağlıq Qarabağın digər ərazilərində azğınlaşmış erməni yaraqlıları tərəfindən azərbaycanlıların vəhşicəsinə qətlə yetirilməsi və 100-dən artıq evin qarət edilib yandırılması; 1990-ci ilin mart ayının 23-dən 24-nə keçən gecə Qazax rayonunun Bağanis-Ayrım kəndinin dağıdılması, bir ailənin diri-diri ocaqda yandırılması; 1988-1991-ci illərdə Xankəndi şəhərinin Kərkicahan qəsəbə sakini Georgi Sarkisyanın ermənilərdən ibarət mütəşəkkil cinayətkar qruplar yaradaraq azərbaycanlıların evlərinə mütəmadi silahlı basqınlar etməsi; 28 avqust 1991-ci il tarixdə erməni silahlılarının Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərini ağır artilleriya silahlarından, zirehli texnikalardan atəşə tutmaları və nəticədə hər

iki kənd sakinlərinin bir qisminin öldürülməsi; 22 dekabr 1991-ci il tarixdə erməni silahlı dəstələrinin Əsgəran rayonunun azərbaycanlılar yaşayan Meşəli kəndinə silahlı basqın edərək 25 nəfər dinc sakini qətlə yetirməsi, 40-dan artıq yaşayış evini yandırıb, kənd sakinlərinin əmlaklarını və mal-qarasını talan etməsi; 8 mart 1991-ci il tarixdə Xocavənd rayonunun Qaradağlı kənd sakinlərinin erməni silahlıları tərəfindən öldürülməsi; 15-17 fevral 1992-ci il tarixlərində həmin kənddə əsir götürülmüş 116 nəfər silahsız dinc əhalinin 67 nəfərinin amansızlıqla qətlə yetirilməsi və digər dəhşətli cinayətlərə prinsipial siyasi və hüquqi qiymətin verilməməsi, qabaqlayıcı tədbirlərin görülməməsi Xocalı soyqırımına zəmin yaratmış oldu. 25 fevral 1992-ci il tarixdə isə erməni silahlı dəstələri SSRİ Silahlı Qüvvələrinin 366-cı motoatıcı alayının komandir və şəxsi heyəti ilə birlikdə Xocalı şəhərinə hücum edərək dinc əhalini kütləvi surətdə, xüsusi amansızlıqla və işgəncə verməklə öldürmüş, külli miqdarda dövlət əmlakını, xüsusi mülkiyyətdə olmuş əmlakı məhv etmiş, çoxsaylı dinc əhaliyə divan tutaraq onları girov götürmüşdür. Erməni təcavüzkarları işğal olunmuş ərazilərdə Azərbaycanın mədəni-tarixi irsini təşkil edən obyektləri xüsusi qəddarlıqla məhv etmişlər. Ələ keçirdikləri ərazilərdə onlar vandalizm aktları törədərək, tarixi və arxeoloji abidələri, muzey və rəsm qalereyalarını qarət edərək yandırmış, məbəd və məscidləri təhqir etmişlər.

Ermənistanın apardığı təcavüzkar müharibə və törədilən zorakılıq nəticəsində 10 minlərlə Azərbaycan vətəndaşı şəhid olmuş, 50 mindən artıq həmvətənimiz yaralanmış və əlil olmuş, 900 yaşayış məntəqəsi, 100 min yaşayış binası, 600-dən artıq təhsil və 250 tibb müəssisəsi, yüzlərlə sənaye, kənd təsərrüfatı müəssisələri, zavod, fabrik dağıdılmış, respublika ərazisinin 20 faizini təşkil edən 17 min kv.km-dən artığı işğal olunmuş və 1 milyona qədər azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

O vaxtkı ölkə rəhbərliyini təmsil edən vəzifəli şəxslər qorxaqlıq və qətiyyətsizlik nümayiş etdirərək XX əsrdə bəşəriyyəti heyrətə salan bu müdhiş cinayət barədə ilk günlərdə xalqa məlumat verməkdən belə çəkinmişdir. Sonrakı hakimiyyət dövründə isə bu insanlıq əleyhinə cinayətə lazimi siyasi və hüquqi qiymət verilməsi üçün heç bir tədbir görülməmişdir. Yalnız ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublikada hakimiyyətə qayıdışından sonra erməni millətçiləri tərəfindən xalqımıza qarşı törədilmiş terror və soyqırımı cinayətləri barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, həmin cinayətlərə düzgün siyasi və hüquqi qiymət verilməsi üçün məqsədyönlü işlər aparılmışdır.

Ulu öndərin 26 mart 1998-ci il tarixdə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanla azərbaycanlılara qarşı müxtəlif illərdə mütəmadi olaraq törədilmiş soyqırımı cinayətlərinə, o cümlədən Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verilmişdir.

**- Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərində ermənilərin törətdikləri ağır cinayətlərlə bağlı həmin dövrdə ayrı-ayrı cinayət işləri başlanılmışdır. Bildiyimizə görə, hal-hazırda həmin cinayət işləri bir icraatda birləşdirilməklə, hərbi prokurorluqda istintaq edilir. Bu barədə oxucularımıza ətraflı məlumat verərdiniz.**

- Yuxarıda qeyd etdiyim kimi, erməni qəsbkarları zaman-zaman xalqımıza qarşı ağır cinayətlər törətmişlər. Prokurorluq və digər hüquq-mühafizə orqanları 1988-ci ildən erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərində, həmçinin Ermənistanda saxlanılan azərbaycanlı əsir və girovlara dözülməz işgəncələr verilməsi, onların bir qisminin öldürülməsi, şikəst edilməsi, azərbaycanlılara qarşı təxribat və terror aktlarının törədilməsi, əhalinin məcburi köçürülməsi, yaşayış məntəqələrində maddi sərvətlərin, tarixi mədəniyyət abidələrinin dağıdılması, habelə ermənilərin törətdikləri digər ağır cinayət

faktları ilə əlaqədar ayrı-ayrı cinayət işləri başlayaraq istintaq aparmışlar. Xalqımıza qarşı törədilmiş bu ağır cinayətlərin istintaqı və onlara hüquqi qiymətin verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş təqsirkar şəxslərin müəyyənləşdirilib mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb edilməsi, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədi ilə 18 dekabr 2003-cü il tarixdə Azərbaycan Respublikası baş prokurorunun, Daxili İşlər və Milli Təhlükəsizlik nazirlərinin əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılmışdır. Qeyd edilən cinayətlər üzrə müxtəlif vaxtlarda icraatı dayandırılmış cinayət işləri üzrə icraat təzələnməklə, istintaq aparılması həmin qrupa həvalə edilmişdir. Respublika baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralovun 2005-ci il 5 may tarixli qərarına əsasən cinayət işinə prosessual rəhbərliyin həyata keçirilməsi respublika hərbi prokuroruna həvalə edilmişdir.

Həmin cinayət işlərinin ibtidai istintaqının Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, Cinayət Prosessual Məcəllənin tələblərinə uyğun həyata keçirilməsini, işlərin hərtərəfli, tam və obyektiv aparılmasını, səmərəliliyini, operativliyini təmin etmək məqsədi ilə müəyyən işlər görülmüş, vahid istintaq-əməliyyat planı hazırlanaraq təsdiq edilmişdir. Həmin planda törədilmiş hər bir hadisə üzrə araşdırılmalı xüsusatlar, həyata keçirilməli istintaq hərəkətləri öz əksini tapmışdır. Cinayət təqibi üzrə toplanmış materialların həcminin böyüklüyü, şübhəli, təqsirləndirilən və zərərçəkmiş şəxslərin, həmçinin araşdırılmalı olan xüsusatların sayının çoxluğu, eyni zamanda, həmin cinayətlərin törədilmə üsul və vasitələri, xarakteri nəzərə alınaraq icraatı təzələnmiş işlər üzrə soyqırımı, işgəncə və terrorçuluqdan ibarət olmaqla üç əsas istiqamət müəyyənləşdirilmişdir. Qanunsuz erməni silahlı

birləşmələri tərəfindən Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərdə törədilən cinayət əməlləri 1 oktyabr 2000-ci il tarixdə qüvvəyə minmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 16-cı fəslində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə cinayətlərə aid edilmişdir. Yeri gəlmişkən qeyd etmək istərdim ki, cinayət işinin istintaqı hərbi prokurorluq orqanlarında son dövrlərdə keçirilən islahatlardan sonra daha da sürətlənmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"na müvafiq olaraq respublikanın baş prokuroru Zakir Qaralovun 30 mart 2009-cu il tarixli əmrinə əsasən Respublika Hərbi Prokurorluğunun Ağır Cinayətlərə dair işlər üzrə İstintaq İdarəsinin tərkibində Xüsusi istintaq şöbəsi yaradılmış, yuxarıda göstərilən cinayət işinin istintaqı həmin şöbəyə həvalə edilmişdir. Bundan sonra beynəlxalq hüquq normalarına uyğun soyqırımı, deportasiya, işgəncə və digər epizodlar üzrə hərtərəfli istintaq hərəkətləri aparılmış, nəticədə 1 yanvar 2012-ci il tarixədək sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətmiş 239 nəfər, o cümlədən soyqırımı epizodları: Xocalı üzrə 39 nəfər, Qaradağlı üzrə 6 nəfər, Bağanıs-Ayrım üzrə 18 nəfər, Meşəli üzrə 6 nəfər, Kərgicahan üzrə 47 nəfər, işgəncə faktı üzrə 35 nəfər, terrorçuluq faktı üzrə 3 nəfər, digər epizodlar üzrə 85 nəfər, habelə banditizm, qəsdən adam öldürmə, qanunsuz silah saxlama və s. cinayət törətmiş 48 nəfər, bütövlükdə isə cəmi 287 nəfər barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı çıxarılmışdır. Məhkəmə qərarına əsasən barələrində həbs-qətimkan tədbiri seçilmiş və axtarışa verilməsi ilə əlaqədar müvafiq sənədlərin əməliyyat-axtarış orqanlarına göndərilməsi təmin edilmişdir.

**- 1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri Xocalıda baş vermiş soyqırımı oldu. Baş vermiş bu hadisələrlə**

**bağlı həmin illərdən sonra hüquq-mühafizə orqanları bu istiqamətdə nə kimi işlər görmüşdür?**

- Bu hadisə XX əsrin ən dəhşətli və qəddar cinayətlərindən biridir. Xocalı faciəsi tarixdə bizə məlum olan Babiyar, Xatın, Liditse, Sonqimı, Srebrenitsa faciələri ilə eyni səviyyədə durur. Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin davamı və ən qanlı səhifəsıdir.

Konkret olaraq Xocalı şəhərində törədilmiş soyqırımı cinayəti ilə əlaqədar mühüm faktlar müəyyən olunub.

İstintaqla müəyyən edilmişdir ki, 25 fevral 1992-ci il tarixdə, saat 22 radələrində Ermənistandan Azərbaycan Respublikası ərazisinə qanunsuz keçirilmiş silahlı qüvvələr, Dağlıq Qarabağın millətçi ermənilərindən təşkil olunmuş qanunsuz silahlı birləşmələrı, keçmiş SSRİ Müdafiə Nazirliyinin 366-cı motoatıcı alayının komandir heyəti və hərbi texnikası ilə birgə Xocalı şəhərinə hücuma keçmişlər. Hücumda 366-cı alayın komandiri Zarviqorov Yuri Yuryeviç və mayor Ohanyan Seyran Muşeqoviçin komandanlığı altında alayın 2-ci batalyonu, Nabokix Yevgeni Aleksandroviçin komandanlığı altında 3-cü batalyonu, həmçinin 1-ci batalyonun qərargah rəisi Çitçiyan Valeriy İsaakoviç, habelə alayda xidmət edən 50-dən çox erməni və digər millətlərdən olan zabit və gizirlər iştirak etmişlər. Eyni zamanda, hücum zamanı 90-dan çox tank, piyadaların döyüş maşını, top, D-30 qaubitsası və digər müasir hərbi texnikadan istifadə olunmuşdur. Hücumdan əvvəl şəhər şiddətli artilleriya atəşinə tutulmuş, sonra çoxsaylı ağır tanklar, PDM və zirehli transportyorlar şəhərə daxil olmuş, dinc əhali xüsusi amansızlıqla qətlə yetirilmişdir. Bu zaman azğınlaşmış erməni quldurları mülki əhaliyə, o cümlədən qadınlara, uşaqlara, qocalara aman vermədən müxtəlif çaplı odlu silahlardan atəş açmış, tank, PDM və digər texnikanın altına salaraq əzməklə qətlə

yetirmişlər. İstintaqla müəyyən olunmuşdur ki, qanunsuz erməni silahlı qüvvələri mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları milli mənsubiyyətlərinə görə yollarda, Kətik meşəsində, Naxçıvanik yolunda, Qaraqaya ətrafında, Dəhraz kəndi yaxınlığında, Şelli istiqamətində, Əsgəran asfalt yolunun 86-cı kilometrliyində və digər ərazilərdə amansızlıqla qətlə yetirmişlər. Əsir götürülənlərdən 18 nəfəri Əsgəran rayon Daxili İşlər Şöbəsində işgəncə verilməklə öldürülmüşdür. Hücum zamanı dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədilmiş, dözülməz işgəncələr verilmiş, insanların başlarının dərisi soyulmuş, müxtəlif əzaları kəsilmiş, gözləri çıxarılmışdır. Qadınların qarınları yarılmış, adamlar diri-diri torpağa basdırılmış və ya yandırılmış, meyitlər zorakılığa məruz qalmışdır. Xocalıda mülki əhalinin düşünülmüş şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də budur ki, həmin gün əhalinin qaçıb canını qurtarmaq istəyən xeyli hissəsi ərazidən çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqularda güllələnmişlər.

Xocalı faciəsi ilə bağlı həmin şəhərin 5379 nəfər əhalisi deportasiyaya məruz qalmış, 613 nəfər, o cümlədən 63 nəfər azyaşlı uşaq, 106 nəfər qadın vəhşicəsinə qətlə yetirilmiş, 8 ailə bütünlüklə məhv edilmiş, 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almış, 1275 nəfər əsir və girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Hazırda cinayət işinin Xocalı soyqırımı epizodu üzrə 3000 nəfərə qədər şəxs şahid və zərərçəkmiş şəxs qismində dindirilmiş, 2000 nəfərə yaxın şəxs zərərçəkmiş şəxs qismində tanınmış, 800-dən artıq müxtəlif ekspertizalar keçirilmişdir. Xocalı şəhərinin işğalı ilə əlaqədar dövlət mülkiyyətinə və vətəndaşların xüsusi mülkiyyətinə dəymiş maddi ziyan müəyyən olunmuş, əşyaların maddi sübut kimi tanınması təmin edilmiş, habelə baxış, götürmə və s. zəruri istintaq hərəkətləri aparılmışdır. Nəticədə 39 nəfərin

(onlardan 18 nəfər 366-cı alayın hərbi qulluqçuları, 8 nəfər Xankəndi və Əskəran Daxili İşlər Şöbəsinin əməkdaşları, 5 nəfər digər vəzifəli şəxslərdir) və 8 nəfər mülki vətəndaşın Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmişdir. Onların Azərbaycan Respublikası CM-nin soyqırımına görə məsuliyyət nəzərdə tutan 103-cü maddəsi, habelə sülh və insanlıq əleyhinə, müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan CM-nin 107 (deportasiya), 113 (işgəncə), 115.4 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.17-ci (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsi barədə qərar çıxarılmışdır. Hazırda Xocalı soyqırımının törədilməsində iştirak etmiş şəxslərin barəsində sübutların toplanması, onların şəxsiyyətləri barədə tam anket məlumatlarının əldə edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Cinayət işi üzrə kompleks məhkəmə tikinti-texniki və əmtəəşünaslıq ekspertizaları keçirilmiş və müəyyən edilmişdir ki, qanunsuz erməni silahlı birləşmələri tərəfindən Xocalı şəhərinin işğal edilməsi ilə əlaqədar dövlət əmlakının və xüsusi mülkiyyətdə olan əmlakın məhv edilməsi, talan edilməsi ilə bağlı Azərbaycan dövlətinə və vətəndaşlarına 140 milyon manatdan və ya 170 milyon ABŞ dollarından artıq ziyan vurulmuşdur. İş üzrə istintaq tədbirləri davam etdirilir.

**- Soyqırımı cinayəti respublikamızın cinayət qanunvericiliyinə Xocalı faciəsindən sonra daxil edilib. Bəziləri belə halı, yəni qanunun geriyə qüvvəsini düzgün hesab etmirlər. Belə mövqenin nə dərəcədə hüquqi əsası var?**

- Soyqırımı cinayətinə zaman məhdudiyyəti tətbiq olunmur. Milli qanunvericilikdə bu cinayətin sonradan təsbit edilməsi bu məsələdə heç bir maneə yaratmır. Törədildiyi zaman beynəlxalq hüquqa görə cinayət sayılan əməlin milli hüquq sistemində retroaktiv təqibi məqbul sayılır.

Azərbaycan hökuməti Xocalı faciəsini soyqırımı kimi dəyərləndirərkən 9 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən 260 saylı qətnamə ilə qəbul edilən **"Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəza"** haqqında Konvensiyanı, keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının IV maddəsini, Ruanda üzrə Beynəlxalq Tribunalın Nizamnaməsinin I maddəsini, həmçinin **"Xocalı soyqırımı günü haqqında"** Azərbaycan Respublikası Milli Məclisinin 24 fevral 1994-cü il tarixli qərarını, Azərbaycan Respublikası Prezidentinin **"Azərbaycanlıların soyqırımı haqqında"** 26 mart 1998-ci il fərmanını və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü maddəsini əldə əsas tutur. Bu məsələdə Ermənі silahlı birləşmələri tərəfindən Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərdə törədilən cinayət əməllərinin 2000-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikası CM-nin 16-cı fəslində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə cinayətlərə aid olması, habelə Azərbaycan Respublikasında sülh və insanlıq əleyhinə cinayətlərə, soyqırımı və müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan mövcud cinayət qanunvericiliyi normalarının tətbiqi, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın müvafiq müddəalarına uyğunlaşdırmaq məqsədi ilə qəbul edilən Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında Azərbaycan Respublikasının 12 may 2006-cı il tarixli Konstitusiya Qanunu əsas götürülmüşdür. Həmçinin sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərə cinayət məsuliyyətinə cəlb etmə müddətinin tətbiq edilməməsi barədə Azərbaycan Respublikası CM-nin 75.5-ci maddəsində təsbit olunmuş müddəaları, bundan başqa, Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla)

Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələrin tətbiq edilməli olması nəzərə alınaraq, istintaq zamanı Azərbaycan Respublikasının 31 may 1996-cı il tarixli qanun ilə tərəfdar çıxdığı 9 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən 260 saylı qətnamə ilə qəbul edilən "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəza" haqqında Konvensiyası, BMT Baş Məclisinin 239 saylı 26 noyabr 1968-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş və 11 noyabr 1970-ci il tarixdə qüvvəyə minmiş "**Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında"** Konvensiyasına istinad olunur. Bu sırada BMT Baş Məclisinin 39/46 saylı 10 dekabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş **"İşgəncələrə və digər qəddar, insanlıqdan kənar, yaxud ləyaqəti alçaldan davranış və cəza növləri əleyhinə"** Konvensiyası, **"Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında"** 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyası, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun 6-cı maddəsi, Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixdən qoşulduğu "**İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında"** 1950-ci il Konvensiyasının, "Hərbi əsirlər ilə rəftara dair 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyası"nın, Azərbaycan Respublikasının 22 iyul 1992-ci il tarixdə qoşulduğu BMT-nin Baş Assambleyasının **"Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın"** müddəaları əsas götürülmüşdür. Qeyd olunanlara əsasən Xocalıda törədilən əməl beynəlxalq hüquq normalarına müvafiq olaraq sülh və insanlıq əleyhinə cinayətlərə aiddir.

Birmənalı olaraq deyə bilərik ki, Xocalı sakinləri olan azərbaycanlılara qarşı törədilmiş bütün əməllər beynəlxalq normativ aktlara uyğun olaraq soyqırımı kimi qiymətləndirilir və beynəlxalq hüquq prinsiplərinə görə insanlığa qarşı cinayət sayılır.

**- Ermənilər Xocalıda törədilən soyqırımı ilə bağlı göstərilən kadrların Kosovodan götürüldüyü barədə cəfəng informasiya yayırlar. Bununla bağlı nə deyə bilərsiniz? İstintaq bu barədə araşdırma aparıbmı?**

- İstintaq orqanı öz fəaliyyətində real faktlara və mötəbər dəlillərə, sübutlara əsaslanır. Xocalıya silahlı hücum zamanı öz canlarını qurtarmaq məqsədilə Xocalını məcburən tərk edib Ağdam rayonu istiqamətində qaçmağa cəhd edərkən Əsgəran rayonunun Naxçıvanik kəndinə gedən yolla Ağdamın Şelli kəndi arasındakı ərazidə erməni silahlıları tərəfindən təqib edilərək odlu silahlardan açılan atəşlərlə öldürülən dinc sakinlərin videokadrları vardır. Bu görüntülərlə yanaşı, cinayət işinin materiallarına Ağdam məscidinə gətirilmiş meyitlərin də fotoşəkilləri əlavə olunmuşdur.

Meyitlərin tanınması ilə bağlı 400-dən artıq istintaq hərəkəti keçirilmiş və həmin meyitlər öz qohumları və yaxınları tərəfindən tanınaraq şəxsiyyətləri dəqiqləşdirilmiş, bununla əlaqədar Xocalı Rayon İcra Hakimiyyətinə verilmiş sorğulara alınmış müvafiq cavablarla həmin şəxslərin Xocalıda qeydiyyatda olmaları təsdiq edilmişdir. Həmçinin erməni silahlıları tərəfindən qətlə yetirilmiş həmin şəxslərin bir çoxunun sağlığında çəkilmiş fotoşəkillər onların qohumlarından əldə edilərək cinayət işinin materiallarına əlavə edilmişdir. İstintaq materiallarına əlavə edilmiş həmin fotoşəkillərin və kadrların ən sadə üsulla müqayisəsi də Xocalı soyqırımı zamanı qətlə yetirilmiş azərbaycanlıların Kosovada serblər tərəfindən öldürülənlərlə tamamilə başqa-başqa adamlar olduğunu bir daha sübut edir.

Bundan başqa, Xocalı soyqırımı 1992-ci ildə törədilib və həmin vaxtda da çəkilmiş fotoşəkillər, video görüntülər dəfələrlə nümayiş etdirilib. Kosovo hadisələri isə bundan çox sonra baş vermişdir. On illər sonra törədilmiş qətliamın kadrları əvvəlcədən necə nümayiş etdirilə bilərdi ki?! Elə buradan da erməni ideoloqlarının saxtakarlığı bir daha üzə çıxır.

**- Cənab general, Xocalı ilə bağlı aparılan istintaqı digər cinayət işlərinin istintaqından fərqləndirən əsas xüsusiyyətlər hansılardır?**

- Hər şeydən əvvəl qeyd etməliyəm ki, bu qəbildən olan cinayətlərin istintaq təcrübəsi bizdə olmamışdır. Ona görə də istintaq-əməliyyat qrupunun üzvləri bu işlərin istintaqı gedişində çoxsaylı xüsusi ədəbiyyat oxumuşlar. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, bu cinayət işi istintaq xüsusiyyətinə, spesifikliyinə, mürəkkəbliyinə və həcminə görə digər cinayət işlərindən fərqlənir.

Belə ki, cinayətin törədilməsindən xeyli vaxt keçib. Məlum obyektiv və subyektiv səbəblərdən ilkin istintaq hərəkətləri, xüsusilə hadisə yerlərinin, meyitlərin müayinəsi və başqa istintaq hərəkətlərinin yerinə yetirilməsi bəzən qeyri-mümkün olmuş, bəzən də bu hərəkətlər lazımi keyfiyyətlə aparılmamışdır. Araşdırılmalı hallar üzrə dindiriləcək şəxslərin böyük qismi ölkə xaricində və ya işğal altında olan ərazilərdə - Ermənistanda və Dağlıq Qarabağda himayə olunur. Bu səbəbdən də həmin ərazilərlə bağlı istintaq aparmaq mümkün deyil. Bundan başqa, bir sıra zəruri sənədlər işğal vaxtı məhv edilmişdir. Digər obyektiv çətinliklər də mövcuddur. Ancaq bu fərqlərə və çətinliklərə baxmayaraq, cinayət törətmiş şəxsin milliyyətindən asılı olmayaraq, istintaqın tamlığı və obyektivliyi mütləq gözlənir. Məqsəd heç də cinayət törətmiş şəxsin erməni olmasını deyil, cinayət törətmiş şəxsin əməlini sübut etməkdir. Qeyd etməliyəm ki, Azərbaycan Respublikası digər dövlətlərlə öz münasibətlərini beynəlxalq normaların tələblərinə ciddi surətdə əməl etməklə qurduğundan Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərdə soyqırımı, habelə sülh və insanlıq əleyhinə başqa ağır və xüsusilə ağır cinayətlər törətmiş şəxslərə münasibətdə beynəlxalq hüquqa əsaslanan normaların və milli qanunvericiliyin tələblərinə ciddi riayət edilməsinə xüsusi diqqət yetiririk.

**- Fransa Senatı qondarma erməni soyqırımını inkar edənlərin cəzalandırılmasını nəzərdə tutan qanun layihəsini təsdiqləməklə bəşəri dəyərlərə - söz və ifadə, düşüncə azadlığına xəyanət etməklə yanaşı, həm də islam dünyasına, xüsusi olaraq türk dünyasına bir qərəz nümayiş etdirdi. Sizin fikrinizcə, Fransa Senatının bu absurd və heç bir əsasa söykənməyən qərarı nə kimi nəticələr verə bilər?**

- Fransa Senatının qəbul etdiyi qanun hüquq normalarından tamamilə uzaqdır və siyasi motivlidir, beynəlxalq hüququn ədalətli məhkəmə araşdırması prinsipini kobud şəkildə pozur, insanları öz fikirlərinə və duyğularına görə cinayət məsuliyyətinə cəlb etməyin mümkünlüyünə yol açan ən mürtəce və dünya təcrübəsinə uyğun gəlməyən bir praktikaya rəvac vermiş olur. Yeri gəlmişkən qeyd edim ki, bu gün bir neçə ölkənin parlamenti 1915-ci ildə Osmanlı İmperiyasının ərazilərində, guya ermənilərin kütləvi şəkildə soyqırımına məruz qalması barədə bəyanatlar, qərarlar və s. qəbul etmişdir. Bundan əlavə, hətta İsveçrədə "erməni soyqırımı"nı inkara görə cinayət məsuliyyəti müəyyən edən qanun qəbul olunmuşdur. Qəribə burasıdır ki, yaşadığımız dövrdə, hal-hazırda da faciənin yüzlərlə canlı şahidlərinin həyatda olduqları bir vaxtda, video çəkilişlərin, o cümlədən xarici ölkələrin media mənsubları tərəfindən çəkilmiş fotolar, video görüntülərin mövcud olduğu halda, Xocalı, Qaradağlı və başqa şəhər və kəndlərdə azərbaycanlıların erməni faşistləri tərəfindən soyqırımına məruz qalmaları görməməzliyə vurulur, amma 100 il bundan əvvəl törədilməsi iddia olunan və heç bir tutarlı dəlillərə söykənməyən məsələyə belə canfəşanlıqla qərəzli münasibət bildirilir. Məsələnin hüquqi tərəfi bir yana qalsın, əslində Türkiyədə erməni qırğını faktının olmaması nəinki müasir dövrümüzün tədqiqatçıları, bilavasitə I Dünya müharibəsindən sonra araşdırma aparmış nüfuzlu tədqiqatçılar tərəfindən də tamamilə təsdiq olunmuşdur.

Çoxlarına məlum olmayan belə bir faktı nəzərə çatdırmaq istəyirəm ki, I Dünya müharibəsinin qalibləri tərəfindən, konkret olaraq Böyük Britaniya Krallığı Baş Prokurorluğu tərəfindən ermənilərin sərsəm iddiaları ilə bağlı, erməni qırğınını törətdikləri iddia olunan 100-dən çox türk haqqında bir sıra dövlətlərin ərazisində araşdırma aparılmışdır. Qafqazda, İraqda, Misirdə və digər yerlərdə 2 il ərzində aparılmış bu araşdırmaların nəticəsi olaraq Krallığın Baş Prokurorluğu "Ermənilərin qətlə yetirilmələri ilə bağlı hüquqi baxımdan heç bir keçərli dəlil tapılmamışdır" qərarına gəlmiş və məsələnin hətta hüquq məhkəməsində araşdırılmasına yer olmadığı" barədə rəy verməklə, "Osmanlı torpaqlarında ermənilərin qətl edilməsilə bağlı cinayət işi başlanmasına əsas olmadığını" 29 iyun 1921-ci il tarixdə İngiltərə hökumətinə bildirilmişdir. Böyük Britaniya Krallığı Baş Prokurorluğunun bu qərarı əslində "Erməni soyqırımı olmamışdır" demək üçün əsas verən sanballı bir sənəddir və ermənilərin iddialarını darmadağın edir. Paradoks ondadır ki, 1915-ci ildə məlum toqquşmalar zamanı əslində ermənilər tərəfindən daha çox türklər öldürülmüşdür. Lakin bu məsələyə ikili standartlar mövqeyindən yanaşılmaqdadır.

Belə ikili standartların olmasını ingilis tarixçisi Andrey Manqo özünün "Sultandan Atatürkə - Türkiyə" əsərində olduqca yığcam və obyektiv şəkildə şərh edərək göstərir ki, 1915-ci il olaylarında qəti dəqiq rəqəmlərə görə ermənilərə nisbətən daha çox müsəlman (türk və kürd) Anadoluda can vermişdir. Fəqət yalnız ermənilərin çəkdikləri sıxıntılar yetərincə qeydə alınmışdır. ABŞ Osmanlı İmperiyasına qarşı savaşa girmədiyi üçün həmin bölgədə amerikan misyonerlər və konsoloslar, eləcə də alman əsgərlər və mülki şəxslər də ermənilərə qarşı olan hadisələrə şahidlik etdilər. Ancaq müsəlman əhalisinin yaşadığı sıxıntılar, onlara qarşı törədilən hadisələr qərb müşahidəçiləri tərəfindən görməzliyə vurulmuşdur.

İnsanlara qarşı törədilən vəhşiliklərə, soyqırımına təqsirkarın və zərərçəkənin kimliyinə, onun müsəlman, xristian və ya başqa inanc sahibi olduğuna görə deyil, törədilmiş cinayətə görə qiymət verilməlidir. Orta əsrlər dövrünün kriteriyaları çoxdan keçib, indi XXI əsrdir. Çox təəssüf ki, özünü demokratiyanın beşiyi hesab edən Fransa kimi ölkələrdə bu təkzibedilməz həqiqətlər bəzən qəsdən qulaqardına vurulur.

**- Ümumiyyətlə, xalqımıza qarşı törədilən soyqırımılarının tanıdılması istiqamətində biz daha nələr etməliyik ki, bu faciələri dünyaya çatdıraq?**

- Erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı törədilmiş faciələri, o cümlədən Xocalı soyqırımını ört-basdır etmək və unutdurmaq, qondarma "erməni soyqırımı"nı qəbul etdirmək üçün beynəlxalq miqyasda apardıqları təbliğat kampaniyasının qarşısının alınması sahəsində göstərilən səylərin artırılması indiki dövrün ən aktual vəzifələrindən biridir. Bu sahədə hər bir azərbaycanlının üzərinə böyük məsuliyyət düşür.

Öz haqlarımızı qətiyyətlə müdafiə etməli, haqlarımızı pozanları isə cəzalandırmalıyıq. Bunun mümkünlüyü haqqında yox, vacibliyi haqqında düşünməliyik və ardıcıl olaraq bu məqsədlərə doğru getməliyik! Yolun uzun və çox çətin olacağı bizi ruhdan salmamalıdır. Amma gərəkdir ki, haqlı olmaqla yanaşı, inandırmağı da bacaraq. Hər kəs nə istədiyimizi və istədiyimizə nail olmaq üçün necə çalışacağımızı aydın anlamalıdır.

Sübutların toplanmasında və dəyərləndirilməsində xeyli çətinliklər ola bilər və var. Amma problem bunda da deyil! Başqalarını inandırmağı bacarmaq lazımdır!

Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Hər il Prezident Administrasiyası tərəfindən müvafiq tədbirlər proqramı təsdiqlənir və icra edilir. Xocalı

soyqırımının, insanlığa və Azərbaycan xalqına qarşı törədilmiş bu vəhşi cinayətin ifşa olunması, onu törədənlərin cəzalandırılması Azərbaycan dövlətinin indiyə qədər yürütdüyü daxili-xarici siyasətin əsas prioritet istiqamətlərindən biridir. Faciənin 20-ci ildönümü münasibətilə cənab Prezident İlham Əliyev 17 yanvar 2012-ci il tarixdə xüsusi sərancam imzalayıb. Sərəncamda faciənin 20-ci ildönümünün qeyd olunması, Xocalı faciəsinin bütünlüklə dünya ictimaiyyətinə çatdırılması, dünya ictimaiyyətində bu faciəyə ədalətli münasibətin formalaşdırılması, dünya parlamentlərində bu qətliamın pislənməsi və yaxud mümkün olan yerlərdə faciənin soyqırımı kimi tanıdılması Azərbaycanın xarici və daxili siyasətinin prioritet istiqaməti olaraq vurğulanır.

Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev də xüsusi sərəncam imzalayıb. Həmin sərəncam daxili və xarici mexanizmləri işə salmaq, Prezident İlham Əliyevin sərancamından irəli gələn məsələləri həll etmək məqsədi daşıyır. Bu işlər başlanıb və davam edir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq hüququn normaları, ədalət Azərbaycanın tərəfindədir və bunu dünya ictimaiyyəti də birmənalı dərk edir. Beynəlxalq birliyin tamhüquqlu üzvü olan Azərbaycan hələlik münaqişənin sülh yolu ilə həlli üçün səylərin davam etdirilməsini zəruri saysa da, ərazi bütövlüyünün pozulması ilə uzun müddət barışmaq niyyətində deyildir!

Qeyd etmək lazımdır ki, bu istiqamətdə artıq bir fəallıq, tərpəniş hiss olunmaqdadır. İslam Əməkdaşlıq Təşkilatının Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi xüsusi qətnamə beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini "İnsanlığa qarşı cinayət" kimi tanıdan bir sənəddir. 51 ölkənin qəbul etdiyi qətnamədə Xocalı faciəsinə "erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "insanlığa qarşı cinayət" kimi qiymət verilmişdir. Bundan başqa, Pakistan və Meksika parlamentləri Xocalı

soyqırımını tanımışdır. Bu il qardaş Türkiyə Respublikasında Xocalı soyqırımına müvafiq qiymət verilməsi, erməni işğalçılarının törətdikləri soyqırımı barədə dünya ictimaiyyətinə haqq səsimizin bir daha çatdırılması məqsədilə kütləvi izdihamlı tədbirlərin keçirilməsi planlaşdırılır. Bütün bunlar möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin yürütdüyü xarici siyasətin mühüm uğuru kimi qiymətləndirilməlidir. Bu sahədə Heydər Əliyev Fondu və onun prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın ciddi səyləri və xidmətlərini xüsusi dəyərləndirmək lazımdır. Bütün bu tədbirlərin mühüm əhəmiyyəti vardır və bu işi bir daha sistemli və ardıcıl aparmalıyıq. Bu, hər kəsin vətəndaş borcu, insanlıq mövqeyidir! Mən qəti şəkildə əminəm ki, Xocalı soyqırımı kimi cinayət cəzasız qalmayacaq! Xocalı faciəsinin dünyada əsl hüquqi və siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına nail olunacaqdır!

**Elnur Hacıalıyev,**

"**Azərbaycan**" qəzeti, 22 fevral 2012- ci il.

# Ağdaban soyqırımı

**Ağdaban soyqırımı** - 1992 - ci il aprel ayının 8-də baş verən, tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri, Azərbaycanın gözəl güşəsi Qarabağın qala qapısı Kəlbəcəri ələ keçirmək üçün erməni seperatçılarının "Böyük Ermənistan" yaratmaq xülyasıyla Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqrım. Ağdaban soyqırımı - bütöv bir kəndin tamamilə yandırılması, yüzlərlə dinc sakinə qeyri-insanı işkəncələr verilməsi, yurdundan didərkin salınması!

## Soyqırımın nəticəsi

**Kəlbəcər** rayonunun 130 evdən ibarət AĞDABAN kəndı tamamilə erməni seperatçıları tərəfindən yandırılmış, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işkəncələr verilmişdir. 67 nəfər qətlə yetirilmiş, 8 nəfər 90 -100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmış, 2 nəfər itkin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir.

## Soyqırımın tarixi

1992-ci il aprel ayının 8 - də səhərə yaxın erməni quldurları Ağdaban yalındakı gözətçi məntəqəsinə qalxıb, burada keşik çəkən 3 nəfəri qətlə yetirdilər. Onlar kəndin üst yanındakı bənd-bərələrə dolub səhər saat 6-da silahlarla nərilti qoparmağa başladılar. Qəfil yuxudan qalxan kənd camaatı çaş - baş qaldı.

Erməni qarətçiləri planlı surətdə hərəkət edirdilər. Məsələn evləri kimlər qarət edəcək, mal-qaranı kimlər aparacaq, əliyalın insanları kimlər əsir götürəcək, müqavimət göstərənləri kimlər qətlə yetirəcək- əvvəlcədən müəyyənləşdirilmişdi. Həmin adamlar da hücum edəcək döyüşçülərin arasında imiş.

**HAŞİYƏ**. Məlum olduğu kimi 1993-cü il mart ayının 27-də erməni fitnəkarları yenə də Kəlbəcərə hücumu Ağdabandan başladılar. Ermənilər Ağdaban kəndinə hücum edib, onu ikinci dəfə viranəyə döndərdilər. Bəli, Ağdaban kəndi mühasirəyə alınmışdı.

Belə bir vəziyyətdə 1992-ci il aprel ayının 8-də Ağdərə rayonunun Capar kəndi istiqamətindən Dədə Şəmşrin kəndi Çayqovuşan və Ağdaban kəndlərinə erməni quzğunları hücum etdi. Erməni quldurları tərəfindən 39 adam öldürüldü, kənd evlərinin əksəriyyəti yandırıldı və qarət edildi. Aşıq Şəmşrin evi və zəngin arxivi od vurulub külə döndərildi. Ağdaban faciəsi Kəlbəcərin qəm dastanının ən kədərli səhifəsinə çevrildi.

Ağdaban qırğınının səhərisi-aprel ayının 9-da camaat hər yerdən rayon mərkəzinə toplaşdı. Xalqın iradəsiylə "Kəlbəcərin müdafiəsinə fövqəl`adə yardım komitəsi" yaradıldı.Camaatın qəti tələbi ilə bu komitəyə rəhbərlik etmək bu sətirləri yazana tapşırıldı. Komitə qısa müddət ərzində böyuk tədbirlər həyata keçirdı. Orduya kömək xeyli artırıldı.Əhalidə müdafiə olunacağına ümid yarandı. Rayon əhalisinin ciddi t`kidi ilə Kəlbəcərə göndərilən polkovnik /indi general/ Zaur Rzayev briqada komandiri və hərbi komendant təyin edildi. Bu tədbirlər camaatın qırılmaqda olan inamını xeyli möhkəmləndirdi.

Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni Sərvətlərin qeyri-qanuni dövrüyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamışdır.

Kənd əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qutarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetrilmişdir.

**Vikipediya, açıq ensiklopediya**

# Qaradağlı soyqırımı

**Qaradağlı soyqırımı** - 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilən soyqırım. Erməni silahlı birləşmələri yalnız dörd gün çəkən ağır döyüşdən sonra kəndə daxil ola bildilər. Kənd Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunaraq yandırılıb. Xocavənd rayonunun azərbaycanlılar yaşayan kəndlərinin işğal tarixləri və digər faktlar sübut edir ki, dinc əhali öz doğma torpaqları uğrunda sona qədər mübarizə aparıb, son nəfəsə qədər döyüşmüşlər. Düşmənin hərbi qüvələri ilə qeyri – bərabər döyüşlərdə mərdlik, şücaət göstərmiş yerli əhali, təklənməsinə, köməksiz qalmasına baxmayaraq vətən uğrunda 5 ildən artıq düşmənə qəhrəmanlıqla müavimət göstərmişdir. Təxribatların 1988 - ci ilin fevralından başladığını, Tuğ, Saləkətin kəndlərinin 30 oktyabr 1991, Xocavəndin özünün 19 noyabr 1991, Naxullunun 10 yanvar 1992,

Qaradağlının 17 fevral 1992, Muğanlı, Əmirallar, Kuropatkinonun 2 oktyabr 1992, Xətainin 20 avqust 1993, Günəşlinin 23 avqust 1993-cü ildə işğal olunması deyilənləri sübut edir.

### Faciədən əvvəl kəndin vəziyyəti

Qaradağlı kəndi Xankəndi və Xocavənd (Martuni) şəhərlərini birləşdirən asfalt yolun üstündə, 14 erməni kəndinin əhatəsində yerləşmiş və 800 evdən ibarət olan böyük bir azərbaycanlı kəndi idi. Sovet hakimmiyyyəti dövründə kəndin qonşuluğundakı Vərəndəpi, Bəhrəmli və Xanlıq adlı azərbaycan kəndlərinin əhalisi köçməyə məcbur edilmiş, onların torpaq sahələri isə erməni kəndlərinə verilmişdi. Çar Rusiyası dövründə və sovet hakimiyyəti

illərində ermənilər Dağlıq Qarabağın azərbaycanlı əhalisinə, o cümlədən Qaradağlı sakinlərinə qarşı müxtəlif təxribatlar törətmişdilər. Belə bir təxribat 1967-ci ildə olmuşdur. Həmin ildə milli münaqişə yaratmaq üçün ermənilər üç nəfər azərbaycanlıya, əslən Qaradağlıdan olan şəxslərə böhtan ataraq onları həbs etdirmişdilər. Onlar məhkəmədə bəraət almalarına baxmayaraq erməni quldurları günün günorta çağı Xankəndində, sovet əsgərlərinin gözü qarşısında həmin günahsız insanların üstlərinə benzin töküb yandırmışlar.

Sovet dövründə Qaradağlı kəndi bir müddət ermənilər yaşayan Qağarza və Baravat kəndləri ilə eyni bir kolxozda birləşdirilmişdi. Kolxozun bütün rəhbər işçiləri ermənilərdən təyin edilirdi. Ermənilər daima Qaradağlıların hüquğunu tapdalayır, kəndin rəhbərliyinə yaxın buraxmır, əmək haqlarını mənimsəyirdilər. 1971-ci ildə Qaradağlılar hökumət qarşısında erməni kəndlərindən ayrılmaq, müstəqil kolxoz yaratmaq məsələsini qoyaraq məqsədlərinə nail olmuşdular. Həmin ildən Qaradağlı camaatı ayrılaraq Nərimanov adına kolxoz təsərrüfatında birləşmişlər. Ayrılma zamanı Xocavənd rayonunun erməni rəhbərləri əvvəlki kolxozun ümumi əmlakından Qaradağlıya heç bir pay verməmişlər. Hətta Qaradağlılara dədə-baba torpaq sahələrindən istifadəyə belə imkan verilmirdi. Nəhayət gərgin mübarizə nəticəsində onlar müəyyən qədər əmlak payı, o cümlədən Nərgiztəpə deyilən yerdən 100 hektar əkinə yararlı torpaq sahəsi ala bildilər. Bu sahə kənddən 30 kilometr aralı olsa da kolxozun inkişafında mühüm rol oynamışdı. Müstəqil fəaliyyətinin beşinci ilində Nərimanov adına kolxoz Xocavənd (Martuni) rayonunda ən qabaqcıl təsərrüfatlardan birinə çevrilmişdi. Xocavənddə 1988-ci ilin fevral ayının 12-də keçirilən iclasda həmişə olduğundan fərqli olaraq iclasın ancaq erməni dilində aparılması, azərbaycan dilində danışmağa imkan verilməməsi, iclasdan sonra ermənilərin azərbaycanlılara qarşı təhqiramiz fikirlər səsləndirməsi, əllərində Azərbaycan dövləti əleyhinə şüarlar

tutmaları, səhəri günü Xankəndində keçirilmiş fəallar yığıncağında da ermənilərin eyni hərəkətlər etməsi Qarabağın bütün azərbaycanlı əhalisini, o cümlədən Qaradağlıları da narahat etməyə başlamışdı. Bundan sonra Xankəndində və Qarabağın ermənilər yaşayan bütün şəhər və kəndlərində millətçi nümayişlər və mitinqlər başlandı. Bundan dərhal sonra bir qrup Qaradağlı kəndinin sakini Ağdamagedərək rayon rəhbəriyinə erməni təxribatları haqqında Bakıya məlumat verilməsini və ciddi tədbir görülməsini tələb etmişdilər. Onlar həmçinin erməni təxribatları haqqında Respublika və SSRİ rəhbərlərinin ünvanına yazılı müraciətlər də göndərmişdilər. Rəhbərlik təxribatların qarşısını almaq əvəzinə Qaradağlıların şıkayət məktublarını tədbir görmək üçün vilayətin erməni rəhbərlərinə göndərirdilər ki, bu da onların vəziyyətini daha da ağırlaşdırırdı. Respublika rəhbərliyi tərəfindən Qarabağın digər azərbaycanlı əhalisi kimi taleyin hökmünə buraxılan Qaradağlılar özləri acınacaqlı vəziyyətdən çıxış yolunu axtarmağa məcbur olmuşdular. Kəndin nüfuzlu şəxslərindən, rayonun Tədarük İdarəsinin rəisi Məzahir Ağalarov, Xocavənd (Martuni) rayonu İcra hakimiyyətində işləyən yeganə azərbaycanlı Nüsrət Əzizov, kənd məktəbinin direktoru Nobil Zeynalov, Cahid Məmmədov, Soltan Bayramov Qaradağlını erməni təxribatlarından qorumaq üçün bəzi tədbirlər görməyə başlamışlar.

## Özünümüdafiə dəstələrinin yaradılması

Kəndin belə ağır vəziyyətində əslən Qaradağlı, Rusiya ordusunda zabit kimi xidmət edən, baş leytenant Ədalət Məmmədov 1988-ci il mart ayında həmkəndlilərinin müracətinə cavab olaraq öz doğma kəndinə qayıtdı. Kəndin müdafəsinin təşkilində Ədalət Məmmədova kənd məktəbində hərbi hazırlıq müəllimi, ehtiyatda olan zabit Telman Tağıyev, Məmməd Məmmədov, Məhəmmədəli Bayramov və digər vətənpərvər insanlar yaxından kömək etmişdilər. Qaradağlıda AXC özəyinin sədri Ağalar Məmmədovun könüllü müdafiə dəstəsinin yaradılmasında mühüm rolu olmuşdur.

Onun təşkil etdiyi özünümüdafiə dəstəsinin Ədalət Məmmədovun sərəncamına keçməsi kənddə müdafiə batalyonunun yaradılmasına yaxından kömək etdi. Kəndin könüllüləri hərbi hazırlıqlara başlasalar da, kəndi müdafiə etmək üçün silahın olmaması ciddi çətinliklər yaradırdı. Dağlıq Qarabağda erməni təxribatları başladıqdan sonra 1988–1989-cu illərdə rəsmi strukturlar Qaradağlı kəndində üç dəfə silahyığma əməliyyatı keçirmiş, əhalidə olan adi ov silahlarını belə tamamilə müsadirə edilmişdir. Vəziyyətdən çıxmaq üçün Qaradağlılar ətraf rayonlarda yaşayan dostlarına, tanışlarına müraciət etmiş, onlar da müəyyən qədər ov tüfəngi taparaq Qaradağlının müdafiəçilərinə göndərmişlər.

Münaqişə başlanandan bir neçə ay sonra Azərbaycan rəhbərliyi gec də olsa Qaradağlının problemləri ilə maraqlanmağa başladı. O zaman Qaradağlının ətraf erməni kəndləri və rayon mərkəzi ilə əlaqəsi kəsilmiş, işləyənlər işdən qovulmuşdular. Problemi həll etmək üçün kənddə çörək sexi, maqazalar, yeməkxanalar fəaliyyətə başladı. Qaradağlıda Bakı şəhəri 1 saylı tikiş fabrikinin və Gəncə Xalça Zavodunun sexləri, Bakı soyuducular zavodunun filialı açıldı. Bundan başqa məktəb, uşaq bağçası, kitabxana, mədəniyyət evi və xəstəxana binalarının inşasına başlanıldı. Gənc ailələrə ayrılmış həyətyanı torpaq sahələrində 60-a qədər yeni evlər tikildi. Bundan başqa Qaradağlının müdafiəsi ilə bağlı da müəyyən işlər görüldü. **Azərbaycan SSR Daxili İşlər Nazirliyi 3**0 nəfər Qaradağlı gəncini milis işçisi kimi işə qəbul edərək kəndin müdafiəsinə göndərməsi, Ağdamdan polis işçilərinin növbə ilə Qaradağlıya ezam edilməsi kəndin müdafiə güçünü bir qədər artırmışdı.

## Erməni hücumlarının başlanması

1989 - cu ilin ortalarından başlayaraq ermənilərin Qaradağlı kəndinə qarşı təxribatları getdkcə daha da gücləndi. Həmin il

oktyabr ayının 12-də bir dəstə erməni quldurı kəndin yaxınlığındakı mal fermasına basqın edərək mal-qaranı ələ keçirmiş, ferma binasına və ot tayalarını yandırmışlar. Kəndin müdafiəçilərindən Ədalət Məmmədov, Faiq Tağıyev, Qərib Mustafayev, Nazim Vəliyev özünü hadisə yerinə yetirərək çətinliklə də olsa quldurları geri oturda bilmişlər. 1989 - cu ilin dekabrında kənd əhalisini vahiməyə salmaq və onları qaçmağa məcbur etmək üçün ermənilər hər axşam yanacaqla dolu alovlanan çəlləkləri ətraf dağlardan aşağı buraxmağa başlamışdılar. Müdafiəçilərin gördükləri tədbirlər nəticəsində ermənilərin bu vəhşiliklərinin də qarşısı alındı. 1990 - cı il yanvarın 15-də 20 nəfərə qədər silahlı erməni Qaradağlıya yaxınlaşıb kəndin kənarındakı evləri atəşə tutmuşlar. Özünü hadisə yerinə çatdıran müdafiəçnlər ilk açıq silahlı döyüşə girirərək düşməni geri oturtmuşdular. Erməni quldurları 10 aprel 1990 - cı il tarixdə yenidən kənddə hücüm etmişdilər. Atışma zamanı kənd sakini İlqar Əliyev ağır yaralanmışdı.

1990-cı il noyabr ayının 24-də saat 17- 00 radələrində Qaradağlıdan Ağdama gəlin aparan maşın karvanı, kəndin 5 kilometrliyində rus hərbi paltarı geymiş erməni quldurlarının təcavüzünə məruz qalmış, həmin hadisədə 3 nəfər qaradağlı həlak olmuşdu. Quldurlar hadisə yerini mühasirəyə alaraq meyidləri aparmağa gələnləri irəli buraxmır, prezident Ayaz Mütəllibovun gəlməsini tələb edirdilər. İki saatdan sonra, çətinliklə də olsa camaat meyidləri erməni quldurlarının əlindən ala bilmişdi. Bu hadisədən sonra Qaradağlı müdafiəçiləri kəndin ətrafında güclü müdafiə postları, istehkamlar və səngərlər qurmaq qərarına gəldilər. Kəndin ətrafında 5 post yaradılıb etibarlı müdafiə qurğuları ilə təchiz olundu. Xankəndindən gələn yolu üstündə üç post qurulmuşdu. Xocavənd rayonu istiqamətində, kəndin girişində yaradılmış post əhəmiyyətinə görə birinci post hesab olunurdu. Bu postun keşikçilərlə təmin olunmasını məktəb direktoru Nobil Zeynalov öz üzərinə götürmüşdü. Orada əsasən Nobil Zeynalovun şagirdləri olmuş gənclər və məktəblilər keşik çəkirdilər. Asfalt

yoldan azca aralı kolxoz idarəsinin yaxınlığında qurulmuş post ikinci hesab olunurdu. Mirzəli və Zahir bu postun məsuliyyətini daşıyırdılar. Kəndin çıxışında asfalt yolun üstündə qurulmuş 3-cü postda Nazim, Qərib, Telman, Vidadi və başqaları dayanırdılar. Kəndxurə istiqamətində qurulmuş 4-cü post da mühüm postlardan biri idi. Kənddə olan basqınların əksəriyyəti bu istiqamətdən olurdu. Burada Faiq, Rabil, Xudayat və onların dostları keşik çəkirdilər. Nəhayət, 5-ci post kəndin ortasında keçən Xonaşen çayının üstündə, Zinki dərəsinin qarşısında yaradılmışdı. Zinki postunun qorunması Məmməd, Şamil, Əlqəmə və Ələddin kimi cəsur oğullarına tapşırılmışdı. 1990-cı ilin noyabr ayından başlayaraq bütün postlarda fasiləsiz olaraq silahlı müdafiəçilər keşikdə dayanırdılar. 1991-ci ilin əvvəllərində baş vermiş faciə vəziyyəti daha da gərginləşdirdi. Yanvarın 10-da kəndin nüfuzlu şəxslərindən olan Sultan Bayramov erməni quldurlarına qarşı birgə mübarizə tədbirləri hazırlamaq üçün qonşu Əmrallar kəndinə getmişdi. Sultan Qaradağlıya qayıdanda kəndə çatmamış birinci postdan 4 kilometr məsafədə onun mindiyi "UAZ - 469" markalı 53-55 AQT dövlət nişanlı minik maşını ermənilər tərəfindən qəfil atəşə tutulur. Maşının sürücüsü Kərəm Tağıyev maşını sürüb kəndə çatdırsa da Sultan Bayramovun həyatını xilas etmək mümkün olmur. O, iki saatdan sonra aldığı yaralardan dünyasını dəyişir. Sultanın dəfn günü Laçın-Şuşa yolunda jurnalist Salatın Əsgərovanın ermənilər tərəfindən öldürülməsi xəbəri kəndə yayıldı. Bu xəbərdən hiddətlənən dinc əhali erməni quldurlarının vəhşiliyinə etiraz üçün onların yaşadıqları kəndlərə doğru yürüşə çıxdılar. Lakin kəndin müdafiəçilərindən bir qrupu qabağa çıxaraq əhalini boş əllə erməni quldurlarının üstünə getməyin mənasız olduğunu bildirərək, onları dayandırmağa müvəffəq oldular.

Bu faciəli hadisədən sonra qaradağlılar erməni təxribatlarının qarşısını almaq üçün əməliyyat planı hazırladılar. Əməliyyata Ədalət Məmmədov rəhbərlik edirdi. Əməliyyat qrupuna – İlqar Hüseynov, Elmidar Bayramov, Telman Tağıyev, Eldar Dadaşov,

Rafiq Quliyev, Qərib Mustafayev, Məmməd Məmmədov və Məmməd Mustafayev daxil idi. Onlar iki dəstəyə ayrılıb Xankəndi-Xocavənd yolunu həm girişdən, həm də çıxışdan nəzarətə aldılar. Kəndin müdafiəçiləri tərəfindən Xankəndindən Xocavəndə tələsən, içində 6 erməni quldurun olduğu "UAZ" markalı maşın ələ keçirilərək, məhv edildi. Beləliklə də, Sultan Bayramovun, Salatın Əsgərovanın və digər şəhidlərin qisası qudurlardan alındı. Ermənilər ancaq üç gündən sonra rus hərbiçilərinin müşayiəti ilə gəlib meyidlərini meşədən apardılar. Bundan sonra Xankəndi - Xocavənd yolunda ermənilərin hərəkəti dayandı. Bu qisas əməliyyatında Qaradağlı müdafiəçiləri altı ədəd xarici avtomat, bir ədəd ov tüfəngi və xeyli patron ələ keçirdilər. 1991 - ci il martın 9-da erməni quldurları kəndin yaxınlığındakı mal fermasına qəfildən silahlı basqın edib iki nəfəri qətlə yetirdilər. Həmin il, iyun ayının 28-də isə gecə saat bir radələrində Qaradağlı kəndi ermənilər tərəfindən toplardan, pulemyotlardan və avtomatlardan şiddətli atəşə tutuldu. Kəndin bir neçə evini alov bürüdü, bir neçəsi isə mərmi zərbəsindən dağıldı. Qadınlar, qocalar və uşaqlar düşmən atəşindən qorunmaq üçün zirzəmilərə sığınmağa məcbur oldular. Həmin gecə ən böyük faciə kəndin 5 kilometrliyində Vərəndəli sahəsində yerləşən fermada baş vermişdi. Quldurlar kəndi atəşə tutmaqla yanaşı eyni zamanda fermadakı evlərə soxularaq altı nəfər günahsız ferma işçisini də güllələmiş və izi itirmək üçün onları yanan evlərdən birinin içinə atmışdılar. Bundan sonra onlar kənara çəkilərək ferma tam yanana qədər oranı atəş altında saxlamışlar. Bəyverdi Novruov başda olmaqla faciə yerinə gələn kənd camaatı yanan otaqların birində üç nəfərin gülllədən dəlik dəlik olmuş, odun-alovun içində yanmış meyidlərini çıxara bilmişlər. Başqa bir otağın odu sönduruldukdən sonra isə tamamilə yanmış digər üç nəfərin cəsədləri aşkar edilmişdi. Şəhidlərin dəfnindən üç gün sonra Ruzigar Məmmədov Ağdam polis batalyonunun 2 nəfər əməkdaşı ilə birlikdə əməliyyat planı hazırlayır. Onlar silahlanıb gecə erməni kəndi Kəndxurda tərəf gedir və nəzarət postlarının birinin

yaxınlığında mövqe tuturlar. Gecə erməni yaraqlılarının komandiri üç nəfərlə postları yoxlamağa çıxarkən atasının və dayısının intiqamını onlardan alırlar. Qaradağlı kənd sakinləri Çingiz Məmmədov, Kərəm Ağalarov və Şəfqət Məmmədova Qaradağlının ağır günləri haqqında aşağıdakı məlumatı vermişlər:

1991-ci il sentyabr ayının 8-də Ayaz Mutəllibovun prezident seçilməsi günü idi. Qaradağlılar səhər tezdən seçki məntəqəsinə gəlib səs verirdilər. Səsvermədən sonra bazarlıq etmək üçün kənd sakinləri seçki məntəqəsinin qarşısında dayanmış avtobusa minərək Ağdama getmişlər. Geri qayıdarkən avtobus Xocavənddən 3 kilometr aralıda hər tərəfdən avtomat atəşinə tutulmuş, avtobusda olan 40 nəfərdən 2 oğlan, 6 qadın qətlə yetirilmiş, 23 nəfər ağır yaralanmışdır. Yaralılar təcili olaraq Ağdam xəstəxanasına çatdırılmışdır.

Avtobus faciəsindən sonra Qaradağlının cəsur gənclərindən Elnur Süleymanov, Xanalı Hüseynov və Rayət Quliyev sentyabr ayının 25-də gecə silahlanıb, ermənilərin tutduğu Aşan kəndinin arxa hissəsinə keçmişlər. Onlar kəndə yaxınlaşıb onun kənarı ilə gəzən üç nəfər silahlı erməni hərbiçisini atəşə tutub qətlə yetirmişlər. Bu əməliyyat zamanı Rayət ağır güllə yarası alsa da, yoldaşları onu gizli meşə yolu ilə kəndə gətirib oradan Beyləqan xəstəxanasına çatdıraraq həyatını xilas etmişlər. 8 sentyabr 1991 - ci il hadisəsindən sonra qaradağlıların nümayəndələri Məzahir Ağalarov, Nobil Zeynalov 20 nəfərlə Bakıya gedərək, prezident Ayaz Mütəllibovla görüşmüş, ona Qaradağlının ağır vəziyyəti barədə məlumat vermişlər. A.Mütəllibovla qaradağlılara kəndin müdafiəsi ilə şəxsən özü məşğul olacağına söz vermiş və bundan 3-4 gün sonra 11 nəfərdən ibarət bir qrup hərbiçi Qaradağlıya göndərilmişdi. Onlar kəndin yuxarı hissəsində Abbasovun evində yerləşmişdilər. Kəndin müdafiəçiləri həmin dəstə ilə birlikdə bir qisas əməliyyatı hazırlayıb həyata keçirməyə müvəffəq oldular. 21 nəfərlik dəstə Vərəndətiyə gedən

yolun kənarında yerləşən çoxlu erməni quldurlarının toplaşıb keşik çəkdiyi, hərbi əhəmiyyətli məntəqə olan fermaya hücum edərək üç nəfər qulduru zərərsizləşdirmiş, qalanlarını isə qonşu erməni kəndlərinə çəkilməyə məcbur etmişlər. Lakin təxminən 1 aydan sonra kəndin mühafizəsinə kömək üçün göndərilmiş hərbçilərin müəmmalı şəkildə geri çağırılması Qaradağlının ağır olan vəziyyətini daha da ağırlaşdırdı. Ümumiyyətlə, ətrafındakı yüksəkliklərdən ara-sıra atılan atəşlər nəzərə alınmasa, 1988-ci ilin fevralından 1992-ci ilin fevralınadək Qaradağlıya 305 dəfə düşmən hücumu olmuşdu. Bu döyüşlərin hər birində isə kənd sakinləri itkilər vermişlər. Ermənilərin Qaradağlıda insanlığa sığmayan vəhşiliklər törətməsinə şərait yaradan əsas səbəblərdən biri kəndin Azərbaycanın digər yaşayış məntəqələri ilə torpaq əlaqəsinin kəsilməsi və dörd tərəfdən mühasirəyə alınmış kəndin səmasında Azərbaycan helikopterlərinin mütəmadi atəşə məruz qaldığından hava xətti ilə də heç bi köməyin göstərilməməsi idi.

## Qaradağlı faciəsi Azərbaycan tarixinə qanlı hərflərlə yazılıb

Bu soyqırımını ikinci Xocalı da adlandırırlar. Kəndin hər 10 sakinindən biri şəhid olub. 1992-ci ildə Xocalı faciəsindən bir neçə gün əvvəl Qaradağlıda törədilən soyqırımda 104 kənd sakini və 15 nəfər xüsusi müdafiə dəstəsinin üzvləri əsir götürülüb. Onlardan 80 nəfəri erməni cinayətkarları tərəfindən qətlə yetirilib.

Ümumilikdə Qaradağlı soyqırımında Qaradağlı kəndi 117 övladını itirir, onlarla insan girov götürülür. Ermənilər ölənləri silos quyularına doldururlar, girovlara dəhşətli işgəncələr verirlər. Girovların əksəriyyəti geri alınsa da, çoxunun taleyi hələ də məlum deyil.

Öldürülənlərdən 10-u qadın, 8-i uşaq idi. İki ailənin hər birindən 4 nəfər şəhid olub, 42 ailə başçısını itirib, 140-a yaxın uşaq yetim qalıb. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər

obyektlər dağıdılıb. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşüb.

## Şahidlərin söylədiklərindən

**İlqar Hüseynov** Qaradağlı müsibətini görmüş kənd sakinlərindən biridir. O, ailə üzvlərilə birlikdə 1992-ci ilin fevral ayında ermənilərə girov düşüb. İlqar Hüseynov iki ay erməni girovluğunda qalarkən olmazın müsibətlərinə düçar olub. İlqar Hüseynovun dediklərindən: *"Qaradağlı camaatı arasında elə bir ailə yoxdur ki, erməni vəhşiliyindən öz nəsibini almasın. Kəndimiz 1992-ci ilin fevral ayında işğal olunub. Amma hələ 1991-ci ilin sentyabrında ermənilər Qaradağlı camaatına divan tutmuşdu. Sentyabr ayının 8-də ermənilər Ağdam-Qaradağlı avtobusunu atəşə tutmuşdular. 8 nəfər yerindəcə həlak olmuş, 10-dan artıq günahsız insan ağır yaralanmışdı.*

*1992-ci il fevral ayının 15-də ermənilər Qaradağlını dörd bir yandan atəşə tutdular. Evlərin əksəriyyəti alova bürünmüşdü. Atışma iki gün davam etdi. Kənddə qalan 118 nəfərdən 25-i həlak olmuşdu. Dörd nəfər isə ağır yaralıydı. Gecə yaralıları da götürüb yola düzəldik. Aramızda 10 qadın və iki uşaq vardı. Ermənilər bizi təqib edirdilər. Patronumuz qurtardığı üçün onlara müqavimət göstərə bilmirdik.*

*Ermənilər hamını əsir götürdülər. Kişiləri qadınlardan və uşaqlardan ayırdılar və bizi ayrı-ayrı maşınlara mindirdilər. Bizi erməni qəbiristanlığına gətirdilər. Dedilər ki, 9 nəfər könüllü aşağı düşsün. Heç kim yerindən tərpənmədi. Bundan qəzəblənən erməni quldurları avtomatla maşına atəş açdılar. 10-15 nəfər yerindəcə öldü. Təxminən 20 nəfər isə ağır yaralandı. Vəziyyətin ağır olduğunu görən kənd sakinlərindən biri qaçmaq istədi. Onun bu hərəkəti erməniləri daha da qəzəbləndirdi. Onlar bizi yenidən atəşə tutdular. Ölənlərin sayı 32 nəfərə yüksəldi. Sonra bizi Xankəndinə apardılar. Bizi iki ay Xankəndi həbsxanasında saxladılar.*

*Həbsxananın pəncərələri yox idi. Hər gün qar yağırdı. Şaxta insanın iliyinə işləyirdi. Girovların hamısını dizə qədər suyun içində saxlayırdılar. Bizə üç gündə bir dəfə əl boyda qara çörək verirdilər.*

*Ermənilər bizi gündə ən azı beş-altı dəfə döyür, müxtəlif işgəncələr verirdilər. Bir neçə nəfər işgəncələrə dözmədiyi üçün elə həbsxanadaca dünyasını dəyişdi. Armaturla vurub səkkiz nəfərin qabırğalarını qırmış, ayaqlarını sındırmışdılar. İki nəfəri isə divara çırpıb beynini partlatmışdılar. Onlar təkcə kişilərə deyil, qadınlara və uşaqlara da bu cür dəhşətli işgəncələr verirdilər. İki ay sonra Qızıl Xaç Cəmiyyətinin köməkliyi ilə bizi azad etdilər. Mənimlə birlikdə girovluqda olmuş bir neçə nəfər azadlığa çıxandan sonra dünyasını dəyişdi. Həmin vaxtdan 19 il keçsə də, ermənilərin verdiyi işgəncələrin ağrısı hələ də canımdan çıxmayıb.”*

**Vikipediya, açıq ensiklopediya**

**09 fevral 2013 - cü il.**

# Əsrin faciəsi

Tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin qarlı qışında Xocalıda üzləşdi. Sovetlər imperiyasının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması ölkənin yeni tarixinə qara hərflərlə yazıldı.

**Bəşəriyyət tarixinə qanla yazılan gün**

Həmin dövrdə Dağlıq Qarabağda erməni separatçıları da fəaliyyətini genişləndirirdi. Bunun nəticəsində 1991-ci ilin sentyabrında "Dağlıq Qarabağ respublikası" adlanan oyuncaq dövlət yaradıldığı bildirildi. Həmin ilin noyabr ayının 26-da Azərbaycan Ali Soveti Dağlıq Qarabağın Muxtar Vilayət statusunun ləğv olunduğunu bəyan etdi.

Proseslərin gedişi mövcud durumu daha da çətinləşdirirdi. Təcrid vəziyyətinə düşmüş Xocalıya sonuncu vertolyot 1992-ci il yanvar ayının 28-də endi. Şuşa səmasında mülki vertolyotun vurulması, vertolyotun içindəki 40 nəfər azərbaycanlının həlak olmasıyla şəhərlə hava əlaqəsi də kəsildi. Yanvarın 2-dən Xocalıya elektrik enerjisi də verilmirdi. Xocalılılar ancaq öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdular. Şəhərin müdafiəsi əsasən avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstəsindən, yerli milis qüvvələrindən və Milli Ordunun döyüşçülərindən təşkil olunmuşdu.

Fevralın ikinci yarısından başlayaraq erməni silahlı dəstələrinin mühasirəsinə alınmış Xocalı hər gün toplardan, ağır texnikadan atəşlərə, erməni dəstələrinin həmlələrinə məruz qalırdı. Şəhəri əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəmaki, Noraguh və Mirzəcan kəndlərinə avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısı, "Alazan" raket qurğuları, PDM, ZTR və tanklar cəmlənmişdi. Qüvvələrin əsas hissəsi isə Xankəndidə və Əsgəranda əmrə hazır dayanmışdı. Həmin dövrdə şəhərdə hələ 3 min nəfər yerli əhali olsa da, Xocalıya vertolyot da göndərilmirdi. Ermənilər istər canlı qüvvə, istərsə də hərbi texnika və silah cəhətdən xocalılılardan müqayisəedilməz dərəcədə üstün idilər. Buna rəğmən ölkə rəhbərliyi şəhərin xilası istiqamətində heç bir addım atmırdı.

Halbuki düşmənin Xocalını yeni əsas hədəf kimi seçməsi və buraya hücuma hazırlaşması barədə o vaxtkı Azərbaycan rəhbərliyinə lazımi məlumatlar verilmişdi. Baş verənlərdən mərkəzi hakimiyyət tam məlumatlı idi. Lakin hər hansı qabaqlayıcı tədbir görülmədi. Həmin vaxtlar hakimiyyətə gəlmək istəyən AXC də bir tərəfdən hakimiyyəti iflic vəziyyətinə salmışdı. İqtidardakı qüvvə isə hakimiyyətini qoruyub saxlamaq istəyirdi. Bakıda hakimiyyət davası getdiyindən təkcə Xocalı yox, bütün Qarabağ taleyin ümidinə buraxılmışdı. Belə vəziyyət erməniləri daha da şirnikləndirir, Xocalını ələ keçirmək planlarının tez həyata keçrilməsi üçün onlara bir stimul verirdi.

Yaranan vəziyyətdən maksimum dərəcədə faydalanmağa çalışan ermənilər Xocalını daha tez ələ keçirməyə səy göstərirdilər. 1992-ci il fevralın 25-də saat 22 radələrində Ermənistandan Azərbaycan Respublikası ərazisinə qanunsuz keçirilmiş silahlı qüvvələr, habelə Dağlıq Qarabağın millətçi ermənilərindən təşkil olunmuş qanunsuz silahlı birləşmələrı keçmiş SSRİ Müdafiə Nazirliyinin 366-cı motoatıcı alayının komandir heyəti və hərbi texnikası ilə birgə Xocalı şəhərinə hücuma keçdilər. Hücumda 366-

cı alayın komandiri Zarviqorov Yuri Yureviç və mayor Ohanyan Seyran Muşeqoviçin komandanlığı altında alayın 2-ci batalyonu, Nabokix Yevgeni Aleksandroviçin komandanlığı altında 3-cü batalyonu, həmçinin 1-ci batalyonun qərargah rəisi Çitçiyan Valeriy İsaakoviç, habelə alayda xidmət edən 50-dən çox erməni və digər millətlərdən olan zabit və gizirlər iştirak edirdilər. Eyni zamanda, hücum zamanı 90-dan çox tank, piyadaların döyüş maşını, top, D-30 qaubitsası və digər müasir hərbi texnikadan istifadə olundu.

Hücumdan əvvəl şəhər şiddətli artilleriya atəşinə tutuldu. Güclü artilleriya atəşi şəhərdə olan müdafiə postlarını və müdafiə nöqtələrini sıradan çıxardı. Şəhəri artilleriya atəşinə tutduqdan sonra gecə saat 1-dən başlayaraq 4-ə qədər piyadaların şəhərə daxil olması davam etdi. Şəhərdə axırıncı müqavimət məntəqəsi səhər saat 7-də susduruldu. Bu işdə yenə də 366-cı alayın texnikasından geniş istifadə olundu.

Beləliklə, ermənilər çoxsaylı ağır tanklar, PDM və zirehli transportyorların müşayiəti ilə Xocalını ələ keçirdilər. Onlar şəhərə daxil olduqdan sonra dinc əhalini xüsusi amansızlıqla qətlə yetirməyə başladılar. Bu zaman azğınlaşmış düşmən mülki əhaliyə, o cümlədən qadınlara, uşaqlara, qocalara aman vermədən, qarşılarına çıxan insanlara müxtəlif çaplı odlu silahlardan atəş açır, tank, PDM və digər texnikanın altına salaraq əzməklə qətlə yetirirdilər. Qanunsuz erməni silahlı qüvvələri mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları milli mənsubiyyətlərinə görə yollarda, keçidlərdə, meşələrdə təqib edərək vəhşicəsinə öldürürdülər. Azğınlaşmış erməni hərbçiləri əsir və girov götürdükləri azərbaycanlıları xüsusi amansızlıqla, işgəncə verərək qətlə yetirirdilər. Mühasirədən çıxıb qaçmağa müvəffəq olan sakinlər təqib edilərək Kətik meşəsində, Naxçıvanik yolunda, Qaraqaya ətrafında, Dəhraz kəndi yaxınlığında, Şelli istiqamətində, Əsgəran asfalt yolunun 86-cı kilometrliyində və digər ərazilərdə

amansızlıqla öldürüldü. Əsir götürülənlərdən 18 nəfəri Əsgəran Rayon Daxili İşlər Şöbəsində işgəncə verilməklə qətlə yetirilmişdilər.

Hücum zamanı dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədilir, dözülməz işgəncələr verilir, insanların başlarının dərisi soyulur, müxtəlif əzaları kəsilir, gözləri çıxarılırdı. Qadınların qarınları yarılır, adamlar diri-diri torpağa basdırılır və ya yandırılır, meyitlər eybəcər hala salınırdı. Xocalıda mülki əhalinin düşünülmüş şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də budur ki, həmin gün əhalinin qaçıb qurtarmaq istəyən xeyli hissəsi ərazidən çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqularda güllələnmişdir.

Faciənin törədilməsinə xeyir-dua verənlər sırasında Ermənistanın sabiq prezidentləri Levon Ter-Petrosyan, Robert Koçaryan və işğalçı ölkənin indiki dövlət başçısı Serj Sarkisyan da yer alır. Hələ 1992-ci ildə erməni ordusuna müraciətində Levon Ter-Petrosyan deyirdi: *"Siz ermənilər düşməni öldürərkən ürəyiyumşaqlıq göstərməməlisiniz. Dağlıq Qarabağda azərbaycanlı deyilənləri qırıb qurtarana və orada öz sivilizasiyamızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir."* Dağlıq Qarabağ separatçılarına rəhbərlik edən Robert Koçaryan da eyni mövqenin sahibi idi. Ermənistan prezidenti Serj Sarkisyan isə 1992-ci ildə Xocalı soyqırımını törədən qüvvələrin komandanlarından olub, bu qüvvələri təşkilatlandıraraq yüzlərlə insanın ölüm əmrini verib və beləliklə, soyqırımında birbaşa iştirak edib. Bu mənada Sarkisyanın Tomas de Vaalın "Qara bağ" kitabında yer alan aşağıdakı fikirləri də çox şey deyir: *"Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar elə fikirləşirdilər ki, ermənilər dinc əhaliyə əl qaldırmazlar. Biz o stereotipi sındırdıq".*

Faciə baş verən gün əsasən qadınlar, uşaqlar və qocalardan ibarət dəstə Qaraqaya tərəfə üz tutaraq Əsgəranın qarşısında,

meşədə gizlənmişdi. Adamlar gecə şaxtalı havada səhərə qədər dayanıb gözlədikdən sonra dan yeri ağaran zaman meşədən çıxıb Ağdama tərəf hərəkət etmək istəyəndə pusquda dayanan ermənilərin güllələrinə tuş gəldilər. Təlaş və vahimə içərisində qaçan adamların bir dəstəsi böyük çətinliklə Dəhraz kəndinə gəlib çıxsa da, burada yenə silahlı ermənilər tərəfindən kütləvi şəkildə qətlə yetirildilər, əsir götürüldülər. Kətik meşəsinə qaçanlardan da xeyli insan qətlə yetirildi. Silahsız insanlara qarşı kütləvi qətllər törədən, soyqırımı həyata keçirən ermənilər ən vəhşi üsullardan, işgəncə metodlarından istifadə edirdilər. Bununla kifayətlənməyərək öldürülmüş insanların meyitlərinin başına da min bir oyun açdılar.

**Baş verənləri Xocalı sakinləri belə xatırlayır:**

**Camal Heydərov:** *"Qaraqaya deyilən yerin yaxınlığındakı fermanın 2 kilometrliyində eybəcər hala salınmış xeyli azərbaycanlı meyiti var idi. Qətlə yetirilmiş uşaqların sinəsini yarıb ürəklərini parçalamış, əksər meyitlər isə tikə-tikə doğranmışdılar".* Şahin Heydərov Naxçıvanik kəndi yaxınlığında 80-ə yaxın meyit görmuşdur. Meyitlər qorxulu vəziyyətə salınmış, başları kəsilmişdi. Cəlil Hümbətovun gözu qarşısında ermənilər həyat yoldaşı Firuzə, oğlu Muğan, qızı Simuzər və gəlini Südabəni güllələmişdilər.

**Kübra Paşayeva** Kətik meşəsinə girəndə ermənilərin mühasirəsinə düşmüşdü. Gizləndiyi kolluqdan həyat yoldaşı Şura Paşayevin, oğlu Elşadın güllələnməsinin şahidi olmuşdur. Xocalı işğal edilən zaman Xəzəngül Əmirovanın ailəsini erməni silahlıları bütünlüklə girov götürmüşlər. Ermənilər Xəzəngülün anası Rayanı, 7 yaşlı bacısı Yeganəni və xalası Göycəni güllələyib, atası Təvəkkül Əmirovu isə benzin tökərək yandırmışlar. Zoya Əliyeva 150 nəfərə qədər adamla 3 gün meşədə qalıb. Meşədə Zoyanın yanında Dünya Əhmədova və onun bacısı Gülxar donub ölmüşlər. Səidə Kərimovanın qızı Nəzakəti, yanında olan Tapdığı, Səadəti,

İradəni işgəncə ilə qətlə yetirmişlər. Səriyyə Talıbova isə belə bir dəhşətli hadisənin şahidi olmuşdur: *"Bizi erməni qəbiristanlığına gətirdilər... Burada erməni döyüşçüsünün qəbri üstündə 4 Məhsəti türkünü və 3 azərbaycanlını qurban kəsdilər... Sonra valideynlərinin gözü qarşısında uşaqlarına işgəncə verdilər və öldürdülər. Az sonra Milli Ordunun formasında 2 azərbaycanlı gətirdilər, ucu iti dəmirlə onların gözlərini çıxartdılar".* Faciə baş verən zaman 11 yaşı olan Ramil Həsənov xatırlayır ki, dostlarım Elçin və Elgizin meşədə necə öldüklərini yadımdan çıxara bilmirəm, onların ayaqları donmuşdu, bizimlə qaça bilmirdilər, laldinməz qarın üstündə uzanmışdılar və yavaş-yavaş gözlərini yumurdular.

Həmin dövrdə Xocalıdan Ağdama gətirilmiş 181 meyit (130 kişi, 51 qadın, 13 uşaq) məhkəmə-tibbi ekspertizadan keçirilmişdir. Nəticədə müəyyən edilmişdir ki, 151 nəfər güllə, 20 nəfər qəlpə, 10 nəfər küt alətlərlə öldürülüb, meyitlərin əksəriyyətinin baş dəriləri soyulub, burunları, qulaqları və digər orqanları kəsilib.

Törədilən vəhşilikləri sonradan ermənilər özləri də açıq etiraf edirdilər. Qarabağ hadisələrinin iştirakçışı, ermənilərin ən çox sevdiyi ideoloqlarından olan yazıçı Zori Balayan "Ruhumuzun dirçəlişi" adlı kitabında Xocalıda törətdikləri soyqırımı haqqında yazır: *"Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq".*

Erməni yazıçı-jurnalisti **David Xerdiyan** da Xocalıda ermənilərin azərbaycanlıların başına gətirdikləri müsibətləri **"Xaç uğrunda"** kitabında fəxrlə xatırlayır: *"Səhərin soyuğunda biz Daşbulaq yaxınlığındakı bataqlıqdan keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən ölülərin üstündə getmək istəmədim. Bunu görən podpolkovnik Ohanyan mənə işarə etdi ki, qorxmayım. Mən ayağımı 9-11 yaşlı qız meyitinin sinəsinə basıb addımlamağa başladım. Mənim ayaqlarım və şalvarım qan içində idi. Martın 2-də "Qaflan" erməni qrupu türklərin cəsədlərini toplayıb ayrı-ayrı hissələrlə Xocalının 1 kilometrliyində yandırdı. Axırıncı yük maşınında mən başından və qollarından yaralanmış təxminən 10 yaşlı bir qız uşağını gördüm. Diqqətlə baxanda gördüm ki, o, yavaş-yavaş nəfəs alır. Soyuğa, aclığa və ağır yaralanmasına baxmayaraq, o hələ də sağ idi. Ölümlə mübarizə aparan bu uşağın gözlərini mən heç vaxt yaddan çıxarmayacam. Sonra Tiqranyan familiyalı bir əsgər onun qulaqlarından tutub artıq üzərinə mazut tökülmüş cəsədlərin içərisinə atdı. Daha sonra onları yandırdılar. Tonqaldan ağlamaq və imdad səsləri gəlirdi".*

Baş verən bu dəhşət haqqında dünya mediasında aşağıdakı fikirlər yer almışdı: **"Krua l'Eveneman" jurnalı (Paris)**: "Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılar çoxlu sayda ölənlər barədə xəbər verirlər".

**"Sandi Tayms qəzeti" (London), 1 mart 1992-ci il**: "Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər".

**"Faynənşl Tayms" qəzeti (London), 9 mart 1992-ci il:** "Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar. Livanlı kinooperator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir".

**"Tayms" qəzeti (London), 4 mart 1992-ci il:** "Çoxları eybəcər hala salınmışdır, körpə qızın ancaq başı qalmışdır".

**"İzvestiya" (Moskva), 4 mart 1992-ci il:** "Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir. Kişilərin skalpları götürülmüşdür".

**"Faynənşl Tayms" qəzeti (London), 14 mart 1992-ci il:** "General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 nəfər erməni hərbçisi Dağlıq Qarabağda qalmışdır".

**"Le Mond" qəzeti (Paris), 14 mart 1992-ci il:** "Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxarılmış 3 nəfəri görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, bu, reallıqdır".

**"İzvestiya" (Moskva), 13 mart 1992-ci il**: "Mayor Leonid Kravets:" "Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü".

**"Valer aktuel" jurnalı (Paris), 14 mart 1992-ci il:** "Bu "muxtar region"da erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər".

## Ümummilli lider Xocalı soyqırımının siyasi-hüquqi qiymətini verdi

**«Orli qrupu»:** 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılıb. Təşkilat 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirib.

**«Erməni soyqırım ədalət komandosları»:** 1972-ci ildə Vyanada «Daşnaksütyun» partiyasının qurultayı zamanı yaradılıb. «Erməni soyqırımı ədalət komandosları»nın məqsədi erməni əsilli

gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir.

**«Erməni birliyi»:** 1988-ci ildə Moskvada yaradılmışdır. «ASALA» ilə sıx əlaqələri vardır, keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir. Dağlıq Qarabağa silah və muzdluların ötürülməsində iştirak edir.

**«Demokratik cəbhə»:** ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərir. Başlıca məqsədi türk dövlətinin parçalanmasıdır.

**«Apostol»:** 2001-ci il aprel ayının 29-da əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir.

**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası**

**18 yanvar 2011 – ci il.**

# ERMƏNİ TERRORÇULARININ FƏALİYYƏTİNİN XRONOLOJİ İCMALI (1973-1987-ci illər)

*** 27 yanvar 1973-cü il.** Amerika Birləşmiş Ştatları, Santa Barbara, Kaliforniya: 78 yaşlı mühacir Qurgen Yanikyan Los-Ancelesdə Türkiyənin baş konsulu Mehmet Baydarı və konsul Bahadur Demiri qətlə yetirib; Qətl Santa Barbarada "Bilamor" hotelində həyata keçirilib. Bu qətl bu günə qədər davam edən erməni terrorizm zəncirinin ilk həlqəsi idi.

*** 27 yanvar 1973-cü il.** Fransa, Paris: Türkiyə konsulluğunun və Türkiyənin avianəqliyyat binaları qarşısında bir-birinin ardınca iki bomba partladılıb. Xəsarət alan olmasa da binaya xeyli ziyan dəyib. Məsuliyyəti heç kim öz üzərinə götürməsə də, asayiş orqanlarının fikrincə, cinayət erməni qrupu tərəfindən törədilib.

*** 26 oktyabr 1973-cü il**. Amerika Birləşmiş Ştatları, Nyu-York: Türkiyənin informasiya xidməti Baş konsula ünvanlanmış, içərisində bomba və məktub olan bağlama alıb. Bağlama 1973-cü ilin yanvarında Kaliforniya Ştatının Santa Barbara şəhərində qətl törədilmiş şəxsin adı ilə adlandırılan "Yanikyan dəstəsi"ndən göndərilib. Bomba polis tərəfindən zərərsizləşdirilib.

*** 20 yanvar 1975-ci il.** Livan, Beyrut: 1978-ci ilin mətbuat konfransının gedişində Ermənistanın adından çıxış edən ASALA nümayəndəsi bildirmişdir ki, onun qrupunun birinci əməliyyatı məhz 1975-ci il yanvarın 20-də olub. O zaman Ümumdünya Kilsə Birliyinin Beyrut təşkilatının binası partladılmışdı.

*** 7 yanvar 1975-ci il.** Livan, Beyrut: Türkiyənin İnformasiya Agentliyi və Turizm Bürosunun binasına bomba qoyulub. Bombanı zərərsizləşdirən zaman Livan polisi yaralanıb. Partlayışa

görə məsuliyyəti dustaqlıqda olan Qurgen Yanikyanın qrupu ASALA öz üzərinə götürüb.

*** 20 fevral 1975-ci il.** Livan, Beyrut: Beyrutda Türkiyə Avtonəqliyyat Kompaniyasının binası qarşısında bir kiloqramlıq bomba partladılıb. Nəticədə xeyli dağıntı baş verib. Partlayışa görə məsuliyyəti dustaq Qurgen Yanikyanın qrupu ASALA öz üzərinə götürüb.

*** 22 oktyabr 1975-ci il.** Avstriya, Vyana: Üç silahlı cani Vyanada Türkiyə səfirliyinə soxularaq Türkiyənin səfiri Tunalicili öldürmüşdür. Gizlənməyə nail olmuş banditlər İsraildə, Böyük Britaniya və Macarıstanda istehsal edilən avtomat silahla silahlanmışlar. Törədilmiş cinayətə görə məsuliyyəti Ermənistanın Müzəffər Ordusu adlandırılan qrup öz üzərinə götürüb.

*** 14 oktyabr 1975-ci il**. Fransa, Paris: Fransada Türkiyənin səfiri İsmayıl Erez səfirliyin yaxınlığında şəxsi avtomobilində öldürülüb. Hücum zamanı səfirin sürücüsü Talin Ener də qətlə yetirilib. Əvvəlcə məsuliyyəti "Erməni xalqının soyqırımına görə qisasçı desant dəstəsi" öz üzərinə almış, lakin sonradan naməlum şəxs Frans press agentliyinə zəng vuraraq bəyan etmişdir ki, qətli Ermənistanın azadlığı uğrunda Erməni Gizli Ordusu - ASALA həyata keçirib.

*** 28 oktyabr 1975-ci il.** Livan, Beyrut: Beyrutda Türkiyənin səfirliyi raket zərbəsinə məruz qalmış və bina xeyli dağılmışdı. Buna görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

*** 16 fevral 1976-cı il.** Livan, Beyrut: Beyrutda Türkiyə səfirliyinin birinci katibi Oqtay Sirit Xəmra Stritin qəbul otağında oturarkən terrorçu tərəfindən qətlə yetirilib. Cinayətkar gizlənməyə nail olub. ASALA hücuma görə məsuliyyəti öz üzərinə götürüb.

***17 may 1976-cı il.** Almaniya Federativ Respublikası, Frankfurt, Essen, Köln: Üç alman şəhərində Türkiyə konsulluqlarında baş vermiş partlayışlar xeyli dağıntılar törədib.

Heç bir qrup məsuliyyəti öz üzərinə götürməyib. Lakin anonim telefon zəngi cinayət törədənlərin erməni olduğunu xəbər verib.

*** 28 may 1976-cı il.** İsveçrə, Sürix: Əmək məsələləri üzrə türk attaşesinin yerləşdiyi Türkiyənin "Qrantlar" Bankı İsveçrə filialının binasında iki bomba partladılması nəticəsində dağıdılıb. Turizm üzrə Türkiyə bürosunun müəssisəsinə qoyulmuş üçüncü bomba partlayışa qədər zərərləşdirilib. Partlayışa görə heç bir qrup məsuliyyəti öz üzərinə götürməsə də, hüquq-mühafizə orqanları əmindirlər ki, burada "Erməni xalqının soyqırımına görə ədalət qrupu" - CSAQ adlanan erməni terrorçu təşkilatının əli vardır.

*** 2 mart 1977-ci il.** Livan, Beyrut: Güclü partlayış nəticəsində Türkiyənin hərbi attaşesi Nahid Qarakay və inzibati-təsərrüfat məsələləri üzrə attaşe İlham Özbabakana mənsub olan avtomobillər sıradan çıxarılıb. Partlayışlara görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

*** 14 mart 1977-ci il.** Fransa, Paris: Parisdə turizm üzrə Türkiyə bürosunun binasında partlayış törədilib. Nəticədə qapıçı yüngül yaralanıb. Hücuma görə məsuliyyəti iki müxtəlif erməni qrupu öz üzərinə götürüb;
a)"Yeni Erməni Müqaviməti",
b)"Gənclərin çıxışları qrupu"

*** 29 may 1977-ci il.** Türkiyə, İstanbul: İstanbulun Yaşıçay aeroportunda güclü bomba partladılıb. Nəticədə 5 nəfər həlak olub, 42 nəfər yaralanıb (onlardan biri ABŞ vətəndaşıdır). Elə həmin gün İstanbulun Sirkəs vağzalında bomba partladılıb.1 nəfər həlak olub, 10 nəfər yaralanıb. Vağzalın binası güclü zərər çəkib. Afinada Frans press agentliyinə "28 may erməni təşkilatı" adlanan qrup adından anonim zənglər edilib. Təşkilat partlayışa görə məsuliyyəti öz üzərinə götürüb.

*** 6 iyun 1977-ci il.** İsveçrə, Sürix: Güclü partlayış nəticəsində türk Hüseyn Bülbülə məxsus mağaza partladılıb. Bu aksiyaya görə heç bir qrup məsuliyyəti öz üzərinə götürməsə də, ehtimal olunur ki, bu erməni terrorçularının işidir.

*** 9 iyul 1977-ci il.** İtaliya, Vatikan: Roma Papasının xidmət etdiyi Kafedral Kilsədə Türkiyənin səfiri Taha Kərim özünün iqamətgahı qarşısında iki terrorçu tərəfindən öldürülüb. "Erməni xalqının soyqırımına görə ədalət" qrupu (CSAQ) Beyrutda informasiya agentliyinə zəng edərək hücuma görə məsuliyyəti öz üzərinə götürüb.

*** 4 oktyabr 1977-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya Ştatı: Amerikalı yəhudi, Kaliforniya Universitetində (Los-Anceles) Türkiyə tarixi ilə məşğul olan professor Standord ġounun evi qarşısında bomba partladılıb. Heç kəs ziyan çəkməsə də bina dağıdılıb. Yunayted Press İnterneşnlə (YPĠ) anonim telefon zəngləri xəbər verib ki, partlayışı "28 may erməni qrupu" törədib.

* **2 yanvar 1978-ci il**. Belçika, Brüssel: Bomba partlaması nəticəsində Türkiyənin bank xidməti dağıdılıb. Hücuma görə məsuliyyəti "Yeni Erməni Müqaviməti" adlanan erməni terrorçu qrupu öz üzərinə götürüb.

*** 2 iyun 1978-ci** il. İspaniya, Madrid: Avtomat silahlarla silahlanmış üç terrorçu Türkiyənin səfiri Zəki Küneralpın maşınına hücum edib. Səfirin həyat yoldaşı Nekla Küneralp da həlak olub. Milliyyətcə ispan olan sürücü Antonio Torres yaralanıb və xəstəxanada əməliyyat zamanı keçinib. İyunun 3 - də anonim şəxs telefonla zəng edərək bildirib ki, hücuma görə məsuliyyəti ASALA öz üzərinə götürüb. Sonra bunu CSAQ təsdiq edib.

*** 2 dekabr 1978-ci il.** İsveçrə, Cenevrə: Türkiyənin konsulluğu qarşısında partlayış baş verib. Bu, xeyli dağıntı törədib. Aksiyaya görə məsuliyyəti "Yeni Erməni Müqaviməti" qrupu öz üzərinə götürüb.

*** 2 dekabr 1978-ci il**. İsveçrə, Cenevrə: Cenevrədə Türkiyə Avtonəqliyyat Kompaniyasının binasında partlayış olub. Məsuliyyəti ASALA öz üzərinə götürüb.

***8 iyul 1979-cu il.** Fransa, Paris: Fransa paytaxtında Türkiyə müəssisələrindən dördündə partlayış törədilib:
1. Birinci bomba Türkiyə Avtonəqliyyat Kompaniyasının binasında,
2. İkinci bomba Əmək məsələləri üzrə attaşenin binasında,
3. Üçüncü bomba Turizm üzrə Türkiyə bürosunun binasında partladılıb,
4. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının işi üzrə Türkiyə daimi nümayəndəliyinin binasına qoyulmuş dördüncü bomba partlayışa qədər polis tərəfindən zərərsizləşdirilib. Anonim zəng Frans press agentliyinə xəbər verib ki, partlayışa görə terrorçu CSAQ təşkilatı məsuliyyət daşıyır.

***22 avqust 1979-cu il.** İsvecrə, Cenevrə: Bomba Cenevrədə türk konsulu Niyazi Ədalın maşınına qoyulub. Konsul özü xəsarət almasa da iki digər maşına zərər dəyib və yerli sakinlərdən iki nəfər yaralanıb. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***27 avqust 1979-cu il**. Almaniya Federativ Respublikası, Frankfurt: Partlayışlar nəticəsində Frankfurtda Türkiyə Avtonəqliyyat Kompaniyasının binası dağıdılıb. Bir sərnişin xəsarət alıb. Hücuma görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***4 oktyabr 1979-cu il.** Danimarka, Kopenhagen: Türkiyə Avtonəqliyyat Kompaniyasının yaxınlığında kağız üçün səbətə qoyulmuş bombanın partlayışı nəticəsində iki danimarkalı yaralanıb. Partlayış həmçinin xeyli dağıntı törədib. Hücuma görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***12 oktyabr 1979-cu il.** Hollandiya, Haaqa: Türkiyə səfiri Özdəmir Benlerin 27 yaşlı oğlu Əhməd Benler öz maşınında öldürülüb. Delftdə Texniki Universitetin doktorantının qətli 10 şahidin gözü qarşısında baş verib. Cani aradan çıxıb. Hücuma görə məsuliyyəti iki terrorçu təşkilat CSAQ və ASALA öz üzərinə götürüb.

*****30 oktyabr 1979-cu il.** İtaliya, Milan: Partlayış nəticəsində Türkiyə Avtonəqliyyat Kompaniyasının binası xeyli dağıdılıb. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***8 noyabr 1979-cu il.** İtaliya, Roma: Turizm üzrə attaşenin yerləşdiyi Türkiyə səfirliyinin binası partlayış nəticəsində güclü zərər çəkib. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***18 noyabr 1979-cu il**. Fransa, Paris: Parisin mərkəzində törədilən partlayışlar nəticəsində aviakompaniyaların üç binası dağıdılıb:

1. Türkiyə avtonəqliyyat kompaniyası;
2. Danimarkanın "KLM" avtonəqliyyat kompaniyası;
3. Almaniyanın "lufthanz" avianəqliyyat kompaniyası.

Nəticədə iki fransız polisi yaralanıb. Hər üç hadisəyə görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***25 noyabr 1979-cu il.** İspaniya, Madrid: Amerikanın Avtonəqliyyat Kompaniyasının və "Britaniya aviasiya xətləri" kompaniyasının binaları qarşısında partlayışlar olub. Bu partlayışlara görə məsuliyyəti öz üzərinə götürən ASALA bildirib ki, bu Türkiyəyə səfərə hazırlaşan Pol Con Pola xəbərdarlıqdır.

*****9 dekabr 1979-cu il.** İtaliya, Roma: Romanın mərkəzində baş verən iki partlayış nəticəsində Amerikanın Avtonəqliyyat kompaniyası "Panam"ın, "Uorld Eyr Laync" "Britaniya aviasiya xətləri" və "Filippin aviasiya xətləri" kompaniyalarının binaları zədələnib, 9 adam yaralanıb. Bu partlayışa görə məsuliyyəti "Yeni Erməni Müqaviməti" öz üzərinə götürüb.

*** 17 dekabr 1979-cu il.** Britaniya Birləşmiş Krallığı, London: Türkiyə Avtonəqliyyat kompaniyasinin London filialının qarşısında törədilən partlayış nəticəsində xeyli ziyan dəyib. Partlayışa görə məsuliyyəti "Ermənistanın azadlığı uğrunda cəbhə" adlanan qrup öz üzərinə götürüb.

*22 dekabr 1979-cu il.** Fransa, Paris: Türkiyə səfirliyində turizm üzrə attaşe Yılmaz Şolpan adamlarla dolu Şanz Elizdə (Yelisey Gölü) gəzərkən silahlı bandit tərəfindən qətlə yetirilib. Aksiyaya görə məsuliyyəti bir neçə qrup, o cümlədən ASALA, CSAQ və "Soyqırıma qarşı erməni yaraqlıları dəstəsi" öz üzərinə götürüblər.

***22 dekabr 1979-cu il.** Hollandiya, Amsterdam: Türkiyə Avtonəqliyyat kompaniyasının binası qarşısında törədilən partlayış nəticəsində xeyli dağıntılar baş verib. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

*23 dekabr 1979-cu il.** İtaliya, Roma: Fransa Avtonəqliyyat kompaniyasının və Amerika Avtonəqliyyat kompaniyası Trans Urold Eyr Layns-ın Roma filiallarının binaları qarşşısında törədilən 3 partlayış nəticəsində yaxınlıqdan keçən çoxlu adam yaralanıb. Partlayışa görə məsuliyyəti öz üzərinə götürən ASALA bəyan edib ki, bombalar "Fransada yaşayan ermənilərə qarşı fransız hökumətinin repressiv çıxışlara cavab tədbiri" kimi qoyulub.

*23 dekabr 1979-cu il.** İtaliya, Roma: Romada Ümumdünya Kilsələr ġurası yanında qaçqınlar məsələsi üzrə mərkəzin binası qarşısında partlayış baş verib. Bu mərkəz Livandan gələn erməni qaçqınları üçün "yerboşaltma" məntəqəsi kimi istifadə olunurdu. Partlayışa görə məsuliyyəti öz üzərinə götürən ASALA "erməni diasporunun" fəaliyyətini dayandırmaq haqqında İtaliya hökumətini xəbərdar etmişdi.

*10 yanvar 1980-ci il.** İran, Tehran: Türkiyə Avtonəqliyyat kompaniyasının binası qarşısında baş verən partlayış xeyli dağıntı törədib. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***10 yanvar 1980-ci il.** İspaniya, Madrid: Amerika "Trans Urold Eyr Layns" avionəqliyyat kompaniyasının, "Britaniya aviasiya xətləri" kompaniyası, habelə "Sui Eyr" və "Sabena" kompaniyalarının binaları qarşısında törədilmiş bir sıra partlayışlar çoxlu adamın yaralanmasına gətirib çıxarıb. Partlayışa görə

məsuliyyəti "Erməni xalqının soyqırımına görə ədalət qrupu" öz üzərinə götürüb.

***2 fevral 1980-ci il.** Belçika, Brüssel: Brüsselin mərkəzində Türkiyə Avtonəqliyyat Kompaniyasının və Sovet İttifaqının "Aeroflot" şirkətinin binaları qarşısında beş dəqiqə ərzində iki bomba partladılıb. "Yeni erməni müqaviməti qrupu"nun rəsmi məlumatında bəyan edilib ki, hər iki partlayış bu qrup tərəfindən yerinə yetirilib.

***6 fevral 1980-ci il.** İsveçrə, Bern: Berndə Türkiyə səfirliyinin binası qarşısında terrorçu öz avtomobilinə minən türk səfiri Doğan Türkmənə atəş açıb. Səfir yüngül yaralanıb. Maks Qılıncyan adlı qatil sonralar Marseldə yaxalanmış və istintaqın aparılması üçün İsveçrəyə qaytarılmışdır. İnsidentə görə məsuliyyəti CSAQ terrorçu təşkilatı öz üzərinə götürüb.

***18 fevral 1980-ci il.** İtaliya, Roma: iki partlayış nəticəsində üç avianəqliyyat kompaniyasının ("Suis Eyr", "El-Al" və Lufthanza") binalarına zərər dəyib. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb. Roma İnformasiya Agentliyinə edilən anonim telefon zəngi xəbər verib ki, aşağıdakı səbəblərə görə üç avtonəqliyyat kompaniyası hücum obyektinə çevrilib:

a)"Suns-Eyr" - İsveçrə hökumətinə xəbərdarlıq edilib ki, günahsız erməniləri həbsxanada saxlamasın.

b)"Lufthanza" - guya türk faşizmini dəstəkləyən alman hökumətini cəzalandırmaq.

v)"El-Al" - sionizm ilə əlaqəyə görə.

***10 mart 1980-ci il.** İspaniya, Roma: Roma Piatsa della Respublikada Türkiyə Avtonəqliyyat kompaniyasının və Turizm üzrə Türkiyə bürosunun binaları iki güclü partlayış obyektinə çevrilib. Güclü partlayış dalğası nəticəsində 2 italiyalı həlak olub və 14 nəfər yaralanıb. Partlayışa görə məsuliyyəti "Yeni erməni müqaviməti qrupu" öz üzərinə götürüb.

***17 aprel 1980-ci il**.İspaniya, Roma: Üç erməni terrorçu Papanın xidmət etdiyi Kafedral Kilsəsində Türkiyə səfirinə atəş açılıb. Səfir şəxsi maşınında özünün iqamətgahından gəlirmiş. O, yüngül yaralanıb. Sui-qəsd zamanı mühafizəçi və sürücü Taxsın Güvənci də yaralanıb. Hücuma görə məsuliyyəti CSAQ öz üzərinə götürüb.

***19 may 1980-ci il.** Fransa, Marsel: Türkiyənin Marseldəki konsulluğuna tullanmış raket aşkarlanıb və zərərsizləşdirilib. Məsuliyyəti ASALA və özlərini "Qara Aprel" adlandıran qrup öz üzərinə götürüblər.

***31 iyul 1980-ci il.** Yunanıstan, Afina: Afinada Türkiyə səfirliyinin idarəetmə məsələləri üzrə attaşe Qalib Osmanın və onun ailəsinin olduqları maşın erməni terrorçularının hücumuna məruz qalıb. Qalib və onun 14 yaşlı qızı Neslixan həlak olublar. Onun həyat yoldaşı Sevil və 16 yaşlı oğlu Kaon yaralanıblar. Qətlə görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***5 avqust 1980-ci il.** Fransa, Lion: İki terrorçu Lionda Türkiyə konsulluğunun binasına soxulmuş və qapıçıdan konsulun yerini soruşub. Sonra onlar atəş açıblar. Nəticədə iki şahid həlak olub və bir neçə nəfər yaralanıb. Hücuma görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***11 avqust 1980-ci il.** Amerika Birləşmiş Ştatları, Nyu-York: "İki saxta bomba" Nyu-Yorkda konsul hüququ olan Türkiyənin BMT nümayəndəliyinin binası qarşısına atılıb. "Bombalardan" birinə bağlanmış məktubda deyilir ki, bu aksiyada məqsəd "imperialist Türkiyə hökumətinin erməni xalqına qarşı törətdiyi cinayətləri yada salmaqdan ibarətdir". Məktubu "Erməni qrupu" imzalayıb.

***26 sentyabr 1980-ci il.** Fransa, Paris: Türkiyə səfirliyinin mətbuat məsələləri üzrə müşaviri Səlcuq Bakalbaşı mənzilinə girərkən iki dəfə atəş açılıb. Bakalbaşı sağ qalsa da, sonralar iflic olub. Hücuma görə məsuliyyəti ASALA və "Erməni gizli ordusu təşkilatı" adlanan qrup öz üzərinə götürüb.

*__3 oktyabr 1980-ci il__. İsveçrə, Cenevrə: 2 erməni terrorçusu Cenevrədə mehmanxana nömrəsində bomba hazırlayarkən partlayış baş vermiş və onlar partlamışlar. İsveçrə polisi hər iki terrorçunu Kaliforniyanın Kanoza Parkından olan Süzi Mahserecyanı və Aleksandr Yenikomiçyanı həbs edib. Onların həbsi ASALA-nın yeni "filialının" -"3 oktyabr təşkilatı"nın yaradılmasına səbəb olub. Sonralar bütün dünyada İsveçrə müəssisələri bu təşkilatın hücumlarına məruz qalmışdır.

***3 oktyabr 1980-ci il.** İtaliya, Milan: Türkiyənin Avtonəqliyyat kompaniyasının binası qarşısında törədilən partlayış nəticəsində iki italiyalı yaralanıb. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***3 oktyabr 1980-ci il**. İspaniya, Madrid: Partlayış nəticəsində İtaliyanın "Al İtaliya" aviokompaniyasının binası dağıdılıb. 12 nəfər yaralanıb. "Ermənistanın azadlığı uğrunda gizli ordu" partlayışa görə məsuliyyəti öz üzərinə götürüb.

***3 oktyabr 1980-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya: Los-Ancelesdə Türkiyənin konsulu Kamal Arkanın evinə yandırıcı maddə atılıb. Binaya azacıq ziyan dəyib. Anonim telefon zəngi aksiyanın ermənilərin naminə törədildiyini bildirib.

***10 oktyabr 1980-ci il**. Livan, Beyrut: Qərbi Beyrutda İsveçrənin müəssisəsi qarşısında partlayış törədilib. Bir neçə gündən sonra "3 oktyabr təşkilatı" qrupu partlayışa görə məsuliyyəti öz üzərinə götürüb. İngiltərədə də İsveçrə müəssisələrində buna bənzər aksiyalar törədilib.

*__12 oktyabr 1980-ci il__. Amerika Birləşmiş Ştatları, Nyu-York: Nyu-Yorkda Türkiyə mehmanxanası qarşısında qaçırılmış avtomobilə qoyulmuş bomba partladılıb. Partlayış nəticəsində 4 amerikalı həlak olub, qonşu binalara xeyli ziyan dəyib. CSAQ qrupu kütləvi informasiya vasitələrinin nümayəndələrinə zəng vuraraq partlayışın onlar tərəfindən törədildiyini bildirib.

***12 oktyabr 1980-ci il.** Böyük Britaniya Birləşmiş Krallığı, London: Türkiyənin turizm və informasiya bürosunun binası partlayış nəticəsində xəsarət alıb. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***12 oktyabr 1980-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya: Hollivudda Amerika mənşəli türkün başçılıq etdiyi Səyyahlar Agentliyinin binası partladılıb. CSAQ terror təşkilatı partlayışa görə məsuliyyəti öz üzərinə götürüb.

***12 oktyabr 1980-ci il**. Böyük Britaniya Birləşmiş Krallığı, London: Partlayış nəticəsində Londonun mərkəzindəki İsveçrənin ticarət kompleksi zədələnib. Teleqraf agentliyinə edilən zənglərdən məlum olub ki, aksiya "3 oktyabr "təşkilatı"nın işidir.

***13 oktyabr 1980-ci il.** Fransa, Paris: Parisdə Turizm üzrə İsveçrə Bürosunun binası partlayış nəticəsində zərər çəkib. Partlayışa görə məsuliyyəti "3 oktyabr təşkilatı" adlanan qrup öz üzərinə götürüb.

***21 oktyabr 1980-ci il**. İsveçrə, İnterleykn: Parisdən İnterleyknə gedən İsveçrə qatarında bomba tapılıb. Asayişi mühafizə orqanlarının ehtimalına görə, bomba "3 oktyabr təşkilatı"nın üzvləri tərəfindən qoyulub.

***3 noyabr 1980-ci il.** İsveçrə, Cenevrə: Cenevrədə İsveçrə Məhkəməsinin binasına partlayış nəticəsində güclü ziyan dəyib. İsveçrə hökuməti bildirib ki, partlayış ASALA-dan olan iki terrorçunun 1980-ci il oktyabrın 3-də həbs olunmuş Süzi Mahserecyan və Aleksandr Yenikomeçyanın işidir. Sonralar partlayışa görə məsuliyyəti "3 oktyabr təşkilatı" öz boynuna alıb.

***9 noyabr 1980-ci il.** Fransa, Strasburq: Partlayış nəticəsində Strasburqda Türkiyə konsulluğunun binası güclü ziyan çəkib. Partlayışa görə məsuliyyəti "Kürd Fəhlə Partiyası" qrup ilə birgə ASALA öz üzərinə götürüb.

***10 noyabr 1980-ci il.** İtaliya, Roma: Romada İsveçrə avtonəqliyyat kompaniyası və İsveçrə Turizm Bürosu binalarının partladılması nəticəsində beş nəfər yaralanıb. Dərhal partlayışa

görə məsuliyyəti "3 oktyabr təşkilatı" öz boynuna alıb. Sonralar ASALA və "Kürd Fəhlə Partiyası"da eyni hərəkət edib.

*__19 noyabr 1980-ci il.__ İtaliya, Roma: Türkiyə səfirliyinin turizm üzrə bürosu və Türkiyə Avtonəqliyyat kompaniyası nümayəndələrinin yerləşdiyi binanın partladılması nəticəsində ciddi ziyan dəyib. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***25 noyabr 1980-ci il**. İsveçrə, Cenevrə: Cenevrədə partlayış nəticəsində Birləşmiş İsveçrə Bankı zərər çəkib və bir nəfər yaralanıb. Partlayışa görə məsuliyyəti "3 oktyabr təşkilatı" öz üzərinə götürüb.

***5 dekabr 1980-ci il.** Fransa, Marsel: Marseldə polis eksperti İsveçrə konsulluğuna qoyulmuş bombanı zərərsizləşdirib. Asayışın mühafizəsi orqanları hesab edirlər ki, bomba "3 oktyabr təşkilatı" tərəfindən qoyulub.

***25 dekabr 1980-ci il**. İsveçrə, Sürix: Partlayış nəticəsində Sürixin Kloten aeroportunda radiolokasiya qurğusunun nəzarət aparatı sıradan çıxarılıb. Aeroportun uçuş-eniş zolağına qoyulmuş ikinci bomba xüsusi ekspertlər dəstəsi tərəfindən zərərsizləşdirilib. Aksiya "3 oktyabr təşkilatı" tərəfindən törədilib.

***29 dekabr 1980-ci il.** İspaniya, Madrid: Madriddə "Suke Eyr" kompaniyasının binasında partlayışın səbəblərinin təhqiq olunmasında iştirak edən ispan reportyoru ciddi yaralanıb. O, öz qəzetinə məlumat verərkən zəng etdiyi telefon budkasının yaxınlığında ikinci bomba partlayıb. Hər iki partlayışa görə məsuliyyəti "3 oktyabr təşkilatı" öz üzərinə götürüb.

***30 dekabr 1980-ci il.** Livan, Beyrut: Beyrutda "Kredit - Suns" kompaniyasının binası partladılıb. Partlayışa məsuliyyəti "3 oktyabr təşkilatı" öz üzərinə götürüb.

*__2 yanvar 1981-ci il.__ Livan, Beyrut: ASALA mətbuatda rəsmi xəbərlərlə çıxış edərək bütün dünyada İsveçrə diplomatlarına hücumlar edəcəyi barədə hədə-qorxu gəlib. Bu

bəyanat guya İsveçrə həbsxanasında "Süzi end Aleks"ə, ASALA-dan olan iki terrorçuya qarşı pis münasibətə görə səsləndirilib. Yanvarın 4-də ASALA bəyan edib ki, isveçrəlilərin mənafeyinə cavab verməyən bütün tədbirləri 1981-ci il yanvarın 15-dək təxirə salmağı qərara alıb.

***14 yanvar 1981-ci il.** Fransa, Paris: Parisdə Türkiyə səfirliyinin maliyyə müşaviri Əhməd Ərbəylinin maşınında partlayış törədilib. Ərbəylinin özü xəsarət almayıb. Lakin maşını tamamilə sıradan çıxıb. Qonşu binalara da ciddi ziyan dəyib. Özünü "Aleks Yenikomeriyanın dəstəsi" adlandıran qrup partlayışa görə məsuliyyəti öz üzərinə götürüb.

***27 yanvar 1981-ci il.** İtaliya, Milan: Partlayışlar nəticəsində Milanda "Suns Eyr" kompaniyasının və turizm bürosunun binaları zərər çəkib. "3 oktyabr təşkilatı" kütləvi informasiya vasitələrinin yerli nümayəndələrinə zəng vuraraq partlayışı onların törətdiklərini bildirib.

***3 fevral 1981-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya: Los-Ancelesin xüsusi ekspertlər dəstəsi tərəfindən İsveçrə konsulluğunun girəcəyində pilləkənin altında qoyulmuş bombanı zərərsizləşdirib. Anonim telefon zəngi aksiyanın "3 oktyabr təşkilatı"nın işi olduğunu vurğulayıb. Eyni zamanda anonim zəng vuran bildirib ki, "biz dostumuz" Süzi Mahserecyan azad edilməyincə belə aksiyaları davam etdirəcəyik.

***3 fevral 1981-ci il.** Fransa, Paris: Parisdə Amerikanın "Qranduorld Eyç Layns" avianəqliyyat kompaniyasının və Fransa aviasiya kompaniyasının binalarına qoyulmuş bombaların partladılması nəticəsində bir nəfər yaralanıb, habelə xeyli ziyan dəyib. Özünü "3 oktyabr Erməni Milli Hərəkatı" adlandıran qrup partlayışa görə məsuliyyəti üzərinə götürüb.

***4 mart 1981-ci il.** Fransa, Paris: İki terrorçu Parisdə Türkiyə səfirliyinin əmək məsələləri üzrə attaşe Rəşad Moraliyə, dini işlər üzrə məsul şxs Təssəli Ariyə və "Anadolu Bank"ın nümayəndəsi İlkay Qaraqoça atəş açıb. Birinci güllə Təssəli Ariyə

dəyib. Morali və Qaraqoç qaçmağa cəhd göstərib. Morali kafedə gizlənmək istəyib, lakin kafenin sahibi onu küçəyə itələyib və dərhal terrorçu gülləsinə tuş gəlib. Qaraqoç isə hadisə yerindən qaçıb. Terrorçular da aradan çıxa biliblər. Ağır yaralanmış Təssəli Ari səhəri gün Paris xəstəxanasında keçinib. ASALA-dan olan "Şahan Natali" qrupu qətlə görə məsuliyyəti öz üzərinə götürüb.

***12 mart 1981-ci il.** İran, Tehran: Bir qrup terrorçu Tehranda Türkiyə səfirliyinə hücum edib, 2 keşikçi öldürülüb. Terrorçulardan ikisi yerli hökumət tərəfindən yaxalanıb və sonra edam olunub. Hücuma görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***3 aprel 1981-ci il.** Danimarka, Kopenhagen: Türkiyə səfirliyinin əmək məsələləri üzrə attaşesi Qabid Demir axşam evinə qayıdarkən terrorçular tərəfindən atəşə tutulub. Cərrahi əməliyyatdan sonra Demir sağalıb. Hücuma görə məsuliyyəti ASALA və CSAQdan olan erməni terrorçuları öz üzərlərinə götürüblər.

***3 iyun 1981-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya: "Anaxayım Konven Mərkəzi"ndə qoyulmuş bombanın partlaması Türkiyənin Xalq rəqsləri ansamblının tamaşasına mane olub. Sonrakı günlərdə də Şimali Kaliforniyadan olan qrupun tamaşasına yol verilməyib.

***9 iyun 1981-ci il.** İsveçrə, Cenevrə: Cenevrədə Türkiyə konsulluğunun katibi Mehmet Savaş Ergüz konsulluqdan çıxarkən qətlə yetirilib. Martir Camqoçyan adlı terrorçu hökumət tərəfindən həbs olunub. Hücuma görə məsuliyyəti ASALA öz üzərinə götürüb. Camqoçyanın həbsi ASALA-nın yeni qrupunun "9 iyun təşkilatı"nın yaranmasına səbəb oldu. Sonralar bu təşkilat istər İsveçrə müəssisələrində, istərsə də digər Avropa ölkələrində bir sıra partlayışlar törədib.

*** 11 iyun 1981-ci il.** Fransa, Paris: Aroy Toryanın başçılıq etdiyi bir qrup erməni terrorçusu Parisdə Türkiyə Avtonəqliyyat

kompaniyasını ələ keçirmişdir. Əvvəlcə yerli hökumət buna reaksiya verməmiş, lakin Türkiyə səfirliyinin rəsmi etirazından sonra ASALA tərəfdarları binadan çıxarılmışdır.

***19 iyun 1981-ci il.** İran, Tehran: "Suis Eyr" kompaniyasının Tehran şöbəsinin binasında bomba partlaması nəticəsində binaya ziyan dəyib. Partlayışa görə məsuliyyəti ASALA-nın "9 iyun təşkilatı" öz üzərinə götürüb.

***26 iyun 1981-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya: Los-Ancelesdə İsveçrə banklar korporasiyasının binası qarşısında kiçik bomba partladılıb. Bu partlayışa görə məsuliyyəti "9 iyun təşkilatı" öz üzərinə götürüb.

***19 iyul 1981-ci il.** İsveçrə, Bern: Berndə İsveçrə parlamentinin binasında zibil qutusuna qoyulmuş bomba partlayıb. Sonra anonim zəng xəbər verib ki, bu "9 iyun təşkilatı"nın işidir.

***20 iyul 1981-ci il.** İsveçrə, Sürix: Sürixdə Beynəlxalq aeroportda fotoavtomatda partlayış baş verib. Partlayışa görə məsuliyyəti "9 iyun təşkilatı" öz üzərinə götürüb.

***21 iyul 1981-ci il.** İsveçrə, Lozanna: ġəhər univermağının qadın paltarları şöbəsində partlayış nəticəsində 20 nəfər yaralanıb. Partlayışa görə məsuliyyəti "9 iyun təşkilatı" öz üzərinə götürüb.

*** 22 iyul 1981-ci il.** İsveçrə, Cenevrə: Cenevrədə vağzalda avtomat saxlama kamerasına qoyulmuş bombanın partlaması nəticəsində 4 nəfər yaralanıb. Asayişin mühafizəsi orqanları bu aksiyaya görə "9 iyun təşkilatı"nı günahlandırıb.

***11 avqust 1981-ci il.** Danimarka, Kopenhagen: İki bombanın partlaması nəticəsində Kopenhagendə "Suis Eyr" kompaniyasının binası dağılıb. Bir amerikalı turist yaralanıb. Partlayışa görə məsuliyyəti "9 iyun təşkilatı" öz üzərinə götürüb.

***20 avqust 1981-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya: Los-Ancelesdə İsveçrə dəqiq cihazlar korporasiyasının binası qarşısında partladıcı qurğu işə salınıb.

Partlayışa görə məsuliyyəti ASALA-nın "9 iyun təşkilatı" öz üzərinə götürüb.

***20 avqust 1981-ci il**. Fransa, Paris: "Al İtaliya", "Eyr Layns" kompaniyasının Paris filialının binası səhər tezdən baş verən partlayış nəticəsində zədələnib. Anonim telefon zəngləri xəbər verib ki, partlayış "3 oktyabr Erməni Hərəkatı Təşkilatı" tərəfindən törədilib.

***22 avqust 1981-ci il.** Fransa, Paris: Səhər tezdən "Olimpik Eyr Layns" kompaniyası Paris filialının binası qarşısında partlayış baş verib. Partlayışa görə məsuliyyəti "3 oktyabr Erməni Hərəkatı Təşkilatı" öz üzərinə götürüb.

***15 sentyabr 1981-ci il.** Danimarka, Kopenhagen: Kopenhagendə Türkiyənin Avtonəqliyyat Kompaniyasının binası qarşısında partlayış nəticəsində iki adam yaralanıb. Polis ikinci bombanı partlayışa qədər zərərsizləşdirə bilib. Aksiyanın "Altıncı erməni azadlıq ordusu" törədib.

***17 sentyabr 1981-ci il**. İran, Tehran: Partlayış nəticəsində Tehrandakı İsveçrə səfirliyinin binasına ciddi ziyan dəyib. Partlayışa görə məsuliyyəti ASALA-nın "9 iyun təşkilatı" qrupu öz üzərinə götürüb.

***24 sentyabr 1981-ci il.** Fransa, Paris: Dörd erməni terrorçusu Parisdə Türkiyə konsulluğunu ələ keçirib. Konsulluğa daxil olaraq onlar konsul Kay İnalı və təhlükəsizlik xidmətinin nümayəndəsi Camal Ozanı ağır yaralayıblar. Terrorçular 56 adamı girov götürüblər. Terrorçulardan ikisi yüngül yaralanıb. Sonra terrorçular yaralı İnal və Ozanın xəstəxanaya aparılmasına icazə veriblər. Terrorçuların "Türkiyədə erməni siyasi dustaqların" azadlığa buraxılması tələbi rədd edildikdə onlar "siyasi dustaq statusu" almaq xahişi ilə Fransa hökumətinə təslim olublar. Terrorçuların dördü də Livandan gələn ermənilər, ASALA-nın üzvləri olub.

***3 oktyabr 1981-ci il.** İsveçrə, Cenevrə: Törədilən partlayışlar nəticəsində Cenevrənin Baş poçtu və Şəhər

Məhkəməsi binaları dağıdılıb. Məlum olub ki, bu məhkəmədə ASALA üzvlərindən birinin törətdiyi qətl hadisəsi üzrə işə baxılmalı idi. Bir nəfər yaralanıb. Partlayışa görə məsuliyyəti ASALA-nın "9 iyun təşkilatı" qrupu öz üzərinə götürüb.

*25 **oktyabr 1981-ci il.** Fransa, Paris: Şamz Elizedə (Yelisey Gölü) dəbdəbəli "Fuks" fransız restoranında partlayışlar nəticəsində dörd nəfər yaralanıb. Partlayışa görə məsuliyyəti "September Frans" qrupu öz üzərinə götürüb.

***26 oktyabr 1981-ci il.** Fransa, Paris: Şamz Elizedə (Yelisey Gölü) dəbdəbəli aptek mağazası qarşısındakı maşına qoyulmuş bomba partladılıb. Partlayışa görə məsuliyyəti "September Frans" qrupu öz üzərinə götürüb.

***27 oktyabr 1981-ci il.** Fransa, Paris: "Ruasi" aeroportunda adamlarla dolu eskalatorun yanında zibil qabına qoyulmuş bomba partladılıb. Partlayışa görə məsuliyyəti "September Frans" qrupu öz üzərinə götürüb.

*28 **oktyabr 1981-ci il.** Fransa, Paris: Adamlarla dolu Paris kinoteatrında partlayış nəticəsində üç nəfər yaralanıb. Partlayışa görə məsuliyyəti "September Frans" qrupu öz üzərinə götürüb.

*3 **noyabr 1981-ci il.** İspaniya, Madrid: Madriddə "Suis Eyr" kompaniyasının binası qarşısında törədilən partlayış nəticəsində üç adam yaralanıb, qonşu binalar zədələnib. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

*5 **noyabr 1981-ci il.** Fransa, Paris: Parisin "Qar de Lion" vağzalında törədilən partlayış nəticəsində saxlama kamerasına xeyli ziyan dəyib, bir nəfər yaralanıb. Özünü "Orli təşkilatı" adlandıran erməni terrorçu təşkilatı partlayışa görə məsuliyyəti öz üzərinə götürüb.

***12 noyabr 1981-ci il.** Livan, Beyrut: Eyni vaxtda Beyrutda üz fransız müəssisəsi qarşısında bomba partladılıb;
a)Fransa nəqliyyat mərkəzi;
b)"Eyr Fans" kompaniyasının binası;
c)Fransız konsulunun evi.

Heç kəs xəsarət almasa da, xeyli maddi ziyan dəyib. Partlayışa görə məsuliyyəti "Orli təşkilatı" öz üzərinə götürüb.

Təşkilat Fransanın Orli aeroportunda həbs olunan ermənininin şərəfinə adlandırılıb. O, təxribat törətməkdə və saxta sənədlərdən istifadə etməkdə ittiham olunub. Təşkilat Fransada saxlanılan Amerika mənşəli erməni Mot Melkonyanın həbsdən azadlığa buraxılmasını tələb edir.

***14 noyabr 1981-ci il.** Fransa, Paris: Partlayış nəticəsində Eyfel qülləsi yaxınlığında dayanan maşına ziyan dəyib. Telefon zəngi ilə bildirilib ki, aksiyanı "Orli təşkilatı" həyata keçirib və bildirib ki, bu "birinci xəbərdarlıq"dır.

***15 noyabr 1981-ci il.** Fransa, Paris: "Orli təşkilatı" mətbuatda çıxış edərək "Eyr Frans" kompaniyasına mənsub olan sərnişin təyyarəsini partlatmaqla qorxudub.

***16 noyabr 1981-ci il.** Fransa, Paris: Parisdə "Qar de Lest" vağzalının binasında saxlama kamerasında qoyulmuş bomba partlaması nəticəsində iki nəfər yaralanıb. Partlayışa görə məsuliyyəti "Orli təşkilatı" öz üzərinə götürüb.

***18 noyabr 1981-ci il.** Fransa, Paris: "Orli təşkilatı" bildirib ki, Parisin "Qar dyu Nord" vağzalının binasında bomba qoyulub. Lakin orda heç bir bomba aşkar olunmayıb.

***20 noyabr 1981-ci il**. Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya Ştatı: Partlayış nəticəsində Bebirli Xildə Türkiyə konsulluğunun binasına xeyli maddi ziyan dəyib. Partlayışa görə məsuliyyəti erməni terror təşkilatı CSAQ öz üzərinə götürüb.

***13 yanvar 1982-ci il.** Kanada, Toronto: Torontoda Türkiyənin konsulluğunda terror aktı törədilib. Binaya ciddi ziyan dəyib. Aksiyaya görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***17 yanvar 1982-ci il.** İsveçrə, Cenevrə: Cenevrədə avtomaşın dayanacağı yanında iki bomba partladılıb. Partlayışa görə məsuliyyəti ASALA-dan olan qrup "3 iyun təşkilatı" öz üzərinə götürüb.

***17 yanvar 1982-ci il.** Fransa, Paris: Paris Banklar Birliyinin şöbəsində partlayış törədilib: ikinci partladıcı qurğu "Lione krediti" şöbəsində zərərsizləşdirilib. Aksiyaya görə məsuliyyəti "Orli təşkilatı" öz üzərinə götürüb.

***19 yanvar 1982-ci il.** Fransa, Paris: Parisdə Konqres Sarayında "Eyr Frans" kompaniyasının binasında partlayış olub. Aksiyaya görə məsuliyyəti "Orli təşkilatı" öz üzərinə götürüb.

***28 yanvar 1982-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya Ştatı: Los-Ancelesdə Türkiyənin konsulu Kamal Arkan işə gedərkən iki terrorçu tərəfindən öldürülüb. Qatillərdən biri 19 yaşlı Livan mühaciri Xamtiq Sosunyan həbs edilib, sonra mühakimə olunaraq ömürlük həbs cəzası alıb. Hazırda Kaliforniyanın San-Kventi həbsxanasında cəza çəkir. Onun cinayət yoldaşı Qriqor Saliba Livana qaçıb, qətlə görə məsuliyyəti erməni terror təşkilatı CSAQ öz üzərinə götürüb.

***22 mart 1982-ci il.** Amerika Birləşmiş Ştatları, Kembric, Massarusets Ştatı: Bostonda fəxri türk konsulu Orxan Gündüzün hədiyyə mağazası partladılıb. Partlayış nəticəsində Gündüz ağır yaralanıb. Partlayışı CSAQ-ın törətdiyi bildirilir.

***26 mart 1982-ci il.** Livan, Beyrut: Beyrutun erməni məhəlləsində tez-tez türk filmlərini nümayiş etdirən kinoteatrda güclü partlayış baş verib, nəticədə iki nəfər həlak olub, 16 adam yaralanıb. Partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***8 aprel 1982-ci il**. Kanada, Ottava: Ottavada Türkiyənin konsulluğunun ticarət attaşesi Kani Güngör qarajda erməni terrorçularının hücumuna məruz qalıb. Hücuma görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***24 aprel 1982-ci il.** Almaniya Federativ Respublikası, Dortmund: Partlayışlar nəticəsində bir neçə türk firmalarına ziyan dəyib. Partlayışa görə məsuliyyəti "Yeni erməni müqavimət təşkilatı" öz üzərinə götürüb.

***4 may 1982-ci il.** Amerika Birləşmiş Ştatları, Kembric, Massarusets Ştatı: Bostonda türklərin fəxri konsolu Orxan

Gündüz erməni terrorçusu tərəfindən öz maşınında qətlə yetirilib. Hücuma görə məsuliyyəti CSAQ öz üzərinə götürüb. ABġ prezidenti Ronald Reyqan bütün şübhəli şəxsləri izləmək çağırışına baxmayaraq, heç kəs həbs olunmayıb.

***10 may 1982-ci il.** İsveçrə, Cenevrə: Cenevrə bankında partlayışlar baş verib. Xeyli maddi ziyan vuran partlayışlara görə özünü "Ümumi qisas təşkilatı" adlandıran erməni qrupu məsuliyyəti öz üzərinə götürüb.

***26 may 1982-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya Ştatı: Partlayış nəticəsində İsveçrə banklar korporasiyasının binasına ziyan dəyib. Ehtimala görə bu aksiya Cənubi Kaliforniyadan olan dörd erməninin (Viken Çarkyatun, Xraç Kozibukyan, Stranic Kozibukyan və Vartan Çirinyan) əlil olub. Onların dördü də ASALA-nın üzvü olduğu bildirilib.

***30 may 1982-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya Ştatı: ASALA-nın üzvü olan Amerika mənşəli üç erməni Los-Ancelesdə beynəlxalq aeroportda "Eyr Kanada" kompaniyasının yük bölməsinin binası qarşısında partlayıcı qurğu qoymaqda ittiham olunub. Bomba Los-Anceles polis şöbəsinin xüsusi dəstəsinin üzvləri tərəfindən zərərsizləşdirilib.

***7 iyun 1982-ci il.** Portuqaliya, Lissabon: Lissabonda Türkiyə səfirliyinin inzibati - təsərrüfat məsələləri üzrə attaşesi Erkut Akbay və onun həyat yoldaşı Nadidə Akbay öz evlərinin qarşısında terrorçular tərəfindən öldürülüb. Hücuma görə məsuliyyəti CSAQ öz üzərinə götürüb.

***1 iyul 1982-ci il.** Hollandiya, Rotterdam: Dörd erməni terrorçusu (biri Danimarka polisi tərəfindən saxlanılıb) Amsterdamda Türkiyənin baş konsulu Kəmallədin Dəmirələ atəş açıb. Dəmirəl xəsarət almayıb. Sui-qəsdə görə məsuliyyəti özlərini "Ermənistanın Qızıl Ordusu" adlandıran naməlum qrup öz üzərinə götürüb.

***21 iyul 1982-ci il.** Fransa, Paris: Sent-Servin meydanında adamlarla dolu Paris kafesi yaxınlığında törədilən partlayış nəticəsində 16 nəfər yaralanıb. Məsuliyyəti öz üzərinə götürən "Orli təşkilatı" bəyan edib ki, bu 1981-ci il sentyabrın 21-də Türkiyə konsulluğunu tutmuş ermənilərə siyasi sığınacaq verilməməsinə cavab aksiyasıdır.

***26 iyul 1982-ci il.** Fransa, Paris: Parisdə "Pab Sent-Jermen"də partlayış nəticəsində iki qadın yaralanıb. Partlayışa görə məsuliyyəti "Orli təşkilatı" öz üzərinə götürüb.

***2 avqust 1982-ci il.** Fransa, Paris: Erməni terrorçusu Pyer Qulumyan Parisdəki mənzilində həlak olub. Görünür partladıcı ilə ehtiyatsız davranıb.

***7 avqust 1982-ci il.** Türkiyə, Ankara: Ankaranın "Esenboy" aeroportu hücuma məruz qalıb. Tapança və qumbaralarla silahlanmış iki erməni terrorçusu sərnişinlərin gözləmə salonunda atəş açıb. Terrorçulardan biri aeroportun restoranında 20 adamı girov götürüb, digəri isə polis tərəfindən yaxalanıb. Terrorçu ilə atışma nəticəsində 9 adam, o cümlədən bir amerikalı və AFR vətəndaşı öldürülüb, 82 nəfər yaralanıb. Hücuma görə məsuliyyəti ASALA öz üzərinə götürüb. Yaxalanmış terrorçu Levon Ekmecyan məsuliyyətə cəlb olunmuş, təqsirkar sayılaraq edam edilmişdir.

***8 avqust 1982-ci il**. Fransa, Paris: Fransanın xüsusi dəstəsi tərəfindən Parisin 17-ci rayonunda telefon mərkəzi yaxınlığında tapılmış bomba zərərsizləşdirilib. Məsuliyyəti "Orli təşkilatı" öz üzərinə götürüb.

***7 avqust 1982-ci il.** Fransa, Paris: Erməni terrorçuları Parisdə turizm üzrə türk attaşesini mühafizə edən polisə atəş açıb. Polis xəsarət almayıb. Hücuma görə heç bir qrup məsuliyyəti öz üzərinə götürməyib.

***27 avqust 1982-ci il.** Kanada, Ottava: Ottavada Türkiyə səfirliyinin hərbi attaşesi polkovnik Atilla Altamatin maşını işıqforda dayanarkən atəşə tutulub. Qətlə görə məsuliyyəti

erməni terror təşkilatı CSAQ öz üzərinə götürüb.

***9 sentyabr 1982-ci il.** Bolqarıstan, Burqas: Burqasda Türkiyə konsulluğunun inzibati - təsərrüfat məsələləri üzrə attaşesi Bora Suelkan şəxsi evinin qarşısında qətlə yetirilib. Qatil gizlənə bilib. Lakin hadisə yerində qoyduğu vərəqdə yazılmışdı: "Türkiyə diplomatını biz öldürmüşük. Erməni xalqının soyqırımına qarşı ədalət məhkəməsinin kombatı". Anonim telefon zəngi Londonda Assoşieyted Press agentliyinə bildirib ki, qətl ASALA tərəfindən törədilib.

***26 oktyabr 1982-ci il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya Ştatı: Erməni mənşəli beş şəxs Pensilvaniya Ştatının Filadelfiya şəhərində Türkiyənin səfirliyi yanında partlayış törətməyə hazırlaşmaq ittihamı ilə məhkəməyə cəlb olunub. Onların planına görə konsul Kanot Arabeyin kabinetində partlayıcı qoymaq vəzifəsi dururdu. Los-Ancelesdə olan beş erməni əvvəllər CSAQ erməni terror təşkilatına mənsubiyyətə görə mühakimə olunmuşdu.

***8 dekabr 1982-ci il.** Yunanıstan, Afina: İki erməni moto-sikletdə hərəkət edərək Afinada Səudiyyə Ərəbistanının aviasiya xətti şöbəsinə bomba atıb. Partlayış nəticəsində terrrorçulardan biri həlak olub. İkinci terrorçu, İran mənşəli erməni Vahex Konmaverdyan partlayışın təşkili ittihamı ilə həbs olunub. Lakin o, ifadə verməkdən imtina edib.

***21 yanvar 1983-cü il.** Amerika Birləşmiş Ştatları, Anaxaym, Kaliforniya Ştatı: Anaxaymda çörəkxanada doqquz "əldəqayırma" partladıcı aşkarlanıb. Partladıcıların biri təsadüfən açılıb və yanğın baş verib. Çörəkxananın sahibi Xaron Andisyan heç nədən qorxmadığını bəyan edib.

***22 yanvar 1983-cü il.** Fransa, Paris: Fransa polisi Parisdə Orli aeroportunda Türkiyə aviasiya xəttinin kassası yanında 1 kiloqram ağırlığında partlayıcı maddə aşkar edib. Bu aksiyaya görə məsuliyyət ASALA-nın üzərinə düşüb.

* **22 yanvar 1983-cü il**. Fransa, Paris: İki terrorçu Parisdə Türkiyə aviasiya xəttinin şöbəsinə əl qumbarası atıb. Partlayış nəticəsində xəsarət alan olmayıb. Terrorçulardan biri saxlanılıb. ASALA aksiyaya görə məsuliyyəti öz üzərinə götürüb.

***2 fevral 1983-cü il.** Belçika, Brüssel: Brüsseldə Türkiyənin aviasiya xətlərinin nümayəndəliyində partlayışlar törədilib. Bu aksiyaya görə "Yeni Erməni Müqavimət Təşkilatı" məsuliyyət daşıyır.

***28 fevral 1983-cü il.** Lüksemburq: Türkiyə səfirliyi qarşısında partladıcı qurğu aşkarlanıb və zərərləşdirib. Nyu-Yorkda erməni qəzetinin reportyoru xəbər verib ki, "Yeni Erməni Müqavimət Təşkilatı" öz bəyanatında bu aksiyanı öz üzərinə götürüb.

***28 fevral 1983-cü il.** Fransa, Paris: Türkiyənin "Marmara Travel Eycensi" firmasının Paris şöbəsində bomba partlayışı nəticəsində fransız katib Rone Morin həlak olub, daha doqquz fransız yaralanıb. Partlayış nəticəsində binaya ziyan dəyib. Partlayışdan bir neçə dəqiqə sonra ASALA aksiyanı törətdiyini etiraf edib.

***9 mart 1983-cü il.** Yuqoslaviya, Belqrad: Belqradın mərkəzində iki erməni terrorçusunun Türkiyə səfirinə qarşı hücumu olub. Nəticədə səfir Qalib Balkar öldürülüb. Terrorçular Yuqoslaviya vətəndaşları tərəfindən yaxalanıb. Terrorçulardan biri atəş açaraq yuqoslaviyalı polkovnikini yaralayıb. Terrorçu da öz növbəsində mülki geyimdə olan polis əməkdaşının gülləsinə tuş gəlib. İkinci terrorçu onu tutmaq istəyən adamlara atəş açıb. Nəticədə bir nəfər həlak olub, bir qız yaralanıb. Bu aksiyaya görə məsuliyyət CSAQ-ın üzərinə düşür. Hər iki terrorçu - Krikor Levonyan və Rafi Elbekyan Yuqoslaviya hökuməti tərəfindən mühakimə olunub.

***31 mart 1983-cü il.** Almaniya Federativ Respublikası, Frankfurt: Türkiyənin "Tərcüman" qəzetinin Frankfurtdakı Almaniya şöbəsində ASALA-dan anonim telefon zəngi alıb:

əgər "Erməni işi"nə qarşı yazıların çapı dayandırılmazsa, partlayış törədiləcəyi xəbərdar edilib.

***24 may 1983-cü il.** Belçika, Brüssel: Türkiyə səfirinin mədəni-informasiya mərkəzi, habelə Brüsseldə "Mərmərə" türk səyahətlər bürosunun qarşısında partlayışlar törədilib. Səyahətlər agentliyinin milliyyətcə italyan olan direktoru partlayış nəticəsində yaralanıb. Bu aksiyaya görə məsuliyyəti ASALA daşıyır.

***16 iyun 1983-cü il.** Türkiyə, İstanbul: Erməni terrorçuları dünyada məşhur olan "Örtülü İstanbul" bazarında terror aktı törədiblər. Onlar əl qumbaraları və avtomat silahla silahlanıblar. Aksiya nəticəsində iki türk və bir terrorçu həlak olub, daha 21 nəfər yaralanıb.

***8 iyul 1983-cü il.** Fransa, Paris: Erməni terrorçuları Londonda erməni terrorçularının məhkəməsinə etiraz əlaməti olaraq Britaniya səfirliyi binasına (rəsmən Britaniya mədəniyyət mərkəzinə) hücum ediblər.

***14 iyul 1983-cü il.** Belçika, Brüssel: Brüsseldə Türkiyə səfirliyinin yanında attaşe Dursun Aksoy öz maşınında qətlə yetirilib. Bu qətlə görə məsuliyyəti üç qrup - ASALA, CSAQ və indiyədək məlum olmayan "Erməni İnqilabi Ordusu" öz üzərinə götürüb.

***15 iyul 1983-cü il**. Fransa, Paris: Parisin "Orli" aeroportunda Türkiyə aviasiya xəttinin kassası qarşısında törədilən partlayış nəticəsində 8 adam həlak olub. Onların arasında dörd fransız, iki türk, bir amerikalı və bir isveçrəli olub. Bundan başqa 60 adam yaralanıb. 29 yaşlı Suriya ermənisi, ASALA-nın Fransa təşkilatının başçısı Varocan Karapetyan partlayışda öz iştirakını boynuna alıb və deyib ki, bomba təyyarədə partlamalı idi.

***15 iyul 1983-cü il.** Britaniya Birləşmiş Krallığı, London: Orlidə partladılan bomba ilə eynisi partladıcı aşkarlanıb və zərərsizləşdirilib. Bu aksiyaya görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***18 iyul 1983-cü il.** Fransa, Lion: Lionun dəmir yolunda partlayış təşkil etmək barədə ASALAdan xəbərdarlıq daxil olub.

***20 iyul 1983-cü il.** Fransa, Lion: Erməni terrorçuları adından Lion dəmir yolunun Perraş stansiyasını partlatmaq barədə hədə-qorxu daxil olub. Təcili evakuasiya təşkil edilib. Bu hədə-qorxuya görə ASALA məsuliyyət daşıyıb.

***22 iyul 1983-cü il**. İran, Tehran: Fransız səfirliyində və Tehranda "Eyr Frans" nümayəndəliyində iki partlayış törədilib. ASALA bəyan edib ki, aksiyaya görə məsuliyyəti "Orli təşkilatı"daşıyır.

***27 iyul 1983-cü il.** Portuqaliya, Lissabon: Beş erməni terrorçusundan ibarət qrup Lissabonda Türkiyə səfirliyinə hücum etməyə cəhd göstərib. Lakin aksiyanın baş tutmadığını gördükdə terrorçular missiya rəhbərinin müavinin mənzilini ələ keçirərək onun arvadını və uşaqlarını girov götürüblər. Mənzildə partlayıcı qurğu quraşdırılarkən partlayış baş verib. Ev sahibəsi dörd terrorçu ilə birlikdə həlak olub. Yurtiv Mıxçıoğlu və onun oğlu Ağasoy yaralanıb. Beşinci terrorçu türk təhlükəsizlik qüvvələri ilə atışmada qətlə yetirilib. Bir portuqaliyalı polis də öldürülüb, digəri isə yaralanıb. Bu aksiyaya görə məsuliyyəti "Erməni İnqilabi Ordusu" öz üzərinə götürüb.

***28 iyul 1983-cü il**. Fransa, Lion: Növbəti dəfə Lion dəmir yolunun Perraş stansiyasında partladıcı qoyulması barədə xəbərdarlıq alınıb. Zəng edən deyib ki, bu aksiyaya görə ASALA məsuliyyət daşıyıb. Partlayıcı qurğunun axtarışı nəticəsiz olub.

***29 iyul 1983-cü il**. İran, Tehran: Hədə-qorxu daxil olub ki, Tehranda Fransa səfirliyi raket atəşi ilə dağıdılacaq. Tehran hökuməti mühafizəni gücləndirib. Hədə-qorxu "Orli təşkilatı"n-dan daxil olub. Onlar Fransada 21 erməni məhbusunun azadlığa buraxılmasını tələb ediblər.

***31 iyul 1983-cü il.** Fransa, Lion və Reyn: Erməni terrorçularının bomba partlatması qorxusu içərisində 427

sərnişin olan iki təyyarəni dərhal yerə endirilməsinə səbəb olub. Təyyarələr Lionda və Reyndə yerə enib. Axtarış zamanı təyyarədə partlayıcı aşkarlanmayıb.

*10 avqust 1983-cü il.** İran, Tehran: Partlayıcı doldurulmuş maşın Tehranda Fransa səfirliyi qarşısında partladılıb. Bu aksiyaya görə ASALA məsuliyyət daşıyıb.

*17 avqust 1983-cü il**. İran, Tehran: Tehranda "Eyr Frans" nümayəndəsi öz avtomobilində avtomat silahdan qətlə yetirilib. Bu aksiyaya görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

* **27 avqust 1983-cü il.** Almaniya Federativ Respublikası: Fransa konsulluğunun şöbəsi bomba partlayışı nəticəsində güclü xəsarət alıb. Partlayış dalğası iki nəfərin ölümünə və 23 adamın yaralanmasına səbəb olub. Bu partlayışa görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

*9 sentyabr 1983-cü il.** İran, Tehran: Tehranda iki səfir maşını partladılıb. Nəticədə səfirliyin iki əməkdaşı yaralanıb. Bu aksiyaya görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

*1 oktyabr 1983-cü il**. Fransa, Marsel: Beynəlxalq ticarət mərkəzində bomba partlayışı nəticəsində SSRİ, ABŞ və Əlcəzair pavilyonlarına ziyan dəyib. Partlayış nəticəsində bir nəfər həlak olub, 26 nəfər yaralanıb. Aksiya "Orli təşkilatı" tərəfindən törədilib.

*6 oktyabr 1983-cü il**. İran, Tehran: Tehranda "Fransa səfirliyinin avtomobili partladılıb. Partlayış nəticəsində iki sərnişin yaralanıb. Aksiyaya görə məsuliyyəti "Orli təşkilatı" öz üzərinə götürüb.

*29 oktyabr 1983-cü il.** Livan, Beyrut: Beyrutun Fransa səfirliyinə avtomobil yaxınlaşıb. Maşından çıxan adam səfirliyin girəcəyinə qumbara atıb. Terrorçu təhlükəsizlik xidmətinin adamları tərəfindən yaxalanıb. İkinci terrorçu qaçıb. Aksiyaya görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

* **8 fevral 1984-cü il.** Fransa, Paris: Nyu-Yorkda saat 13-də uçan "Eyr Frans" təyyarəsində partlayıcı qurğu qoyulması barədə

terrorçudan xəbərdarlıq alınmışdı. Uçuşu yarım saat təxirə salmaq lazım gəlib. Axtarış nəticəsiz olub.

***28 mart 1984-cü il.** İran, Tehran: İranın paytaxtı Tehranda Türkiyə diplomatlarının həyatına bir sıra sui-qəsdlər planlaşdırılmışdır. Bununla bağlı aşağıdakı insidentləri görmək olar:

a)İki erməni terrorçusu İsmayıl Pamukçuya atəş açaraq onu ağır yaralayıb.

Böyük serjant Tehranda türk hərbi attaşesinə gətirilib. ASALA bu aksiyaya görə məsuliyyəti öz üzərinə götürüb.

b)Türkiyə səfirinin birinci katibi Həsən Sərvət Ötkəm öz evindən çıxarkən sui-qəsd nəticəsində yüngül yaralanıb.

c)Türkiyə səfirliyinin inzibati attaşesi İbrahim Özdəmir evinin yanında iki şübhəli şəxsin dayanması barədə İran polisinə xəbər verib. Onlar İran hökuməti tərəfindən saxlanılıb;

ç)Gündüz saat 14-də Türkiyə səfirliyi qarşısında dayanmış üç erməni terrorçusu İran polisi tərəfindən həbs olunub;

d)Erməni terrorçusu Türkiyə səfirliyinin maliyyə məsələləri üzrə müşavirinin köməkçisinin avtomobilində bombanı quraşdırarkən təsadüfi partlayış nəticəsində həlak olub. Müşavir İşiq Ynel xəsarət almayıb. Həlak olan terrorçu Sultan Qriqoryan Semaperdan adlı erməni olub.

***29 mart 1984-cü il.** Amerika Birləşmiş Ştatları, Los-Anceles, Kaliforniya Ştatı: Los-Ancelesdə Türkiyə konsulluğuna hədə-qorxu məktubu daxil olub. Məktubda deyilir ki, əgər türk idmançıları Los-Anceles Olimpiadasında iştirak etsələr, onlar öldürüləcəklər. Hədə-qorxu məktubu ASALA tərəfindən imzalanıb.

***26 aprel 1984-cü il.** Livan, Beyrut: Beyrutda ASALA-nın hədə-qorxu ilə dolu bəyannaməsi yayılıb. Bəyanatda Türkiyəyə reysləri olan bütün beynəlxalq aviasiya xətləri xəbərdar edilir ki, onlar hərbi hədəf kimi qiymətləndiriləcək.

***26 aprel 1984-cü il.** Türkiyə, Ankara: Türkiyənin baş naziri Turqut Özəl hədə-qorxu məktubu alıb. Məktubda xəbərdarlıq

edilirdi ki, əgər Tehrana planlaşdırılmış səfərindən imtina etməsə, ASALA onun ölkəsinə qarşı bir sıra terror aksiyalarını həyata keçirəcək.

***28 aprel 1984-cü il.** İran, Tehran: İki erməni terrorçusu motosikletdən İşıq Yöndərin maşınına atəş açıb. Yöndər Türkiyə səfirliyində katib işləyən həyat yoldaşı Sədiyyəni işə aparırmış. Sui-qəsd nəticəsində İşıq Öndər həlak olur. Qətlə görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***20 iyun 1984-cü il.** Avstriya, Vyana: Vyanada Türkiyə səfirliyi yanında sosial məsələlər üzrə müşavirin köməkçisi Ərdoğan Özənə mənsub avtomobil partladılıb. Partlayış nəticəsində Özən həlak olub. İki avstriyalı polis daxil olmaqla beş nəfər yaralanıb. Bu aksiyaya görə məsuliyyəti terrorçu təşkilat "Erməni İnqilabi Ordusu" öz üzərinə götürüb.

***25 iyun 1984-cü il.** Amerika Birləşmiş Ştatları: Parisdə Xəbərlər Agentliyi ASALA tərəfindən imzalanmış məktub alıb. Məktubda hədə-qorxu gəlinir ki, Los-Anceles Olimpiadasında Türkiyənin iştirakını dəstəkləyən bütün hökumət təşkilatları və kompaniyalar hücumlara məruz qalacaq.

***1 sentyabr 1984-cü il.** İran, Tehran: İranda bir neçə türk kompaniyası bir sıra hədə-qorxu məktubdan sonra hücumlara məruz qalıb. Birinci belə aksiya ən böyük inşaat kompaniyası "Sezay-Türkeş-Fevzi Akkay Kompani"də baş verib. Bu kompaniyanın şöbəsinə partlayıcı maddə atılıb. Baş verən yanğınla mübarizədə bir türk fəhləsi xəsarət alıb.

***1 sentyabr 1984-cü il**. İran, Tehran: İran hökuməti bəyan edib ki, Tehranda Türkiyə səfiri İsmət Birselin həyatına qarşı terrorçuların təşkil etdikləri sui-qəsdin qarşısı alınıb.

***3 sentyabr 1984-cü il.** Türkiyə, İstanbul: İstanbulda Topxana sarayı yaxınlığında dayanan maşının partlaması nəticəsində iki livanlı erməni həlak olub. Hökumətin keçirdiyi təhqiqat nəticəsində aydın olub ki, terrorçular bombanın

vaxtından qabaq partlaması nəticəsində həlak olublar. Aksiyanı "Erməni İnqilabi Ordusu" terror təşkilatı törədib.

***Dekabr 1984-cü il.** Belçika, Brüssel: Belçika hökuməti Türkiyə səfirliyinin əməkdaşı Səlcuq İnçinin mənzilində partlayış təhqiqini davam etdirib. Polis mənzillə üzbəüzdə partlayıcı qurğunu aşkar edib. Aksiyaya görə heç bir qrup məsuliyyəti öz üzərinə götürməyib.

***25 dekabr 1984-cü il.** Livan, Beyrut: Beyrutun şərqində iki fransız binası dağıdılıb. Aksiyaya görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***29 dekabr 1984-cü il.** Fransa, Paris: "Eyr Frans" təyyarəsində partlayış törətmək barədə ASALAnın hədə-qorxusundan sonra polis Parisdə "Şarl de Qol" aeroportunda mühafizəni gücləndirib.

***3 yanvar 1985-ci il.** Livan, Beyrut: Beyrutun şərqində Frans press agentliyinin şöbəsi partlayış nəticəsində ciddi zədələnib. Aksiyaya görə məsuliyyəti ASALA öz üzərinə götürüb.

***3 yanvar 1985-ci il.** Livan, Beyrut: Hərbi istehkamçılar dəstəsi Qərbi Beyrutun Əl-Bayda rayonunda "Fransa-Livan Bankı"nın girişində 6 funtluq partladıcı aşkar edərək zərərsizləşdiriblər. Aksiyaya görə məsuliyyəti ASALA öz üzərinə gotürüb.

***3 mart 1985-ci il.** Fransa, Paris: ASALA-nın nümayəndəsinə mənsub olan zəng bütün dünyada fransız maraqlarını izlədiyi ilə qorxudub. “Frans press” agentliyinə edilən zəng Orli aksiyalarında iştirak edən üç terror aktı haqqında çıxarılan hökm ilə əlaqədar Fransa hökumətinə ünvanlanıb.

***12 mart 1985-ci il.** Kanada, Ottava: Üç silahlı erməni terrorçu Ottavada Türkiyə səfirliyinə hücum edib. Atışmanın gedişində "Pikkerton" agentliyi Kanada təhlükəsizlik xidmətinin əməkdaşları öldürülüb. Sonra partladıcı ilə qapını partladaraq binaya girməyə nail olublar. Səfir Coşğun Kirs ikinci mərtəbənin pəncərəsindən tullana bilib. Tullanan zaman ağır yaralanan səfir dörd saat ərzində yerdə qalıb. Nəhayət səfirin

arvadı və qızı da daxil olduğu girovlar azadlığa buraxılıb. Üç adı çəkilən terrorçu Kanadaya ədalət məhkəməsinə göndərilib.

***26 mart 1985-ci il.** Kanada, Toronto: Torontoda daşıma sistemini partlatmaq hədəsi erməni terrorçu təşkilatından daxil olub. Bu, Torontoda təhlükəsizlik tədbirlərini kütləvi şəkildə gücləndirməyə gətirib çıxarıb. Metroda partladıcı qurğunun axtarışı davam etdirilib. Bu aksiyanın məsuliyyəti özünü "Vətənin Azadlığı Uğrunda Gizli Erməni Ordusu" adlandıran terrorçu təşkilatın üzərinə düşür.

***Noyabr 1985-ci il.** Belçika, Brüssel: Belçika terrorizm ilə xüsusi mübarizə dəstəsi Brüsseldə NATO-da Türkiyənin nümayəndəsi Osman Orkeyin mənzili yaxınlığında iki şübhəli erməni terrorçusunu həbs edib. Təhqiqat davam etdirilib.

***28 noyabr 1985-ci il.** Fransa, Paris: Fransa polisi "Ermənistanın Azadlığı Uğrunda Gizli Erməni Ordusu - İnqilabi hərəkatı" (ASALA-I) kimi məşhur olan terrorçu təşkilatın lideri, Amerika erməinisi Monte Melkonyanı həbs edib. Kaliforniya Ştatının Frino vilayətindən olan Melkonyan Xaqol Xaqonyanın (ASALA-nın banisi) adyutantı işləyib. O, ASALA təşkilatından çıxaraq Orli aeroportunda əməliyyatlar da kömək göstərən ASALA-I təşkilatını yaradıb. Ərəb və Yaxın Şərq siyasi məhbusları ilə birlikdə Fransa paytaxtının müxtəlif rayonlarında dörd partlayış törədib. Fransada həbsdə olan, erməni və ərəb terrorçularının müttəfiqi sayılan terrorçu Varacan Karapetyanın azadlığa buraxılmasını tələb edib.

***17 mart 1986-cı il.** Fransa, Lion: Lion-Paris sürət qatarında bomba partladılıb. Bu aksiyaya görə məsuliyyəti KSAMEPP və ASALA öz üzərinə götürüb.

***20 mart 1986-cı il.** Fransa, Paris: Paris ticarət pasajının binasında qoyulmuş partlayıcı qurğu işə salınıb. İki nəfər həlak olub, 30-a yaxın adam yaralanıb. Bu aksiyaya görə məsuliyyət daşıyan KSAMEPP yenidən Orli aeroportunda Türkiyə aviasiya

xəttinin kassası yanında partlayışa dair mühakimə olunan Varacan Karapetyanın buraxılmasını tələb edib.

***4 sentyabr 1986-cı il.** Fransa, Paris: Paris qatarında bütün sərnişinlər evakuasiya edildikdən sonra partlayıcı qurğu zərərsizləşdirilib. KSAMEPP bu aksiyaya görə məsuliyyəti öz üzərinə götürüb. Bir daha ASALA-nın 43 üzvünün, o cümlədən Varacan Karapetyanın azad olmasını tələb edib.

***9 sentyabr 1986-cı il**. Fransa, Paris: "Paris Siti Xol"un binasında partlayış baş verib. Poçt xidmətinin işçisi öldürülüb, 18 digər vətəndaş yaralanıb. Bu partlayışa görə məsuliyyət KSAMEPP öz üzərinə götürüb. Bir daha Varacan Karapetyanın və digər iki terrorçunun həbsdən azad olunması tələbi qoyulub.

***10-15 sentyabr 1986-cı il.** Fransa, Paris: Parisdə bir sıra bomba partlayışları iki nəfərin ölümünə və yüz adamın yaralanmasına səbəb olub. Bu partlayışa görə məsuliyyəti KSAMEPP öz üzərinə götürüb.

***16 sentyabr 1986-cı il.** Fransa, Paris: Fransa paytaxtının Monparnass məhəlləsində KSAMEPP terrorçuları tərəfindən qoyulmuş bombanın partlaması nəticəsində 5 nəfər həlak olub, 52 adam yaralanıb. Terrorçular Varacan Karapetyanın və KSAMEPP təşkilatından olan iki terrorçunun azadlığa buraxılmasını tələb ediblər.

***9 oktyabr 1986-cı il**. Livan, Beyrut: Ermənistanın Azadlığı Uğrunda Erməni Gizli Ordusu (ASALA) Beyrutda xəbərlərin Qərb agentliyinə əllə yazılmış tələbnamə gətirərək, əgər Varocan Karapetyan və Yaxın Şərqdən olan digər terrorçular azadlığa buraxılmasalar, Fransaya qarşı tədbirlərin genişləndiriləcəyi barədə xəbərdarlıq edilib. Sənəddə göstərilir ki, Fransada erməni məhəllələrində polis reydlərinə cavab kimi ASALA öz zərbələrini fransız təyyarələrinə, aeroportlarına, gəmilərinə, qatarlarına və diplomatlarına yönəldəcək. Şübhə yoxdur ki, ASALA öz hədə-qorxularını həyata keçirə bilər. Unutmaq olmaz ki, bu erməni terror təşkilatı sentyabr ayında Parisi lərzəyə gətirdi. Bir çox

aksiyaların hazırlanmasında iştirak edib. Bu aksiyalarda onlarca insan həyatına son qoyulub və 160-dan çox adam yaralanıb.

***15 oktyabr 1986-cı il.** Livan, Beyrut: Mixran Mixranyan başda olmaqla ASALA-nın üç terrorçusu Livanın paytaxtında fransız jurnalisti ilə görüşərək öz tələblərini təkrar edib. Onlar Fransa hökuməti ilə danışıqlar haqqında bəyan ediblər. Onların nümayəndəsi Mixran Mixranyan deyib: "Biz Fransa hökumətinin vədini yerinə yetirilməsini gözləyirik (Karapetyanın azadlığa buraxılmasına). Əks təqdirdə biz aksiyamızı davam etdirəcəyik. Biz sizi əmin edirik ki, bu aksiyalar daha amansız olacaq. ASALA artıq bütün dünyada Fransa nümayəndələrini hərbi düşmən elan edib. Biz Fransa hökuməti öz vədini yerinə yetirməzsə Şiraki və Mitterani dəhşətli fəlakətlər barədə xəbərdar edirik.

***Noyabr 1986-cı il.** Fransa, Paris: "Erməni İnqilabi Ordusun"dan (EGO) olan altı erməni terrorçusu üç erməni terrorçusuna qarşı Kanadada hökm çıxarılmasına etiraz əlaməti olaraq Parisdə "Eyr Kanada" binasını zəbt edib. Onlar binada barrikada yaratmış, lakin bir saatdan sonra polisə təslim olmuşlar.

***22 noyabr 1986-cı il.** Avstraliya, Melburn: Melburnda Türkiyə konsulluğu yanında partladıcı qoyulmuş maşın partladılıb. Nəticədə aksiyanın qurbanı caninin özü Xaqon Levonyan olub. Onun şəriki Leon Dəmiryan sonra həbs edilib. Bu terror aksiyasına görə məsuliyyəti özünü "Yunan-Bolqar-Erməni cəbhəsi" (YBEC) adlandıran qrup öz üzərinə götürüb. Bu, adı çəkilən erməni terror təşkilatının törətdiyi ilk terror aktı idi.

***19 yanvar 1987-ci il.** Avstraliya, Melburn: Poçtun çeşidləmə şöbəsində bomba partlaması nəticəsində altı adam xəsarət alıb. Bu aksiyaya görə məsuliyyəti "Yunan-Bolqar Erməni cəbhəsi" öz üzərinə götürüb.

***20 yanvar 1987-ci il.** Yunanıstan, Afina: ASALA özünün on ikinci ildönümü münasibətilə Afinadakı qərargahından ermənilərə müraciət edib. Afinada yerləşən "Müasir erməni hərəkatı" ASALA-nın siyasi rəhbərliyi adından "Türkiyə faşist

dövləti və onu dəstəkləyən imperializm və sionizm"in şəxsində erməni xalqının düşmənlərinin adını çəkir. ASALA-nın məktubu ingilis dilində gündəlik "Afin Nyus" da daxil olmaqla yunan mətbuatında geniş əks-səda doğurub. Qəzetlər ASALA-nın bəyanatından parçaları öz səhifələrində dərc edib.

***11 fevral 1987-ci il.** Livan, Beyrut: Livanın paytaxtında buraxılan rəsmi məlumat 1986-cı ildə Parisdə törədilən partlayışlara görə ASALA-nın məsuliyyətini təsdiq edir. Qərb İnformasiya Agentliyinin ünvanına göndərilmiş sənəddə erməni terror təşkilatı bəyan edirdi: "Fransa erməni və ərəb vətənpərvərlərini azad edilmələri üçün lazımi addımlar atmalıdır. Bizimlə Fransa hökuməti arasında sakitlik dövrü kimi atəşin kəsilməsi Fransanın və onun xalqının təhlükəsizliyi mənafeyinə bizdə ictimai rəy doğurmalıdır. Fransa küçələrində, fransız zavodlarında, aviasiya xidmətlərində, dəniz obyektlərində partlayışlar dalğasının bərpası sobataj kimi qiymətləndiriləcək". Sonra ASALA 1986-cı ildə Parisdə törədilən partlayışlara görə məsuliyyəti öz üzərinə götürür və Varocan Karapetyanın azad olunması haqqında öz tələblərini bir daha təkrar edir.

**Bəxtiyar Nəcəfov:** "Düşmənin iç üzü. XlX-əsrin sonu - XX-əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi." **Bakı: "Çaşioğlu", 2007.**

# "Sərkisyan Xocalıda türk qadının qarnını gözüm önündə yardı..." - Erməni döyüşçüsünün ETİRAFI

**Cəlaləddin Qasımov, Beynəlxalq Qaşqari Fondunun vitse-prezidenti, Dünya Gənc Türk Yazarlar Birliyi Məsləhət Şurasın üzvü, yazıçı-publisist, polis mayoru**



Mən 2010-cu ildə Gürcüstanın paytaxtı Tiflis şəhərində olarkən vaxtilə Qarabağ müharibəsinin iştirakçısı olmuş bir erməni (Ermənistan vətəndaşı) ilə təsadüfən görüşdüm.

Həmin erməni ilə uzun çəkən söhbətim elə alındı ki, o, mənə şahidi olduğu bir neçə fakt açıqladı. Onu da bildirim ki, mən həmin faktların bəziləri haqda "**27 ildən sonra**" (Bakı, "Nurlan", 2013) adlı kitabımda yer almış **"Silinməyən ləkə**" romanımda bəhs etmişəm. Aşağıda həmin faktların bəzilərini nəzərinizə çatdırıram və bildirmək istəyirəm ki, bir bədii əsərdə yer alsa da, bunlar heç bir bədiilik qatılmamış faktlardır.

* * *

"Fevralın 25-də axşam saat 23:00 radələrində rus hərbi birləşmələrinə məxsus 366-cı alayla birlikdə ermənilər Xocalı

şəhəri ətrafında döyüş mövqeyi tutmağa başladı. 50-dən artıq "Qrad" və "Alazan" tipli raketlərdən və tanklardan Xocalını iki saata qədər durmadan atəşə tutdular.

1-ci əsas zərbəni mayor Seyran Ohanyan (2-ci batalyon) vurdu. Onlar dərhal mayor Yevgeni Labovçixin rəhbərlik etdiyi 3-cü batalyonu Ballıca kəndində yerləşdirdilər. Çanaxçı kəndində yerləşdirilmiş batalyonun vəzifəsi isə arxa mövqeləri qorumaq idi.

366-cı alayın bütün texnikası Xocalı şəhərini uzaqdan güclü atəşə tutduqdan sonra üç istiqamətdən hücuma keçdilər.

Əhali dağılırdı... Hərə bir yana qaçaraq köməksiz vəziyyətdə qalmışdı. Qarqar çayı istiqamətində, «Donuzçuluq ferması» deyilən yerdə dinc əhaliyə qarşı əsl qırğın başladı. Xocalıdan çıxarkən gecə saat 4 radələrində Xocalıdakı bir neçə postdan düşmənə müqavimət göstərilir, atəş səsi gəlirdi...".

"Keçmiş döyüşçü" olan erməni Xocalıda əsir düşmüş vətəndaşlarımızdan biri olan Məmməd Nağıyevin söylədiklərini danışırdı: «Ermənilər bizi aldadaraq, deyirdilər ki, kim əsirlikdən qurtarmaq, yaxud dəyişilmək istəyirsə, bizimlə gəlsin. Bu minvalla azərbaycanlı əsirləri bir-bir aparırdılar. Sonradan öyrəndik ki, onları ölən erməni əsgərlərinin qəbri üstə apararaq başlarını kəsirlərmiş.

Yenə bir gün də ermənilərdən biri azərbaycanlı əsirlər saxlanılan yerə gələrək,13 nəfəri seçib apardı və dedi ki, meşədə onun qohumunu öldürüblər. "Bir erməniyə görə 13 türk, monqol, azərini öldürəcəm"-deyə o, dedi. Sonra məlum oldu ki, dediyi kimi də etmiş - apardığı əsirlərin başını kəsmişdi».

Ermənilərin sözlərinə görə, Yaşar adında bir əsir deyirmiş ki, onu çox döyürmüşlər. Orda ayrıca işgəncə otağı var imiş, hətta sobanı yandıraraq, əsirlərin əllərini ona basırmışlar...

”Ermənilər içəri girərək qadınlara sataşırdılar. Ermənistandan qaçqın düşərək Xocalıda məskunlaşan Məmməd adlı bir kişinin oğlu Söhbət ermənilərin bu hərəkətinə qarşı çıxdı. Ermənilər hamının gözü qarşısında Söhbətin başını kəsərək futbol topu kimi bir-birlərinə ötürdülər. Ermənilərin bu hərəkətinə etiraz edən atası Məmməd kişinin də başını kəsdilər.

Əsirlərin başı üstündən avtomatdan atəş açırdılar. Güllələr divara dəyərək oradakı daş parçalarını qızdırırdı. Qızmış daş hissələri də bir yandan əsirlərin üstünə düşürdü... Əsirlər imdad istəyirdilər, Allaha yalvarırdılar. Ermənilər də divarlara durmadan atəşi davam etdirirdilər. Əsirlərin fəryadı, yalvarması ermənilərə xoş gəlirdi. Hətta divardan güllə şığıyaraq əsirlərə dəyirdi. Onlar da bundan ləzzət alırdılar».

***

...Samvellə çox söhbətləşdik. Öz sözlərimlə təsdiq edirəm ki, o, mənə çox şeylərdən bəhs etdi. Başlatdıqları müharibənin «qaydalarını» yaxşı bilirdi...

O deyirdi ki, Zori Balayanın, Arkadi Qukasyanın, İrəvandan gəlmiş erməni generallarının, 366-cı alayın komandiri Zerqu-qarovun görüşünü, onların nə barədə danışdıqlarını bilir.

”Zerquqarov həmin görüşdə Zori Balayana deyib ki, “sovet hökuməti yoxdur, sovet ordusu yoxdur, 366-cı alay mənim öz şəxsi ordumdu. Pulumu verin, Xocalını azərbaycanlılardan təmizləyim.

İstəyirsiniz, lap xırda silahlardan tutmuş ta tanklara, vertolyotlara qədər bütün döyüş texnikasını, hətta şəxsi heyəti sizə verim".

Və deyilən kimi də olub!

"25 fevral, 1992-ci ildə isə 366-cı alay Xocalını hər tərəfdən mühasirəyə aldı. Şəhərin müdafiəsinə qalxan dörd dəstənin hər birində demək olar ki, silahların yarısı adi ov silahı idi... Amma 366-cı ordunun bütün artilleriya qurğuları, «Alazan» tipli raketləri və minomyotları var idi".

...Bəlli olduğu kimi, Qarabağ müharibəsinin ideoloqlarından biri, hadisələrin iştirakçısı, ermənilərin ən çox sevdiyi yazıçı Zori Balayan "Ruhumuzun canlanması" adlı kitab nəşr etdirib. Balayan "Ruhumuzun canlanması"nda ermənilərin Xocalıda törətdiyi soyqırımı haqqında yazır:

"Xocalını ələ keçirdiyimiz zaman bir evə girdik. Xaçatur adında bir əsgərimiz 13 yaşlı bir türk (Azərbaycan-C.Q.) uşağını pəncərəyə mismarladı. Türk uşağı çox səs-küy salırdı. Xaçatura dedim ki, onun səsini kəs. Xaçatur isə anasının döşünü kəsib balasının ağzına tıxadı. Mən ixtisasca həkim olduğum üçün üstümdə olan tibb bıçağı ilə uşağın başının, sinəsinin, qarnının dərisini soydum. Saata baxdım. 13 yaşlı uşaq 7 dəqiqədən sonra öldü. Ruhum sevinclə qürrələndi. Xaçaturla mən uşağın meyitini hissə-hissə doğradıq, tikələri itlərə atdıq və eyni şeyi daha üç türk uşağına qarşı etdik.

Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bildim ki, hər bir erməni bizim etdiklərimizlə fəxr edəcək".

Bu "İttihamnamə" ilə tanış olan hörmətli xanımlar və cənablar!

Zori Balayan terrorçudur, canidir və öz əməllərini özü etiraf edir! Bu sualı haqqı tanıyan hər kəsə ünvanlayıram: beynəlxalq aləm nədən buna fikir vermir? Nədən ötən əsrdə faşist Almaniyasında, sonra Bosniya, Serbiya və başqa yerlərdə insanlara qarşı amansız qətllər həyata keçirən və ya təşkilatçılıq edənlər kimi o da mühakimə olunmur? Bu "həkim-yazıçı" hər iki peşənin estetikasına, fəlsəfəsinə qarşı çıxaraq, öz ixtisasına, sənətinə üzqaralığı gətirib, Qarabağda dinc əhaliyə qarşı nə qədər terror əməliyyatı həyata keçirib...

...Azərbaycan dövləti İnterpol vasitəsilə Zori Balayanı terrorçu kimi axtarışa verib. Ermənilər bu işə siyasi don geyindirərək hamını inandırdılar ki, bu, "siyasi terror"dur... Və Zori Balayanı buraxdırdılar.

...İşgəncələri öz kitabında qeyd edən bir terrorçuya başqa daha nə qədər dəlil-sübut lazımdır?!

* * *

Samvel mənimlə Tiflisdəki söhbətində daha dəhşətli bir faktı da açıqlayaraq bildirdi ki, Ermənistanın hazırkı prezidenti Serj Sərkisyan Xocalı soyqırımında şəxsən amansız qətllər törədib. O, bir hadisənin canlı şahidi olduğunu söylədi:

"Ermənilər hadisələrin üçüncü günü meşədə Xocalıdan qaçsa da, getməyə yer tapmayan azərbaycanlılara rast gəlirdi. Qoca, qadın, uşaq olan bu dəstədə artıq son nəfəsini yaşayanlar, donub qalanlar və yaralılar var idi. Bizi görən kimi yalvardılar ki, onları öldürməyək. Biz də dedik ki, zinət əşyalarınızı, pullarınızı bəri verin, sizə dəyməyək. Qadınlardan biri dedi, "nəyimiz var, sizin olsun". Biz isə dedik ki, burda olanlar onsuz da bizimdir. Xocalıda nə gizlətmisiniz deyin, aparaq oradakı varidatı verin, sizi

oradan Ağdama yola salacağıq.

Balayan aralıdan olanları izləyirdi. Əsirlər dedilər ki, nə var bunlardır, orda heç nəyləri qalmayıb. Zinət əşyaları, bank kartları, rus pasportları - nələri varsa, yığıb verdilər. Biz kənara çəkildik ki, aralıdan hamısını güllələyək, canımız qurtarsın. Bu vaxt Sərkisyan yaxınlaşdı ki, guya yoxladınızmı hamısını, bax, o qadının qulağında yeri qalıb sırğaların, yəqin udub. Göstəriş verdi ki, əllərini tutun. Biz qadının əllərini tutduq, müqavimət göstərmədi, gücü qalmamışdı. Özü qadının qarnını yardı, əlini salıb sırğaları və üzüyü çıxardı. Sonra avtomatı götürüb əsirləri güllələdi.

Onun əynində kürk var idi. O qədər arıq idi ki, hərbi buşlatın yaxalığı onun çiyinlərinə keçirdi. Gözlərində eynək var idi. Başını bəlkə də illər idi ki, qırxdırmamışdı, qara, uzun saçı var idi.

Əlinin qanını üstünə silib «bəri verin topladıqlarınızı » dedi. Sonra yığdıqlarımızı maşınına qoyub uzaqlaşdı. Yadımdadır, avtomobilinin nömrəsi NK 0001 idi".

...Samvel deyirdi: "Biz Xocalının işğal gününü "Sumqayıt hadisələri"nin ildönümünə salmışdıq. Hazırlıq görürdük. Bizimlə də görüşdülər, məsləhət aldılar ki, 366-cı alaydan nə qədər hərbi texnika, canlı qüvvə alaq. Əsgəran polisi Xocalıya yaxşı bələd idi. Biz tərəfdən mən idim, batalyon komandiri Vitali Balasyan, yanğınsöndürmə xidmətinin rəisi Karo Petrosyan idi. Polislərdən isə rəis Mavrik Qukasyan, Arkadi Qakasyan, Saqen Barseqyan, Karlen Aqasenyan, Karen Babayan və Manvel Sayan o görüşdə idi.

Fikrimizi öyrənmək üçün bizimlə danışığa gələnlər isə Qarabağın o vaxtkı liderlərindən Arkadi Qukasyan və 366-cı alayın bölük komandiri, sonralar isə hərbi hissə komandirinin müavini

olmuş Seyran Ohanyan idi.

Belə qərara gəldilər ki, 366-cı alayın bütün texnikası və şəxsi heyəti, ermənilərin Qarabağdakı bütün hərbi və quldur dəstələri döyüşməlidir.

Bir neçə gündən sonra Arkadi Qukasyan bizi toplayaraq bildirdi ki, 366-cı alayın bütün şəxsi heyəti və texnikası ilə razılaşdıq. Amma bu, bizə çox baha başa gəldi. Əmr belə verilmişdi: evlərdən, meyitlərin üstündən çıxan pulun-qızılın hamısı bir yerə toplanmalıdır. Döyüş planı da alayın qərargahında hazırlanacaqdı. Hücum “Sumqayıt hadisələri”nin ildönümü günü başlanacaqdı...

Bizə - Əsgəran polisinin batalyonuna tapşırıq belə oldu ki, Əsgəran dəstəsinin yarısı yüksəkliklərdə mövqe tutaraq Xocalı sakinləri koridorla çıxan zaman atəş açmalı, bir adamı da sağ buraxmamalıdır.

366-cı alayın təyyarələri camaatın yerini onlara bildirəcəkdi ki, onlar hansı istiqamətdə hərəkət etsinlər. Onlar öz postlarını Əsgəran, Naxçıvanik, Qarqar çayı, Şelli, Qaraqaya istiqamətində yerləşdirməyi qərarlaşdırdılar və mənimlə də razılaşdırıldı ki, Xocalı 366-cı alayın bütün texnikasından, o cümlədən ağır texnikadan dayanmadan atəş altında saxlanılsın. Şəhərin altını-üstünə çevirsinlər. Sonra isə şəhərə hava limanı istiqamətində dörd tərəfdən girsinlər. Biz 366-cı alayın qərargahında olanda onlar bildirdilər ki, artıq alayın komandiri ilə son olaraq görüşüblər, daha elə bir problem qalmayıb.”

* * *

Qeyd edim ki, bu müdhiş hadisələr bəzi erməni döyüşçülərindin psixikasından da yan keçməyib. Belə ki, Xocalı soyqırımında iştirak edən əsgərlərin 5-i psixoloji xəstəliyə tutulub, biri isə özünü asaraq intihar edib...

Yenə Samvelin dediklərini əlavə edirəm:

"İşğaldan iki ay sonra tərəfimizdən araşdırıldı ki, psixoloji xəstəliyə tutulan xəstələrin hamısı Xocalının işğalında iştirak edən erməni əsgərləri olub. Onlar işğaldan sonra Xocalıdakı evlərin zirzəmisindən meyitləri yığaraq yandırmaq və basdırmaqla məşğul olan əsgərlər imiş. Onlar verilən göstərişlərə əməl edərək bəzi əsirləri diri-diri yandırdıqları zaman özləri də ciddi psixoloji sarsıntı keçiriblər."

Samvelin dediyinə görə, o, həmin əsgərlərin 5-ni də şəxsən tanıyırmış. Samveldən soruşdum ki, insanları harada yandırmısınız, harada basdırmısınız? Söylədi ki, şəhərdən kənarda - hava limanından təxminən 400-500 metr aralıda, bir də ki, "Fin evləri" deyilən yerdən bir az aralıda basdırıblar.

O həmçinin danışdı ki, ekskavatorla çuxurlar qazılmışdı, meyitləri oraya ataraq yandırır, sonra da üstünü torpaqla örtürdülər. Hətta Xocalı şəhərinin yaxınlığında 3 elə yer tanıdığını dedi.

Samvel Babayan onu da əlavə etdi ki, lazım gələrsə, beynəlxalq ekspertlər bu gün də gəlib qazıntı aparsalar, Xocalıdan 1200 metrlik məsafədə öz gözləri ilə hər şeyi görə bilərlər. Əgər bu, ekspertlərə və beynəlxalq aləmə maraqlı olsaydı, Avropa Şurası və başqa təşkilatlar insan hüquqları üzrə araşdırma aparsaydı, bu

hadisə barədə çox məlumat əldə edə bilərdi.




Zori Balayanın başqa bir həmkarı, livanli erməni yazıçı isə belə yazır ("Xaç naminə" kitabında son dərəcə soyuqqanlıqla yazır, öz xalqinin terrorçu oldugunu öz kitabında göstərib):

"O şaxtalı qış günlərində biz yaxınlıqdakı metrlərlə dərinliyi olan bataqlığı keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən meyitlərin üzərindən keçib getmək istəmirdim. Onda polkovnik-leytenant Ohanyan mənə işarə etdi ki, qorxmayım, bu, müharibənin qanunlarından biridir. Mən 9-11 yaşlarındakı qan içində olan qızın sinəsi üstünə çıxdım və yeriməyə başladım. Mənim çəkmələrim və şalvarım qan içində idi. Və beləliklə, mən meyitlərin üstündən keçdim".

Həmin kitabın 62-63-cü səhifələrində müəllif yazır: "Mart ayının 2-də "Qaflan" adlı erməni qrupu (meyitlərin yandırılması ilə məşğul idi) türklərin yüzlərlə meyitini yığdı və onları ayrı-ayrı

yığınlarla Xocalıdan bir neçə kilometr qərbdə yandırdı. Sonuncu yük maşınında 10 yaşlarında boynundan və əlindən yaralanan bir qız uşağı mənim nəzərimi cəlb etdi. Diqqətlə baxdığımda onun asta-asta nəfəs aldığını gördüm. Şaxtaya, çılpaqlığına və aldığı yaraların çoxluğuna baxmayaraq uşaq hələ də yaşayırdı. Mən o uşagın ölümlə mübarizə aparan gözlərini heç vaxt unutmayacağam.

Sonra əsgərlərdən Tiqranyan adlı birisi onu qulağından tutaraq mazutlanmış leş yığınına tərəf sürüdü və daha sonra onları yandırdılar. Mən orda kiminsə kömək istəyərək çığırdığını eşitdim. Daha yeriyə bilmirdim. Ancaq mən bütün müqəddəslər tərəfindən lənətlənmiş türklərdən Şuşanı azad etmək istəyirdim. Ona görə də mən qayıtdım. Onlar isə özlərinin "Xaç naminə" yürüşlərini davam etdirdilər."

* * *

129 nəfərdən ibarət zabit heyətli 366-cı alayın komandiri Zerquqarov Yuri Yuryeviç olub. Ştat üzrə sıravi əsgərlərin sayı 1800 nəfər olan, alayda (1992-ci ilin yanvar ayında) 630 rus əsgəri qalıbmış. 580 erməni əsgəri də burada yerləşdirilmisdi. Öz cinayətlərini ört-basdır etməyə tələsən 366-cı alayın komandiri və yüksək rütbəli zabit heyəti fevralın 28-də hərbi texnikanı Dağlıq Qarabağdan çıxarmaq əmrini alıb. Texnikanın böyük bir hissəsi erməni mayoru (o vaxtkı rütbəsi ilə desək) Seyran Ohanyanın tabeçiliyinə verilərək Xankəndində saxlanılıb...

Martın 2-də axşam saatlarında 523 nəfərdən ibarət şəxsi heyəti Gürcüstanda yerləşən Vaziyanın hərbi bazasına aparıblar. Martın 10-da isə marşal Şapoşnikovun əmri ilə 366-cı alay ləğv edilib.

O dövrdə, xüsusən də 26 fevral, 1992-ci ildə 366-cı alayın bir

neçə əsgəri verilən əmrlərə qarşı çıxaraq Azərbaycan tərəfinə keçmişdi. Hətta azərbaycanlı mərhum jurnalist Cingiz Mustafayev onlardan müsahibə də almışdı. Azərbaycan prokurorluğu onları dindirmiş və alayın bütün şəxsi heyətinin və hərbi texnikasının Xocalı soyqırımında iştirak etdiyi sübuta yetirilmişdi. Azərbaycan Respublikasının mərhum prezidenti Heydər Əliyev 1 mart, 1994-cü ildə bu haqda xüsusi fərman vermiş, 26 fevral "Xocalı soyqırımı - milli matəm günü" elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdi.

İndi hər il fevralın 26-sı Azərbaycan Respublikasında Xocalı soyqırımı günü kimi qeyd olunur.

* * *

Bu hadisələrin əsl günahkarları Cenevrə Konvensiyasını, Ümumdünya İnsan Haqları Bəyannaməsini, vətəndaş və siyasi hüquqlar barədə sazişi, fövqəladə vəziyyət və hərbi münaqişə zamanı qadınların və uşaqların müdafiəsi bəyannaməsini həyasızcasına pozublar. Bu qatillər sonralar Ermənistan Respublikasına rəhbərlik edən Köcəryanlar, Qukasyanlar, Sərkisyanlar, Balayanlar, onların köməkçiləridir. Onlar beynəlxaq məhkəmə qarşısında cavab verərək layiqli cəzalarını almayınca bölgədə barışdan danışmaq çətin olacaq!

...Rəsmi olaraq bildirilir ki, erməni əsirlyində olan azərbaycanlıların sayı 800 nəfərdir. Bu faktı oradan buraxılan əsirlər də təsdiq edib. Əsirlikdə olan 7 nəfərdən ibarət bir ailədən iki nəfəri dəyişdirilib. Həmin o iki nəfər deyib ki, ailənin qalan 5 üzvü də Ermənistandadır. Amma Ermənistan tərəfi bunun yalan olduğunu bildirir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) o vaxtkı nümayəndələri də əsirlərlə görüşərək onlar haqqında qeydlər

aparıb. Ermənistan tərəfi israrla orada azərbaycanlı əsirlərin olmadığını deyir.

Qarabağ müharibəsi dövründə əsir və girovlarla bağlı, əməliyyat-istintaq və axtarış qrupunda çox dəhşətli faktlar olub.

Almaniya, Rusiya və Gürcüstanın hüquq müdafiəçilərindən ibarət əsir və girov götürülmüş şəxslərin azad edilməsi, itkin düşmüş şəxslərin axtarışı üzrə beynəlxalq İşçi Qrupunun üzvləri, eləcə də BQXK azərbaycanlılardan bir qisminin həqiqətən də əsir götürülməsi barədə məlumatları təsdiq edir. Lakin sözügedən azərbaycanlıların taleyi bu günədək naməlumdur.

**Hüseynova Mehriban Allahverdi qızı** - Xocalı şəhərinin işğalı zamanı üç azyaşlı uşağı ilə birlikdə girov götürülüb. Əsirlikdən azad edilmiş Məmmədov Mayıl Məhəmmədəli oğlunun ifadəsinə görə, o, Mehribanı uşaqları ilə birlikdə İrəvan şəhərində istintaq təcridxanasında görüb. Lakin sonradan Şuşa şəhərinə aparılan Mayılın onlardan heç bir xəbəri olmayıb.

Erməni tərəfi Mehriban və onun uşaqlarının girov götürüldüyünü danmaqda, onların sonrakı taleyinə dair faktları bu günədək gizlətməkdədir.

**Əmirova Xəzangül Təvəkkül qızı** - Xocalı işğal olunan zaman erməni silahlıları onun ailəsini bütünlüklə girov götürmüşdü. Ermənilər Xəzangülün anası Rayanı, 7 yaşlı bacısı Yeganəni və xalası Göyçəni güllələyib, atası Əmirov Təvəkkülü isə üstünə benzin tökərək yandırıblar.

Erməni silahlı birləşmələri Xocavənd rayonunun işğalı zamanı (17.02.1992) Qaradağlı kəndindən girov götürdükləri 117 nəfər

kənd sakinindən 80 nəfərə yaxınını yerindəcə güllələyiblər. Bu barədə kənd sakinləri Seyyur Xanlar oğlu Nağıyev, Şahruz Əmirxan oğlu Əliyev və digərləri şahidlik edirlər.

Xocavənd rayonu, Qaradağlı kənd sakini **Həqiqət Yusif qızı Hüseynova** 1992-ci ilin fevralında 10 nəfər həmkəndlisinin ermənilər tərəfindən diri-diri yandırılmasının şahidi olub.

Ağdam rayonunun keçmiş sakini, milliyyətcə rus olan, erməni əsirliyində hədsiz işgəncələrə məruz qalmış Vladimir İvanoviç Şevelyov 1993-cü ildə Ağdam rayonunun işğalı zamanı 89 yaşlı anası **Vera Davıdovanın** və ahıl yaşlı bacısı **Svetlana İvanovnanın**, eləcə də 58 yaşlı xəstə qardaşı **Anatoli İvanoviçin** ermənilər tərəfindən vəhşicəsinə öldürülüb sonra yandırıldığını, Ağdam kanalının yanında saysız-hesabsız qadın və uşaq meyiti gördüyünü bildirir. Bundan əlavə **Vladimir Şevelyov** şahidlik edir ki, ermənilər Ağdam rayonunun işğalı zamanı oradakı ruhi xəstəxanada saxlanan 7 ruhi xəstəni, o cümlədən iki xəstə qadını girov götürüblər.

1930-cu il təvəllüdlü Ağdam rayon sakini **Əli Rəsul oğlu Abbasov** erməni girovluğunda mütəmadi olaraq döyülmüş, onun bədəninə siqaret basılaraq yandırılmışdı. Aldığı mənəvi və fiziki işgəncələrdən özünə gələ bilməyən Əli Abbasov erməni əsirliyindən azad ediləndən bir müddət sonra vəfat edib.

Yaralı vəziyyətdə əsir götürülmüş **Əbdüləzim Məcnun oğlu Məmmədov** rezin dəyənəklə döyülmüş, damarına benzin yeridilmiş, yaralarının qaysağı qopardılaraq ona əzab verilmiş, üstünə təlim keçmiş it buraxılmışdı.

Hərbi əsir **Mayıl Məmmədəli oğlu Məmmədovun** damarına dizel yanacağı yeridilmiş, sinəsi qızdırılmış xaçla damğalanmışdı.

16 fevral 1994-cü ildə Ermənistanın Xarici İşlər Nazirliyi guya, qaçmağa cəhd edərkən atışma zamanı 8 azərbaycanlı hərbi

əsirin öldürüldüyünü bəyan etmişdi. Bakıda meyitlər üzərində keçirilən məhkəmə-tibbi ekspertizası zamanı Beynəlxalq Hüquq və Sosial Təbabət Akademiyası Rəyasət Heyətinin və Böyük Britaniyanın "Həkimlər insan hüquqları uğrunda" təşkilatının üzvü, professor Derek Paunder azərbaycanlı hərbi əsirlərin eyni silahdan (tapança) gicgah nahiyəsinə yaxın məsafədən açılan atəş nəticəsində qətlə yetirildiyini bildirmiş və əsirlərin guya "qaçmağa cəhd edərkən öldürülməsi" fikrini rədd etmişdi.

Kəlbəcər şəhəri işğal olunarkən 20 yaşlı Səmayə Kərimova 2 yaşlı uşağı - Kərimova Nurlanə ilə birlikdə girov götürülmüşdü. Girovluqda olduğu müddətdə digər əsir və girovların, eləcə də qolundan yaralı vəziyyətdə girov götürülmüş körpə uşağı Nurlanənin üzləşdiyi əzablara, həmçinin özünün məruz qaldığı işgəncələrə dözməyən Səmayə 15 may, 1993-cü il tarixdə özünə qəsd etmişdi.

**İlham Nəsirov** 1992-ci il, iyulun 27-də Ağdərə uğrunda gedən döyüşlərdə başından, boynundan və çiynindən yaralı vəziyyətdə ermənilər tərəfindən əsir götürülmüşdü. Avqust ayının 8-də Xankəndindən İlhamın ailəsinə zəng edilmiş və onun İrəvanda Arakelyan familiyalı bir erməninin evində saxlanıldığı bildirilmişdi. Ailə İlham Nəsirovun azad edilməsi üçün itkin düşmüş Şaqen Arakelyanın tapılıb qarşı tərəfə verilməsi şərtini irəli sürmüşdü. Bir ilə yaxın ac-susuz saxlanılan və distrofiya həddinə çatdırılan İ.Nəsirov sonradan İrəvan hospitalına yerləşdirilsə də, artıq ona kömək etmək mümkün olmamışdı. Hospitalın rəisi Ş.Arakelyanın 24 noyabr, 1993-cü il tarixli, 06/134 saylı məktubunda da göstərdiyinə görə, İ.Nəsirov noyabrın 23-də kəskin kaxeksiya diaqnozundan vəfat etmişdi.

**Heydər Heydərov** Şuşa həbsxanasında saxlanıldığı müddətdə

məruz qaldığı işgəncələrin və mütəmadi döyülmələrin təsirindən vəfat etmişdi.

Erməni əsirliyində ölmüş 20 yaşlı **Fərhad Rəhman** oğlu Atakişiyevin meyitinin qalıqları əsasında məhkəmə-tibbi ekspertizası sübut etmişdi ki, o, müntəzəm döyülmələr və ağır işgəncələr nəticəsində qətlə yetirilmişdi.

**İmarət Məmişovanın** ifadəsinə görə, o, Kəlbəcər rayonunun işğalı zamanı iki azyaşlı uşağı ilə girov götürülmüşdü. İmarət Məmişovanın gözləri qarşısında ermənilər 8 mülki şəxsi, o cümlədən, onun 8 yaşlı oğlu Talehi güllələmiş və meyitləri yandırmışdı. Bundan sonra ermənilər onun özünü, 10 yaşlı oğlu Yadigarı, digər qadın, uşaq və qocaları Xankəndinə apararaq dəhşətli işgəncələrə məruz qoymuşlar.

Erməni girovluğundan 1994-cü ildə azad edilmiş Əhmədovlar ailəsinin verdiyi ifadəyə görə, 17 avqust 1993-cü il tarixdə ermənilər Füzuli rayonu Qacar kəndinin 25-dək dinc sakinini onların gözləri qarşısında güllələyiblər.

Erməni girovluğunda olmuş **Həsən Məcid oğlu Hüseynov *1*** 993-cü ildə Horadiz-Füzuli yolunda 40-dək dinc sakinin ermənilər tərəfindən öldürüldüyünü bildirir.

61 yaşlı keçmiş girov **Budaq Əli oğlu Alışanov** erməni əsirliyində 5 azərbaycanlının Drmbon kəndində (Dağlıq Qarabağ) ağır fiziki işlərdə qul kimi işlədilərək öldürdüyünün şahidi olmuşdu.

Erməni əsirliyində olan Xocalı şəhər sakini **Faiq Şahmalı oğlu Əliməmmədov** Gəncə şəhərinin adını "Kirovabad" demədiyinə görə, erməni hərbçisi tərəfindən güllələnib. Bu barədə Zülfi

İbrahim oğlu Məmmədov, Məmməd Cümşüd oğlu Məmmədov və digərləri şahidlik edir.

Əsirlikdən azad edilmiş **Zöhrab Nadir oğlu Heydərov** 21 may, 1993-cü il tarixdə Şuşa həbsxanasında 1973-cü il təvəllüdlü Zahid Nəsibulla oğlu Əmrullayevin erməni nəzarətçiləri tərəfindən boğularaq qətlə yetirildiyini bildirib.

Girovluqdan azad edilmiş **Maşallah Bəndəliyev** bildirirdi ki, 1992-ci ilin mayında Xankəndində qarajda saxlanılarkən qarajın sahibi Mero və Sarkisyan Vazgen adlı digər erməni, bir nəfər adını bilmədiyi lal girova öncə müxtəlif dərəcəli işgəncələr vermiş, sonra isə onun başını kəsmişdilər.

Eyni zamanda, əsirlikdə saxlandığı müddətdə minlərlə günahsız azərbaycanlı ermənilər tərəfindən qətlə yetirilmiş, işgəncələrin təsirindən ölmüş, amansız rəftara məruz qalmaqla və ləyaqəti mütəmadi alçaldılmaqla özünü öldürmə dərəcəsinə çatdırılmışdı.

* * *

Hələ SSRİ dövründə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilər Ermənistan Respublikası tərəfindən provakasiya edilmişdi. Yerli azərbaycanlılara nisbətən çox az olan ermənilərin müstəqillik tələbləri 1989-cu ildən bəri silahlı münaqişəyə, nəhayətdə geniş işğalçılıq aktlarına səbəb oldu. Azərbaycan müstəqillik əldə etdikdən sonra isə bu münaqişə iki ölkə arasında müharibəyə çevrildi. Hal-hazırda Azərbaycanın Dağlıq Qarabağ da daxil və ona bitişik 13 rayonu Ermənistanın işğalı altındadır. İşğal altında olan ərazi Azərbaycanın ümumi ərazisinin 20%-ni təşkil edir. Silahlı münaqişə nəticəsində Dağlıq Qarabağ və ətraf

rayonlardan milyondan artıq azərbaycanlı əhali öz yaşayış yerlərini tərk edib, 24 mindən çox insan həlak olub, 50 min nəfər yaralanıb və ya şikəst olub. Hazırda erməni tərəfin müntəzəm olaraq atəşkəsi pozması nəticəsində 10 mindən çox azərbaycanlı həlak olub.

İrəvanda "Milli vətəndaş təşəbbüsü" qurumu ictimai dinləmələr təşkil edib. Dinləmələr zamanı insan haqları üzrə müvəkkil Larisa Alaverdiyan çıxış edib və bir maraqlı fakt üzərində dayanıb - terror faktı üzərində! Ondan soruşublar ki, ombudsmanın ən güclü silahı nədir. L.Alaverdiyan beynəlxalq praktikaya əsaslanaraq cavab verib ki, “abır-həyanın ortaya qoyulması”.

Bu vaxt parlamentin vitse-spikeri Vaan Ovanesyan qəribə bir replika ilə çıxış edib: “Bizdə olmayan şeyi nə cür ortaya qoyacaqsınız?”

* * *

Beləliklə, mən bir hüquq-mühafizə orqanlarının əməkdaşı, zabit, asayişin keşiyində durmağa and içmiş şəxs, yaxınları, qohumları, dostları Ermənistanın dövlət səviyyəsində dəstəklədiyi terror, soyqırımı aktlarının, ümumən elan olunmamış müharibənin acı nəticələrini öz üzərində hiss edən vətəndaş olaraq, sənətin ülvi amallarına, ədəbiyyatın estetik dəyərlərinə sayğı duyan bir yazıçı, nəhayət, bir insan olaraq bütün əlaqədar şəxslərdən, beynəlxalq qurumlardan bu məsələyə hüquqi qiymət verməyi, cinayətkarların cəzaya cəlb olunması məsələsinə baxmağı xahiş edirəm! Qoy, bizdən sonrakı nəsillər terror, soyqırımı görməsinlər!

**Modern.az**

**30.06.2014**

## I.XOCALI SOYQIRIMI BEYNƏLXALQ CİNAYƏT KİMİ

"Soyqırım" anlayışının hüquqi mənası BMT Baş Assambleyasının 9 dekabr 1948-ci il tarixli 260 A (III) saylı qətnamə ilə qəbul etdiyi "**Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında"** Konvensiya ilə müəyyən edilmişdir və hər hansı milli, etnik, irqi və ya dini qrupların tam və ya qismən məhv edilməsi niyyəti ilə aşağıdakı hərəkətləri bildirir:

- belə bir qrupun üzvlərinin qətlə yetirilməsi;

- belə bir qrupun üzvlərinə ciddi bədən xəsarətləri və əqli pozğunluq yetirilməsi;

- hər hansı belə bir qrup üçün qəsdən onun tam və ya qismən məhvinə hesablanmış həyat şəraitinin yaradılması;

- belə bir qrup arasında uşaq doğumunun qarşısının alınmasına hesablanmış tədbirlər;

- uşaqların zorakılıqla bir insan qrupundan digərinə verilməsi.

Soyqırım cinayəti üçün xüsusi niyyətin olması zəruri element sayılır.

Bu obyektiv cizgi soyqırım cinayətinin digər analoji beynəlxalq cinayətlərdən fərqləndirir. Soyqırım cinayətini təşkil edən

əməllərdən hər biri şüurlu və əvvəlcədən düşünülmüş olur. Bu əməllər heç bir halda təsadüf və ya ehtiyatsızlıq nəticəsində törədilə bilməz. Eyni zamanda, belə bir hərəkətin törədilmə niyyətinin vaxtı və onların mümkün nəticələrinin ümumi dərki onların soyqırım kimi tövsif olunması üçün kifayət deyil. Burada hərəkətin mənfi nəticələri ilə bağlı cinayətkar qərəzin və ya konkret niyyətin xüsusi istiqamətini üzə çıxarmaq tələb olunur. Xilas olmağa can atan Azərbaycan mülki əhalisinin əvvəlcədən xüsusi olaraq hazırlanmış pusqu yerlərindən avtomatlardan, pulemyotlardan və digər silah növlərindən atəşə tutulması soyqırım niyyətini sübut edir. Bu cinayətin məhz azərbaycanlı milli qrupuna qarşı yönəlmiş olduğu göz önündədir.

Soyqırım cinayətinin təhlili zamanı onun 3 əsas hissəsi üzə çıxarılır:

- məlum, milli, etnik, irqi və ya dini qrupun varlığı;

- belə bir qrupun tamamilə və ya qismən məhv edilmsi niyyətinin olması (mens rea);

- məlum qrupa münasibətdə soyqırım kimi təfsir olunan hərəkətlərdən hansısa birinin törədilməsi (actus reus).

Deməli, soyqırım aktı mütləq milli, etnik, irqi və ya dini qrupa qarşı yönəlmiş olmalıdır. Digər qrupa qarşı, məsələn siyasi və sosial qrupa qarşı yönəlmiş belə hərəkətlər soyqırım kimi tövsif oluna bilməz.

Soyqırım anlayışı qadağan olunmuş hərəkətin ümumi nəticələri üzrə konkret niyyətin olmasını tələb edir. Soyqırım cinayətinin tövsif olunmuş əlaməti olaraq niyyət özündə bir neçə fərqli tərkib hissələrini birləşdirir:

- niyyət bu və ya digər konkret qrupa mənsub şəxslərin təsadüfi olaraq bir nəfərinin və ya bir neçə nəfərinin məhv edilməsindən ibarət olmamalı, bütövlükdə qrupun məhv edilməsindən ibarət olmalıdır. Soyqırım qurbanlarının müəyyən edilməsinin həlledici əlaməti onların fərdiliyi deyil, məhz onların qrupa mənsubluğudur;

- niyyət qrupun məhv edilməsindən ibarət olmalıdır. Soyqırım bütöv bir insan qrupunun mövcudluğa hüququnu tanımaqdan imtina etməkdir. Ayrıca bir insanın qətlə yetirilməsi (soyqırım) ayrıca bir fərdin yaşamağa hüququnu tanımaqdan imtina kimi xarkterizə olunur. Müvafiq olaraq, actus reus (qadağan edilmiş hərəkat) bir adamla məhdudlaşa bilər, lakin mens rea (niyyət) qrupun mövcudluğuna qarşı yönəlmiş olmalıdır;

- niyyət qrupun məhz tamamilə və ya qismən məhvindən ibarət olmalıdır;

- niyyət məhz milli, etnik, irqi və ya dini qruplardan birinin məhv edilməsindən ibarət olmalıdır.

Soyqırım cinayətinə görə, məsuliyyətin tövsif olunması üçün bütöv qrupun məhv edilməsi kimi son nəticəyə nail olunma tələb edilmir.

Bunun üçün etnik qrupun tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə cinayətin obyektiv tərəfini təşkil edən hərəkətlərdən birini törətmək yetərlidir.

Soyqırımın obyektiv tərəfi olan "məhv etmək" anlayışı fiziki və ya bioloji təsir yolu ilə həyatdan məhrum etmək mənasına gəlir.

BMT-nin beynəlxalq məhkəməsi "Barselona Traction" işi üzrə qərarında soyqırım aktının qadağan edilməsi üzrə öhdəliyi erga omnes öhdəlikləri adlandırmışdır.

Beynəlxalq məhkəmə "Soyqırım cinayətlərinin qarşısının alınması və ona görə cəzalar" Konvensiyasının əsasında duran prinsipləri bütün dövlətlər üçün məcburi xarakterli normalar kimi tanımışdır.

## II. XOCALI HADİSƏLƏRİNİN BEYNƏLXALQ HÜQUQ TƏRƏFİNDƏN SOYQIRIM CİNAYƏTİ AKTI KİMİ TANINMASININ HÜQUQİ ƏSASLARI

Aşağıdakı sənədlər Xocalı hadisələrini beynəlxalq hüquq əsasında soyqırım cinayəti aktı kimi tövsif etməyə imkan verir:

1. BMT Baş Assambleyası tərəfindən 260 A (III) saylı qətnamə ilə qəbul edilmiş 9 dekabr 1948-ci il tarixli "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar" Konvensiyası.

2.Nürnberq Hərbi Tribunalının Nizamnaməsi (hərçənd

Nizamnamədə soyqırım cinayətinə birbaşa isnad edilməsə də, soyqırımı təşkil edən hərəkətlər onda bəşəriyyətə qarşı cinayətlər və hərbi cinayətlər kimi tövsif olunur).

3.Beynəlxalq Cinayət Tribunalının Yuqoslaviya üzrə Nizamnaməsi (maddə 4).

4.Beynəlxalq Cinayət Tribunalının Ruanda üzrə Nizamnaməsi (maddə 1).

5. Beynəlxalq Cinayət Məhkəməsinin statusu (maddə 6).

6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi (maddə 103).

7.Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanı.

## III. XOCALI HADİSƏLƏRİNİN BEYNƏLXALQ HÜQUQ TƏRƏFİNDƏN "SOYQIRIM" HÜQUQİ NORMASININ ALTINA DÜŞƏN CİNAYƏT KİMİ TANINMASININ HÜQUQİ NƏTİCƏLƏRİ

Beynəlxalq hüquq soyqırım cinayəti ilə bağlı bunları müəyyən etmişdir:

1. Soyqırım cinayəti törətmiş şəxslərin cinayət təqibi və cəzalandırılması qaçılmazdır.

2. Cinayət tərkibi təkcə soyqırım aktının törədilməsi deyil, həm də soyqırım törədilməsi məqsədi ilə sui-qəsd, soyqırımın törədilməsinə birbaşa və açıq şəkildə təhrikçilik, soyqırım törədilməsinə qəsd və soyqırımda iştirakdır.

3. Soyqırım törətmiş şəxslərə universal yurisdiksiyanın prinsipləri tətbiq edilməlidir.

4. Soyqırım cinayəti törədilərkən əmrin icrasına istinad etmək məsuliyyətdən azad etmir.

5. Rəhbərlər soyqırım cinayətinin qarşısının alınması üzrə hərəkətləri həyata keçirmədiklərinə görə məsuliyyət daşıyırlar.

6. Soyqırım cinayətlərinə cinayət məsuliyyətinin tətbiqinə cəlbetmə müddəti tətbiq edilmir.

7. Soyqırım cinayətinə münasibətdə qanunun retroaktiv tətbiqinə yol verilir.

8. Soyqırım cinayəti törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb edilmələri üçün tələb edən ölkəyə verilməlidirlər.

Beləliklə, Xocalı şəhərində əhaliyə - ermənilər tərəfindən etnik azərbaycanlılara qarşı törədilmiş hərəkətlər beynəlxalq hüquqi sənədlərə uyğun olaraq soyqırım kimi tövsif olunur və beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq bəşəriyyətə qarşı cinayətdir.

## IV. XOCALI HADİSƏLƏRİNİN ERMƏNİSTAN RESPUBLİKASININ AZƏRBAYCAN XALQINA QARŞI MƏQSƏDYÖNLÜ SOYQIRIM SİYASƏTİNİN BİR HİSSƏSİ KİMİ BEYNƏLXALQ CİNAYƏT OLMASI HAQQINDA FAKTIN DÜNYA BİRLİYİNƏ ÇATDIRILMASI

"Xocalı faciəsi beynəlxalq cinayət olaraq - Ermənistan Respublikasının Azərbaycan xalqına qarşı məqsədyönlü siyasətinin tərkib hissəsidir" başlıqlı və Azərbaycan MEA İnsan Haqları İnstitutunun Ekspert Şurası tərəfindən qəbul edilmiş bu sənəd Azərbaycan Respublikasının Milli Məclisinə, Türkiyə, Gürcüstan, Rusiya və digər dövlətlərin parlamentlərinə, BMT İnsan Haqları üzrə Ali Komissarlığı, Avropa Şurasının Parlament Assambleyası, Avropa Şurasının İnsan Haqları üzrə Baş Direktoratı, ATƏT-in Parlament Assambleyası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu kimi beynəlxalq təşkilatlara, eləcə də insan haqları üzrə milli və beyəlxalq təşkilatlara, xarici ölkələrdəki Azərbaycan diasporu mərkəzlərinə göndərilmişdir.

* * *

Ermənistanın işğalçı siyasətinə məruz qalan bir milyondan çox insan ağır şəraitdə yaşayır - onlar çadır şəhərciklərində, yığma evlərdə, yük vaqonlarında və yaşayış üçün uyğun olmayan digər

yerlərdə sığınacaq tapmışlar.

BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respubilkası ərazilərinin Ermənistan ordusu tərəfindən işğalı ilə bağlı 1993-ci ilin aprelində qəbul etdiyi 822 saylı, iyulda qəbul etdiyi 853 saylı, oktyabrda qəbul etdiyi 874 saylı və noyabrda qəbul etdiyi 884 saylı qətnamələrə Ermənistan dövləti tam etinasızlıq göstərmiş və bununla da beynəlxalq birliyin sözünə məhəl qoymamışdır.

Qarabağ probleminin ədalətli həlli uğrunda Azərbaycan dövlətinin həyata keçirdiyi ardıcıl, prinsipial və qətiyyətli siyasi xətt, Azərbaycan Respublikasının konstruktiv mövqeyi dünya dövlətlərinə yaxşı bəllidir. Problemin sülh və danışıqlar yolu ilə həllinin əsas istiqamətləri 1996-cı ilin dekabrında ATƏT-in Lissabon Sammitində dünyanın 53 dövləti tərəfindən bəyənilmiş və dəstəklənmişdir.

Biz hamımız bir planetin sakinləriyik və bizim ümumi evimizi ölüm və qanla hədələyən kəslərə qarşı qətiyyətli və birlikdə mübarizə aparmalıyıq. Biz dərindən inanırıq ki, XXI yüzilə qədəm qoymuş xalqların xoşbəxt yaşamaları naminə, ədalət naminə, yüksək insani dəyərlərin təntənəsi naminə dünya dövlətləri, parlamentləri, beynəlxalq təşkilatlar ədalətin bərpasını dəstəkləyəcəklər. Qarabağ probleminin sülh və danışıqlar yolu ilə həllinin tərəfdarı olmaqla, biz bir daha inandığımızı bildiririk ki, dünya dövlətlərinin, parlamentlərinin, beynəlxalq təşkilatların birgə səyləri nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunacaq və qaçqınlar və məcburi köçkünlər doğma yurd-yuvalarına

qayıdacaqlar.

***İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu***

# Azərbaycanlılara qarşı iki əsr davam edən soyqırım

Bu gün son yüz ildə Azərbaycan tarixində baş vermiş faciəvi hadisələrin xalqın yaddaşında həkk olunduğunu özündə əks etdirir. Azərbaycanlıların kütləvi şəkildə qırılması XX yüzilliyin faciəvi səhifələrindən biri hesab etmək olar. Bu faciələrin günahkarı "Böyük Ermənistan" yaradılması kimi sərsəm bir ideyanı həyata keçirmək üçün heç bir iyrənc vasitədən çəkinməyən erməni şovinizmidir.

**I mərhələ.** Soyqırım siyasətinin tarixi mərhələləri İsveçlə Rusiya arasında 1721-ci ildə sülh müqaviləsinin imzalanmasından sonra Rusiya çarı I Pyotr öz imperiya ehtiraslarını Qafqaza, Xəzəryanı ərazilərə yönəltdi. Bu cəhdlərin sonu 1723-cü ildə Bakının işğalı ilə nəticələndi. Əsasən müsəlmanlardan ibarət olan yerli camaatın narazılığını və müqavimətini görən I Pyotr öz planlarını həyata keçirmək üçün, necə olur-olsun, Gilanda, Mazandaranda, Bakı və Dərbənddə ermənilərin və xristianların yerləşdirilməsini vacib sayırdı. Əsası I Pyotr tərəfindən qoyulan bu siyasəti sonralar Rusiyanın digər çarları həyata keçirdi. 1768-ci ildə II Ekaterina ermənilərin himayə edilməsi barədə əmr imzalayır. 1802-ci ildə çar I Aleksandr H.D.Sisianova yolladığı məktubunda

yazırdı: "Hə olur-olsun ermənilər Azərbaycanın ... bu və ya digər xanlıqlarında istifadə olunmalıdır". IV-XIX əsrlər ərzində öz dövlətlərinə malik olmayan ermənilər dövlətlərini yaratmaq məqsədinə çatmaq üçün Rusiyanın imperiya siyasətiniin həyata keçirilməsində alət rolunu oynadılar. Soyqırım xronikası I mərhələ: 1813-1828-ci illər Rusiya ilə İran arasında gedən iki müharibənin ( 1804-1813, 1826-1828) sonunda imzalanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri Azərbaycan xalqının tarixində faciəvi rol oynamış və Azərbaycanın parçalanmasına gətirib çıxarmışdır. Azərbaycanın şimalı Rusiyanın, cənubu isə İranın idarəçiliyinə keçmişdir. Türkmənçay müqaviləsinin XV bəndinə əsasən İrandan ermənilərin İrəvan, Qarabağ və Naxçıvana kütləvi şəkildə köçürülməsinə başlanılır. Bunun da nəticəsində həmin ərazilərdə məskunlaşmış azərbaycanlılar öz yurd-yuvalarından məhrum edilir. Türkmənçay müqaviləsindən dərhal sonra imperator I Nikolay 21 mart 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni əyaləti"nin yaradılması haqqında əmr imzalayır. Bu əmrə əsasən o zaman 7 min 331 azərbaycanlının və 2 min 369 erməninin yaşadığı İrəvan şəhəri də "Erməni əyaləti"nin tərkibinə daxil edilir. Türkiyə ilə aparılan müharibələrin (1828-1829, 1877-1878) sonunda tarixi mənbələrə əsasən 1829-1830-cu illərdə Qafqazda (Naxçıvan, Qarabağ, İrəvan) 40 min İran, 84 min 600 Türkiyə ermənisi yerləşdirilib. Butün bunlara baxmayaraq XIX əsrin sonunda İrəvan quberniyası azərbaycanlıların sayına görə, Bakı və Yelizavetopol (Gəncə) quberniyalarından sonra Qafqazda üçüncü yeri tuturdu. Rusiya imperiyasında ilk dəfə olaraq əhalinin siyahıya alınmasında əldə olunan göstəricilərə görə, 1897-ci ildə İrəvan quberniyasında 313

min 178 azərbaycanlı yaşayıb. XX əsrin başlanğıcında baş verən sonrakı hadisələr göstərdi ki, belə bir vəziyyət Azərbacan xalqının tarixində faciələrin davamına səbəb olub. XIX əsrin ikinci yarısında Türkiyə, Gürcüstan və Azərbaycan ərazilərini tutmaqla "Böyük Ermənistan" kimi millətçi, şovinist ideyasını həyata keçirmək istəyində olan ermənilər təşkilati strukturlar yaratmağa başlayırlar. "Qnçaq" (1887, Cenevrə, "Daşnaksütyun" (1890, Tiflis) partiyaları, "Erməni vətənpərvərlər ittifaqı" (1895, Nyu-York) təşkilatı yaradılır.

**II mərhələ:** 1905-1907-ci illər Rusiyada gedən inqilabi proseslərdən istifadə edən ermənilər 1905-1907-ci illərdə məqsədyönlü milli qırğın aktlarını, Bakı, Şuşa, Zəngəzur, İrəvan, Ordubad, Naxçıvan, Eçmiadzin, Cavanşir və Qazaxda azərbaycanlıların yurd-yuvalarından çıxarılması aksiyasını həyata keçiriblər. 1905-1906 illərdə İrəvan və Gəncə quberniyalarının 200, Şuşa, Cəbrayıl və Zəngəzurun isə 75 azərbaycanlı kəndini ermənilər talan ediblər. Bu hadisələrin baş verməsini sübut edən faktlar M.S.Ordubadinin "Qanlı illər", M.M.Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman müharibəsi" və s. kitablarda öz əksini tapıb. Həmin kitablarda bəhs olunan hadisələr o zamanın mətbu nəşrləri, şahidlərin ifadələri əsasında hazırlanıb. Statistik məlumatlara əsasən demək olar ki, 1905-1907-ci illərdə baş verən hadiəsələrdən sonra azərbaycanlılara qarşı kütləvi repressiyalar gizli şəkildə aparılıb. 1916-cı ilin məlumatları göstərir ki, 1831-ci illə müqayisədə həmin il İrəvan quberniyasının 5 əyalətində əhalinin sayı 40 dəfə artaraq 14 min 300-dən 570 min nəfərədən yüksəlmişdir. Ancaq həmin zaman kəsiyində azərbaycanlıların sayı cəmi 4,6 faiz artaraq 246 min 600 nəfər təşkil edib. Yaxud başqa bir nümunə, əgər 1886-1897-ci illərdə əhalinin mütləq artımı 40 min nəfər olubsa, 1905-1916-ci illərdə bu

rəqəm cəmi 17 min nəfər olub. Halbuki hələ 1905-ci ildə 1886-cı illə müqayisədə əhalinin sayı 61 min nəfər çox olub. Bu rəqəmlər çar Rusiyasının idarəçiliyi dövründə erməni millətçilərinin şovinist siyasətinin həyata keçirməsindən, "Türksüz Ermənistan" planının reallaşdırılması istiqamətində azərbaycanlıların qovulmasından xəbər verir.

**III mərhələ:** 1918-1920-ci illər Birinci dünya müharibəsindən sonra Rusiyada yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ildə baş vermiş fevral və oktyabr inqilablarından sonra öz istəklərinə bolşevizm bayrağı altında nail olmağa cəhd edirlər. Bakı Soveti əksinqilabi elementlərlə mübarizə şüarı altında 1918-ci ilin əvvəllərindən başlayaraq bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların çıxarılması məqsədlərini güdən cinayətkar planın reallaşdırılmasına başlayır. 1918-ci ilin mart-aprel aylarında isə qanlı hadisələr zirvə nöqtəsinə çatıb. O aylarda ermənilər tərəfindən edilən cinayətlər azərbaycan xalqının yaddaşında silinməz iz qoyub. Təkcə milli mənsubiyyətinə görə minlərlə dinc azərbaycanlı məhv edilir. Ermənilər evləri yandırır, insanları diri-diri oda atırdılar. Onlar tərəfindən milli memarliq abidələri, məktəblər, xəstəxanalar, məsçidlər və digər tikililər dağıdılır. Azərbaycanlıların soyqırımı xüsusi qəddarlıqla Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın digər ərazilərində həyata keçirilir. Bu torpaqlarda kütləvi qaydada dinc əhali qırılmış, kəndlər yandırılmış, milli mədəniyyət abidələri məhv edilmişdir. 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdur. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülüb. Şamaxıda 58 kənd

dağıdılmış 7 min nəfər (1653 qadın, 965 uşaq) məhv edilmişdir. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə yeksan olunub, əhali üzərində yaş və cinsə məhəl qoymadan qətliam həyata keçirilib. İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərin birində ("Aşxadavor" ("Əməkçi") qəzeti, 2 noyabr 1919-cu il) göstərilirdi ki, azərbaycanlıların bu tarixi şəhərində və onun ətrafında qısa zaman ərzində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131 min 970 nəfər isə öldürülmüşdür. 28 may 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaradılması da qurbansız ötüşməyib. ADR-in Nazirlər Sovetinin sədri F.X.Xoyskinin xarici işlər naziri M.H.Hacınskiyə yazdığı məktubda deyilir: "Ermənilərlə biz bütün mübahisələrə son qoymuşuq. Onlar ultimatumu qəbul edib müharibə ilə qurtaracaqlar. Biz ermənilərə İrəvanı güzəştə getdik". Cənubi Qafqazda 3 suveren respublikanın yaranması və müttəfiqlərin köməyi ilə Ermənistan ərazisi 1 milyon 510 min nəfər əhali ilə (795 min erməni, 575 min müsəlman, 140 min digər xalqlar) 17 min 500 ingilis kvadrat mili həcmində olur. Bununla kifayətlənməyən ermənilər heç bir şeyə məhəl qoymadan "Böyük Ermənistan" ideyası ətrafında Gürcüstanın tərkibində olan Axalkalaki, Borçalı, Azərbaycanın Qarabağ, Naxçıvan, Gəncə quberniyasının cənub hissəsinə iddia irəli sürürlər. Güc hesabına bu əraziləri özlərinə birləşdirmək cəhdi Gürcüstanla müharibəyə (dekabr 1918), Azərbaycanla isə uzun müddətli qanlı mübarizəyə gətirib çıxarır. Hansı ki, nəticədə mübahisəli ərazilərdə əhalisinin sayı 10-30 faiz aşağı düşür. Kütləvi qırğınlar nəticəsində indiki Ermənistan ərazisində yaşayan 575 min azərbaycanlıdan 567 mini öldürülmüş və yurddışı edilmişdir. 1920-ci il aprelin əvvəlində

Tiflisdə Zaqafqaziya respublikalarının nümayəndələrinin iştirakı ilə "sovetləşmə təhlükəsindən birgə müdafiə" mövzusunda keçirilən konfransda ermənilər bəyan edirlər ki, onlar heç zaman mövcud ərazi ilə kifayətlənməyəcəklər və əməkdaşlıqdan imtina edirlər. Buradan belə nəticə çıxır ki, 1920-ci ilin yazında ermənilərin Qarabağda, Zəngəzurda, Qazaxda, martın 22-də Novruz bayramı günü Şuşada, sonradan isə Əsgəran, Xankəndində aktiv çıxışları onların Moskva ilə əlaqəyə girərək Azərbaycanın milli hökumətini devirmək və burada sovet hakimiyyətini qurmaq istəyindən irəli gəlirmiş. Bu faktlardan göründüyü kimi, ermənilər öz şovinist məqsədlərinə çatmaq üçün beynəlxalq hüquq normalarına məhəl qoymadan bütün mümkün vasitə və metodlardan istifadə ediblər.

**IV mərhələ:** 1948-1953 - cü illər Sovet hakimiyyəti illərində ermənilər adət etdikləri metodlarla azərbaycanlıların daimi yaşadıqları Ermənistan SSR-dən çıxarılmasını, eləcə də qonşu respublikaların torpaqları hesabına öz ərazilərini böyütməkdə davam ediblər. 1943-cü ildə Tehranda keçirilən konfransda ermənilər İranda yaşayan ermənilərin Sovetlər Birliyinə köçürülməsinə icazə verilməsi xahişi ilə SSRİ xarici işlər naziri Molotova müraciət edirlər. Bu məsələdə Stalinin razılıq verməsi faktiki olaraq azərbaycanlıların 1948-53-cü illərdə kütləvi şəkildə Ermənistandan deportasiya olunmasının əsasını qoyur. 1945-ci ildə Ermənistan rəhbərliyi iqtisadi əlaqələrin bağlılığını əldə bayraq edərək Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırırlar. Lakin həmin dövrdə bu cəhdlər öz məqsədinə çatmır. O zaman başqa bir taktika seçilir. 1941-45-ci il müharibəsi sona çatan kimi xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsinə başlanılır. Belə ki, 1946-cı ildə Suriya, Yunanıstan, İran, Bolqarıstan və Rumıniyadan

59 min 900, 1947-ci ildə isə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir, İraq və Livandan 35 min 400 erməni köçürülüb. 1947-ci ildə Ermənistan SSR Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi Q.Arutyunov köçürülmüş ermənilərin yerləşdirilməsindəki çətinliklərdən şikayət edir və təklif edir ki, Ermənistanda yaşayan azərbaycanlılar Azərbaycanın pambıqçılıq rayonlarına köçürülsün. Guya bu köçürülmə həmin rayonlarda pambıq istehsalının artımına təsir göstərəcəkdi. İ.Stalin tərəfindən dəstəklənən bu ideya SSRİ Nazirlər Sovetinin iki qərarı ilə həyata vəsiqə qazandı. Həmin qərarlarda ( 1947-ci il) 1948-50-ci illərdə Ermənistan SSR-dən 100 min azərbaycanlının Kür-Araz düzənliyinə könüllü köçürülməsi nəzərdə tutulur. Heç bir səbəb, mexanizm və real şərait göstərilmədən... Statistik göstəricilərə əsasən 1948-ci ildə Azərbaycana 2 min 357 ailə (11046 nəfər), 1949-cu ildə 2 min 368 ailə (10 min 595 nəfər), 1950-ci ildə isə 14 min min 361 nəfər köçürülür. 1948-50-ci illərdə köçürülən 8 min 110 ailədən yalnız 4 min 878-i yaşayış yeri ilə təmin olunur. Ümumiyyətlə 1948-52-ci illər ərzində respublikamıza 100 mindən çox azərbaycanlı köçürülüb. Əsasən dağlıq ərazilərdə yaşamağa adət etmiş azərbaycanlılar düzənlik ərazisinin iqliminə uyğunlaşa bilmirdilər. Yaşayış yeri ilə təmin olunmamaq da öz təsirini göstərir. Köçürülənlər arasında yüzlərlə adam həyatla vidalaşır... Hətta belə şəraitdə "məngənə"də sıxılan azərbaycanlıların dağlıq ərazilərə, Qarabağa köçürülməsi barədə Azərbaycan rəhbərliyinə və Moskvaya dəfələrlə etdiyi müraciətlər mərkəzi orqanlar tərəfindən rədd edilir. Bax, bu da pambıqçılığın inkişafı naminə könüllü köçürülmənin daha bir tərəfi... Bununla yanışı 1948-ci ildə Suriya, Livan, Fransa, ABŞ, Misir, Bolqarıstan və Rumıniyadan Ermənistana cəmi 10 min

erməni köçürülür. Bu fakt göstərir ki, Sovet rəhbərliyinin müvafiq qərarı ilə azərbaycanlıların faktiki deportasiyasına nail olan ermənilər xarici ölkələrdən Ermənistana həmmillətlərinin köçürülməsində maraqlı olmayıblar. 1975-ci ilin yanvarında Ermənistan KP MK-nın plenumunda səslənən faktlardan biri o olur ki, 476-dan çox kənd istifadə edilməmiş qalır ("Kommunist" qəzeti (Yerevan), 20 yanvar 1975-ci il). 1990-cı ildə də erməni millətçiləri özləri açıqca bəyan edirlər ki, azərbaycanlıların köçürülməsindən sonra azad olmuş torpaq və yaşayış fondu xaricdən gəlmiş ermənilərin yerləşdirilməsi üçün istifadə olunmayıb ("Qolos Armenii" qəzeti, 11 noyabr 1990). Yuxarıda göstərilənlərdən yeganə nəticəyə gəlmək olar: Ermənistandan azərbaycanlıların köçürülməsi nə xaricdə yaşayan ermənilərin yerləşdirilməsi, nə də Azərbaycanda pambıqçılığın inkişafı məqsədini daşımayıb. Bu hadisələr sadəcə daşnakların köhnə ideyaları və arzuları-monomillətçi dövlətin yaradılması siyasətinin elementi idi. 1953-cü ildə Stalinin ölümü azərbaycanlıların köçürülməsi prosesini dayandırır. Ev-eşiklə təmin edilməyən, mövcud şəraitə dözə bilməyən köçürülmüş azərbaycanlılar ermənilər tərəfindən onlara qarşı kin və diskriminasiyaya baxmayaraq özlərinin dədə-baba yurdlarına qayıtmaq məcburiyyətində qalırlar. Bu proses erməni şovinizminin yeni dalğasını alovlandırır - azərbaycanlılara qarşı mənəvi terrorun həyata keçirilməsinə "start" verilir. Tədris müəssisələrinin bağlanması, azərbaycan təhsil bölmələrinin ləğvi, rəhbər vəzifədə çalışan azərilərin erməni kadrlarla əvəz olunması, azərbaycan kəndlərinin məişət və təsərrüfat ehtiyaclarına etinasız yanaşılması, antiazərbaycan kompaniyasının aparılması (xüsusilə 1965-ci ildə "erməni genosidi"nin 50-ci il dönümü zamanı) daşnak siyasətinin

açıq təzahürü idi.

**V mərhələ:** 1988-ci ildə başlayır 1988-ci ildən başlayaraq yenidənqurma, aşkarlıq prosesi antiazərbaycan əhval-ruhiyyəsinin və ərazi iddialarının yeni dalğasını yaratdı. 1945-ci ildə sınaqdan çıxarılmış guya Ermənistanla Qarabağın iqtisadi cəhətdən bir-birinə bağlı olması barədə əsassız iddialarla erməni millətçiləri azərbaycanlıları Ermənistandan qovmağa, Qarabağı isə Azərbaycandan ayırmağa başladılar. 1988-ci ildən başlayaraq kütləvi hədə qorxular, fiziki güc, ölüm, kəndlərin talan edilməsi yandırılması həyata keçirilir. Qukarkda baş verən qanlı hadisələr nəticəsində 70 nəfər öldürülür, onların 21-i qadın 6-sı uşaq olur. Vardenis rayonunda isə 40 nəfər öldürülür. Ermənistanın digər rayonlarından - Yerevan, Masis, Kalinino, Kadjaran, Qafan, Kirovakan, Qoris, Sisian, Amasiya və Alaverdidən 250 min azərbaycanlı öz ev-eşiyindən qovulur. 1905-1920-ci illərin tarixi yenidən təkrar olunur - qadın və uşaqlar, yaşlılar qarlı dağlar aşaraq, dona-dona, insani itkilər verə-verə öz xilaslarını Azərbaycanda axtarırdılar. Yenidən 1948-53-cü illərin tarixi təkrar olunur - İttifaqın mərkəzi hakimiyyətinin qərarları ilə azərbaycanlı qaçqınların Qarabağda yerləşdirilməsinə icazə verilmir, onlar özlərinə çadır şəhərciklərində sığınacaq tapırlar. 1991-ci il avqustun 8-də (18 fevral 1929-cu ildə Ermənistanın tərkibinə verilib) sonuncu azərbaycan kəndi Nüvədidən əhalinin çıxarılmasından sonra Ermənistan faktiki olaraq monomillətçi dövlətə çevrildi. "Türksüz Ermənistan" kimi daşnak ideyası reallaşdı. 1988-ci ildən sonra Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində 7 rayon talan olundu, 1 milyona qədər adam doğma yurdundan didərgin düşdü. Tarixən Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirən

erməni millətçiləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək Xocalını yerlə-yeksan etdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən ölüm doğan o gecədə hələ də dəqiq olmayan məlumatlara görə, 613 nəfər xocalılı şəhid oldu. Onlardan ancaq 335 nəfərinin meyidini dəfn etmək mümkün olub. 1275 nəfər dinc sakin girov götürülüb, onlardan 150 nəfərinin taleyi bu gün də məlum deyil. Faciə nəticəsində 1000 nəfərdən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst olub. Qətlə yetirilənlərin 106 nəfəri qadın, 83 nəfəri azyaşlı uşaq, 70 nəfəri qocalar idi. Şikəst olanların 76 nəfəri yetkinlik yaşına çatmamış oğlan və qızlardır. Cinayət nəticəsində 27 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Şəhid olanlardan 56 nəfəri xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırılıb, başları kəsilmiş, gözləri çıxarılmışdır. Hazırda xocalılar respublikamızın 50-dən artıq rayonunda məskunlaşıblar. Xocalıda törədilən soyqırım əvvəlcədən düşünülmüş, ciddi planlaşdırılmışdı. Belə ki, hələ 1992-ci il fevralın 16-da Xankəndində məlum 366-cı rus alayının nəzdində "gizli erməni cəbhəsi" deyilən bir "rota" yaradılmışdı. Bunun da özəyini ayrı-ayrı ölkələrdən erməni icmalarını təmsil edən silahlı erməni quldur birləşmələri təşkil edirdi. Xocalıda hücumda iştirak edən hərbi hissələrin birinin əks-kəşfiyyat şöbəsinin rəisi polkovnik V.Savelyev özünün "Məxfi arayışında" erməni terror təşkilatları ilə Rusiya qoşun birləşmələrinin Dağlıq Qarabağda keçirdikləri hərbi əməliyyatları izləyib, fakt və sənədlərdə olub keçənlərin şərhini verərək etiraf edirdi: "Mən bütün bunları yazmaya bilmərəm. İnsanların, uşaq və qadınların, hamilə gəlinlərin güllədən keçmiş bədənlərini unuda bilmirəm. Qoy, azərbaycanlılar məni bağışlasınlar ki, bütün bu qanlı

və amansız sonluğu olan hadisələrdə əlimdən heç nə gəlmədi. Təkcə yazdığım məxfi arayışı həm Kremlə, həm də SSRİ Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin generallarına göndərdim. Oxuyun, dedim. Biz rusların zabit şərəfi görün necə ləkələndi". Xocalıda doğrudan da o gecə yalnız ölülər qaldı. Və o qanlı fevral gecəsi Xocalı adlı bir şəhər yer üzündən silindi. Soyqırımın balaca şəhidləri və şahidləri Xocalı faciəsi millətin qan yaddaşına yazılan və əbədiyyətə qədər silinməyən kədər, möhürdür. 1992-ci ilin 26 fevral gecəsi erməni cəlladlarının əlləri ilə qətlinə fərman verilənlərin 160-dan çoxu qadın və azyaşlı uşaq idi. Qocaya, qadına, qarıya-qıza aman verməyən vəhşilər gözlərini qırpmadan əlinə keçənləri amansızcasına məhv etmişdilər. Həmin anaların və uşaqların fəryadını Azərbaycan Milli Elmlər Akademiyası İnsan Haqları İnstitutunun direktoru, siyasi elmlər doktoru Rövşən Mustafayev **"Mən müharibəni məhv edəcəyəm"** kitabçasında ürək ağrısı ilə şərh etmişdir. Kitabçadakı yazıları həyəcansız oxumaq olmur. Xocalı faciəsinin canlı şahidləri olan uşaqların və anaların yandırılmış gündəliklərindən qısa qeydlərlə oxucularımızı tanış edirik:

**Yavər Əliyev, 7 yaş:** *"Bizim evin işıqları söndü. Mən yata bilmirdim. Atışma başlayanda biz qonşunun zirzəmisinə endik. Bir müddət sonra isə meşəyə tərəf qaçmağa başladıq. Ermənilər bizi gördülər. Fin evlərinin yaxınlığında atəş altına düşdük. Hər kəs yerə yatdı. Erməni silahlıları bizi ayağa durmağı və sıraya düzülməyi əmr etdilər. Sonra uşaqları bir tərəfə, yaralı adamları isə başqa tərəfə apardılar. Bizi Xankəndinə apardılar və orada Əhməd dayının əvvəl əllərini, sonra da başını kəsdilər. Kəsilmiş başı isə top kimi oynatmağa başladılar. Xanım xalanı və 2 uşaq anası Natəvanı da güllələdilər".*

**Orucova Xədicə, 8 yaş:** *"Bizi güclü səs-küy yuxudan oyatdı. Yataqdan qalxdım və gördüm ki, qonşunun evi yanır. Mən, atam, anam, qardaşım və bacılarım dərəyə doğru qaçdıq. Xalam Sevil, 2 uşağı ilə birlikdə, habelə qonşumuz bizimlə idi. Əmim Şaiq dedi ki, meşəyə qaçmalıyıq. Əvvəl atam və anam mənimlə bir yerdə idilər. Kiçik bacım Xəyalə anamın qucağında, digər bacım isə atamın qucağında idi. Naxçıvanik kəndi yaxınlığında ermənilər bizi gördülər. Atam güllə ilə vuruldu. Sonra Sevil xalaya atəş açdılar. Mənə güllə dəyəndə anam da qan içində idi və biz qaça bilmirdik. Anamı meşədə itirdik... Daha heç nə xatırlamıram. Sonra hiss etdim ki, kimsə məni aparır. Amma kim? Görmədim".*

**Yaş yarımlıq Abdullayeva Xəyalənin anası danışır:** *"O gün mən atamın evində idim. Atışma başlayanda hamı yatırdı. Mən ətrafda hər şeyin yandığını gördüm. Hamı qaçırdı. Biz də qaçdıq. Atam, anam, nənəm, bacılarım, iki qızım və qardaşım oğlu ilə birlikdə. Biz iki gün meşədə gizləndik. Üçüncü gün bizi mühasirəyə aldılar. Nənəm Göyçəyin ürəyi partladı. Atam pencəyini çıxarıb onun üzünü örtdü. Biz qaçmağa başladıq. Dağın ətəyinə çatanda mənim 17 yaşlı bacım Lətafət Abdullayeva artıq qaça bilmədiyini deyib, yerə oturdu. Atam onu qucağına aldı və yerə oturdu. Bacım ölmüşdü. Atam onun üzünü köynəyi ilə örtdü. Biz qaçmağa davam elədik. Birdən atam dayanıb "Allah, uşaqlara yazığın gəlsin?"-deyib yerə yıxıldı. Onu da vurdular. Biz onun üstünü örtməyə heç nə tapmadıq. Üç bacı -Təzəgül, Xədicə və mən iki qızımla və qardaşım oğlu ilə yolumuza davam elədik. Bizə yenə də atəş açdılar və Vüsaləyə güllə dəydi. Ermənilər bizi əsir alıb, sırğa və üzüklərimizi aldılar. Əvvəl Pirçamala, sonra isə Xankəndinə apardılar. Orada çoxlu qız var idi. Saqqallılar və əsgərlər onlara dəhşətli əzab*

*verirdilər. Sonra bizi Əsgərana apardılar. Vüsalənin ayaqları yara, qan içində idi. Tez-tez huşunu itirirdi"...*

**Xumar Səlimova 17 yaş:** *"1992-ci ilin 25 fevralında Xocalı şəhəri güclü atəşə tutuldu. Qardaşlarım dedi ki, şəhərə ermənilər giriblər, qaçmaq lazımdır. Biz qaçan zaman yanımızda partlayan mərmi qardaşımın arvadını öldürdü. Mən isə çiynimdən və üzümdən yaralandım. Qonşularımızı da yarğanın içində gördüm. Mərmi və güllələrdən xilas olmaq üçün bir xəndəyə uzandıq. Səhər açılanda ermənilər bizi xəndəkdən çıxartdı. Quliyev Talehi güllə ilə ağzından vurdular, sonra da arvadının gözü qarşısında onun başını əzməyə başladılar. Arvadı Rəhilə Quliyeva qışqıranda onu da öldürdülər. Bir yaşlı Samir anasının cəsədi üstündə iməkləyib qışqırırdı. Bir erməni tüfəngin qundağı ilə uşağın başından vurdu. Zərbə çox güclü idi. Məni də döyə-döyə harasa aparırdılar. Biz yerdəki meyitlərin üzəri ilə irəliləyirdik. Yaxınlıqda kimsə atəş açdı. Güllə əlimə dəydi. Məni aparan erməni atəş açılan tərəfə qaçdı. Mən isə ölülərin arasına süründüm. Elə uzandım ki, guya ölüyəm. Qaranlıq düşəndə mən meşə istiqamətində süründüm. Sonra bir az…daha bir az... Azərbaycanca danışıqlar eşidəndə "Ana!" deyə qışqırdım. Sonra heç nə xatırlamıram.” Üç uşaq anası Ağayarova Sədaqət Hüseyn qızı bircə saatda uşaqsız qaldı. "Biz beş gün meşədə gecələdik. Uşaqlarımın ikisinə güllə dəydi və aldıqları yaralardan öldülər. Roman isə soyuqdan dondu".* Uşaqların adları: Ağayarov Nəbi 10 yaş, Ağayarova Sevinc 7 yaş, Ağayarov Roman 6 yaş". Quliyev Elsevər, 11 yaş. 25 fevral 1992-ci ildə Xocalı faciəsində güllə yarasından öldü". Abdullayeva Vüsalə, 4 yaş. Aldığı güllə yarasından ayağı kəsildi... Ermənilərin separatçılığı, Azərbaycana ərazi iddiaları hələ də bitməyib. Erməni şovinizmi öz ambisiyalarını

sivilzasiyalı dünyanın gözü qarşısında açıq bəyan etməkdən çəkinmir. Nə qədər ki, vandalizmə, separatçılığa, millətçiliyə, terrorçuluğa siyasi-hüquqi qiymət verilməyib bəşəriyyətin gələcəyi daim təhlükə altındadır. Siyasi-hüquqi qiymətləndirmə Azərbaycan Demokratik Respublikası yarandıqdan dərhal sonra 1918-ci ilin mart hadisələrinə, azərbaycanlıların ermənilər tərəfindən məhv edilməsi məsələsinə diqqət yetirdi. 1918-ci il iyul ayının 15-də Nazirlər Soveti mart faciəsinin, İrəvan quberniyasında baş vermiş ağır cinayətlərin tədqiqi və öyrənilməsi üzrə komissiya yaradılması haqqında qərar qəbul etdi. Mart faciəsi və digər erməni cinayətləri ilə bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırmaq məqsədilə ADR Xarici İşlər Nazirliyində xüsusi struktur yaradıldı. ADR 1919-1920-ci illərin 31 mart gününü ümumxalq hüzn günü kimi qeyd etdi. Lakin ADR torpaqlarımızın işğal edilməsi və azərbaycanlıların soyqırımına məruz qalması məsələsinə hüquqi-siyasi qiymət verilməsi işini başa çatdırmadan süquta uğradı. Bu məsələyə bir də Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra qayıtmaq mümkün oldu. 1918-ci ilin mart hadisələrinin 80-ci ildönümündə Azərbaycan prezidenti Heydər Əliyevin imzaladığı sərəncam erməni millətçilərinin hərəkətlərinə verilən ilk siyasi qiymət oldu. 1998-ci il 26 mart tarixli bu Fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının formalaşdırılması üçün bir növ proqram sənədidir.(Bax: Əlavə 1) 31 mart Azərbaycanlıların soyqırımı günü kimi qeyd edilir və dünya ictimaiyyətinin diqqətini xalqımızın başına gətirilən qanlı faciələrə cəlb edir. 31 mart Azərbaycanlıların soyqırımı günüdür 1914-cü ildə başlanan I Dünya müharibəsi və onun gedişində Rusiyada baş verən inqilablar (1917-ci il) ermənilərin "Böyük Ermənistan" iddiası üçün əlverişli şərait yaratdı.

1915-ci ilin əvvəlində Türkiyənin şimal-şərq bölgələrinin (həmin ərazilər Rusiyanın Qafqaz qoşunları tərəfindən ələ keçirilmişdi) erməni əhalisi Osmanlı dövlətinə qarşı müharibəyə və türklərə qarşı kütləvi qırğınlara başladı. Bunun cavabında Osmanlı dövləti erməni əhalisinin o ərazilərdən kütləvi şəkildə köçürülməsi barədə əmr verdi. Türkiyə ərazisindən erməni hərbi dəstələri ilə birlikdə İrəvan quberniyasına, Qarabağa və Zəngəzura böyük miqdarda erməni əhalisi də köçüb gəlmişdi. Rusiya ordusuna arxalanan ermənilər əvvəlcə Naxçıvanda və İrəvanda, ardınca isə Qarabağda, Azərbaycanın digər bölgələrində azərbaycanlılara divan tutmağa başladılar. 1917-ci ilin dekabrında Osmanlı dövləti ilə bolşeviklərin Zaqafqaziya Komissarlığı arasında bağlanmış Ərzincan barışığına uyğun olaraq Qafqaz cəbhəsindən çıxarılan rus ordusunu əvəz edən erməni hərbi birləşmələri faktiki başıpozuqluq şəriatindən istifadə ədərək yerli müsəlman əhalisinə divan tutmağa başladılar. Nəticədə hələ 1918-ci ilin martına qədər İrəvan quberniyasında 199 azərbaycanlı kəndi dağıdılmışdı. Bu ərazidə yaşayan 135 min azərbaycanlı türkünün bir qismi ermənilər tərəfindən qətlə yetirilmiş, qalanları isə Osmanlı ordusunun nəzarət etdiyi ərazilərə qaçmağa məcbur olmuşdular. Bu qırğınlara 1917-ci il dekabrın 16-da Rusiya Xalq Komissarları Soveti tərəfindən Qafqaz işləri üzrə fövqəladə komissar təyin edilmiş Stepan Şaumyan başçılıq edirdi. Şaumyana Cənubi Qafqazda sovetləşdirmə siyasətini həyata keçirmək və həmçinin də Türkiyədə rus ordusunun işğalı altında olan yerlərdə “Türkiyə Ermənistanı” yaratmaq səlahiyyəti verilmişdi. I Dünya Müharibəsinin gedişində baş vərən dəyişikliklər də ermənilərin azğın planlarına uyğun idi. Brest-Litovsk (mart 1918-ci il) sülh müqaviləsinin bağlanması nəticəsində Rusiya qoşunları işğal

etdikləri Qars, Ərdəhan və Batumi tərk etməli idi. Bu ərazilər Türkiyəyə qaytarıldı. Öz növbəsində Türkiyə dövləti həmin vilayətlərin boşaldılmasını tələb etdi. İran və Türkiyə cəbhəsindən geri dönən rus və erməni əsgərlərinin bir qismi Bakıda yerləşdirilmişdi. Şaumyan həmin qüvvələrdən azərbaycanlılara qarşı istifadə etmək qərarına gəldi. Həmin dövrdə isə Bakıda çox az sayda könüllü müsəlman əsgərləri var idi. Bu vəziyyətin özü də Şaumyana mənfur siyasətini həyata kəçirmək üçün əlverişli imkan verirdi. Böyük qırğınlara başlamağa isə yalnız bəhanə lazım idi. Nəhayət, bəhanə tapıldı. Müsəlman əsgərlərin Lənkəranda olan könüllülərə silah göndərmək istəməsi Şaumyana bu bəhanəni verdi. O, Lənkərana silah göndərilməsinin qarşısını almaq əmri verdi. Başlanan atışmada ölən və yaralananlar oldu. Şaumyan bu hadisəni bəhanə edərək ruslarla erməniləri azərbaycanlılara qarşı mübarizəyə sövq etdi və “sovet hökumətinə qarşı çıxan” azərbaycanlılara qarşı Bakıda görünməmiş qırğınlar başlandı. Martın 30-da səhər tezdən erməni-bolşevik birləşmələri şəhəri gəmilərdən yaylım atəşinə tutdular. Bunun arxasınca silahlı daşnaklar azərbaycanlıların evlərinə soxularaq amansız qətllər törətdilər. Martın 31-i və aprelin 1-də qırğınlar xüsusilə kütləvi şəkil aldı. Üç gün ərzində Bakıda 10 mindən artıq insan qətlə yetirildi. Şaumyanın erməni-bolşevik dəstələri Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmiş, müsəlmanların bir çox ziyarətgahlarını dağıtmışdılar. Daşnak-bolşevik qüvvələri Təzəpir məscidini topa tutmuş, Bakının ən möhtəşəm memarlıq incilərindən sayılan “İsmailiyyə” binasına od vurmuşdular. Martın 30-dan aprelin 2-dək sürən qırğınlarda Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8027 azərbaycanlı (onlardan 2560-ı qadın, 1277-si uşaq idi) qətlə

yetirilmişdi. Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insanın həyatına son qoyulmuşdu. Lənkəranda, Muğanda minlərlə soydaşımız öldürülmüşdü. Ermənilər Dağlıq Qarabağda 150 azərbaycanlı kəndi tamamilə dağıtmış, Şuşada görünməmiş qırğınlar törətmişdi. 70 illik sovet ideologiyasının tarixşünaslığımıza tətbiq etdiyi “vətəndaş müharibəsi”, “müsavatçıların əks-inqilabi qiyamı” kimi saxtalaşdırılan mart hadisələri bolşevik-daşnak ittifaqının xalqımıza qarşı yeritdiyi növbəti soyqırım siyasəti idi. Biz isə uzun illər bu gerçək tarixdən məlumatsız olmuşuq, saxta ideoloji ehkamlar və beynimizə yeridilən yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənib. Halbuki hələ 1918-ci il iyulun 15-də Xalq Cümhuriyyəti hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qətllə bağlı çoxsaylı sənədlər, materiallar toplamışdı. 1919-cu ildə Xalq Cümhuriyyətinin parlamenti 31 martın Azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması barədə qərar qəbul etmişdi. Lakin 1920-ci ilin aprelində Xalq Cümhuriyyətinin süqutu bu işləri də yarımçıq qoydu və Azərbaycan erməni-rus qüvvələrinin dəhşətli soyqırımının miqyasını dünyaya, beynəlxalq aləmə çatdıra bilmədi. Əvəzində ermənilər istər dünyaya səpələnmiş böyük diasropu vasitəsilə, istərsə də Ermənistanda daşnak hakimiyyətini əvəz etmiş sovet hakimiyyətinin (bu məsələdə onların mahiyyətcə elə bir fərqi yox idi) təbliğat maşınının köməyi ilə qondarma “soyqırımı” kampaniyasına geniş vüsət verdilər. Azərbaycandakı 70 illik sovet tarixi isə bizi gerçək tariximizdən uzaq saldı. Hətta dəhşətli soyqırımın qurbanı olmuş minlərlə soydaşımızın uyuduğu qəbiristanlığın üstünü betonlayaraq üstündə Kirovun möhtəşəm heykəlini qurmuş, ətrafda isə istirahət parkı

salmışdılar. Çünki o tarix və dəhşətlərin üstü sözün bütün mənalarında betonlaşdırılmışdı. Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqların zəbti ilə müşayiət olunmuşdur. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırım faciələrini daim yadda saxlamalı və unutmamalıyıq. İki əsr davam edən soyqırımı gələcək nəsillərə olduğu kimi çatdırmalıyıq. Ötən dövr ərzində Azərbaycan dövləti tarixi gerçəklikləri, xalqımızın tam iki əsr boyu məruz qaldığı soyqırımı və etnik təmizləmənin dəhşətli miqyasını beynəlxalq aləmə çatdırmaq üçün xeyli iş görüb. Amma bu, yetərli deyil. Çünki hələ də dünya miqyasında ermənilərin saxta "tarixi" bizim gerçək tariximixi üstələyir. Ən əsası isə odur ki, tarix boyu xalqımızın başına nələrin gətirildiyini, çəkdiyimiz müsibətlərin gerçək miqyas və mahiyyətini özümüz dərindən dərk etməliyik. Bunun üçün isə həmin tarixi təkcə 31 mart günü deyil, hər gün xatırlamağa, öyrənməyə və unutmamağa borcluyuq.

**Qeyd:** 1918-ci il martın 30-31-də erməni-bolşevik cəlladları Bakıda 10 mindən çox müsəlmanı qətlə yetirib.

**Ənvər Məftunoğlu**

# Şeyxdən bütün dünyaya müraciət




Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadə Xocalı soyqırımının 18-ci ildönümü münasibətilə dünya xalqlarına, dövlət başçılarına, parlamentlərə və beynəlxalq təşkilatlara müraciət edib.

Müraciətdə bildirilir: "***Azərbaycan Respublikasının milyonlarla vətəndaşının iradə və hisslərini ifadə edərək, dinindən, dilindən, irqindən və milli mənsubiyyətindən asılı olmayaraq bütün dünya ictimaiyyətinə, dövlət rəhbərlərinə, parlamentlərə və beynəlxalq təşkilatlara üz tuturam. Hesab edirəm ki, cahanda elə bir xalq, elə bir din olar bilməz ki, ümumbəşəri mənəvi dəyərləri inkar etsin, zor, qətl, təcavüz kimi qeyri-humanist əməllərə haqq qazandırsın, qanlı cinayətlərə bəraət versin.***

***Bəşəriyyət insanlığa qarşı cinayətləri daima nifrətlə damğalamış, insan sifətini itirmiş qatillərin əməllərini həmişə lənətləyib. Lakin təəssüflə qeyd olunmalıdır ki, dünya tarixinin qanlı səhifələrindən birini təşkil edən, Xatın, Lidise kimi bəşəri müsibətlərlə bir sırada duran Azərbaycan şəhəri Xocalının faciəsi hələ də tarixin mühakiməsinə verilməyib, bu, misli görünməmiş soyqırımı faktı layiqli siyasi qiyməti almayıb.***

***Bəşəriyyətin qan yaddaşında ikili standartlar yolverilməzdir, lakin artıq 18 ildir ki, barəsində aləmə car çəkdiyimiz Xocalı faciəsi bu günədək dünya səviyyəsində qınaq obyektinə çevrilməyib, onun baiskarları lənətlənməyib. 1992-ci il fevralın 26-da Xocalının 10 mindən artıq dinc, silahsız, müdafiəsiz əhalisinin erməni quldurlarının amansız basqınına məruz qalması, 613 nəfərin qətlə yetirilməsi, qocalara, uşaqlara, hamilə qadınlara belə rəhm olunmaması, 1275 nəfərin əsir götürülərək ağır işgəncələrə məruz qalması, meyitlərin üzərində təhqiramiz həqarətlər edilməsi kimi vəhşiliklərə biganə qalmaq bəşəriyyətə baş ucalığı gətirə bilməz".***

***Bütün dünya hər bir cinayətkarın, terrorçunun milli və dini mənsubiyyətindən asılı olmayaraq məsuliyyətə cəlb olunmalı və beynəlxalq hüquq qarşısında cavab verməli olduğunu sözdə etiraf edir: "Lakin acı reallıq ondan ibarətdir ki, erməni ekstremistləri törətdikləri cinayətlərə görə hələ də cəza almayıb, heç bir beynəlxalq qurumun, hətta BMT-nin qətnamələrinə məhəl qoymadıqları halda onlara qarşı heç bir sanksiya tətbiq***

*olunmayıb. Azərbaycana qarşı zaman-zaman törətdiyi vəhşiliklər cəzasız qaldığına görə, ərazimizin 20 faizini işğal etmiş, milyonlarla azərbaycanlının doğma yurdlarından didərgin salmış erməni ekstremistləri öz təcavüzkarlıq planlarından əl çəkməyib, qəsb etdiyi torpaqlarda vandalizm aktları həyata keçirərək mədəniyyət abidələrini, məscid və qəbiristanlıqları xarabalığa çevirib, maddi və mənəvi terror gerçəkləşdirib, tarixi sənəd və əşyaları mənimsəyərək özününküləşdirib. Bəs görəsən, tarix boyu yüz minlərlə dinc azərbaycanlı qətlə yetirmiş erməni terrorçuları daha nələr törətməlidirlər ki, dünya onları cinayətkar kimi damğalasın?! Görəsən nə vaxtadək ədalətə deyil, erməni lobbisinin maraqlarına üstünlük veriləcək?!*

*Qəsbkar siyasət yeridən erməni ekstremistləri cəzasız qalmalarından ruhlanaraq, qəsb etdikləri torpaqları işğal altında saxlayır, atəşkəsi mütəmadi olaraq pozmağa cəhd edir, sülh danışıqları prosesində konstruktivlik görüntüsü yaradaraq beynəlxalq ictimai rəyi aldadır və problemin həllinə bilərəkdən yubadır. Dünya ictimaiyyəti sayıq olmalı, erməni ekstremistlərinin məkrli təbliğatına uymamalı özgə torpaqlarına göz dikən terrorçu dövlətin törətdiyi insan əxlaqına, beynəlxalq hüquqa zidd qanlı qırğını öz adı ilə çağırmalıdır.*

*Mən, din xadimi olaraq, bütün dünya xalqlarına sülh, səadət, əmin-amanlıq və rifah diləyirəm. Üzümü dünya ölkələrinin dövlət başçılarına, parlamentlərinə, xalqlarına və beynəlxalq təşkilatlarına tutaraq, Azərbaycana qarşı erməni ekstremistlərinin təcavüzünə və vəhşiliklərinə prinsipial hüquqi qiymət verməyə, xalqımızın faciəsinə biganə qalmamağa, Xocalı müsibətini insanlığa qarşı soyqırımı aktı kimi tanımağa çağırıram.*

*O Bir Olan Yaradan müqəddəs dəyər olan insan həyatına edilən qəsdə göz yumulmasını heç zaman bağışlamaz. Rəbbimiz qarşısında, bəşəriyyət qarşısında vicdan naminə müqəddəs borcumuz ədalətin zəfər çalmasına nail olmaqdır.*

***Qoy, Uca Yaradan hamımıza savab əməllərdə və ədalətli olmaqla yardımçı olsun!”***

**23 fevral 2010 - cu il.**

# Xocalı soyqırımını tanıyan ölkələr

**Bu ölkələr və Amerika ştatları Xocalı soyqırımını rəsmən tanımışdır.**

**Meksika** - 2 fevral 2012-ci il tarixində Meksika Senatının qəbul etdiyi qərarda Dağlıq Qarabağın Xocalı şəhərində 1992-ci il fevralın 25-26-da baş vermiş faciə soyqırım adlandırılıb.
**Pakistan** - 2012-ci ildə Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Xocalı şəhərində mülki əhaliyə qarşı törədilmiş Soyqırımı pisləyən qətnamə qəbul edib.
**Kolumbiya** - 2012-ci ilin 24 aprel tarixində Kolumbiya parlamenti 102 deputatın lehinə səsverməsi nəticəsində Xocalı soyqırımını rəsmən tanımışdır.
**Çexiya** - 2013-cü ilin 19 fevral tarixində Çexiya parlamenti Xocalı soyqırımını rəsmən tanımışdır.
**Bosniya və Herseqovina** - 2013-cü ilin 26 fevral tarixində Bosniya və Herseqovina parlamenti Xocalı soyqırımını rəsmən tanımışdır.
**Peru** – 14 iyun 2013-cü ildə Peru parlamentində Xocalı soyqırımı ilə bağlı məsələ deputatlar tərəfindən müzakirəyə çıxarılıb və Xocalının soyqırım kimi tanınması ilə bağlı qərar qəbul olunub.
**Honduras** - Honduras Milli Konqresi 2014-cu ilin 17 yanvar tarixində Azərbaycan ərazilərinin işğalı və Xocalı soyqırımını tanıyan № 333-2013 saylı qərar qəbul edib.

Xocalı faciəsini soyqırım kimi tanıyan Amerika ştatları bunlardır:
2011- ci ildə Amerikanın **Texas ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2011- ci ildə Amerikanın **Nyu-Cersi ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2012-ci ilin 28 fevral tarixində **Corciya ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2012-ci ilin 23 mart tarixində **Men ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2013-cü ilin 28 yanvar tarixində **Nyu-Meksiko ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2013-cü ilin 8 fevral tarixində **Arkanzas ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2013-cü ilin 25 fevral tarixində **Missisipi ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2013-cü ilin 4 mart tarixində **Oklahoma ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2013-cü ilin 18 mart tarixində **Tennessi ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2013-cü ilin 18 mart tarixində **Pensilvaniya ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2013-cü ilin 3 aprel tarixində **Qərbi Virciniya ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2013-cü ilin 3 aprel tarixində **Konnektikut ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2013-cü ilin 21 avqust tarixində **Florida ştatı** Xocalı soyqırımını rəsmən tanımışdır.
2014-cü ilin 01 sentyabr tarixində **Sudan Respubliksaının** parlamenti Xocalı soyqırımını rəsmən tanımışdır.

# Xocalı soyqırımını əks etdirən şəkillər




















Çingiz
Mustafayev




Çingiz
Mustafayev


Çingiz
Mustafayev


Çingiz
Mustafayev




XATAİMKS.AZ


XATAİMKS.AZ


XATAİMKS.AZ





**Azərbaycan dövlətinin XVII əsr xəritəsi**




**Azərbaycan dövlətinin 1828-ci il xəritəsi**




1828-ci il fevralın 10-da I Nikolay ilə Fətəli Şah Qacar arasında bağlanan Türkmənçay müqaviləsinə əsasən Azərbaycan ərazisi Araz çayı sərhəd olmaqla şimal və cənub hissələrinə bölündü.

## Azərbaycan Demokratik Respublikasının (1918-1920) və Azərbaycan Respublikasının uyğun inzibati-ərazi vahidləri




—— Müasir Azərbaycan Respublikasının rayon sərhədləri

Abşeron — Rayon adları

## Azərbaycan dövlətinin müasir xəritəsi



# Mündəricat

Bunu hamı bilməlidir.............................................................3
Ön söz.....................................................................................5
Qaniçənlər..............................................................................10
Ölüm düşərgəsindən qaçış......................................................38
Qanlı məktub...........................................................................48
Xeyirxah düşmən.....................................................................54
Erməni faşizmi.........................................................................63
Siz kimsiniz, "general Əli bəy?"............................................73

**Tarixi həqiqətlər, faktlar...**

Birinci Dünya müharibəsi ərəfəsində erməni terror dəstələrinin yaradılması və Rusiya tərəfindən ermənilərin Türkiyə əleyhinə silahlandırılması.............................................87
Birinci Dünya müharibəsinin gedişində ermənilərin törətdikləri qırğınlar və türklərin cavab tədbirləri...........................................105
Türklərə qarşı erməni terroru.....................................................133
Azərbaycanlılara qarşı erməni terroru..........................................143
Qarabağ:Etimologiyası, ərazisi və sərhədləri...............................153
Qarabağ ən qədim zamanlardan xanlıqlar dövrünədək................156
Qarabağ xanlığı.............................................................................164
Qarabağ Rusiya imperiyasının tərkibində...................................172
Qarabağ Azərbaycan Xalq Cümhuriyyəti dövründə....................179
Qarabağ 1920 -1980-ci illərdə.....................................................183
1948-1953-cü illər deportasiyasının bəzi məqamları...................217

İnsanlığa qarşı yönəlmiş dəhşətli cinayət....................................230
Xocalı faciəsi beynəlxalq hüquq normalarına görə
soyqırımı və insanlığa qarşı cinayət sayılır.................................246
Ağdaban soyqırımı.....................................................................266
Qaradağlı soyqırımı...................................................................268
Əsrin faciəsi.............................................................................279
Əsir və girovlarımıza qarşı törədilmiş erməni vəhşilikləri
faktların dili ilə .......................................................................290
Erməni vandalizmi.....................................................................347
Zori Balayan erməni vəhşiliyini etiraf edib................................352
“Ermənilər körpə qatilidir”.......................................................353
“Ermənilər Əhmədin başını qılıncla kəsdilər”............................355
Erməni terror təşkilatları...........................................................360
Erməni terrorçularının fəaliyyətinin xronoloji
icmalı (1973 -1987)....................................................................364
“Sərkisyan Xocalıda türk qadının qarnını gözüm önündə
yardı...”...................................................................................397
Xocalı soyqırımı beynəlxalq cinayət kimi..................................414
Azərbaycanlılara qarşı iki əsr davam edən soyqırım.................422
Şeyxdən bütün dünyaya müraciət...............................................440
Xocalı soyqırımını tanıyan ölkələr.............................................443
Xocalı soyqırımını əks etdirən şəkillər........................................445
Azərbaycan dövlətinin qədim və müasir xəritələri......................454

**Camal Zeynaloğlu: "Qarabağ dərdi –
Erməni vandalizmi"**
(Azərbaycan dilində)

**Bakı, "UniPrint" nəşriyyatı – 2014, - 460 səh.**

Nəşriyyatın direktoru: **Bəxtiyar Əliyev**
Rəssam: **Süleyman Mustafaoğlu**
Operator: **Turan Zeynalova**
Korrektorlar: **Aygün Kərimova**
**Aysel Zeynalova**

Çapa imzalanmışdır: 18.11.2014
Kafız formatı: 60 x 84 1/16
Fiziki çap vərəqi: 28,6
Sayı: 500 nüsxə
Sifariş: 69
Qiymәti: **6 AZN**

**"Uni Print"** mətbəəsində çap edilmişdir.